**RZA TALIBOV**

# ASİYA ÖLKƏLƏRİ BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

**Ali məktəblər üçün dərslik**

**(Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24 aprel 2015-ci il tarixli 459 nömrəli əmri ilə təsdiq edilmişdir)**

**«Elm və təhsil»**
**Bakı - 2015**

**Rza Talıbov. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində**
Bakı, «Elm və təhsil», 2015, 312 səh.

**Elmi redaktoru:** **Ağalar Abbasbəyli**
*tarix elmləri doktoru, professor*

**Rəyçilər:** **Zeynal Həsənəliyev**
*tarix elmləri doktoru, professor*

**Mehriban Babazadə**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*

*Bakı Dövlət Universitetinin «Beynəlxalq münasibətlər» kafedrasının dosenti Rza Talıbovun kitabında Asiya ölkələrinin dünya siyasətində və beynəlxalq münasibətlər sistemindəki yeri, mövqeyi və əhəmiyyəti təqdim olunur. Müəllif eyni zamanda beynəlxalq münasibətlərin üzvi tərkib hissəsi olaraq Azərbaycan Respublikasının Asiya ölkələri ilə çoxcəhətli əlaqələrinə də kitabında geniş yer ayırmışdır.*

*Təqdim edilən kitab ali məktəblərin beynəlxalq münasibətlər ixtisasının tələbələri üçün dərs vəsaiti kimi nəzərdə tutulur.*

*Dərs vəsaitindən tədqiqatçılar, siyasətçilər, müəllimlər və tələbələr istifadə edə bilərlər.*

**ISBN: 978-9952-81-76-3-8**

© Rza Talıbov, 2015
© Elm və Təhsil, 2015

# BƏLƏDÇİ


Giriş ........................................................................................5

**1. Çin Xalq Respublikası beynəlxalq münasibətlər sistemində**........................................................13
1.1. Dünya siyasəti və Çin Xalq Respublikası .......................13
1.2. Çin Xalq Respublikasının Asiya ölkələri ilə əlaqələri ...51
1.3. Azərbaycan Respublikası-Çin əməkdaşlığı....................76

**2. Beynəlxalq münasibətlər və Yaponiya** ............................101
2.1. Dünya siyasətinin cazibə qüvvəsi: Yaponiya ................101
2.2. Yaponiya və ABŞ strateji əməkdaşlığı ............................110
2.3. Yaponiya-Çin münasibətləri ............................................115
2.4. Yaponiya-Rusiya əlaqələri................................................122
2.5. Cənub-Şərqi Asiya ölkələri ilə münasibətlərdə Yaponiya.......................................................131
2.6. Azərbaycan-Yaponiya münasibətləri .............................137
2.6.1. Siyasi-diplomatik əlaqələr..............................................137
2.6.2. Sosial-iqtisadi sahədə əməkdaşlıq ................................144
2.6.3. Təhsil sahəsində Azərbaycan-Yaponiya əməkdaşlığı ......................................................................158
2.6.4. Turizm, səhiyyə və idman əlaqələri..............................167
2.6.5. Mədəni əlaqələr ...............................................................175
2.6.6. Ədəbi əlaqələr ..................................................................182

**3. Koreya Respublikası dünya siyasətində**.........................202
3.1. Müasir beynəlxalq münasibətlər və Koreya Respublikası ...202
3.2. Koreya Respublikası beynəlxalq təşkilatlarda ...............213
3.3. Şimali Koreya dünya siyasətində....................................217
3.4. Azərbaycan Respublikasının Koreya Respublikası ilə əlaqələri.......................................................222

**4. Dünya siyasətində Sinqapur**...........................................231
4.1. Dünya siyasətində gedən proseslərin işığında .............231
4.2. Sinqapur Respublikasının daxili və xarici siyasəti........233
4.3. Müasir beynəlxalq münasibətlər və Sinqapur...............237
4.4. Azərbaycan-Sinqapur əlaqələri.......................................249

**5. Beynəlxalq münasibətlərdə Malayziya**............................254
5.1. Malayziya dünya siyasətində..........................................254
5.2. Azərbaycan-Malayziya ikitərəfli əməkdaşlığı................268

**6. Vyetnam Sosialist Respublikası dünya siyasətində** .....272
6.1. Beynəlxalq münasibətlər sistemi və Vyetnam ...............272
6.2. Azərbaycan Respublikası - Vyetnam əlaqələri ..............288

**Nəticə**..........................................................................................300

**Ədəbiyyat**.....................................................................................305

# GİRİŞ

Məlum olduğu kimi, dünya nizamı müəyyən tarixi dövrlərdə müxtəlif yarımkürələrin üzərinə düşən güc mərkəzləri əsasında qurulmuşdur. Tarixin bu sınağında Şimal-Cənub qarşıdurmasına nadir rast gəlindiyi halda, Şərq-Qərb qarşıdurması daim bir dilemma olmuşdur. Qədim Çin, Hind, Türk, İran sivilizasiyalarının yüksəlişi dövründə dünyanın ağırlıq mərkəzi Şərq olmuşdur. Həmin dövrdə dünya siyasi həyatının nəbzi Şərqdən atırdı. İqlim dəyişikliklərinin təsiri altında başlayan "xalqların böyük köçü" ilə dünyanın ağırlıq mərkəzi də Şərqdən Qərbə - Avropaya keçdi. Bundan sonra təqribən min ilə yaxın bir müddətdə Roma və Bizans imperiyaları dünya səhnəsində mərkəzi yer tutdu və başlıca rol oynamağa başladılar. Təsadüfi deyildir ki, həmin dövrdə "bütün yollar Romaya aparır" ifadəsi xeyli məşhur idi.

XV əsrdən başlayaraq Avropada - "Köhnə qitə"də iqtisadi tənəzzül, yoxsulluğun artması, mənəvi dəyərlərin böhranı mövcud feodalizm sisteminin dağılmasına, dünyanın ağırlıq mərkəzinin yenidən dəyişməsinə səbəb oldu. Asiya qitəsinin zəngin və ucuz xammal mənbələrini ələ keçirmək, Hindistana gedən əlverişli dəniz ticarəti yolunu kəşf etmək üçün dövrün Avropanın qabaqcıl öncüllərinin fəaliyyətləri artdı. Amerika qitəsi kəşf edildi. Böyük coğrafi kəşflər dünya inkişafı-

nın əsaslı şəkildə dəyişməsinə və gələcəyinə güclü təsir etdi. Yeni torpaqların kəşfi ilə yeni bir mərkəzin yaranmasının ilk təməlləri qoyuldu. Avropada əhalinin ən aktiv hissəsi, yeniliklər və axtarışlar işığında olanlar yeni torpaqlara mühacirət etdilər. Bu zaman digər tərəfdə - Şərqdə Osmanlı və Səfəvilər kimi sülalələr böyük dövlətçilik ənənələri yaratmışdılar və Avropa bununla hesablaşmalı oldu. Bu dövrdə Şərq yenidən dünyanın ağırlıq mərkəzi idi.

Avropada hökmranlıq uğrunda aparılan 30 illik müharibə sona çatdıqdan sonra, XVII əsrin 40-cı illərində beynəlxalq münasibətlərin vestfal sistemi yarandı. Dünyanın ağırlıq mərkəzi bu dövrdə Avropa idi. XVIII əsrin sonları-XIX əsrin əvvəllərində Fransa imperatoru I Napoleonun apardığı müharibənin nəticələri beynəlxalq münasibətlər sistemini dəyişdirdi. Beynəlxalq münasibətlərin Viana sistemi yaradıldı.

XIX əsrin sonlarına yaxın Almaniya imperatorluğunun yaranması ilə Avropa dövlətləri arasında qüvvələr nisbəti dəyişdi. Böyük dövlətlər arasında ucuz xammal mənbələrini və əlverişli satış bazarlarını ələ keçirmək, dünyanı bölmək uğrunda amansız mübarizə qızışdı. Hədəfdə Asiya və Afrika ölkələri idi. Dövlətlərarası mübarizə blokların yaranmasına, onların maraqlarının toqquşması isə, zamanında deyildiyi kimi, Böyük müharibənin və ya Birinci Dünya müharibəsinin başlanmasına səbəb oldu. Müharibənin yekununda beynəlxalq münasibətlərin Versal-Vaşinqton sistemi formalaşdı. Dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə ABŞ mühüm rol oynamağa başladı. Asiya qitəsində yeni dövlətlər yarandı.

XIX əsrin 30-cu illərində beynəlxalq münasibətlər sisteminin böhranı İkinci Dünya müharibəsinin törədilməsinə gətirdi. Bu müharibənin yekununda beynəlxalq münasibətlərin Yalta-Potsdam sistemi yarandı. Asiya və Afrikada müstəmləkə sistemi dağılmağa başladı. Az sonra iki dünya sistemi dövlətləri arasında «soyuq müharibə» başladı. ABŞ və SSRİ təkcə Avropada deyil, Asiya və Afrika qitələrində də bir-biri ilə mübarizə aparırdılar. Müharibədən sonra dünyanın iqtisadi güc mərkəzi kimi ABŞ-ın rolu beynəlxalq münasibətlərdə artdı. 50-ci illərdə Avropa dünyanın ikinci iqtisadi güc mərkəzi kimi yarandı. ABŞ isə «hər şeydən öncə Asiyadır» şüarını elan etdi.

60-cı illərdə dünyada müstəmləkə sisteminin dağıdılması ilə Asiya və Afrikada yaranan yeni dövlətlər beynəlxalq münasibətlər sistemində mühüm rol oynamağa başladılar. Dünyanın yeni iqtisadi güc mərkəzi kimi Yaponiya dünya həyatında başlıca yerlərdən birini tutdu. 70-80-ci illərdə Cənub-Şərqi Asiya ölkələri beynəlxalq münasibətlərdə möhkəmlənməyə başladılar.

Soyuq müharibənin başa çatması və SSRİ-nin dağılmasından sonra beynəlxalq münasibətlərin Yalta-Potsdam sistemi dağıldı. ABŞ dünyanın yeganə fövqəldövləti oldu. Lakin dünyada çoxqütblülük meyilləri artdı. Yenidən diqqət mərkəzinə Asiya qitəsinin ölkələri gəldi. I Napoleonun sözləri ilə desək, «Asiyanın yatmış pələngi olan Çin» yenidən güclənməyə başlamışdır. Çin, Yaponiya, Hindistan, Pakistan və b. dünya siyasətində rolu artdı. Beləliklə, XX əsr böyük təlatümlər dövrü kimi tarixə düşdü. İki dünya müharibəsi, nüvə silahının tətbiqi,

ikiqütblü və təkqütblü dünya modelləri; kommunist, faşist, aparteid idarəetmə; antisemitizm, ksenofobiya, şovinist millətçilik, terrorizm; kosmosda ilk insan, müasir nəsil informasiya texnologiyaları, HİVS kimi yoluxucu xəstəliklər, ekoloji fəlakətlər dünya xalqlarının həyatına təsir edən başlıca hadisələr oldu. Bütün bunlar göstərir ki, XX əsrdə bəşəriyyət indiyədək keçdiyi bütün dövrlərdən daha çox yeniliklərlə qarşılaşmış və dərin sosial-iqtisadi, siyasi, mədəni, texnoloji və s. dəyişikliklərə uğramışdır. Bu yüzillikdə Qərb ABŞ-ın liderliyində öz hegemonluğunun ən pik səviyyəsinə çatmış, iqtisadi, texnoloji və s. baxımdan geri qalan Şərq isə sanki tarixin kölgəsində qalmışdır.

Üçüncü minillik isə öz reallıqlarını təqdim edir. Dünyanın geosiyasi ağırlıq mərkəzinin Asiyaya keçəcəyi ilə bağlı proqnozlar özünü ən azı, iqtisadi sahədə göstərir. Çinin nəhəng iqtisadi yüksəlişi, Yaponiya və Koreya "iqtisadi möcüzələri", «kiçik əjdahalar»ın dünya iqtisadiyyatında rolunun artması və bütün bunların fonunda Qərbdə iqtisadi və maliyyə böhranı yeni bir şəraitin yaranmasından xəbər verir. Dünya siyasətində digər Asiya ölkələrinin çəkisi artır və mövqeləri güclənir.

Hazırda ekspertlərin əksəriyyəti ABŞ-Çin paritetini dünyanın ağırlıq mərkəzində həlledici amil hesab edirlər. Hətta ABŞ ilə Çin arasında strateji əməkdaşlığı nəzərdə tutan "G2" formatına dair bəzi nəzəri yanaşmalar mövcuddur. Həmin yanaşmalarda iki dövlətin siyasi əməkdaşlığının başlıca olaraq iqtisadiyyatının qarşılıqlı asılılığı üzərində qurulması nəzərdə tutulur. Lakin hələlik strateji münasibətlərdə əməkdaşlıqdan daha çox bütün sahələrdə rəqabət üstünlük təşkil edir.

Asiya dövlətlərinin qlobal miqyasda çəkisi artdıqca qitədə geosiyasi gərginlik də çoxalır. Belə ki Yaponiya, Çin, Hindistan, Pakistan, Vyetnam, Filippin, hər iki Koreya və digər ölkələr arasında bir sıra həll olunmamış və gərginlik ocaqlarına çevrilmiş münaqişələr mövcuddur. Maraq doğuran məsələlərdən biri isə bundan ibarətdir ki, bütün bu münaqişələrdə hər zaman üçüncü tərəf kimi ABŞ mövcuddur. Belə bir şəraitdə Asiyanın böyük dövlətlərində qatı millətçi qüvvələrin hakimiyyətə gəlişi prosesi açıq-aşkar müşahidə edilir. Yaponiyanın baş naziri Şinzo Abe, Çin prezidenti Si Szinpin, Cənubi Koreya prezidenti Pak Kın He və Hindistanın baş naziri Narendra Modi bu kateqoriyaya aiddirlər. Bütün bunlar isə regional məsələləri sürətli bir şəkildə geosiyasi səhnəyə çəkir.

Bu və digər amillərin təsiri altında bu gün Asiya bütün dünyanın diqqət mərkəzindədir. 2010-cu ildə ABŞ Prezidenti Barak Obama "Asiyaya qayıdış" strategiyasını elan etməklə ölkəsinin yeni dövrdə xarici siyasət prioritetlərini açıqlamış oldu. Aydındır ki, "Asiyaya qayıdış" strategiyasının başlıca məqsədi Çinin yüksəlişinin qarşısını almaqdır. ABŞ-da Çinin hər bir addımını diqqətlə izləyir və dərindən təhlil edirlər. "Vaşinqton Post" qəzetində "Chinawatch" adlı əlavənin yaranması ABŞ-da bütün dairələrin yeni rəqibə olan böyük marağının göstəricisidir. Lakin yaranmış mürəkkəb şəraitdə Yaxın Şərqin ərəb ölkələri ilə bağlı planlarının uzanması ABŞ-ın strategiyanın əsas hədəfi ilə hələlik bütün gücü ilə mübarizə aparmasına imkan vermir.

Dünyanın digər bir nəhəngi olan Rusiyanın da strateji planlarında Asiya ölkələri ilə münasibətlər önə keçmişdir. Son illərdə yaranmış Rusiya-Qərb qarşıdurması, xüsusilə Ukrayna hadisələrindən sonra Rusiyanın gələcəklə bağlı planlarında ilk növbədə Çin başda olmaqla Şərqi Asiya ölkələri, eləcə də Cənubi Asiya regionu prioritet təşkil edir. Artıq Asiyanın neft və qaz bazarı Rusiyanı daha çox maraqlandırır. Asiya ölkələrinin, xüsusən Çinin yaxın gələcəkdə karbohidrogen ehtiyatlarının ən mühüm idxalçılarına çevriləcəyini nəzərə alsaq, bu əməkdaşlığın böyük perspektivləri görünür.

Yaranmış şəraitə təsir edən digər bir amil də vardır. Bu da Qərbdə daha çox hiss olunan qlobal, iqtisadi böhranın təsirləridir. Ondan narahat olan Asiya ölkələri qlobal iqtisadi böhrandan sonra doğan təhlükələri dərk edərək üzlərini Şərqə doğru çevirmişlər. Bu, həm neftlə zəngin körfəz ölkələrinə, həm də Hindistan başda olmaqla sürətlə inkişaf edən digər Asiya nəhənglərinə aiddir. Təsadüfi deyildir ki, Hindistanın dövlət strategiyası geniş maraqları özündə birləşdirən "Şərqə bax" adlanır.

Qeyd etməliyik ki, dünyanın ağırlıq mərkəzinin Asiyaya doğru dəyişəcəyi ilə bağlı proqnozlarla yanaşı bunun əksini iddia edənlər də vardır. Məsələn, "Economist" jurnalı 2014-cü ilə dair irəli sürdüyü proqnozlarında (The Economist-Dünya, 2014. Bakı) XXI əsrin ortalarında Qərbin liderliyini əldən verməməsi ilə bağlı tutarlı faktlar ortaya qoyur. Bu jurnalın ekspertləri belə bir qənaətə gəlirlər: "2014-cü ildə qlobal iqtisadi inkişafa ABŞ Çindən (bazar valyuta kursları ilə), Yaponiya da Hindis-

tandan daha çox töhfə verəcəkdir. Ucuz şist qazı enerji xərclərini aşağı salır və bununla da ABŞ istehsalını daha rəqabətqabiliyyətli edir. Son beş il ərzində dayanmadan pul çap edən Federal Ehtiyat Sistemi iqtisadiyyat bərpa olunduğuna görə 2014-cü ildə çapı yavaşıdacaq. Bu, Amerika dollarını gücləndirəcək. Zəif düşmüş Avropa dövlətləri kəsirləri yarıya qədər azaltmışdır”.[1]

Qərbin inkişafına dair nikbin proqnozlarını davam etdirən “Economist” jurnalının ekspertləri bir qədər də irəli gedərək vurğulayırlar ki, Çin və Hindistan bankları böyük borc altındadırlar və vəsaitləri investorlar və borc alanlar arasında əksər hallarda tənzimləyicilərin görə bilməyəcəyi dərəcədə təhlükəli işlədərək hərəkət etdirirlər. Onların fikrincə, zəifləmiş Qərb bankları az sonra güclənəcək, inkişaf edən ölkələrdə isə banklar borclarını ödəyə bilməyən müştərilərini təqib etməli olacaqlar. Qlobal inkişaf tədricən artdıqca, yaxşı xəbərlərin çoxu Qərbdən gələcəkdir”.[2]

Beləliklə, müxtəlif fikirlərin olmasına baxmayaraq, hadisə və proseslərin inkişaf dinamikası göstərir ki, yeni minillikdə dünya siyasətində Asiyanın geosiyasi çəkisi daha da artacaqdır. Son illərin təcrübəsindən aydın görünür ki, Çin və Hindistan dünyada yeni bazarlar uğrunda Qərb ölkələri ilə rəqabətdə getdikcə daha çox üstün mövqe qazanırlar. Xüsusilə Afrika qitəsinə münasibətdə Çinin uzun müddətli strategiyası mövcuddur. Artıq bu qitədə Çin ən böyük investordur. Digər dövlətlərin bu qitə ilə rəqabət aparması çətinləşir.

---

[1] “Ekonomist-Dünya” jurnalı, Bakı, 2014, səh.16

[2] Yenə orada

Azərbaycan Respublikası Şərq ilə Qərb arasında yerləşdiyindən və «qızıl körpü» rolunu oynadığından ölkəmizin Asiya qitəsi ölkələrinin beynəlxalq münasibətlər sistemində tutduğu yerin və oynadığı rolun oyrənilməsi həm siyasətşünaslıq elmimizdə olan boşluğu doldurmaq, həm də ali təhsil müəssisələrində bakalavr və magistrlərin ehtiyaclarını ödəmək baxımından aktuallıq kəsb edir. Bundan başqa, beynəlxalq münasibətlər sistemində Asiya ölkələrinin yerinin və mövqeyinin imkan daxilində sistemli şəkildə təqdim edilməsi kitabın tədqiqatçılar və siyasətçilər üçün də müəyyən mənbəyə çevrilmək imkanlarını artırır.

# 1. ÇİN XALQ RESPUBLİKASI BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

## 1.1. Dünya siyasəti və Çin Xalq Respublikası

Belə məlum olduğu kimi, XX əsrin əvvəllərində Çində dərin sosial-iqtisadi və böyük siyasi böhran müşahidə olunmuşdur. Hətta tədqiqatçılar həmin dövrdə bu ölkədə mövcud olan reallıqları «faciəli vəziyyət»[1] kimi təqdim etmişlər. Həmin vəziyyət XX əsrin ortalarına qədər davam etmiş, Çin ağır sosial-iqtisadi cəhətdən geridə qalmış ölkələrdən biri hesab olunmuşdur. Lakin keçən yüzilliyin ikinci yarısından etibarən iqtisadi cəhətdən zəif kommunist dövləti – Çin Xalq Respublikası bu qısa müddətdə böyük yüksəlişə nail olmuşdur. Bu sürətli inkişafın əsasında Çin Kommunist Partiyasının lideri Mao Tsze Dunun və onun ardıcılı Den Syaopinin uğurlu sosial-iqtisadi və xarici siyasət strategiyası dururdu. "Çin səciyyəli sosializm" yolu tutmuş ÇXR-in seçdiyi özünəməxsus iqtisadi inkişaf xəttinin bu dərəcədə uğur gətirəcəyini ölkə liderlərinin özləri belə gözləmirdilər. Lakin sosializm çərçivəsində bazar iqtisadiyyatına keçidə yer verilməsi, azad iqtisadi zonaların yaradılması, bir sözlə, iki əks qütbü əhatə edən iqtisadi sistemin yanaşı fəaliyyətinin təmin olunması qısa müddət ərzində ölkədə müsbət nəticələr vermişdir. XX əsrin əvvəllərində xarici dövlətlərin məngənəsində əzilən Çin qısa bir zamanda dünya iqtisadiyyatında xüsusi nüfuza malik olan qüdrətli

[1] Евдакимова А.А. История стран Востока в новое время. Россия, Ростов на Дону, «Феникс», 2011, стр.115

bir dövlətə çevrilmişdir. Bu ardıcıl inkişafa hakimiyyətdə siyasi-iqtisadi varislik məsələsinin qanunu saxlanılması və daha da möhkəmləndirilməsi də özünün müsbət təsirini göstərmişdir. Buna görə də ölkənin valyuta ehtiyatı böyük sürətlə artmışdır. Rəsmi məlumatlara görə, hazırda Çin Xalq Respublikası qızıl-valyuta ehtiyatlarının həcminə görə dünyada lider ölkədir. 2013-cü ilin məlumatlarında deyilir ki, bu məbləğ 3,8 trilyon ABŞ dolları həcmində olmuşdur.[1] 2014-cü ilin mart ayı üçün isə bu rəqəm 3,95 trilyon ABŞ dolları təşkil etmişdir.[2] Bir zamanlar xarici borcların içərisində boğulan Çin hazırda kapital ixrac edən, borc verən bir ölkə kimi qəbul olunur. Hətta ABŞ kimi bir dövlətin bu ölkəyə borcu olduğunu nəzərə alsaq, Çindəki inkişafın miqyasını təsəvvür etmək çətin olmaz. Artıq Çin Xalq Respublikası sürətli inkişafı ilə bir çox rəqiblərini geridə qoymuşdur.

Hazırda bütün dünya üçüncü minillikdə beynəlxalq münasibətlərdə Çini ən mühüm geosiyasi amillərdən biri kimi görür. Təsadüfi deyildir ki, keçən əsrin 90-cı illərindən başlayaraq ABŞ-da formalaşan bütün geosiyasi konsepsiyalarda Çin yeni böyük güc kimi səciyyələnir. ABŞ-ın müasir dövr strateqlərindən biri Henri Kissincer ərazisinin həcmini, əhalisinin sayını, yeni texnologiyaları tətbiq etməsini, ucuz xammal mənbələrinə və işçi qüvvəsinə, habelə əlverişli satış bazarlarına sürətlə yiyələnməsini və b. amilləri təhlil edərək Çini yeni dünya nizamını quracaq beş əsas gücdən (ABŞ, Avropa, Rusiya, Yaponiya və Çin) biri hesab edir[3]. ABŞ-ın keçmiş Dövlət katibi Hil-

---

[1] https://www.cia.gov/library/publications/the-world-factbook/rankorder/2188rank.html

[2] Селищев А. Валютные резервы Китая увеличились к концу 1-го квартала на 3,2%-http://itar-tass.com/ekonomika/1121563, (15.04.2014)

[3] Henry Kissinger. Diplomacy. 1995. Simon & Schuster. p.15

lari Klinton isə "Çətin seçimlər" adlı kitabında yazır ki, "Çinin yüksəlişi bizim dövrün ən mühüm strateji inkişaf meyillərindən biridir".[1]

Ümumiyyətlə, XX əsrin ikinci yarısında Qərbin aparıcı analitik və siyasətşünaslarının əsərlərində Uzaq Şərq regionu və xüsusən Çin başlıca yer tutmuşdur. O cümlədən H.Kissencer, S.Hantinqton, Z.Bjezinski, F.Zəkəriyyə kimi ABŞ-ın böyük politoloqları Çinin müasir dünya siyasətində oynadığı rola tutduğu yerə və gələcək inkişafına dair çoxlu fikirlər irəli sürmüşlər. Onların həmin fikirlərini birləşdirən bir tezis vardır – Çin artıq müasir dünyanın geosiyasi mühitində ABŞ-a rəqib ola biləcək dövlətə çevrilmişdir. [2]

Dünya siyasətində Çinin oynadığı nəhəng rolu düzgün qiymətləndirməyən siyasətşünas Qərb ölkələrində demək olar ki, yoxdur. Lakin həmin qiymətlərin hər birində Çin öz inkişaf sürəti ilə ABŞ-a və Avropa İttifaqına rəqib kimi qəbul edilir, bəzi hallarda isə həyəcan təbili çalınır.

Bundan başqa, Çin alimləri də ölkələrinin seçdiyi inkişaf yolunu, onun perspektivlərini dərindən təhlil edirlər. Məsələn, Qao Şutsin yazır ki, müasir Çin iqtisadi qloballaşma istiqamətində irəliləyir, inkişaf etmiş ölkələrlə iqtisadi əlaqələri inkişaf etdirir. Lakin bu dövlət siyasi qloballaşmanın Qərb yolu ilə getmir, sülh, qarşılıqlı hörmət, suverenlik və azad inkişaf yollarının bərabərliyini öz xarici siyasətinin əsas prinsipləri hesab edir.[3] Burada başlıca məqsəd Çinin dünyada iqtisadi və siyasi fəallığının

[1] Hillary Clinton. Hard choices. Penguin, 2014. p.42

[2] Novruz Məmmədov. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, 2013, səh.158

[4]Шуцин Гао. Глобализация: взгляды из Китая // «Азия и Африка сегодня», №11, 2004, s.9-10, s.10

digər ölkələrdə narahatlıq yaratmadığına və təcavüzkar məqsəd daşımadığına beynəlxalq ictimaiyyəti inandırmaq, ölkəsinin hərbi münaqişələrə qarışmayaraq, iqtisadi inkişaf yolunda maneələri aradan qaldırdığını diqqət mərkəzinə çəkməkdir. Çinin məhz öz inkişaf modeli yolu ilə gərəkli inkişafı və dynyada gedən bəzi proseslərə fərqli baxışı Qərbi narahat edən başlıca səbəblərdəndir.

Müşahidələr göstərir ki, dünyada sürətlə gedən qloballaşma proseslərinə Çinin yanaşması fərqlidir. Bu ölkə qloballaşma prosesinin iqtisadi və siyasi tərəflərinə eyni münasibət bəsləmir. Çin siyasi qloballaşmaya Qərb ölkələrinin onun daxili işlərinə qarışması cəhdi kimi baxdığını bəyan edir. Məlumdur ki, Qərb dövlətləri ÇXR-i Tibet, Sincan-Uyğur Muxtar Rayonu və Tayvan ilə bağlı məsələlərdə demokratiya və insan hüquqlarını pozmaqda günahlandırırlar. Hətta başda ABŞ olmaqla bəzi Qərb dövlətləri qeyd olunan bölgələri Çin hökuməti əleyhinə mübarizəsində müdafiə edirlər. Bu isə əslində Çinin inkişafına və dünyadakı iddialarına mane olmaq üçün istifadə edilən vasitələrdən biridir.

İqtisadi qloballaşmaya isə Çin fərqli yanaşır. Bu ölkə iqtisadi qloballaşmanın nəticələrindən çox məharətlə faydalanır. Məsələn, Çinin Ümumdünya Ticarət Təşkilatına (ÜTT) cəlb edilməsi qloballaşmanın şərtlərinə uyğun olaraq onu dünya bazarından asılı vəziyyətə salmışdır. Lakin ÇXR-in bu sahədə qazancı daha çox olmuşdur. ÇXR Ticarət Nazirliyinin rəsmisi Çun Tsyuanın verdiyi məlumata görə, 2003-cü ildə ÜTT-yə üzvlüyündən keçən 10 il ərzində dünya bazarında Çinin payı 4,3% -dən 10.3%-ə qədər yüksəlmiş, Çin dünyanın ixracat üzrə birinci və

idxalat üzrə isə ikinci dövlətinə çevrilmişdir. Bu rəqəmlər 10 illik bir müddət üçün dünyada ən yüksək göstəricidir. Bundan əlavə, ÜTT-yə üzvlükdən keçən 10 il ərzində Çinin ÜDM-nin həcmi də dünyada 6-cı yerdən 2-ci yerədək yüksəlmişdir.[1] Bu mənada Çinin dünya bazarına daxil olması həm onun özü, həm də ortaqları üçün böyük mənfəətlə nəticələnmişdir. Bir çox rəqibləri isə ölkənin bu inkişafından narahat olmağa başlamışlar.

Həmin nailiyyətlərin davamlı və möhkəm olması üçün ÇXR-in əhatəsində yerləşən dövlətlər ilə mehriban qonşuluğa, sülhə, müttəfiqləri və iqtisadi tərəfdaşları, eləcə də rəqibləri ilə dinc və sabit münasibətlərə ehtiyacı vardır. Bu baxımdan Çinin mövqeyini təhlil edən məşhur politoloq Z.Bjezinskinin fikirləri diqqəti cəlb edir. O yazır: "Çin üçün ən düzgün xarici siyasət kursu öz gücünü qənaətlə sərf etmək, gələcək iqtisadi inkişaf üçün şərait yaratmaq, ehtiyatla Asiya ölkələrinin ittifaqını formalaşdırmaq və gələcəkdə Yaponiyanı da bu ittifaqa cəlb etməkdir".[2] Bunu dərk edən Çin liderləri iqtisadi inkişafı ləngitməmək naminə ən gərgin şəraitlərdə belə diplomatik vasitələrlə sülhün və əmin-amanlığın təmin olunmasına, əməkdaşlığın isə davam edilməsinə çalışırlar. Bu, iqtisadi inkişaf üçün zəruri olan davamlılıq prinsipinin daha da möhkəmlənməsinə xidmət edir.

Məlum olduğu kimi, Çin Xalq Respublikası Qərbin SSRİ ilə «soyuq müharibə» dövrünün bitməsindən sonra ABŞ-ın liderliyində yaranmış şəraitdən ən çox yararlanan

---

[1] Чун Цханъ: об экопомике КНР за 10 лет в ВТО-http://russian.china.org.cn/exclusive/txt/2011-12/13/content_24139493.htm,(13-12-2011).

[2] Бжезинский З. Выбор: мировое государство или глобалное лидерство. М.: 2005, 288 с., с.160

ölkə olmuşdur. Lakin buna baxmayaraq, qərblilərin Çinə öz dəyərlərini qəbul etdirmək cəhdləri baş tutmamışdır. Çinin gələcək inkişafına dair verilən proqnozlara görə, bu ölkə tezliklə dünyanın böyük gücləri ilə mübarizə üçün öz xarici siyasət strategiyasını əzmlə inkişaf etdirəcək, iqtisadi qüdrətini daha da artırmağa nail olacaqdır.

Buna baxmayaraq, Çinin ətrafında mövcud olan geosiyasi şərait digər böyük dövlətlərlə müqayisədə xeyli qarışıq və mürəkkəbdir. Dünyada ən çox qonşusu olan ölkə kimi Çinin ətrafında planet əhalisinin 40%-nin yaşadığı 29 ölkə yerləşir və Çin 15 ölkə ilə həmsərhəddir.[1] Həmin ölkələr ilə Çin arasında qarşılıqlı münasibətlərdə müəyyən problemlər mövcuddur. Buna baxmayaraq, qədim və zəngin ənənələri olan Çin diplomatiyası mövcud olan bütün gərgin şəraitlərdən bacarıqla çıxmağı bacarmış və regiondakı rəqibləri ilə münasibətlərini tənzimləyə bilmişdir. Belə ki, aparılan məqsədyönlü siyasət nəticəsində bəzi dövlətlərin Çini açıq münaqişələrə qatmaq cəhdləri uğursuzluğa düçar olmuşdur.

Müasir tarixi şəraitdə Çinin xarici siyasətinin əsas istiqaməti daha çox qonşu dövlətlərlə münasibətlərdə gərginliyin aradan qaldırılmasına yönəldilsə də, bu ölkənin bir çox qonşuları ilə problemləri hələ də qalır. Lakin Çin Xalq Respublikası iqtisadi inkişafın möhkəmləndirilməsi naminə həmin problemlərin həllinə təmkinli, dözümlü münasibət bəsləyir, hər zaman hərbi-siyasi prosesləri arxa plana keçirməyə səy göstərir.

Nəzərə almaq lazımdır ki, Çinin demək olar ki, bütün qonşuları ilə ərazi mübahisələri vardır. Bu mübahisələr

[1] Ekrem E. Çinin Orta Asya politikaları, Ankara: Hoca Ahmet Yesevi Uluslararası Türk-Kazak Üniversitesi, 2011, 80 s., s.12-13

Rusiya, Yaponiya, Hindistan, Pakistan, Vyetnam, Buxan, Myanma, Birma, Tailand və başqa ölkələrlə mövcuddur və arabir qabarıb-çəkilir. Mübahisəli hesab edilən ərazilər Tsin imperiyasının "İtirilmiş fotoqrafı" sayılır. Bu, bütövlükdə böyük əraziləri əhatə edir. Doğrudur, hazırda bu iddialar xarici siyasət fəaliyyətində səsləndirilmir, lakin ölkə daxilində məsələyə dair tarixi əsərlər yazılır, müəyyən fikirlər nəzərə çarpdırılır. Çin ilə qonşu ölkələr arasında mövcud olan transsərhəd xarakterli problemləri əsasən aşağıdakı kimi qruplaşdırmaq olar:

***Çin-Hindistan:*** Kəşmir məsələsi üstündə gərginliyin azaldılması istiqamətində danışıqların davam etməsinə baxmayaraq, regionun 3 hissəsi – faktiki olaraq Çinin nəzarətində olan "Aksai Çin", Hindistanın nəzarətində olan "Cammu və Kəşmir" və Pakistanın nəzarətində olan "Azad Kəşmir və şimal əraziləri" arasında gərgin hərbi şərait hələ də davam edir. Hindistan 1964-cü ildə tarixi Kəşmir ərazilərinin Pakistan tərəfindən Çinə verilməsini qəbul etmir və tanımır. Çin Hindistanın "Arunaçal Pradeş" bölgəsinin çox hissəsinin Himalay ərazisinin bir hissəsi olduğunu iddia edir. Beynəlxalq müstəvidə və ölkələr səviyyəsində bu bölgədəki sərhədi təsvir və ya müəyyən edən heç bir saziş yoxdur. Ona görə də iki ölkə arasında ərazi mübahisəsinin mövcudluğu və sərhəd müqaviləsinin imzalanmaması münasibətlərə mane olan başlıca amildir.

***Çin-Butan:*** Butan Çinlə müqayisə ediləcək ölkə deyildir. Lakin neçə illərdir ki, Butanın şimal-qərb ərazilərinin böyük hissəsini "Çumbi" çıxıntısı boyunca əhatə

edən kartoqrafik uyğunsuzluğa görə əmələ gəlmiş ərazi münaqişəsinin həlli istiqamətində ortaq sərhəd xəttinin müəyyənləşdirilməsi üçün ikitərəfli danışıqlar davam etdirilir. Bu vəziyyət indi də Çinin xarici siyasətinə təsir edən amillərdən biridir.

***Çin-Myanma:*** Çinin ətraf mühit və sosial problemləri nəzərə alaraq "Salven" çayı üzərində layihələndirilmiş 13 su dambasının tikintisini təxirə salmasına baxmayaraq, elektrik enerjisi azlığından əziyyət çəkən Myanma regional və beynəlxalq etirazlara məhəl qoymadan Tailandın dəstəyi ilə 5 hidro-elektrik damba inşa etmək niyyətindədir. Bu fəaliyyət iki ölkə arasındakı geosiyasi və iqtisadi münasibətlərə müəyyən dərəcədə təsir edir.

Bundan başqa, Cənubi Çin dənizinin sahilyanı ölkələr ilə mübahisəli məsələləri də öz həllini tapmamışdır. Belə ki, Cənubi Çin dənizində beynəlxalq sərhəd xətlərinin müəyyənləşdirilməməsi səbəbindən Çin ilə Vyetnam arasında problemlər mövcuddur. Çin tərəfi Filippin və Tayvan ilə yanaşı "Skarboro Rif" üzərində, Malayziya, Filippin, Tayvan, Vyetnam və Bruneylə yanaşı isə "Spratli adaları"nın üzərində öz suverenliyini bəyan edir. 2002-ci ildə tərəflər arasında qəbul olunan "Tərəflərin Davranışları Bəyannaməsi" Spratli adaları üzərindəki gərginliyin azalmasına gətirib çıxardı. Çin, eyni zamanda, Tayvan və Vyetnam tərəfindən də iddia edilən "Parasel adaları"nı öz nəzarəti altında saxlayır. Bu vəziyyət də Çinin qonşuları ilə əməkdaşlığına və beynəlxalq fəaliyyətinə öz təsirini göstərir.

***Çin-Yaponiya:*** İnsan yaşamayan ərazidən ibarət olan "Senkaku-şoto" (Diaoyu) adaları üzərində Yaponiyanın

sahiblik iddiasını nə Çin, nə də Tayvan qəbul edir. Bundan əlavə,onlar Yaponiyanın Şərqi Çin dənizində birtərəfli şəkildə təyin etdiyi məsafə xəttini də rədd edirlər. Çin-Yaponiya münasibətlərinə mənfi təsir edən adalar məsələsinin həll edilməməsi başlıca problemlərdən biridir. Digər tərəfdən, Cənub-Şərqi Asiya regionunda Çin ilə Yaponiya arasında iqtisadi, siyasi və hərbi maraqları əhatə edən ziddiyyətlər də mövcuddur.

**Çin-Şimali Koreya Xalq Demokratik Respublikası**: Strateji əməkdaşlıq baxımından ciddi bir problemlərin olmamasına baxmayaraq, illərdən bəri "Yalu" və "Tumen" çaylarındakı bəzi adalar üstündə mövcud olan mübahisələr iki ölkə arasında həll olunmamış qalır. Hər iki dövlətin eyni ideoloji sistemli ölkə olmasına baxmayaraq, aralarındakı ərazi mübahisələrini həll edə bilməməsi müəyyən problemlər doğurur.

Məlum olduğu kimi, beynəlxalq aləmdə Çin Xalq Respublikası üçün ən mühüm məsələ Tayvan ilə əlaqədardır. Çin Xalq Respublikası dünya miqyasında "vahid Çin" prinsipi ilə çıxış edir. Ona görə də ölkə Tayvanla münasibətlərini indiki halda dondurulmuş vəziyyətdə saxlayır. Çin tərəfi son illərdə bir neçə dəfə dənizdə güc nümayiş etdirsə də, hələlik özünü bu problemi həll edə biləcək gücdə görmür və yaxud əlavə problemlər çıxarmağa cəhd etmir. Bununla belə, Tayvan ÇXR üçün həyati əhəmiyyətli məsələdir. Hazırkı mərhələdə Çin Tayvan probleminin güc yolu ilə həllinə üstünlük vermir və beynəlxalq hüququn imkanlarından yararlanaraq əsaslar axtarmağa çalışır. Çində belə hesab edirlər ki, Tayvan probleminin güc vasitəsi ilə həlli ölkənin mövcud xarici siyasət strate-

giyasının reallaşdırılmasına mane ola bilər. Bu isə indiki halda Çin üçün arzuedilən deyildir.

Qeyd etmək lazımdır ki, II Dünya müharibəsindən sonra Yaponiya müstəmləkəsindən azad olmuş Çində kommunistlərlə Homindan hakimiyyəti arasında mübarizə sonuncuların Tayvan adasında məskunlaşması ilə nəticələnmişdir.

ABŞ ilə SSRİ arasında Çində gedən diplomatik-siyasi mübarizə ölkələrin taleyinə təsir etmişdir. ABŞ-ın Tayvanda Çan Kayşini, SSRİ-nin isə Çini müdafiə etməsi nəticəsində "iki Çin" yaranmışdı. İndiyədək davam edən bu problem Çinin "Axilles dabanı"na çevrilmişdir. Çin Xalq Respublikasının yaranmasından sonra Homindan hakimiyyəti ilə ABŞ arasında 1954-cü ildə imzalanmış "Müştərək müdafiə sazişi" nəticəsində faktiki olaraq Tayvan adası Çin Xalq Respublikasından ayrıldı. O zamandan ötən müddət ərzində 22 dövlət Tayvan ilə diplomatik münasibətlər yaratdı. Lakin ABŞ tərəfi Çin ilə SSRİ arasında ərazi-sərhəd məsələləri üstündə münasibətlərin gərginləşməsini və Çinin dünyada kommunizmi yaymaqda Moskva qədər maraqlı olmadığını görərək strateji mənafeləri naminə Pekinlə yaxınlaşmaq qərarına gəldi. 1972-ci ilin fevral ayında ABŞ Prezidenti Riçard Niksonun ÇXR-ə səfəri zamanı "Şanxay Bəyannaməsi" adlı sənəd qəbul olunmuş və nəticə etibarı ilə ABŞ rəsmi Pekini Çinin bütün ərazisində qanuni hökumət kimi qəbul etmişdir. Həmin tarixdən etibarən Tayvan da Çinin ayrılmaz hissəsi kimi bəyan edildi və Ağ Ev bu ada ilə "diplomatik əlaqələr"ini kəsdi. Yaranmış şəraitdə Çin hökuməti tarixi reallığı və ölkənin milli maraqlarını nəzərə alaraq Tay-

vanla əlaqələri tənzimləyən "sülh yolu ilə birləşmə və ya bir dövlət - iki sistem" adlı yeni konsepsiyanı irəli sürdü. Həmin konsepsiyanın əsas mahiyyəti aşağıdakı dörd maddədən ibarətdir:

1. **Vahid Çin nəzəriyyəsi.** Həmin anlayışa görə Tayvan adası Çin Xalq Respublikasının ayrılmaz hissəsidir, mərkəzi hökumət Pekində yerləşir.
2. **İki sistemin bir arada mövcudluğu prinsipi.** Bu prinsipə əsasən Tayvanın Vahid Çinin tərkibində olması şərti ilə sosializmin ölkənin əsas hissəsində davam etməsi, kapitalizmin isə Tayvanda mövcudluğu və inkişafı nəzərdə tutulur.
3. **İdarəetmənin ən yüksək səviyyəsi.** Bu anlayışa görə Tayvan mərkəzi ərazi ilə birləşdikdən sonra xüsusi inzibati rayon statusunu əldə edəcək və yüksək idarəetmə səviyyəsinə xas olan bütün hüquqlardan istifadə edə biləcəkdir.
4. **"Sülh yolu ilə birləşmə və ya bir dövlət - iki sistem formatı".** Bu sülh vəd edən konsepsiyanın olmasına baxmayaraq, Çin hökuməti məsələlərin həllində lazım gələrsə güc tətbiq etməyi də istisna etmir.

Beləliklə, qonşu dövlətlərlə müəyyən ərazi-sərhəd problemləri olsa da, Çinin xarici siyasəti regionda və dünyada ciddi münaqişələrdən yayınmaqla öz iqtisadi qüdrətini və mövqelərini gücləndirməyə yönəlmişdir. Yarandığı zamandan indiyədək Çin Xalq Respublikasının beynəlxalq münasibətlər sistemində tutduğu yeri və oynadığı rolu bir neçə mərhələdə fərqləndirmək olar: Birincisi, XX

əsrin 50-60-cı illəri. Bu mərhələdə bəzi Qərb ölkələri tərəfindən təzyiqlərlə üzləşən Çin Xalq Respublikası dünya birliyi tərəfindən tanınmağa və daha çox Asiyanın sosialist ölkələri ilə qarşılıqlı münasibətlər qurmağa yönəlmiş, xarici siyasət yürütmək xəttinə üstünlük vermişdir.

XX əsrin 70-80-cı illərini ikinci mərhələ hesab etmək olar. Bu mərhələ iqtisadiyyatın Qərb modelinin nailiyyətlərindən yararlanmaqla özünəməxsus Çin modelinin yaradılması ilə xarakterizə olunur. Həmin illərdə ÇXR bir sıra böyük dövlətlər tərəfindən tanınmışdır. Belə ki, ölkə 1972-ci ildə Yaponiya, 1978-ci ildə isə ABŞ ilə diplomatik münasibətlər qurmuşdur.

Bu illərdə Çin iqtisadiyyatının xaricə açılması ikinci mərhələnin dönüş nöqtəsidir. 1978-ci ilin dekabr ayında XI çağırış Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üçüncü plenumunda uzun-uzadı müzakirələrdən sonra ölkədə islahatlar aparmağa dair qərar qəbul edildi. Bu tarixi siyasi məclisdə xarici aləm üçün "açıq qapı" prinsipi qəbul edildi. Ölkədə sosial-iqtisadi islahatların mərhələ-mərhələ həyata keçirilməsi müəyyənləşdirildi.[1] Qeyd etmək lazımdır ki, «Açıq qapı» siyasəti Çinin beynəlxalq fəaliyyətinə, xüsusən xarici iqtisadi əlaqələrinin genişlənməsinə müsbət təsir etdi.

Növbəti mərhələ - 1990-cı illərdən başlayan, sürətlə inkişaf edən mərhələdir. «Soyuq müharibə» sona çatdıqdan sonra başlayan bu mərhələdə Çin iqtisadi inkişaf sürətinə, mühüm iqtisadi göstəricilərinə görə Qərbin əksər dövlətlərindən önə keçərək dünyanın iqtisadi liderləri sırasında ilk yerlərdən birini tutmuşdur. Lakin bunun müqabi-

[1] Bax: Ziyad Səmədzadə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, 2009, səh.142

lində Çin ehtiyatlı siyasi xəttə üstünlük verir, qlobal güc mərkəzlərini qıcıqlandırmamağa çalışır. Çin rəsmən "üzvi dünya" konsepsiyasına uyğun siyasət həyata keçirir.

Həmin konsepsiyaya görə, 1980-cı illərdən başlayaraq beynəlxalq münasibətlərdə "üçüncü dünya" ölkələrinin geosiyasi çəkisi artır. Belə bir şəraitdə Çinin başlıca vəzifəsi "üçüncü dünya" ilə sıx əməkdaşlıq qurub ümumilikdə üzvi inkişafa nail olmaqdır. Lakin Çin "üçüncü dünya" ölkələrinin geosiyasi təsirini onların beynəlxalq təşkilatlarda birləşərək vahid "antihegemonçu mövqedən" (yəni bir dövlətin və ya dövlətlər blokunun hegemonluğuna qarşı durmaq) çıxış etməsində görür.[1]

Hazırda Çin Xalq Respublikası müstəqil, heç bir ölkədən asılı olmayan xarici siyasət xətti yürüdür. Çinin xarici siyasət strategiyası əsasən aşağıdakı istiqamətlərə yönəlmişdir:

– Ölkə çoxqütblü dünyanın formalaşdırılmasına çalışır;

– səmərəli beynəlxalq siyasi və iqtisadi qaydanın yaradılması istiqamətində səy göstərir, hər hansı bir dövlətin hegemonluq siyasətinin istənilən təzahürlərinə qarşı çıxış edir;

– həmsərhəd olduğu dövlətlərlə mehriban qonşuluq və dostluq münasibətlərinin möhkəmləndirilməsində maraqlıdır;

– qarşılıqlı ikitərəfli münasibətlərdə "Vahid Çin" prinsipinin, yəni Tayvan əyalətinin ÇXR-in ayrılmaz hissəsi olduğunun dövlətlər tərəfindən qəbul edilməsini əsas şərt kimi irəli sürür.

XXI əsrdə dünya siyasətində Çinin aparıcı dövlətə çev-

---

[1] Bax: Novruz Məmmədov. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, 2013, səh.162

rildiyini görən dünya ölkələrinin əksəriyyəti, həmçinin bir çox əsas regionlar onunla əməkdaşlıq qurmağa çalışırlar. Belə ki, müasir beynəlxalq münasibətlərin yeni formalarından biri dünya siyasətinə təkcə dövlətlərin deyil, ayrı-ayrı regionların, ölkələrin daxili subyektlərinin çıxması və onların beynəlxalq əməkdaşlığa qoşulmasıdır. Son zamanlar belə bir meyil Avropa və Cənub-Şərqi Asiyada geniş yayılmışdır.[1] Bu mənada Çin ilə bir çox regional təşkilatlar və qruplaşmalar arasında sıx əməkdaşlıq möhkəmləndirilməkdədir.

Çinin sürətli iqtisadi inkişafı beynəlxalq nüfuzunun artması və əlaqələrinin genişlənməsi ilə bərabər bəzi dövlətlərlə problemlərə, yəni onların Çindən müəyyən qədər çəkinmələrinə səbəb olmuşdur. Nəticədə "Çin təhlükəsi" ideyası formalaşmış və bu barədə bir çox əsərlər meydana gəlmişdir. Lakin rəsmi Pekin öz rəqiblərini iqtisadi inkişafının təhlükə yaratmadığına inandırmağa çalışır. Bununla belə, bəzi dövlətlərdə «Çin təhlükəsi»nə dair tərəddüdlər hələ də qalmaqdadır.

XXI əsrin əvvəllərindən başlayaraq Çin öz xarici siyasətini Qərb (Avropa Birliyi ölkələri və ABŞ), qonşuları və üçüncü dünya ölkələri (Afrika, Latın Amerikası) ilə qarşılıqlı, faydalı münasibətlər qurulması istiqamətində həyata keçirir. Bu da səbəbsiz deyildir. Ölkənin yüksək inkişafı üçün daxilində olan xammal kifayət qədər deyildir. Ona görə də Çin üzünü üçüncü dünya ölkələrinə tutur. Xüsusən, enerji ehtiyatlarına ehtiyac getdikcə artır. Enerji resurslarına olan tələbatı onun zəngin İran körfəzi regionuna da marağını artırmışdır. Beləliklə, Çinin xarici

[1] Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана. Bakı: «Şərq-Qərb», 2007, 904 s., s.153

siyasətinin bu istiqamətdə araşdırılması onun dünya siyasətindəki əsas prioritetlərini, tutduğu yeri və oynadığı rolu müəyyən etməyə imkan verir.

Müasir dünya siyasətinin Çin ilə bağlı olan bir sıra səciyyəvi xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər əsasən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT), BRİCS (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası), "İyirmilər Qrupu" və digər təşkilatlarda Çinin liderlik etməsi, dünya iqtisadiyyatı və maliyyə sistemində qeyri-sabitliyin mövcud olduğu bir şəraitdə Çinin iqtisadi inkişaf sürətinin yüksəlişi, Yaxın Şərqdə, Cənubi və Şərqi Çin dənizləri bölgəsində regional münaqişələr şəraitində ölkənin təcavüzkar mövqe nümayiş etdirməməsi, ən əsası isə bu dövlətin ABŞ ilə rəqabətindən ibarətdir. Əlverişli satış bazarlarına və ucuz xammal mənbələrinə yiyələnmək uğrunda ABŞ-Çin rəqabəti bu gün də davam etməkdədir. Tərəflərdən hər biri üstünlük qazanmaq üçün ciddi səylər göstərir.

Çin Xalq Respublikası Amerika Birləşmiş Ştatlarının nəhəng və zəngin daxili bazarından asılılığına son qoymaq üçün Avropa ölkələri ilə əlaqələrinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirir. Bu dövlət hökumətin siyasətinə qarşı etiraz edən 1989-cu il Tyananmen meydanındakı hadisələrdə nümayişçilərə divan tutulmasından sonra Avropa ölkələrinin onunla silah ticarətinə tətbiq etdiyi embarqonun ləğv edilməsinə çalışır. Qeyd etmək lazımdır ki, 1989-cu ilin 15 aprel-4 iyun tarixləri arasında tələbələr, ziyalılar və fəhlələr Tyananmen meydanında nümayişlər keçirmişdilər. O zaman minlərlə tələbə aclıq aksiyasına qoşulmuşdu. Ancaq etirazlar Çin hökumə-

ti tərəfindən yatırılmış və çoxlu adam qətlə yetirilmişdi. Onlar hakimiyyətin meydanı boşaltmaq tələblərinə qarşı çıxdıqdan sonra mayın 20-də ölkədə hərbi vəziyyət elan edilmişdi. İyunun 3-dən 4-nə keçən gecə isə hakimiyyət nümayişçilər üzərinə silahlı əsgərlər və zirehli texnika yeritmişdi. Həmin vaxt, rəsmi məlumatlara görə 200-300, qeyri-rəsmi məlumatlara görə isə 2-3 min adam qətlə yetirilmişdi. Bu hadisə bütün dünyada geniş əks-səda doğurmuş və Çinə qarşı tənqidlər artmışdı. Hətta bəzi ölkələr aşıq şəkildə Çinə silah embarqosu tətbiq etmişdilər.

Avropa ölkələri ilə Çin arasında münasibətlərin bəzi özünəməxsusluqları da vardır. Belə ki, Qərbi Avropa dövlətləri ABŞ-a nisbətən Çindən daha az çəkinirlər. Bu ölkələrin liderlərinin əksəriyyəti belə hesab edirlər ki, Çin öz təhlükəsizliyinə ABŞ-dan səkkiz dəfə az maliyyə vəsaiti xərcləyir və ona görə də yaxın zamanda regionda Çinin nüfuz dairəsinin formalaşması mümkün deyildir.[1] Belə yanaşma barədə çoxlu mübahisələr etmək olar. Çünki Çinin dünya siyasətində və iqtisadiyyatında rolu və çəkisi getdikcə artmaqda davam edir. Bu ölkə dünyanın istənilən regionuna sürətlə daxil ola bilir və orada özünün nüfuzunu formalaşdırır.

Çinin xüsusi maraqları olan və gərgin rəqabətin getdiyi ən böyük region 58 dövləti birləşdirən Asiya-Sakit okean regionudur. Əslində bu ad dünya siyasi səhnəsinə Sakit okean hövzəsində yerləşən ölkələri və ada dövlətlərini əhatə edən siyasi və iqtisadi termin kimi daxil olmuşdur. Region daxilində alt regionlar olan Şərqi Asiya, Cənub-Şərqi Asiya, bəzən Cənubi Asiya və digər bölgələr

[1] Уткин А. Подъем и падение Запада. М.:АСТ издательство, 2008, 761 с., с.576

xüsusilə seçilir. Malakka körfəzindən keçən dəniz yolları Şimal-Şərqi Asiya ölkələrini neft və digər mühüm ehtiyatlarla təmin edir. Bu dəniz yolları həm də region dövlətlərinin dünya bazarlarına hazır məhsullar ixrac etdiyi əsas arteriyadır. Ümumilikdə ÇXR Asiyanın şərqinə və cənubuna xüsusi diqqət yetirir. Çünki ÇXR-ə idxal olunan bütün malların 85%-i, o cümlədən enerji idxalının 80%-i bu yolla həyata keçirilir. Ona görə də ölkənin xarici siyasət fəaliyyətində ən ciddi məsələlərdən biri Malakka boğazının təhlükəsizliyini təmin etməkdən ibarətdir. Malakka boğazının təhlükəsizliyinə qarşı törədilə biləcək hər hansı bir təhdidi Çin heç nədən çəkinmədən dəf etmək əzmindədir. Bu, artıq beynəlxalq münasibətlərdə açıq bilinən tendensiyadır.

Məlum olduğu kimi, Asiya-Sakit okean regionunun aparıcı dövlətləri Çin, Rusiya, Hindistan, iki Koreya və ABŞ-dır. Regionda Çinin müttəfiqləri ilə yanaşı, aralarında kəskin ziddiyyətlərin, hətta tarixi düşmənçiliyin mövcud olduğu dövlətlər də var. Ziddiyyətlərin başlıca səbəbi isə regionun təbii ehtiyatlarına yiyələnmək və nüfuz dairələri qazanmaq uğrunda mübarizə, eyni zamanda, tarixdən gələn ərazi mübahisələridir.

Ümumiyyətlə, Tayvan problemi, ikiyə ayrılmış Koreya, Cənubi Çin dənizi və Spratli adaları, ASEAN-ın getdikcə siyasi təşkilat kimi etimad qazanması, ABŞ-ın Vyetnam ilə yaxınlaşması, Orta Asiya respublikalarından neft və təbii qaz alınması istiqamətində ABŞ-ın fəaliyyəti, Birləşmiş Ştatların Hindistan və Yaponiya ilə sıx əlaqələrinin getdikcə intensivləşməsi kimi məsələlər iki ölkəni qarşı-qarşıya qoya bilər. Çin həmçinin NATO-nun Şərqə doğru

genişlənməsinə ehtiyatla yanaşır. Bu da səbəbsiz deyildir. NATO-nun Şərqə doğru genişlənməsinə isə Çin tərəfi ABŞ-ın Asiya-Sakit okean bölgəsində yeni strategiyası kimi baxır (Yılmaz S. Yükselen güç Çinin Güvenlik politika ve stratejileri // Stratejik araştırmalar dergisi, Sayı 1 (2), 2008, s.77-98, s.81). Çin üçün enerji məsələsinin siyasi və təhlükəsizlik tərəfləri də getdikcə daha çox əhəmiyyət daşıdığına görə onun enerji mənbələri uğrunda mübarizədə də ABŞ ilə qarşı-qarşıya gəlməsi qaçınılmazdır.[1]

Dünyada formalaşmaqda olan yeni dövlətlərarası münasibətlər göstərir ki, III minillikdə Çinin beynəlxalq münasibətlər sistemində mövqeyi ilk növbədə müxtəlif regionlarda Çin-ABŞ qarşıdurması ilə müəyyən olunur. Dünya ölkələri təkqütblülükdən imtina edirlər və yenidən çoxqütblü modelə qayıdırlar. Bu prosesdə Çin Xalq Respublikası ən mühüm rol oynayır. Artıq qeyd edildiyi kimi, müasir dövrdə Çin-ABŞ münasibətləri 1972-ci ilin fevral ayında ABŞ Prezidenti Riçard Niksonun ÇXR-ə səfəri ilə başlamışdı. Bu səfər zamanı qəbul olunmuş "Şanxay Bəyannaməsi" adlı sənəd ÇXR ilə ABŞ arasında diplomatik əlaqələrin yaranmasının əsasını qoymuşdu. 1978-ci ildə rəsmi diplomatik əlaqələr qurulmuş və nəticə etibarı ilə ABŞ rəsmi Pekini Çinin bütün ərazisində qanuni hökumət kimi qəbul etmişdi. Bu tarixdən etibarən Tayvan da Çinin ayrılmaz hissəsi kimi bəyan edilmiş və Ağ Ev bu ada ilə "diplomatik əlaqələr"ini kəsmişdi.

Bütün bunlara bütövlükdə təsir edən bir sıra amillər var idi. Hər şeydən əvvəl, 1978/1979-cu illərin İran inqilabından sonra ABŞ bu ölkədən çıxarıldıqdan və 1970-cu ildə

---

[1] Yılmaz S. Yükselen güç Çinin güvenlik politika ve stratejileri // Stratejik araştırmalar dergisi, Türkiyə, Ankara, №1-2, 2008, s.77-98.

SSRİ Əfqanıstana hərbi müdaxilə etdikdən sonra ABŞ-Çin münasibətlərində istiləşmə baş verdi. ABŞ ilə yanaşı Çinin də Əfqanıstana sovet müdaxiləsini açıq şəkildə pisləməsi Vaşinqton-Pekin əməkdaşlığına yeni bir impuls gətirdi. Bu münasibətlər sonrakı on ildə də davam etdirildi. Soyuq müharibənin başa çatması və SSRİ-nin dağılmasından sonra isə beynəlxalq münasibətlərdə yeni çalarlar yaranmağa başladı. Bu zaman ABŞ-ın təkqütblü dünyaya keçidə səy göstərməsi Çin tərəfindən birmənalı qarşılanmadı.

Məlum olduğu kimi, Barak Obamanın Prezident seçilməsindən sonra ABŞ xarici siyasətində "Asiyaya qayıdış" istiqaməti prioritetlərdən biri olaraq elan olundu. İki ölkə arasında dialoq intensivləşdi və qarşılıqlı səfərlərin sayı artdı. Yüksək səviyyəli rəsmi səfərlərin tərkibi və müzakirə edilən mühüm məsələlər ABŞ ilə yanaşı, dünya həyatında Çinin də rolunun artdığını göstərirdi. Belə ki, 2009-cu ilin noyabrın 15-18-də ABŞ Prezidenti Barak Obama Çin Xalq Respublikasına səfər etmiş, bundan sonra 2011-ci ilin yanvarın 19-da isə ÇXR-in Sədri Hu Tzintao ABŞ-da rəsmi səfərdə olmuşdur. Bu səfərlər ikitərəfli münasibətlərdə mühüm hadisələr olmaqla böyük əhəmiyyət daşıyırdı. Danışıqlar bir çox dünya problemlərinə yanaşmada tərəflər arasında müəyyən fikir ayrılığının olduğunu da göstərmişdir.

Qarşılıqlı münasibətlərdə növbəti addım 2013-cü ilin iyunun 7-8-də ÇXR-in Sədri Si Cinpinin ABŞ Prezidenti Barak Obama ilə Kaliforniyada keçirilən görüşü oldu. Danışıqlar zamanı hər iki ölkədə daxili vəziyyət və dövlət idarəetmə təcrübəsi, Çin-ABŞ münasibətlərinin möv-

cud vəziyyəti və perspektivləri, beynəlxalq və regional məsələlər, siyasi və təhlükəsizlik, iqtisadi və maliyyə məsələləri, habelə kiber təhlükəsizlik, iqlim dəyişikliyi kimi mövzular ətrafında müzakirələr apardılar. Bu, bütövlükdə dünya ölkələri üçün də çox əhəmiyyətli olan bir dialoq idi. Bu dialoq eyni zamanda Çin Xalq Respublikasının da beynəlxalq münasibətlərdə artıq söz sahibinə çevrildiyini göstərirdi.

İki ölkə arasında münasibətlərdə növbəti addım 2013-cü ilin dekabrın 3-4-də ABŞ-ın vitse-prezidenti Cozef Baydenin ÇXR-ə səfəri oldu. Səfər çərçivəsində əsasən Şərqi Çin dənizində hava hücumundan müdafiə zonasının yaradılması, Tayvan və Tibet məsələləri müzakirə olundu. Aparılan danışıqlar tərəflər arasında çoxlu fikir ayrılıqlarının olduğunu göstərdi. Belə ki, Çin tərəfi ABŞ-ın Şərq Çin dənizində hava hücumlarından müdafiə zonası yaratmasının əleyhinə çıxır və Tayvan və Tibet məsələlərində tutduğu mövqe ilə tam razı deyildi. Pekinin mövqeyinə görə, Tibet məsələsinin insan hüquqları ilə əlaqələndirilməsi əsassızdır. Bu məsələ ilə Çinin özü məşğul olmalıdır, digər dövlətlər problemə müdaxilə etməməlidirlər.

Fikir ayrılıqlarına baxmayaraq, iki ölkə arasında qarşılıqlı münasibətlər davam etdirildi. Bunun bir nümunəsi 2014-cü ilin aprelin 7-10-da ABŞ müdafiə naziri Çak Heyqelin Çinə səfəri oldu. Səfər zamanı o, ÇXR-in Sədri Si Cinpinlə görüşdü. Tərəflər Sakit okean regionunda yaranmış gərgin şəraitə görə bir-birinə qarşılıqlı iradlarını bildirirlər. Danışıqlar zamanı Çinin qonşuları ilə ərazi mübahisəsi, Şimali Koreya və kiber təhlükəsizliyi ilə bağlı ümumi razılıq əldə olunmasa da, dialoqun davam etdiril-

məsinə qərar verildi. Eyni zamanda, tərəflər arasında humanitar sahədə və piratçılığa qarşı mübarizədə əməkdaşlığın gücləndirilməsi barədə razılığa gəldilər. Si Cinpin ilə görüş zamanı ABŞ-ın müdafiə naziri XXI əsrdə dünyanın inkişafının müəyyən mənada ABŞ-Çin münasibətlərindən asılı olduğunu vurğuladı. Qeyd edək ki, ABŞ müdafiə nazirinin Çinə səfəri ilə eyni zamanda ABŞ-da qəbul edilən bir qanun münasibətlərə ciddi təsir etdi. Belə ki, ABŞ konqresinin nümayəndələr palatası tərəfindən Tayvana silah satışına icazə verilməsinə dair qanun layihəsi qəbul edildi. Bununla bağlı çinli nazir ABŞ həmkarına kəskin etirazını bildirdi, ABŞ-ı öhdəliklərini pozmaqda, Çinin daxili işinə qarışmaqda, Tayvan boğazında sülhə mane olmaqda ittiham etdi. ABŞ müdafiə naziri isə bütün bunlara cavab olaraq, Çinin ərazi bütövlüyünün ABŞ tərəfindən dəstəkləndiyini qeyd etdi. Danışıqlar zamanı Çin tərəfi bölgədə ABŞ-Yaponiya alyansının yaranmasından ehtiyat etdiyini bildirdi, ABŞ tərəfi isə Çinin Şimali Koreyaya təsirinin artırılmasının zəruriliyini qeyd etdi.

Beləliklə, həm müzakirə edilən məsələlərə dair tərəflər arasındakı fikir ayrılıqları, həm də əlverişli bazalara yiyələnmək uğrunda mübarizə göstərir ki, Çin ilə ABŞ arasında münasibətlər öz gərginliyi ilə seçilir. Regionda, xüsusən Şərqi Çin dənizində zaman-zaman tərəflər bir-birilərinə güc nümayiş etdirirlər. ABŞ regionda Çin ilə müxtəlif xarakterli problemi olan dövlətlərin təminatçısı rolunda çıxış edir və Çinin regional nüfuzunun artmasına mane olmağa çalışır. Lakin iqtisadi sahədə ABŞ Çinin ixracının artması prosesinin qarşısını ala bilmir. Çin istehsallı məhsullar nəinki Cənub-Şərqi Asiya - Sakit okean re-

gionunda, hətta ABŞ-ın öz daxili bazarında böyük mövqe qazanmışdır. Çin məhsullarının sürətli şəkildə ABŞ-ın daxili bazarında möhkəmlənməsi narahatlıq doğuran məsələlərdən biridir.

Dünya siyasətində Çin Xalq Respublikası ilə Rusiya Federasiyasının əlaqələri mühüm rol oynayır. Bu ölkələrin əlaqələri hələ SSRİ dövründən möhkəm təməllərə malik olmuşdur. ÇXR keçmiş SSRİ-nin ən etibarlı müttəfiqi sayılırdı. Rusiya müstəqillik qazandıqdan sonra da Çin Xalq Respublikası ilə əlaqələri nəinki qoruyub saxlamış, hətta daha da möhkəmləndirmişdir. Beynəlxalq münasibətlərdə bu iki ölkə əksər məqamlarda vahid mövqedən çıxış edir. Amerika ilə münasibətlərin gərginliyi Çin və Rusiyanı daha da yaxınlaşdırır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında Çin-Rusiya münasibətlərinin yaxınlığı daha aşkar hiss olunur. Bundan başqa, ölkələr arasında qarşılıqlı olaraq ticarət-iqtisadi, turizm və mədəni əlaqələr də inkişaf etdirilir. Hazırda Çin-Rusiya əlaqələrinə Hindistanın da qoşulmaq meyli müşahidə edilir. 2014-cü ildən Rusiya-Çin və Hindistan üçbucağı məsələsi geosiyasətdə diqqət mərkəzinə çəkilməkdədir. Bu, dünyanın qütbləşməsində yeni mənzərə yarada biləcək faktordur.

Çinin Cənub-Şərqi Asiya, Mərkəzi Asiya, Uzaq Şərq və Cənubi Çin dənizi regionlarında uzunmüddətli iqtisadi və siyasi məqsədləri artıq aydın hiss olunur. ÇXR XXI əsrin başlanğıcından ümumi Asiya Ticarət İttifaqına rəhbərliyə başlamışdır. Dünyanın ən sürətlə inkişaf edən regionu olan Şərqi və Cənub-Şərqi Asiyanın iqtisadi inkişaf şərtlərini, demək olar ki, Çin müəyyən edir. ÇXR Sinqapur,

Tailand, Malayziya, Filippin, İndoneziya kimi ölkələrdə mövqelərini möhkəmləndirmiş, nüfuz sahibinə çevrilmiş, zəngin Çin diasporu tərəfindən iqtisadi və siyasi yardım alır. Güclü Çin diasporu region dövlətlərinin Çinmeyilli siyasətinə öz təsirini göstərir. Belə ki, Cənub-Şərqi Asiya ölkələrinin əksəriyyətinin ticarət və maliyyə mənbələrinə çinlilər nəzarət edir. Beləliklə, Çin Şərqi və Cənub-Şərqi Asiya regionunda mövqeyini ABŞ-ın ona qarşı bütün tədbirlərinə baxmayaraq, artıq, demək olar ki, möhkəmləndirmişdir. Çinin bu region ilə əlaqələri həm ayrı-ayrı dövlətlər, həm də regional təşkilatlar vasitəsilə genişləndirilir. Hər iki formatda Çin ilə digər dövlətlərin rəqabət aparması xeyli çətindir. Bu prosesdə Çin Xalq Respublikası öz üstünlüyünü qoruyub saxlayır.

Ümumiyyətlə, dünya siyasətində beynəlxalq təşkilatlar böyük rol oynayırlar. Bəhs olunan təşkilatlarda Çinin iştirakı və ya üzvləri ilə münasibətləri bu dövlətin regiondakı siyasətinin üzvi tərkib hissəsidir. Asiya-Sakit okean regionunda beynəlxalq münasibətlərin tənzimlənməsinin norma və mexanizmləri Çinin aparıcı rol oynadığı **ASEAN** (Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası), Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı, Şanxay Əməkdaşlıq Təşkilatı və başqa qurumlar tərəfindən müəyyən olunur. ASEAN-ın təhlükəsizik problemləri üzrə Regional Forumunda da Çin fəal və həlledici rol oynayır. Bu qurum Asiya-Sakit okean regionunda sülh və təhlükəsizliyin təmin edilməsi ilə bağlı olaraq bütün məsələlərlə bağlı müzakirələr keçirir. Ümumiyyətlə, Çin və ASEAN iqtisadi, siyasi, mədəniyyət, humanitar və təhlükəsizlik sahələrində geniş əlaqələrə malikdirlər.

ASEAN ölkələrinin Çin ilə münasibətlərə xüsusi diqqət yetirməsinin digər səbəbləri də vardır. Həmin səbəblərin içərisində Asiya ölkələrinin geniş bazar olması, regiondakı təsir imkanları ilə yanaşı 2001-ci ildə Ümumdünya Ticarət Təşkilatına üzvlüyünü də qeyd etmək olar. Çinin bu təşkilata üzvlüyü onun Cənub-Şərqi Asiya regionu ölkələri arasında etimad qazanmasına səbəb olmuşdur (Çınar Y. Çin'in Güney Doğu Asya'da Bölgesel İşbirliğine Açık Hegemonya Girişiminin Temelleri//Uluslararası hukuk ve politika, cilt 9, sayı 34, 2013, s.1-26, s.4). 2010-cu ildə rəsmi olaraq Çin-ASEAN azad ticarət zonası yaradılmışdır. Qeyd etmək lazımdır ki, belə bir azad ticarət zonasının yaradılması təklifi hələ ötən əsrin 90-cı illərində irəli sürülmüşdü. Həmin təklifdən keçən 10 il ərzində bu istiqamətdə geniş danışıqlar aparılmış, sazişlər bağlanmışdır. 2010-cu ildə ASEAN-ın baş katibi Surin Pitsuvan jurnalistlərə verdiyi müsahibələrindən birində qeyd etmişdi ki, Çin-ASEAN azad ticarət zonasının yaradılması təkcə Asiya deyil, dünya iqtisadiyyatının böhrandan çıxmasına kömək edəcəkdir.[1] Beləliklə, Çinin regionda iqtisadi və siyasi nüfuzunun artması onun ASEAN ilə əlaqələrinin getdikcə inkişafına və Çinin bu ölkələrin bazarında möhkəm yer tutmasına səbəb olmuşdur.

«Böyük İpək Yolu»nun fəaliyyətində mühüm rol oynayan Çin, həmçinin xüsusilə ASEAN ölkələrini də əhatə edən dövlətlər də daxil olmaqla yeni "Dəniz İpək Yolu"-nun qurulmasının marağındadır. Bu təşəbbüslə Çinin baş naziri Li Keçyan Bruneydə keçirilən 16-cı ASEAN sammi-

[1] Создание зоны свободной торговли Китай-АСЕАН – образы взаимовыгодного регионального сотрудничества - http://russian.people.com.cn/95181/6857733.html, (02.01.2010)

tində və ÇXR-in sədri Si Cinpin isə 2013-cü ildə İndoneziya parlamentində çıxış etmişlər. Onlar nitqlərində region ölkələri arasında dəniz ticarətinin genişləndirilməsinin vacibliyini qeyd etmiş, strateji əhəmiyyətini vurğulamışlar.

Çinin ASEAN ölkələri ilə əməkdaşlığı, genişləndirilməkdə və mövqelərini möhkəmləndirməkdə səylərini artırmasına təsir edən digər bir səbəb də vardır. Buda ABŞ-ın ASEAN ölkələrinin bazarında möhkəmlənməsi sərhədləri ilə bağlıdır. Maraqların toqquşması nəticəsində ASEAN ABŞ-Çin qarşıdurmasının ən gərgin olduğu məkanlardan birinə çevrilmişdir. Mövqelərini qorumaq üçün ABŞ regionun Çin ilə rəqabət aparan və Çinin dənizlərdə adalar uğrunda mübahisəli məsələləri olan dövlətlərinə mütəmadi hərbi yardımlar edir. Həmin yardımlar dövlətləri gücləndirirsə, Çində isə antiamerikan əhval-ruhiyyəsinin artmasına səbəb olur. ABŞ eyni zamanda ASEAN ölkələrinə müxtəlif formada təzyiqlər göstərir. Artıq ASEAN-a üzv olan bir sıra ölkələr ABŞ-Çin qarşıdurmasında Vaşinqtonu seçmişlər. Çinin regionda ən böyük rəqiblərindən biri olan Hindistanın da ABŞ ilə əməkdaşlığa üstünlük verməsi rəsmi Pekini narahat edir. Analitiklər bu meylin gələcəkdə daha da güclənəcəyini proqnozlaşdırırlar.[1]

Həmin dövlətlər belə hesab edirlər ki, Çinin regionda getdikcə güclənən və artan təzyiqləri qarşısında uzaq ABŞ ilə əməkdaşlıq yalnız fayda verər. ABŞ-dan yardımlar alan bu ölkələr sosial-iqtisadi inkişafları üçün əməkdaşlığın genişləndirilməsini əhəmiyyətli hesab edirlər. Bütün bunları yaxından izləyən Çin rəsmiləri ABŞ-ın regiondakı təsirlərinə zahirən loyal yanaşır, eyni zamanda,

[1] Qlobal siyasət: təhdidlər, çağırışlar, ümidlər – /Newtimes.az analitik informasiya portalının məqalələr toplusu/ Bakı, 2013, səh.220

region dövlətlərində öz mövqeyini genişləndirməyi heç vaxt ikinci plana keçirmir. Beləliklə, region dövlətləri uğrunda mövqelər uğrunda ciddi bir rəqabət mövcuddur və həmin proses davam etməkdədir.

Çin Xalq Respublikası iqtisadi qüdrətinin artması digər sahələrdə də özünü göstərir. Çin 2012-ci ildə dünya üzrə inşaat və sərmayə sektorunda liderlik qazanmışdır. Çinin bu sahədə lider olmasını təmin edən üç inşaat şirkəti onun Cənub-Şərqi Asiyada da rolunun güclənməsinə səbəb olmuşdur. Dəmiryol tikintisində Çinin liderliyini "China Railway Construction Cooperation" (CRCC) və"-China Railway Group Limited" (CRGL) şirkətləri təmin etmişdir. Çinin "China Communications Construction Company" adlı yükdaşıma şirkəti də bu ölkənin bəhs olunan regionda möhkəmlənməsində xüsusi rol oynayır. Çinin bu şirkətləri dünyanın həmçinin müxtəlif regionlarında nəhəng layihələri öz üzərlərinə götürərək uğurla reallaşdırırlar. (Çınar Y. Çin'in Güney Doğu Asya'da Bölgesel İşbirliğine Açık Hegemonya Girişiminin Temelleri // Uluslararası hukuk ve politika, cilt 9, sayı 34, 2013, s.1-26 ,s.10). Belə böyük layihələrin reallaşdırılması artıq dünyanın bir çox regionlarında Çinin iqtisadi mövqeyini və təsirini gücləndirmiş, eyni zamanda rəqiblərində narahatlıqlar doğurmuşdur.

Məlum olduğu kimi, Çinin regiona və eləcə də dünyaya açılması üçün əsas qapı kimi Honkonqun xüsusi rolu vardır. Belə ki, Çinin bu muxtar rayonu dünyanın müxtəlif bölgələrindən səhmləri özünə cəlb edir. Heç əbəs deyildir ki, bir çox dövlətlər Aralıq dənizindən Honkonqa qədər olan ərazidə bir-birilərinin ticarətinə və nüfuzuna mane

olmaq üçün müxtəlif vasitələrlə mübarizə aparırlar. Bu mübarizədə Çin xüsusi fəallıq göstərir. Çinin yeni regional və dünya dövləti rolunu reallaşdırma vasitələrindən biri də **Şanxay Əməkdaşlıq Təşkilatı** (ŞƏT) bu baxımdan diqqəti cəlb edir. Hazırda Çin ŞƏT-dən öz maraqları üçün istifadə etməyə, geosiyasi tarazlığı və SSRİ-nin dağılmasından sonrakı müddət ərzində Mərkəzi Asiya respublikalarının ənənəvi daxili və xarici əlaqələr sistemini dəyişməyə çalışır.[1] Məlumdur ki, təşkilatın siyasi cəhətdən maraqlandığı problemlər regionda terrorizmə, separatçılığa (Şimali Qafqaz, Özbəkistan, Qırğızıstan, Tacikistan və Çinin Sintszyan – Uyğur Muxtar Rayonunda) mübarizə aparmaq, ABŞ və NATO-nun Mərkəzi Asiyada təsirinin qarşısını almaqdır.

Beynəlxalq müstəvidə Çin hökuməti bu təşkilata iqtisadi və siyasi tərəfdaşlıq təşkilatı kimi baxdığını dəfələrlə bəyan etmişdir. Bundan əlavə, Çin region dövlətləri ilə sərhəd problemlərini həll edərək təcavüzkar siyasət yürütmədiyini göstərmiş və onların etimadını qazana bilmişdir. Bu mənada Pekin ŞƏT-ə bölgədə öz nüfuzunu artırmaq vasitəsi kimi baxır.[2]

Nəzərə almaq lazımdır ki, Çinin Mərkəzi Asiya ölkələri ilə münasibətləri zəngin tarixi təcrübəyə söykənir. Bu dövlət həm də Şərqi Türküstanın coğrafi, tarixi və mədəni əlaqələrindən istifadə etməklə regionda strateji üstünlük əldə etmək imkanına malikdir. Ona görə də regionda

---

[1] Каукенов А. Политика Китая в шанхайской организации сотрудничества // Интеграция, Азия и Кавказ, №3 (51), 2007, s.74-89, s.74

[2] Özdaşlı E. Çin ve Rusya Federasyonunun perspektifinden Şanghay iş birliğinə doğru // Mehmet Akif Ersoy Üniversitesi, Sosial Bilimler Enstitüsü Dergisi, sayı 6, 2012, s.110

Çin-Rusiya rəqabətinin gücləndiyi görünür. Lakin tarixə nəzər salsaq, Rusiyanın bu regiona gəlişinin XIX əsrdən başlandığını, Çinin isə bölgənin türk dövlətləri ilə münasibətlərinin tarixinin eramızdan əvvəllərə getdiyi məlum olur. Bütün amilləri diqqətdən qaçırmasaq, bir sözlə, Çinin Mərkəzi Asiyada geosiyası üstünlüyü rəqiblərindən daha çox olduğu aydın görünər. Bu baxımdan Çinin ŞƏT vasitəsilə Mərkəzi Asiyada təsir imkanları daha genişdir. Çin həm maliyyə-iqtisadi, həm də tarixi əlaqələr baxımından regionda rəqiblərini geridə qoyur.

Doğrudur, SSRİ-nin dağılmasından sonra Çin ilə ona həmsərhəd olan Mərkəzi Asiya ölkələri arasında da sərhəd problemləri ortaya çıxmışdır. Lakin bu problemlər də düşünülmüş siyasət nəticəsində uğurla həll edilmişdir. Məsələn, Qazaxıstan ilə Çin arasında mübahisə 900 kv.km-dən çox Qazaxıstan ərazisi üstündə idi. Ötən əsrin 90-cı illərində bu problem həmin sərhəd ərazisinin bölüşdürülməsi ilə həllini tapmışdır. Qeyd etmək lazımdır ki, bu zaman Qazaxıstan tərəfi Pekinin xahişini yerinə yetirərək hələ sovetlər zamanında sərhəddə tikilmiş istehkamların sökülməsinə razılıq vermişdi.

Qırğızıstan ilə də sərhəd problemi bu ölkənin az da olsa mübahisəli ərazidən Çinə güzəştə getməsi ilə həll edildi. Tərəflər bundan sonra geniş əməkdaşlığa başladılar. Lakin nisbətən uzun sürən proses Tacikistan ilə ərazi mübahisəsinin həlli istiqamətində oldu.

Belə ki, Pekin bu ölkənin nisbətən çox ərazisinə iddia edirdi. Buna baxmayaraq, problem Tacikistanın Karzak aşırımı bölgəsindəki həmin əraziyə nəzarəti öz əlində

saxlaması və Markansu çayı yaxınlığında 200 kv.km-lik digər bir ərazini Çinə verməsi ilə öz həll edilmiş oldu.[1]

Çinin Qazaxıstan, Qırğızıstan və Tacikistan ilə ərazi-sərhəd məsələlərini həll etməsi həm Şanxay Əməkdaşlıq Təşkilatında çoxtərəfli, həm də həmin ölkələrlə ikitərəfli formatda əməkdaşlığının genişlənməsinə təsir etmişdir. Çin bununla da regionda rəqibləri olan digər dövlətlərin nüfuzlarının möhkəmlənməsinə mane ola bilmişdir.

ÇXR-in fəal iştirak etdiyi beynəlxalq qruplaşmalardan biri də Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası İttifaqından ibarət **BRİCS**-dir. Bu assosiasiya əvvəlcə BRİC adlanırdı, 2010-cu ildə Cənubi Afrika Respublikasının qoşulmasından sonra isə qruplaşma BRİCS adını almışdır. BRİC adına ilk dəfə iqtisadi termin və ya abreviatura olaraq "Goldman Sachs" şirkətinin 2001-ci ilin analitik hesabatında rast gəlinmişdir. İlkin vaxtlarda BRİC-ə iqtisadi siyasətlərində heç bir əlaqələndirmə olmayan ayrı-ayrı ölkələrin inkişaf səviyyəsinə görə təsnifləşdirildiyi qrup kimi baxılmışdır. Qeyd etmək lazımdır ki, Qərbin maraqlarına xidmət edən mərkəzlər BRİCS-i bir qrup deyil, yalnız iqtisadçı Jim O`Neilin ("Goldman Sachs"-ın əməkdaşı) yaratdığı ümumi siyasi, iqtisadi maraqları olmayan ölkələrin baş hərflərindən götürülmüş ad kimi qəbul edirlər (Does the BRİCS Group matter? Council on Foreign Relations. March 30, 2012).

Hazırda dünya ərazisinin 25%-i, əhalisinin 40%-i, ÜDM-nin 14,6%-i bu qrupa daxil olan ölkələrdə cəmləşmişdir.

---

[1] Парамонов В. Столповский О. Погранично-территориальные проблемы в китайско-центральноазиастких отношениях: решены окончательно и бесповоротно. С.1-7,s.1-http://ceasia.ru/безопасность погранично-территориалные проблемы в китайско-йентральноазиатских отношениях решены окончательно и бесповоротно. Часть 2.html, (27.08.2014

Son 10 ildə qrup ölkələrinin ümumi iqtisadiyyatı 4,2 dəfə artmışdır. Tədqiqatlarda istinad edilən dəqiqləşdirilmiş aşağıdakı cədvəldən də göründüyü kimi, həmin ölkələrin göstəriciləri onların yeni dünya nəhənglərinə çevrilməsi potensialının real olduğunu nəzərə çarpdırır:

| **Dünya üzrə sıralaması** | **Braziliya** | **Rusiya** | **Hindistan** | **Çin** |
|---|---|---|---|---|
| Ərazi | 5 | 1 | 7 | 3 |
| Əhali | 5 | 9 | 2 | 1 |
| İşçi qüvvəsi | 5 | 7 | 2 | 1 |
| ÜDM (alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla) | 7 | 6 | 3 | 2 |
| Qızıl-valyuta ehtiyatları | 7 | 4 | 6 | 1 |
| Hərbi xərclər | 12 | 5 | 10 | 2 |

Qeyd etmək lazımdır ki, BRİCS iqtisadi blok kimi yaransa da, üzvləri tərəfindən təşkilatın siyasi ittifaqa çevrilməsinə, öz iqtisadi gücünü siyasi təsirə çevirməyə cəhdlər edilmişdir. Bu prosesi iqtisadi gücün geosiyasi təsirə çevrilmək cəhdi kimi də dəyərləndirmək olar. BRİC ölkələrindən ikisinin BMT TŞ-nin daimi üzvü, 3-nün nüvə dövləti olduğunu nəzərə aldıqda qrupun böyük siyasi çəkisinin və təsirinin olduğu aydın görünür. Bu mənada assosiasiyanın Çində keçirilən 2011-ci il sammitindən sonra Rusiyanın həmin dövrdə prezidenti D.Medvedevin çıxışı diqqəti cəlb edir: "Bizim iqtisadi potensialımız və siyasi imkanlarımız müxtəlif sahələrdə əməkdaşlığı genişləndirməyə imkan yaradır".[1]

BRİCS ölkələrinin iqtisadiyyatları bir-birini tamamlayır.

[1] В Китае состоялся саммит. БРИКС - http://kremlin.ru/news/10937, (14.04.2011).

Bu beşlik beynəlxalq aləmdə inkişaf etməkdə olan ölkələrin rolunu artırmağa çalışır. BRİCS ölkələri beynəlxalq əməkdaşlıq üsulu kimi "böyük iyirmilik" mexanizmini müdafiə edir. Bu dövlətlər beynəlxalq maliyyə sisteminin də dəyişdirilməsinə çalışırlar. Belə ki, BRİCS ölkələrinin liderləri bu zərurəti hazırda əsas iqtisadi fəallığın sürətlə inkişaf etməkdə olan ölkələrə keçməsi ilə izah edirlər.[1] Bu mənada sürətlə inkişaf edən Çinin dünya siyasəti və iqtisadiyyatında nüfuzu xüsusilə diqqəti cəlb edir.

Çin tərəfi Şimali Koreyanın nüvə problemi üzrə mütəmadi olaraq keçirilən altıtərəfli danışıqlarda da həlledici rol oynayır. Əslində Koreya müharibəsi ilə əsası qoyulan və Asiyada Çin, Rusiya, ABŞ və Yaponiya arasında mübarizə şəklində davam edən Koreya problemi Koreya yarımadasında nüvə silahlanması səviyyəsinədək çatmışdır (s.198). Belə ki, Şimali Koreyanın uranın zənginləşdirilməsi proqramı region ölkələrini, xüsusilə Cənubi Koreyanı və regionda maraqları olan ABŞ-ı narahat edir. Ona görə də ABŞ Şimali Koreyanı daim təzyiq altında saxlamaq üçün müxtəlif üsullardan istifadə edir.

Məlum olduğu kimi, Şimali Koreyanın regionda yeganə müttəfiqi və dayağı Çin Xalq Respublikasıdır. Şimali Koreya ilə tarixi, mədəni və ən əsası, ideoloji yaxınlığı və Koreya Xalq Demokratik Respublikasının beynəlxalq aləmdə təklənməsi Çini bu ölkənin müttəfiqinə çevirmişdir. Şimali Koreyanın nüvə hədələri ilə bağlı problemin həlli sahəsində ABŞ-ın və digər ölkələrin Çinlə əməkdaşlığının səbəbi kimi bu dövlətin Koreyaya güclü təsirə malik olma-

[1] Саммит БРИКС: Роль стран участниц объединения на международной арене растет -http://www.cntv.ru/2013/03/27/ARTI1364348117001161.shtml, (27.03.2013)

sı göstərilir. Pxenyanın nüvə hədələri isə həqiqətən də region və bütövlükdə planet üçün böyük təhlükədir. Lakin problemin əsl səbəbi regionda nüfuz dairələri uğrunda mübarizə hesab olunur. Çin və ABŞ Koreya yarımadasında öz təsirlərini saxlamağın qeydinə qalırlar. Aralarında rəqabətə baxmayaraq, ABŞ və Cənubi Koreya Pxenyanın qarşısını almaq üçün ÇXR-in nüfuzuna və təsirinə ehtiyac duyurlar. Çin də öz növbəsində bu imkandan faydalanmağa çalışır. Ona görə də əslində Şimali Koreyanın nüvə proqramı regional əməkdaşlığın inkişaf istiqamətinə təsir edən amillərdən biridir.

Məşhur Amerika politoloqu Ziqmund Bjezinski hesab edir ki, Şimali Koreya tərəfindən nüvə təhlükəsi Şimal-Şərqi Asiyada regional əməkdaşlığın perspektivləri üçün sınaq rolu oynayır. Əgər ABŞ bu sahədə irəliləyişə nail ola bilməsə, regionda gərginlik qaçılmazdır. Bu isə Amerikanın Şimal-Şərqi Asiyadakı mövqeləri üçün böyük zərbə ola bilər. Halbuki Çin, Yaponiya və Rusiyanın mövcud vəziyyətə vahid yanaşmasına nail olmaqla, ABŞ təhlükəsizlik sahəsində daha böyük miqyaslı əməkdaşlığa nail ola bilər.[1] Bu əməkdaşlığın davam etdirilməsi üçün ABŞ səyləri gücləndirir, altıtərəfli danışıqlarda nəticə əldə edilməsinə çalışır. Amma qeyd etmək lazımdır ki, dəfələrlə danışıqların pozulmasında ABŞ-ın özünün günahı olmuşdur. Çünki bu dövlət problemin həllini daim öz maraqlarına uyğun reallaşdırmağa çalışmışdır. Bu isə tərəflər arasında razılığa gəlinməməsinə və danışıqların nəticəsiz qalmasına səbəb olur.

---

[1] Бзежинский З.К. Выбор: мировое государство и глобальное лидерство, М.:Межд. отнош., 2005, 288 с., с.164

Çinin marağının artdığı regionlardan biri də **Fars körfəzi ölkələri**dir. Hazırda siyasi sabitlik və etibarlı istehlakçıya ehtiyac duyan Fars körfəzinin neft ixracatçısı olan dövlətləri də Çinə meyil edirlər. Belə ki, ABŞ-dan fərqli olaraq ÇXR sabitliyi demokratiyadan daha vacib hesab edir və özünün etibarlı həmkar olduğunu nümayiş etdirir.

Ekspertlərin fikrincə, **Yaxın Şərq regionu**nun siyasi cəhətdən ABŞ-dan ayrılaraq Çinə doğru yönəlməsi Atlantik əməkdaşlığı üçün də təhlükə yaradaraq, Avropa ölkələrinin Birləşmiş Ştatlar ilə münasibətlərinə təsir göstərə bilər.[1] Belə hesab edirlər ki, ABŞ-ın region ölkələrinə münasibətdə yürütdüyü siyasət və hərbi təcavüzü burada neft maraqları olan Avropa ölkələrinin mənafeyinə toxunur. Yaranmış belə şəraitə baxmayaraq, Avropa dövlətləri ABŞ-a qarşı açıq çıxış etmir, təmkinlik nümayiş etdirirlər.

Artıq qeyd edildiyi kimi, aralarında ərazi mübahisələrinin mövcudluğuna baxmayaraq, Çin qonşuları ilə münasibətlərini gərginləşdirmək niyyətində deyildir. Çin diplomatiyasının fəaliyyəti nəticəsində Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Vyetnam, Laos və Hindistan ilə ərazi mübahisələri həll edilmiş və ya müvəqqəti olaraq dayandırılmış, münasibətlər tənzimlənmişdir. Nəticədə Çin münaqişəli ərazilərin yalnız 50 %-nə sahib olmuşdur. Əslində belə vəziyyət indiki mərhələ üçün Çini qane edir. Hazırda Çinin Senkaku, Parasel, Spratli adaları kimi mübahisəli ərazilər uğrunda qonşularına olan təzyiqi kifayət qədər zəifləmiş, onların arasında gərginlik azalmışdır. Əvəzində həmin ölkələrdə Çinin iqtisadi fəaliyyəti ge-

[1] Уткин А. Подъем и падение Запада. М.: АСТ изд-во, 2008, 761 s., s.535

nişlənmişdir. Bu isə Çinin arzu etdiyi fəaliyyət azadlığına şərait yaratmışdır[1]. Əlbəttə, yuxarıda qeyd olunanlar Çinin bu ərazilərə iddialardan əl çəkməsi demək deyildir. Sadəcə, ÇXR hərtərəfli inkişafına maneə ola biləcək siyasi gərginliklərdən müvəqqəti olaraq uzaqlaşmağa çalışır. Bunun əvəzində Çin həmin ölkələrə iqtisadi cəhətdən daha güclü nüfuz edir, çinlilərin məskunlaşması isə artır.

Çin Xalq Respublikası Rusiyaya Asiya-Sakit okean regionunda əsas oyunçu kimi baxmır. Hazırda Rusiya tərəfi Çin üçün yalnız ŞƏT üzrə əməkdaş və Koreya üzrə altıtərəfli danışıqların "iştirakçısı" olaraq əhəmiyyət kəsb edir. Bundan əlavə, Rusiya Asiya-Sakit okean əməkdaşlığının üzvü kimi bu forumda az əhəmiyyətli rola malikdir.[2] İki ölkə arasındakı münasibətlərə gəldikdə isə sülhün saxlanması uğrunda və bir dövlətin hegemonluğuna qarşı mübarizə kimi ümumi strateji maraqlarının üst-üstə düşməsi ilə yanaşı, bir sıra ziddiyyətlər də qalır. Rusiyanı ölkənin Uzaq Şərq bölgəsinə çinli mühacirlər və ticarətçilərin getdikcə artan axını narahat edir. Belə ki, bu axın həmin bölgənin kütləvi şəkildə çinlilər tərəfindən məskunlaşması təhlükəsini yaradır. Hətta sakit həyata keçirilən Çin ekspansiyası onunla nəticələnər ki, XXI əsrin ortalarında Rusiya Federasiyasında 10 milyondan artıq çinli yaşaya bilər. Bu da ruslardan sonra çinlilərin ikinci yerdə olmasına gətirib çıxara bilər.[3] Digər tərəfdən, Çin Koreyanın birləşməsini öz himayəsi altında reallaşdırmaq cəhdi ilə də Rusiyanın Uzaq Şərqi üçün təhlükə törədir. Bundan

---

[1] Уткин А. Подъем и падение Запада. М.: АСТ изд-во, 2008, 761 s., s.527

[2] Михиев В. Внешняя политика Китая при новом руководстве. Журнал. Азия и Африка сегодня, 2005, №12, стр.7.

[3] Ağalar Abbasbəyli. Dünya siyasəti. Bakı, 2011, səh.439

əlavə, Çin ilə Rusiya arasındakı ərazi mübahisəsi də öz həllini tapmamışdır.[1]

XX əsrdə sosialist düşərgəsi daxilində təzadlı və mürəkkəb inkişaf yolu keçmiş Çin-Rusiya (keçmiş SSRİ) münasibətləri 1990-cı illərdən başlayaraq tədricən yaxınlaşma istiqaməti götürmüşdür. ÇXR Rusiya ilə münasibətlərini inkişaf etdirməyə xüsusi əhəmiyyət verir. Bu dövlətlər bir-birinə strateji tərəfdaş kimi baxırlar. Artıq qeyd edildiyi kimi, Çin Rusiya ilə Şanxay Əməkdaşlıq Təşkilatında sıx əməkdaşlıq həyata keçirir, xüsusilə ABŞ-ın hegemonluğuna qarşı mübarizə aparmaq məqsədilə çoxqütblü dünyanın formalaşdırılmasında Rusiya ilə eyni mövqedən çıxış edir. Buna baxmayaraq həm Rusiya, həm də Çin ABŞ ilə münasibətlərinin pozulmasına maraq göstərmirlər. Hətta hazırda Ukrayna probleminə görə ABŞ-ın sanksiyalar tətbiq etdiyi dövrdə də Rusiya Amerikaya qarşı münasibətini tam sərtləşdirməmiş, ehtiyat üçün müəyyən yer saxlamaqda davam edir. ABŞ-ın Rusiya və Çində insan hüquqlarının pozulmasına dair bu ölkələrin ünvanına söylədiyi kəskin tənqidin əleyhinə olaraq, Rusiya Sintzyan probleminin həllində Çini dəstəkləyir və Çin də Rusiyanın Çeçenistan probleminə eyni anlayışı nümayiş etdirir. Bir çox beynəlxalq məsələlər üzrə Rusiya və Çinin mövqeyi üst-üstə düşür. Belə yanaşma əslində beynəlxalq səviyyədə ABŞ-ın hegemonluğuna qarşı yaranmış format kimi qəbul olunur.

İki ölkə arasında hərbi sahədə əməkdaşlıq fəal inkişaf edir. Rusiya Çinə silah satışında qabaqcıl yerlərdən birini tutur. Qeyd olunan sahədə əməkdaşlığın inkişafı onunla

---

[1] Василенко И.А. Геополитика современного мира. М.:Гардарики, , 2006, 317с., с.276

izah edilə bilər ki, 1989-cu ildə Çində Temanem meydanında tələbələrin nümayişinin qarşısının qəddarlıqla alınmasına cavab olaraq Qərb dövlətləri Çinə silah satışına embarqo qoymuşdur. Bunun əksinə olaraq Rusiya Çinə silah satışını genişləndirmişdir.

Çin ilə Hindistan arasında da ərazi mübahisələri və ziddiyyətlərin mövcud olması kəskin gərginlik həddinə çatmır. Ukraynalı politoloq İ.A.Vasilenkonun qeyd etdiyi kimi, Çinin hətta Pakistan və Birma ilə hərbi əməkdaşlığı inkişaf etdirməsinə baxmayaraq, bu, Hindistanla toqquşmaya yol verməyəcəkdir.[1] Çünki hərbi toqquşmalar bu dövlətin maraqlarına qətiyyən uyğun deyil və inkişafı yolunda maneə ola bilər. Ona görə də Çin sakit beynəlxalq fəaliyyətin gerçəkləşdirilməsi xəttinə üstünlük verir.

Beləliklə, Çin Xalq Respublikasının xarici siyasət strategiyasında aşağıdakı bir neçə istiqamət prioritet təşkil edir:

1. Siyasi səhnədə qlobal və regional qarşıdurmalardan uzaq durmaqla iqtisadi mövqelərinin gücləndirilməsi.

2. Bir tərəfdən ölkənin milli təhlükəsizliyi üçün təhdid törədən ekstremizm, terrorizm kimi problemlərin, digər tərəfdən isə ərzaq təhlükəsizliyi və ətraf mühitin mühafizəsi problemlərinin həlli üçün səmərəli beynəlxalq əməkdaşlıq.

3. Çinin təşəbbüskar olduğu layihələrin beynəlxalq aləmdə daha çox tərəfdaşlıq qazanması.

Artıq qeyd olunduğu kimi, Çinin xarici siyasət strategiyasında mühüm prioritetlərdən biri ölkənin ərzaq təhlükəsizliyinin etibarlı təminatı üçün beynəlxalq əməkdaşlıqdır. Dünyanın ən çoxsaylı əhalisinə malik Çin sə-

---

[1] Василенко И.А. Геополитика современного мира. М.:Гардарики, , 2006, 317с., с.277

nayeləşmə dövrünə daxil olduqdan sonra ətraf mühitin qorunması və ekoloji problemlərlə üzləşmişdir. Bu gün Çin dünyada atmosferin, eləcə də daxili su ehtiyatlarının çirklənməsi baxımından ən öndə gedən ölkələrdən biridir. Bu isə təbii olaraq ölkənin ərzaq təhlükəsizliyi üçün ən böyük təhdiddir. Dünya liderliyinə iddia edən Çin hökuməti bu istiqamətdə alternativ yollar axtarır. Belə yollardan biri də xarici ölkələrdə kənd təsərrüfatına yararlı torpaq sahələrinin uzunmüddətli icarəyə götürülməsidir. Bu da səbəbsiz deyildir. Çünki Çin dünyanın əkinə yararlı torpaqlarının 9%-nə sahibdir və taxıl istehlakına görə dünya taxılının 1/5 hissəsini verir. Çin 2007-ci ildən başlayaraq Cənubi Amerika, Şərqi və Qərbi Asiya və Afrikada əkinə yararlı torpaq sahələri almağa başlamışdır. Həmin siyasətin nəticəsində Argentina və Braziliyada daha çox qarğıdalı, soya lobyası və pambıq əkilmişdir. Ümumiyyətlə, 2009-cu ildə Çinin xarici ölkələrdə müqavilələr əsasında icarəyə götürdüyü (və ya aldığı) torpaq sahələrinin həcmi 2 milyon hektara çatmışdır. Bu onu göstərir ki, Çin ətraf təhlükəsizliyinin daha etibarlı təmin olunmasının daha uyğun yolu kimi ölkənin xaricində torpaqların icarəyə götürülməsini görür.

Müşahidə edilir ki, ÇXR-in hazırkı xarici siyasətinin strateji hədəflərindən biri də qonşu ölkələrlə yanaşı, böyük həcmli kreditlər verməklə digər xarici dövlətləri də müəyyən şərtlər çərçivəsində özündən asılı vəziyyətə salmaqdır. Artıq Çin Cənubi, Cənub-Şərqi Asiya ölkələri ilə yanaşı Mərkəzi Asiya ölkələrində də böyük kredit portfelinə malikdir. Bu ərazilərdə Çin digər rəqiblərini xeyli geridə qoyur.

“Yeni İpək Yolu” iqtisadi zonasının yaradılması Çinin Mərkəzi Asiya istiqamətində ən mühüm təşəbbüslərindən biridir. Çin Xalq Respublikasının Sədri Si Cinpin 2013-cü ilin sentyabr ayında Qazaxıstana səfəri zamanı Nazarbayev Universitetində olarkən ölkəsinin qədim İpək Yolunu yenidən bərpa etməklə, “Yeni İpək Yolu” iqtisadi zonasını yaratmaq təşəbbüsünü irəli sürmüşdür. “Yeni İpək Yolu” Avrasiya qitəsi boyunca 18 ölkəni və 3 milyard əhali daxil olmaqla, demək olar ki, dünyanın yarısını əhatə edir. Bu, böyük bir strateji hədəfə çatmaq məqsədi daşıyır. “Yeni İpək Yolu” iqtisadi zonasının Çin tərəfindən yaradılması Mərkəzi Asiya ilə Avropa arasında aşağıda qeyd olunan planların reallaşdırılması məqsədini daşıyır:

1. İlk növbədə iqtisadi bağlılığı möhkəmləndirmək üçün siyasi əlaqələri gücləndirmək;
2. Sakit okeandan Qara dənizə, Mərkəzi Asiyadan Hind okeanına qədər, Şərqi, Qərbi və Cənubi Asiya arasında böyük nəqliyyat dəhlizini tədricən qurmaq üçün infrastrukturu təkmilləşdirmək;
3. İqtisadi maneələri aradan qaldırmaq, ticarət və sərmayə xərclərini azaltmaq üçün tədbirlər görmək - bir sözlə, ticarət əlaqələrinin asanlaşdırılmasını təşkil etmək;
4. Əməliyyat xərclərinin azaldılması və iqtisadi rəqabət qabiliyyətinin artırılması ilə maliyyə riskini azaltmaq üçün pul mübadiləsi əməkdaşlığını gücləndirmək;
5. Xalqlar arasında iqtisadi, siyasi əlaqələrlə yanaşı, elmi, mədəni əlaqələri də gücləndirmək.

Mövcud iqtisadi zona ÇXR-in birbaşa Mərkəzi Asiya və ətraf ölkələrlə sərhədyanı ərazilərinin təhlükəsizliyini təmin etməklə yanaşı, regionun təbii ehtiyatlarının tədri-

cən mənimsənilməsini də sürətləndirəcəkdir. Artıq xeyli müddətdir ki, ÇXR "iqtisadi zona" planını tədricən həyata keçirir. Məsələn, uzunluğu 2800 km olan Çin-Qazaxıstan neft boru kəməri 2006-cı ildən etibarən fəaliyyətdədir və hazırda regionun iqtisadi inkişafında xüsusi rol oynayır.

"Yeni İpək Yolu" iqtisadi zonasında Çin maliyyə baxımından geniş bir strategiyasını reallaşdırmağa çalışır. ÇXR öz valyutasının işləklik coğrafiyasını və dövriyyəsini genişləndirməyi, yüksək məbləğdə verilən kreditlərin gələcəkdə yuanla qaytarılmasını və yuanla biznes fəaliyyətlərinin həyata keçirilməsini nəzərdə tutur. Beləliklə, ÇXR bu siyasətlə kredit verdiyi ölkələri həm iqtisadi baxımdan inkişaf etdirmək, həm də hərtərəfli şəkildə özündən asılı vəziyyətə salmaq istəyindədir. Belə fəaliyyət Çinin başlıca rəqibləri tərəfindən qısqanclıqla qarşılanır.

Beləliklə, Çinin sürətli iqtisadi inkişafı və dünyanın müxtəlif regionlarına yayılması ölkənin beynəlxalq həyatdakı siyasi mövqeyinə güclü təsir göstərir. Və bu gün beynəlxalq aləmdə Çin Xalq Respublikasının yeni dünya siyasətində aparıcı dövlətə çevrilməsi prosesi dərinləşir və genişlənir. Çin sakit diplomatiya yeritməklə müasir dünya siyasətində qarşısına qoyduğu məqsədləri reallaşdırmağa çalışır.

### 1.2. Çin Xalq Respublikasının Asiya ölkələri ilə əlaqələri

Çin Xalq Respublikasında İkinci Dünya müharibəsindən sonra yaranan yeni siyasət sistemi nəhəng ölkəni böhrandan çıxarmış və böyük inkişafın möhkəm əsaslarının yaradılması ilə nəticələnmişdir. Bununla belə, Çinin dün-

yaya açılma və geniş iqtisadi əməkdaşlıq siyasətinə keçidinin əsası XX əsrin səksəninci illərində qoyulmuşdur. Bir neçə illik hazırlıq işlərindən və başlanğıc tədbirlərindən sonra keçən yüzilliyin doxsanıncı illərinin əvvəllərindən etibarən ölkədə geniş miqyaslı iqtisadi dirçəliş müşahidə olunmağa başlamışdır. Proses tədricən sürətlənmiş və Çin Xalq Respublikası dünyanın qüdrətli dövlətlərindən birinə çevrilmişdir. Beləliklə, Çin Xalq Respublikasının daxili və xarici siyasətində baş verən dəyişikliklər bu ölkənin beynəlxalq münasibətlərin bütün subyektləri kimi, Asiya dövlətləri ilə münasibətlərinə də təsirini göstərmişdir. Ötən müddət ərzində Çin Xalq Respublikası özünün Asiya qonşuları ilə mehriban qonşuluq və dostluq münasibətləri qurmağa çalışmış, iqtisadi inkişafa geniş imkanlar yaratmaq və maneələrin yaranmasına yol verməmək üçün mübahisələrin sülh yolu ilə həlli məqsədini qarşıya qoymuşdur. Sürətli iqtisadi inkişafı və dünya siyasətində nüfuzu ÇXR-in Asiya ölkələri ilə münasibətlərinin aid olduğu region çərçivəsindən çıxaraq genişlənməsinə səbəb olmuşdur. Lakin fəal xarici siyasəti Çin ilə dünyanın digər aparıcı dövlətləri arasında müxtəlif regionlarda nüfuz dairələri uğrunda rəqabətə səbəb olmuşdur. Bu mənada ÇXR-in əsas rəqibi öz mövqelərini təkcə qlobal deyil, regional miqyasda da itirmək istəməyən Amerika Birləşmiş Ştatlarıdır. ABŞ bütün mümkün dinc yollarla Çinin yüksəlişinin qarşısını almağa çalışır.

Hazırda bu iki dövlətin maraqlarının toqquşduğu, Çinin özünün də aid olduğu Şərqi Asiya regionu, xüsusilə də onun cənub hissəsi diqqət mərkəzindədir. Çünki

Şərqi Asiyadakı başlıca inteqrasiya prosesləri məhz Cənub-Şərqi Asiya regionunda gedir.

Materik hissə və adalardan ibarət olan bu region əlverişli coğrafi-strateji mövqeyi, quru və su nəqliyyat yollarının əlverişliliyi baxımından misilsiz əhəmiyyətə malikdir. Son zamanlar Cənub-Şərqi Asiya regionunda "Çin amili"nin hegemonluq qazanmasının daxili səbəbləri "böyük qonşu"nun tarixən həmin regionda iqtisadi və mədəni təsiri, eyni zamanda, hərbi-siyasi baxımdan rəqibi olmayan böyük dövlət olmasıdır.[1]

Qeyd etmək lazımdır ki, bu regionun dövlətləri arasında inteqrasiya prosesləri ASEAN (Cənub-Şərqi Asiya Xalqları Assosiasiyası) çərçivəsində başlanmışdır. Bu təşkilat 1967-ci ildə yaranmış və ilk olaraq tərkibinə regionun 5 dövləti - İndoneziya, Malayziya, Sinqapur, Tailand və Filippin daxil olmuş, tədricən üzvlərin sayı artaraq bütün regionu əhatə etmişdir. Müxtəlif regional problemlər, o cümlədən 1997-1998-ci illərin Asiya iqtisadi böhranı bu assosiasiyanın bütövlükdə Şərqi Asiya, həmçinin regionun şimal-şərq hissəsi ilə əməkdaşlığının genişlənməsinə səbəb olmuşdur. Əməkdaşlığın güclənməsi ASEAN-ın həm təsir coğrafiyasını genişləndirmiş, həm də dünya siyasətində başlıca yerlərdən birini tutmağa kömək etmişdir.

Hazırda bu təşkilatla ÇXR-in əlaqələri yüksək səviyyədədir. ASEAN-ÇXR azad ticarət zonasının yaradılması həmin əməkdaşlığın zirvəsini təşkil edir. Bu ticarət zonası tərkibinə daxil olan ölkələrin əhalisinin sayına görə dünyada ən böyük, ümumi daxili məhsulunun həcminə görə isə üçüncü ən böyük zonadır.

---

[1] R.İsmayıl, N.Axundova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi (1945-2000-ci illər), I kitab, Bakı: Çaşıoğlu, 2001, 399s., s.155

Ümumiyyətlə, ÇXR-in ASEAN ölkələri ilə ilk rəsmi əlaqələrinin qurulması XX əsrin 90-cı illərin əvvəllərinə təsadüf edir. Ticarət-iqtisadi əlaqələrini genişləndirən Çin tezliklə ASEAN çərçivəsində müxtəlif qurumlarda fəal iştirak etməyə başladı. 1994-cü ildə Çin bu assosiasiya ilə təhlükəsizlik məsələləri üzrə dialoqa - Asiya Regional Forumu çərçivəsində əlaqələrə, 1997-ci ildə isə ASEAN+1 (ÇXR) formatında ikitərəfli və ASEAN+3 (ÇXR, Yaponiya, Cənubi Koreya) formatında çoxtərəfli əməkdaşlığa başlamışdır. [1]

Çin-ASEAN azad ticarət zonasının yaradılması ideyası 2002-ci ildə irəli sürülmüş, 2004-cü ildə tərəflər ticarətin liberallaşdırılması haqqında saziş imzalamış, 2007-ci ilin əvvəllərində isə xidmətlər üzrə ticarətin liberallaşdırılması haqqında razılıq əldə olunmuşdur (Целищев И.С. Восточная Азия: новая война роста и структурная трансформация. Moskva: İMGMO RAN, 2012, 118 s., s.103). Nəhayət, 2010-cu ildə rəsmi olaraq Çin-ASEAN azad ticarət zonası yaradılmışdır. Bu hadisə Asiyada və bütün dünyada əməkdaşlıq üçün əhəmiyyət kəsb edir. Bundan əlavə, Çin-ASEAN azad ticarət zonasının yaradılması region dövlətlərinin maliyyə böhranı əleyhinə mübarizə imkanlarını da artırır. Həmin zonanın yaradılması həm də ABŞ-ın regiondakı maraqlarına böyük zərbədir. Ona görə də Birləşmiş Ştatlar bütün maliyyə-iqtisadi və diplomatik-siyasi vasitələrlə buna mane olmağa çalışır.

Həmin səylərin məqsədini bilən Çin ASEAN çərçivəsində təkcə iqtisadi deyil, siyasi, təhlükəsizlik, mədəni

---

[1] Лексотюна А.В.США-КНР: соперничество в Юго-Восточной Азии обостяется, Азия и Африка сегодня. 2012. №3, с.2-9, с.3

sahələrdə də sıx əlaqələr saxlayır. ASEAN-ın Təhlükəsizlik üzrə Regional Forumu regionda sülh və təhlükəsizliyin təminatı ilə bağlı bütün məsələləri əhatə edən siyasi qurumdur.

Artıq qeyd edildiyi kimi, Çin ilə Şərqi və Cənub-Şərqi Asiya ölkələri arasında təşkilatlar səviyyəsində əməkdaşlığın inkişafına və Çinin sülhün qorunmasını əsas tutan xarici siyasətinə baxmayaraq, mübahisəli, öz həllini tapmamış çoxlu problemlər də qalır. Odur ki, bütövlükdə Asiya-Sakit okean regionunun bütün iqtisadiyyatları üçün inteqrasiya sahəsi haqqında razılıq əldə edilməmişdir. Çünki Asiya regionunda Çinin yeni mövqeyi qonşuları tərəfindən birmənalı qarşılanmır. Bu səbəbdən də ASEAN-Yaponiya və ASEAN-Cənubi Koreya xətti üzrə sazişlərin imzalanması ləngiyir. Lakin əvəzində 2005-ci ildə fəaliyyətə başlamış Şərqi Asiya İttifaqının yaradılmasına yönələn Şərqi Asiya sammitləri genişlənir və fəaliyyəti daha təsirli olur.

ASEAN-ın əhatə etdiyi ölkələr arasında bir sıra mübahisəli problemlər hələ də mövcuddur. Ən ciddi problem Çinin və bəzi ASEAN ölkələrinin (Vyetnam, Filippin, Malayziya, Bruney, Tayvan) Cənubi Çin dənizində yerləşən adalar üstündə bir-birilərinə qarşı ərazi iddiaları irəli sürmələridir.

Cənubi Çin dənizindəki problem Çin, Tayvan və ASEAN ölkələri arasında Parasel və Spratli (çincə Nanşa) adalarına dair ərazi mübahisələrini əhatə edir.Çin ilə bərabər, Parasel adalarına Vyetnam və Tayvan, Spratli adalarına isə Vyetnam, Tayvan, Filippin, Malayziya və Bruney iddia edirlər. Bütün Parasel adalarına Çin nəzarət edir. Spratli adalarından isə 6-sı Çinin, 21-i Vyetnamın, 8-i Filippinin,

3-ü Malayziyanın, 1-i isə Tayvanın nəzarətindədir. Qeyd olunan adalara nəzarət dünyada əhəmiyyətinə görə ikinci beynəlxalq dəniz yolu sayılan marşruta nəzarət etmək imkanı verir. Bu isə əlverişli ticarət yolu olduğundan dövlətlər arasında ziddiyyətləri də kəskinləşdirir. Dövlətlər həmin yola təkcə iqtisadi deyil, həmçinin strateji əhəmiyyətli kommunikasiya xətti kimi baxırlar.

Qeyd olunan adalara mübahisələrin səbəblərindən biri də adaların akvatoriyasında hədsiz balıq resurslarının olması, eləcə də Cənubi Çin dənizinin kontinental şelfində neft-qaz yataqlarının tapılmasıdır. Buna görə də Çinin ASEAN bölgəsində liderlik iddiası region ölkələri tərəfindən isti qarşılanmır. Həll olunmamış münaqişələrin qalması isə regionun təhlükəsizliyi təmin edilməsi və inteqrasiya proseslərinin dərinləşməsi üçün əlavə problemlər yaradır. Hər bir dövlətin enerji mənbələrindən daha çox pay almaq və enerji təhlükəsizliyini təmin etmək məqsədləri rəqabəti gücləndirir.

Şərqi Asiya sammitlərində isə ASEAN ölkələri ilə yanaşı Avstraliya, Yeni Zelandiya və Hindistan da iştirak edirlər. 2011-ci ildən etibarən region ölkələrinə ABŞ və Rusiya da qoşulmuşdur. Qeyd etmək lazımdır ki, son zamanlar keçirilən görüşlərdə ABŞ-ın irəli sürdüyü Sakit okean əməkdaşlığı ideyası ətrafında danışıqlar gedir (Тихоокеанская Азия: проблема ответственного лидерства (среднесрочный прогноз экономического развития. Отв. ред. В.Б.Амиров, В.В.Михеев. Moskva: İMGMO RAN, 2011, 89 s., s.4). Göründüyü kimi, Birləşmiş Ştatların regionda öz mövqeyini saxlamaq üçün fəaliyyət istiqamətlərindən biri də bu tipli layihələrdir. Həmin la-

yihələrin reallaşdırılması ilə ABŞ rəqiblərini sıxışdırmaq niyyəti güdür.

ABŞ-ın Çinin regional təsirinin qarşısını almaq səylərinə baxmayaraq, rəsmi Pekin hətta regional müttəfiqləri ilə münasibətlərini tənzimləyə bilmişdir. Məsələn, ASEAN çərçivəsində Yaponiya, Cənubi Koreya, Tailand, Sinqapur və s. dövlətlərlə çoxtərəfli əməkdaşlığa başlanmışdır. Bu isə ABŞ-ı fəaliyyətində daha diqqətlə olmağa vadar edir.

1997-1998-ci illərdə Asiyada iqtisadi böhran dövrü ASEAN və Çin münasibətlərində xüsusi bir mərhələ təşkil edir. Regionun demək olar ki, bütün ölkələri iqtisadi böhrandan zərər görərək, ağır vəziyyətə düşdülər. Belə bir şəraitdə Pekin cəsarətli bir addım atdı. Həmin ölkələrə yardım göstərilməsi haqqında qərar qəbul edildi. Çinin iqtisadi böhrandan zərər çəkmiş İndoneziya, Malayziya, Filippin, Tailand və Vyetnam kimi ASEAN dövlətlərinə yardım göstərməsi ÇXR-in Assosiasiya iştirakçıları arasında nüfuzunun artmasına səbəb olmuşdur. Eyni zamanda həmin ölkələrin əhalisi Çinə isti münasibət bəsləməyə başlamışlar. Bu isə rəsmi Pekinə əlavə imkanlar vermişdir. Çin region dövlətlərinə münasibətdə "ictimai diplomatiya"dan da istifadə edir və bu istiqamətdə Cənub-Şərqi Asiya ölkələri ilə tələbə mübadiləsini genişləndirir.[1] "İctimai diplomatiya" Çinin regionda nüfuzunun artırılmasında istifadə olunan başlıca vasitələrdən birinə çevrilmişdir. Bu diplomatiya Çinə marağı artırmışdır.

Çin regionun nisbətən kasıb dövlətləri olan Myanma, Kamboca və Laos ilə münasibətlərə xüsusi diqqət yetirir.

---

[1] Лексотюна А.В.США-КНР: соперничество в Юго-Восточной Азии обостяется, Азия и Африка сегодня. 2012. №3, с.2-9, с.3

Rəsmi Pekinin Hind okeanına çıxışını təmin edən Myanma ilə münasibətlərinin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, Myanma Çinin enerji daşınmasında gərgin Malakka boğazına alternativ nəqliyyat yolu ilə də təmin edilməsinə şərait yaradır. Ona görə də Çin bu ölkə ilə münasibətlərin möhkəmləndirilməsində daim maraqlıdır.

Qeyd etmək lazımdır ki, **Myanma** 1989-cu ilə kimi Birma adlanırdı. Ümumiyyətlə, "Birma" adı xarici mənşəlidir və ölkə daxilində istifadə edilmir. Coğrafi mövqeyinə görə bu ölkə Çin, Hindistan və Cənub-Şərqi Asiyanın Banqladeş, Laos və Tailand kimi ölkələri arasında strateji zonadır. Ölkənin Benqal körfəzi və Andaman dənizinə çıxışı vardır, sahil ərazisi isə Malakka boğazınadək uzanır. Göründüyü kimi, belə əlverişli mövqeyi Myanmanı regionun cəlbedici dövlətinə çevirir.

Myanmada baş verən daxili ictimai-siyasi proseslər, hakimiyyəti hərbçilərin ələ alması bu ölkənin Qərb dövlətləri tərəfindən təcrid olunmasına, 1997-ci ildən isə ona qarşı sanksiyaların tətbiqinə səbəb olmuşdur. Lakin əvəzində elə həmin il Myanma ASEAN-a üzv qəbul olunmuşdur. Yaranmış şərait Çin üçün olduqca əlverişli idi. Nəticədə ÇXR Myanmanın əsas müttəfiqinə çevrildi. Rəsmi Pekin Myanma-Qərb münasibətlərinin soyuqlaşmasından öz maraqlarını reallaşdırmaq naminə bacarıqla istifadə etdi. Həmin zamandan etibarən bu iki ölkə arasında yüksək səviyyəli görüşlər mütəmadi olaraq keçirilir. 2010-cu ildə ÇXR-in baş naziri Ven Tszyabao və az sonra ÇXR-in Sədri

Hu Tszintaonun bu ölkəyə səfəri Çin və Myanma arasında əlaqələrin genişlənməsinə daha bir təkan verdi.[1]

Myanma ilə iqtisadi əməkdaşlığın genişlənməsi ilə yanaşı, Çin tərəfindən bu ölkəyə edilən hərbi yardımlar da artır. Çinin Myanmaya hərbi yardımları xüsusilə Hindistan və ABŞ-ın narahatlığına səbəb olmuşdur. Çünki Hindistanı təkcə Myanmanın qaz ehtiyatları deyil, öz enerji təhlükəsizliyi də narahat edir. ABŞ isə ümumiyyətlə, Çinin regiondakı aktivliyindən, eyni zamanda da Myanma kimi strateji əhəmiyyətli və qaz ehtiyatına malik əraziyə nəzarət etməsindən narazıdır. ABŞ-da belə hesab edirlər ki, Çin ilə Myanma arasında enerji sahəsində əməkdaşlıq ABŞ-ın maraqlarına ziyan vurur.

Myanma ilə hərbi əməkdaşlıq Çinə bu ölkənin sahilindəki hərbi obyektlərə çıxış imkanı yaradır. Dərindən baxdıqda Çinin məqsədi Malakka körfəzinə nəzarəti əldə saxlamaqdır. Bu isə Çinə Yaponiyanın Yaxın Şərq neftinə və Avropa bazarlarına çıxışını nəzarətdə saxlamaq imkanı verir.[2] Nəticədə Çin başlıca rəqiblərindən biri olan Yaponiyanın dünya bazarlarına çıxışına əngəllər törətmiş olur.

ÇXR regionda ABŞ ilə münasibətləri gərgin olan ölkələrlə məharətlə əməkdaşlıq qura bilmişdir. Belə ki, rəsmi Pekin hələ 1990-cı illərdə ABŞ ilə ticarətdə problemləri olan **Laos və Kambocaya** kömək etmişdir. Hazırda isə Çin Kambocanın mühüm ticarət tərəfdaşlarından biridir. Çin ilə əlaqələrin inkişaf dinamikası haqqında Kamboca

---

[1] Матвеева Д.В. Отношения между Китаем и Маями в контексте энергетической дипломатии КНР- journals.tsu.ru/uploads/import/869/files/356-075.pdf s.75-78, s.75

[2] Василенко И.А. Геополитика современного мира. М.: 2002. с.275

krallığının baş nazirinin müavini və xarici işlər naziri Hor Namhonq 2013-cü il avqustun 21-də Çinin xarici işlər naziri Van İnin Pnompenə səfəri zamanı mətbuat konfransında bəyanatında məlumat vermişdir. Nazirin qeyd etdiyinə görə, iki ölkə arasında ticarət dövriyyəsinin ümumi həcmi 2012-ci ildə 2,9 milyard dollar təşkil etmişdir. 2017-ci ildə isə bu rəqəmin 5 milyard dolları ötəcəyi proqnozlaşdırılır.[1]

Çin regionun digər ölkələri ilə də əməkdaşlığa xüsusi diqqət yetirir. Bu baxımdan Laos ilə münasibətlər diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, bu dövlət Çinlə həmsərhəd ölkədir və Cənub-Şərqi Asiya ölkələri Assosiasiyasının üzvüdür. Çinli analitiklərin fikrincə, Laos Çinin ASEAN ilə yaxınlaşmasında mühüm rol oynaya və regional mübahisələrin həllində vasitəçi ola bilər. Əlavə edək ki, Çin Kamboca və Laos ilə iqtisadi tərəfdaş olmaqla bərabər, bu ölkələri Vyetnamın təsirindən də qoruyur. Həmin ölkələr arasında olan münasibətlərin hansı məcrada inkişaf etməsindən məharətlə yararlanır.

Çin tərəfi ABŞ-ın müttəfiqi olan **Tailand** ilə də konstruktiv münasibətlər qura bilmişdir. Cənub-Şərqi Asiyanın digər dövlətlərindən fərqli olaraq, ÇXR ilə ərazi mübahisələri olmayan Tailand həm ÇXR, həm də ABŞ ilə bacarıqla əməkdaşlıq edir.[2] Aralarındakı ərazi problemləri ilə bağlı hələ 2005-ci ildə Tailandın baş naziri Taksin Çinavat çinli jurnalistlərə müsahibəsində bildirmişdi: “Mövcud

[1] Китай и Комбоджа укрепляет двусторонние отношения. China24news-http://china24news.com/politics/419-cambodian-chinese-top-diplomats-advance-ties, (22.08.2013).

[2] Лексотюна А.В.США-КНР: соперничество в Юго-Восточной Азии обостяется, Азия и Африка сегодня. 2012. №3, с.2-9, с.3

rəqabət təhlükə doğurmur... Çinin inkişafı digər ölkələr üçün təhlükə deyil, şansdır".[1]

ÇXR-in regionun digər ölkələri olan **İndoneziya və Malayziya** ilə münasibətləri diqqəti cəlb edir. Çinlə ticarət əlaqələrinə baxmayaraq, bu ölkələr rəsmi Pekin ilə siyasi yaxınlaşmaya ciddi meyil göstərmirlər. Sinqapur və Vyetnam Çinlə yanaşı, ABŞ ilə də genişmiqyaslı əlaqələrə meyillidirlər. Qeyd etmək lazımdır ki, bu ölkələr, o cümlədən Filippin və Tailand Cənub-Şərqi Asiya regionunda Çinin ən iri ticarət tərəfdaşlarıdır. Əməkdaşlığın genişlənməsinə təsir edən digər amillər də vardır. Onlardan biri Çin lobbisi və diasporudur. Bu ölkələrdəki çoxsaylı Çin lobbisinin mövcudluğu da ÇXR-lə əlaqələrin inkişafına təkan verir. Belə ki, Cənub-Şərqi Asiya regionu ölkələrinin əksəriyyətinin biznes və maliyyə dairələri çinlilərdən ibarətdir. Onlar da Çin ilə əməkdaşlığın genişləndirilməsində və bu ölkə mallarının dünya bazarlarına çıxarılmasında maraqlıdırlar.

ÇXR xarici siyasət fəaliyyətində onun Asiyada ciddi rəqiblərindən biri olan **Hindistan** ilə münasibətlərə xüsusi yer verir. Əhalisinin sayına görə dünyada lider olan bu iki dövlət həm də dünyanın aparıcı iqtisadi güclərindən birinə çevrilməkdədirlər. Sürətli iqtisadi inkişafa malik bu Asiya nəhəngləri beynəlxalq münasibətlərin müxtəlif problemləri sahəsində əməkdaşlıq edir, aralarındakı sərhəd mübahisəsinin kəskinləşməsinə yol vermirlər. Lakin onlar arasında strateji əməkdaşlıq, əlbəttə ki mümkün deyildir. Çünki onlar geosiyasi rəqibdirlər. Gələcəkdə

[1] Отношения между КНР Таиландом развивается в активном и конструктивном направлении. Газета «Женьмин жибао» onlayn, http://russian.people.com.cn/31521/3504998.html, (29.06.2005).

həmin rəqabətin nəticəsinin necə olacağı və regiona necə təsir edəcəyi geosiyasətçiləri düşündürən məsələlərdən biridir.

Çinlə Hindistan arasında siyasi problemlər içərisində Çinin Pakistanla atom energetikası və hərbi sahədə əməkdaşlığı birinci yerdə durur. Ekspertlər hesab edirlər ki, Çin-Pakistan əməkdaşlığı açıq şəkildə Hindistanın əleyhinə yönəlmişdir. Çinin Pakistan ilə yeni olmayan tərəfdaşlığına Dehlidə artıq adət etmişlər. Ancaq Çinin Hindistanla qonşu olan digər ölkələrdəki nüfuzunu möhkəmləndirmək səyləri, təbii ki, rəsmi Dehlini narahat edir. Çinin genişmiqyaslı investisiya qoyuluşları həyata keçirdiyi bu ölkələr isə Şri-Lanka, Maldiv adaları, Myanma və Banqladeşdir.[1] Buna baxmayaraq, Çin və Hindistan münasibətlərdə iqtisadi inkişafa mane ola biləcək gərginliyə yol verməməyə çalışırlar. Ümumiyyətlə, görünür ki, Şərqi və Cənubi Asiya regionunda aparıcı dövlətlərin xarici siyasəti mövcud ziddiyyətləri dinc yolla tənzimləmək, problemləri müvəqqəti olaraq kənara qoymaqla daxili inkişafa şərait yaratmağa yönəlmişdir. Amma bu taktikanın nə zamanadək davam edəcəyi sual doğuran məsələlərdən biridir.

Çin Xalq Respublikası və Yaponiya arasında münasibətlər də diqqəti xüsusilə cəlb edir. İki ölkə arasında diplomatik münasibətlər 29 sentyabr 1972-ci ildə qurulmuşdur. 2010-cu ildə Çin və Yaponiya arasında ticarət dövriyyəsinin ümumi həcmi artmışdır. Nəticədə Çin ABŞ-ı da keçərək Yaponiyanın ən böyük ticarət tərəfdaşı olmuşdur. Lakin 2012-ci ildə Çinlə Yaponiya arasında *Diaoyu Dao*/Senkaku adaları ilə

[1] Баев А. Индия и Китая: экономика против геополитики. Известия. 2011, 31 август- http://izvestia.ru/news/499095

bağlı münaqişənin gərginləşməsi nəticəsində iki ölkə arasında ticarət dövriyyəsinin həcmi sonrakı illərdə azalmışdır. İki ölkə arasında siyasi münasibətlərin səviyyəsi daim işgüzar əməkdaşlığa müvafiq təsirini göstərmişdir.

Qeyd etmək lazımdır ki, Yaponiyanın *Senkaku,* Çinin isə *Diaoyu Dao* adlandırdığı adalar Şərqi Çin dənizində yerləşir. Arxipelaqın ümumi sahəsi 7 kv. km təşkil edir. Yaşayış olmayan 5 adadan və 3 qayadan ibarətdir. Tarixi baxımdan adalar Çin, Yaponiya və ABŞ-ın nəzarəti altında olmuşdur. Adalar üzərində inzibati nəzarət 1972-ci ildə ABŞ tərəfindən Yaponiyaya təhvil verilmişdir. Bu addımı ÇXR qanunsuz hesab edir.

Qeyd etmək lazımdır ki, 1969-cu ildə BMT-nin Asiya və Uzaq Şərq üzrə iqtisadi komissiyası adalarda neft və qaz ehtiyatlarının mövcud olduğunu ehtimal etmişdir. Yaponiya 1999-cu ildə transmilli şirkətlərlə birgə (ÇXR-in iştirakı olmadan) adaların yaxınlığında təxminən 200 milyard kubmetr həcmində təbii qaz ehtiyatlarının tapıldığını bəyan etmişdir. Bu isə iki ölkə arasında münasibətləri gərginləşdirmişdir.

ÇXR hesab edir ki, Yaponiya həmin adaları qanunsuz tutmuşdur. Yaponiya vaxtilə Qahirə Bəyannaməsi (1943) və Potsdam Bəyannaməsi (1945) əsasında Tayvan üzərində hüquqlarından imtina etdiyi kimi, sözügedən adaları da qaytarmalıdır. Bununla əlaqədar ÇXR 1992-ci ildə "ÇXR-in dəniz və ona yaxın əraziləri", 2012-ci ildə isə "ÇXR-in sahilyanı adalarının qorunması" kimi qanunları qəbul etmiş və bu qanunlarda sözügedən adaların ÇXR-ə aid olduğunu bəyan etmişdir. Buna baxmayaraq rəsmi Pekin Yaponiya ilə hər hansı bir qarşıdurmadan qaçınır. Belə ki,

hazırda Çin Şərqi Asiyanın iqtisadi gücü olan Yaponiya ilə tarixi düşmənçiliyi müvəqqəti də olsa "unudaraq", bu ölkə ilə əməkdaşlığı genişləndirməyə çalışır. Hətta ABŞ-ın Asiyada əsas müttəfiqi olan Yaponiya Çindən Amerikadan idxal etdiyindən daha çox məhsul idxal edir (Уткин А. Подъем и падение Запада. М.: АСТ изд-во,, 2008, 761 str., s.528). Əlbəttə, bu siyasət hər iki ölkəyə fayda verir. Çünki Çinin öz tarixi rəqibi olan Yaponiya ilə münasibətlərinin gərginləşdirməsi ABŞ-ın xeyrinə olardı. Çin ilə hərbi gərginlik Yaponiyaya da sərfəli deyildir. Hərbi gərginlik ölkədə sosial-iqtisadi, siyasi şəraitə mənfi təsir edər, inkişafa mane olar.

Şərqi Asiyanın daha bir münaqişəli bölgəsi olan **Koreya yarımadası** da Çinin diqqət mərkəzindədir. Çin əslində yarımadada status-kvonun saxlanmasında maraqlıdır. Başqa sözlə, Koreyanın birləşməsi Çinə sərfəli deyildir. Çünki Koreya birləşərsə, Amerika və Yaponiyanın təsir dairəsinə düşə bilər. Bu isə Pekinin siyasi məqsədləri üçün güclü zərbə ola bilər.[1] Ona görə də Çin bölünmüş bu iki ölkə arasında ziddiyyətlərdən məharətlə istifadə edir.

Öz növbələrində həm Koreya Respublikası, həm də Koreya Xalq Demokratik Respublikası Çinin regionda maraqlarını nəzərə alırlar. Rəsmi Seulun əsas marağı Çinin KXDR-ə göstərdiyi təsirdir. Çinin KXDR-ə təzyiq göstərməklə ondan müəyyən güzəştlər əldə edə bilməsi bu gün Seulda reallıq kimi qəbul edilir. Hazırda Çin və Koreya Respublikası arasında münasibətlər əsasən iqtisadi xarakter daşıyır və Koreya sərmayəsinin yatırıldığı ölkə kimi Çin ABŞ-dan sonra ikinci yeri tutur. Bu ölkə bazarları uğrunda gərgin ÇXR-ABŞ rəqabəti vardır.

[1] Василенко И.А. Геополитика современного мира. Москва: 2002, с.275.

Koreya Xalq Demokratik Respublikası isə dünya ilə əlaqələrin qurulması üçün Çini mühüm vasitə hesab edir. Çin Xalq Respublikası KXDR-in nüvə proqramları ilə mövqeyini dəfələrlə bəyan edərək bildirmişdir ki, ÇXR Koreya yarımadasının nüvə silahından azad zona statusu əldə etməsinə tərəfdar durmaqla bunu zəruri hesab edir. Bu təklifi ilə Çin həm də regionda digər dövlətlərin hərbi mövcudluğuna qarşı çıxır.

Çinin Asiya ölkələri ilə münasibətlərində ərəb ölkələri xüsusi yer tutur. Bu ölkələr ilə münasibətlərində iqtisadiyyat başlıca amildir. Bu ölkənin xarici siyasətində **Ərəb Şərqinə** maraq ötən əsrin ortalarından başlamışdır və onun ərəb dövlətlərinə marağının əsasında enerji ehtiyatlarına tələbat durur.

Yarandığı ilk illərdən Çin Xalq Respublikası ərəb ölkələri ilə münasibətlər qursa da, 1993-cü ilə qədər Çinə Ərəb Şərqindən enerji ehtiyatları axını çox deyildi. ÇXR yalnız Oman və Yəməndən neft idxal edirdi. 1993-cü ildən etibarən vəziyyət dəyişdi. Həmin ildən tədricən ÇXR neft idxalçıları qrupuna qoşulduqdan sonra isə artıq 1996-cı ildə bu ölkənin idxal etdiyi neftin yarıdan çoxu Yaxın Şərqin payına düşürdü. Çin artıq 90-cı illərdə Ərəb Dövlətləri Liqasının bütün üzvləri ilə əməkdaşlıq münasibətləri qurmuşdu. Bu isə Çinin ticarət-iqtisadi əməkdaşlığının genişlənməsinə və icracının artmasına gətirib çıxarmışdır.

XXI əsrin əvvəllərindən etibarən dünyada baş verən dəyişikliklərlə əlaqədar olaraq Çin-ərəb münasibətlərində də yeni mərhələ başlanmışdır. Ərəb ölkələri həm coğrafi, həm də Çinin sürətlə artan enerji ehtiyatlarının ödənilməsi üçün mühüm mənbə olması baxımından Çinin diqqət

mərkəzindədir. Çin həmin ölkələrdən əsasən enerji ehtiyatları, xüsusən neft idxal edir.

Münaqişələrdən qaçan Çin sabitliyi sosial-iqtisadi inkişafın başlıca amillərindən biri hesab edir, demokratiyanı arxa planda görür. Rusiyalı tarixçi A.Utkin yazır: "Çin sabitliyi demokratiyadan daha vacib hesab edir və özünün etibarlı həmkar olduğunu nümayiş etdirir".[1] Bu baxımdan siyasi sabitlik və etibarlı istehlakçıya ehtiyac duyan Fars körfəzi ölkələrinin də Çinə meyli artmaqdadır. Sabitsizlikdən heç bir fayda götürməyəcəklərini bilən Körfəz ölkələri buna görə də Çinin mövqelərini müdafiə edirlər.

Bu baxımdan İordaniyanın mövqeyi diqqəti cəlb edir. İordaniya şahzadəsi Əl-Həsən bin Təlal 2000-ci ildə Pekində keçirilən "Qloballaşma və mədəniyyət. Çin və ərəb dünyası" mövzusunda beynəlxalq konfrans zamanı verdiyi bəyanatda Çin ilə sıx əməkdaşlığın ərəb dünyasına böyük fayda gətirəcəyini və ərəb ölkələrinin bir çox sahələrdə, o cümlədən azad iqtisadi zonalar yaradılması istiqamətində Çinin təcrübəsindən çox şey öyrənməli olduğunu bildirmişdi (Address by His Royal Highness Prince El Hassan bin Talal of The Hashimite Kingdom of Jordan, June, 2000, Bejjing, 7pp., s.2- http://www. channelingreality._com/Environment/ClubofRome_China_Saudis.pdf).

Məlum olduğu kimi, dünya ölkələri arasında iqtisadi inkişaf modelləri seçimi sahəsində "Pekin konsensusu" ifadəsi məşhurdur. Qeyd etmək lazımdır ki, bu model ərəb ölkələri üçün daha cəlbedici görünür. "Pekin konsensusu" "Vaşinqton konsensusu"na alternativ olaraq

[1] Уткин А. Подъем и падение Запада. Москва: «Астрель», 2008, 761с.

mövcuddur. Bu konsensusa görə, hüquqi dövlətin siyasi azadlıqları, prinsiplərinin inkar edildiyi şəraitdə də iqtisadi inkişaf mümkündür və uğurların əldə edilməsi üçün ABŞ-ın hakim olduğu kapitalist sisteminin bir hissəsi olmaq vacib deyildir.[1] Başqa sözlə, bu model ABŞ təsirindən azad olmaq istəyən ölkələr üçün ideal bir çıxış yolu kimi qəbul edilir. Təbii olaraq Birləşmiş Ştatlar «Pekin konsensusu»na qarşı çıxır.

Çinin ərəb ölkələri ilə münasibətləri beynəlxalq siyasi şəraitlə əlaqədar olaraq bir neçə sınaq mərhələsindən keçmişdir. Belə sınaqlardan birincisi 1990-1991-ci illərdə Körfəz müharibəsi zamanı oldu. Qeyd etmək lazımdır ki, müharibə aparan tərəflərin hər biri ilə Çinin sıx əlaqələri var idi. İqtisadi sahədə Çin həm İraq, həm də Küveytlə müqavilələr bağlamışdı. Lakin o zaman bütün dövlətlər İraqa qarşı embarqo tətbiq etdiyindən Çin də embarqoya qoşulmuşdu.[2] Bu addımı atmaqla ÇXR beynəlxalq aləmdəki imicini qorumuş, beynəlxalq hüquqa tərəfdar çıxmışdı. Lakin ümumilikdə, Çin bitərəf mövqedə idi.

Belə mövqeni tutması nəticəsində 2003-cü ildə İraq hadisələrindən sonra ÇXR-in ərəb ölkələrindəki nüfuzu sürətlə artmağa başladı. Belə ki, bu zaman Çin ABŞ-ın siyasətinə qarşı əvvəlki müharibədə olduğundan daha qətiyyətli mövqe nümayiş etdirdi. Onun bu qətiyyətinin səbəbi bölgədəki səbirsizlikdən zərər çəkə biləcəyi təhlükəsi ilə bağlı idi. Belə ki, son dövrlərdə bu ölkənin iqtisadi inkişafını, yəni enerji ehtiyaclarının ödənilməsini

---

[1] Пекинский консенсус - http://dictionary-economics.ru/word/Pekinskiy-Konsensus,

[2] Пахомова М.А. Политика Китая в странах Арабского Востока (1978-2012 гг.) Диссертация. Москва:Институт Востоковедения RAN, 2013, с.129.

ərəb ölkələri ilə əməkdaşlıq olmadan düşünmək çətindir.[1] Doğrudur, Çinin karbohidrogen ehtiyatları əldə etməsi üçün alternativ mənbələr də mövcuddur. Məsələn, bu ölkənin İran və son zamanlar Mərkəzi Asiya siyasətinin fəallaşmasının səbəbi məhz enerji ehtiyatları əldə etmək məqsədi ilə bağlıdır. Lakin ərəb ölkələri ilə münasibətlərin bu baxımdan Çinin xarici siyasətində xüsusi yeri vardır. Çin ərəb ölkələri ilə və İran ilə enerji sahəsində əməkdaşlıq etməklə əslində manevr imkanlarını da artırır.

ÇXR-in Sədri Hu Tszintaonun 2004-cü ildə Yaxın Şərq regionuna səfəri bu dövlətin ərəb ölkələri ilə münasibətlərində mühüm hadisə olmuşdur. Səfər gedişində Hu Tszintao Ərəb Dövlətləri Liqasının (ƏDL) Qahirədəki iqamətgahını ziyarət etmiş və ƏDL-in baş katibi Əmir Musa, həmçinin liqa üzvü olan 22 ölkənin təmsilçisi ilə danışıqlar aparmışdır. Nəticədə Çin-Ərəb Əməkdaşlıq Forumunun yaradıldığı elan olunmuşdur. Əməkdaşlıq Şurasının ali idarə orqanı isə nazirlər səviyyəsində görüş müəyyənləşdirilmişdir.[2]

Ümumiyyətlə, ÇXR-in ərəb ölkələri ilə hərtərəfli əlaqələrində bu forumun rolu böyükdür. Məhz həmin forum vasitəsi ilə Çin Orta Şərqdə gedən proseslərə müsbət mənada öz təsirini göstərə bilir. Çin-Ərəb Əməkdaşlıq Forumunun 2014-cü ilin iyun ayında Pekində keçirilən VI Nazirlər Konfransında etdiyi çıxışında ÇXR-in Sədri Si Cinpin demişdir: "Sərhədləri 1967-ci ildə müəyyən edilən və paytaxtı Şərqi Qüds olan müstəqil Fələstin dövlətini

[1] Fidan G. Çin-Arap dünyası ilişkileri: Eski köye yeni adet // 21. Yüzyıl, 2011, Mart, Sayı:27, s.53-59.
[2] Пахомова М.А. Политика Китая в странах Арабского Востока (1978-2012 гг.). Москва: Институт Востоковедения RAN, 2013, с.129.

dəstəkləyirik". O, Çinin Suriyadakı problemin siyasi yolla həllinə tərəfdarı olduğunu, İordaniya və Livan kimi bölgə ölkələrində yerləşmiş suriyalı qaçqınlar üçün yardımlar göndəriləcəyini qeyd etmişdir (Çin-Arap İşbirliği Forumu'nda Şi'den Filistin'e destek, Anadolu ajansı, 05 Haziran, 2014-http://www.aa.com.tr/tr/dunya/340299 - cin- arap – isbirligi -forumunda - siden-filistine-destek, (05.06.2014)). Beləliklə, Çinin ərəb Şərqində fəal xarici siyasət yürütməsi sayəsində ərəb ölkələri ilə tərəfdaşlıq və hərtərəfli əməkdaşlığı genişlənir. Ərəb ölkələri Çinin dinc müdaxiləsinə suverenliklərinə hörmət və daxili işlərinə qarışmama kimi baxırlar və bu dövlətlə əlaqələrin genişləndirilməsində maraqlıdırlar.

Çin Xalq Respublikasının ərəb ölkələrinə münasibəti kimi, İran İslam Respublikasına olan marağının əsasında da enerji ehtiyacı durur. Bu gün Çin iqtisadiyyatının üç əsas neft təchizatçısı OPEK-in üzvləri olan Səudiyyə Ərəbistanı, Anqola və İrandır. Bu səbəbdən Pekin İrana qarşı sanksiyaların tətbiq olunmasına baxmayaraq, onun əsas ticarət tərəfdaşı olaraq qalır. Məsələn, 2008-ci ildə BMT Təhlükəsizlik Şurası tərəfindən İrana qarşı qəbul edilmiş sayca IV olan 1803 №-li qətnamə İrana qarşı sanksiyalar rejiminin kəskinləşdirilməsini nəzərdə tutur. Buna baxmayaraq, Çinin neft şirkətləri hələ də İranın neft yataqları axtarışına dair müqavilələri imzalamaqda davam edirlər.[1]

BMT-nin İrana qarşı sanksiyalar tətbiq etməsi Çinin regionda yürütdüyü siyasətin fəallaşmasına və fayda götürməsinə səbəb olmuşdur. İran-ABŞ münasibətlərinin

[1] Пастухова Г. Сотрудничество Китае и Иран «Индекс безопасности», №2 (89), Том 15, с.49-63, с.49 - http://xnjtbhwghdp7a.xn--p1ai/kosdata/page_doc/p1893_1.pdf.

vəziyyəti rəsmi Pekinin qonşu ölkələrə iqtisadi və siyasi baxımdan nüfuz etməsinə və möhkəmlənməsinə güclü təsir etmişdir. Özünün strateji maraqları naminə ÇXR İranı daim müdafiə edir. Bu isə təkcə regional deyil, həmçinin beynəlxalq siyasətə də təsir edir. Çinin İranı müdafiə etməsi onun Yaxın Şərqdə ABŞ ilə rəqabətinin əsas elementidir. Pekin Birləşmiş Ştatların maraqlarının əksinə olaraq, Tehranla öz siyasi əlaqələrinə Vaşinqtona təzyiq vasitəsi və onun regionda mövqelərinin zəiflədilməsi yolu kimi baxır. İranın ABŞ-dan asılı olmayan azsaylı neft və qaz mənbələrindən biri olması və Çinlə əməkdaşlığı Pekinin maraqlarına tam uygundur.

ÇXR-in getdikcə genişlənən xarici siyasət fəaliyyətində Türkiyə Respublikası mühüm yerlərdən birini tutur. İki ölkə arasında münasibətləri bir sıra iqtisadi və siyasi amillər şərtləndirir. Türkiyənin əlverişli geostrateji mövqeyi, həmçinin müsəlman və türk dünyasındakı nüfuzu Çini cəlb edir. Şərq və Qərbdə beynəlxalq mövqelərini gücləndirməyə çalışan Türkiyə üçün Çinin cəlbedici cəhətləri isə onun iqtisadi və siyasi təsir gücüdür. Türk şirkətləri Çində işləməyə xüsusi maraq göstərirlər. Lakin iki dövlət arasında münasibətlərə mənfi təsir göstərən məqamlar da mövcuddur. Bu mənada Türkiyəni Çin uyğurlarının siyasi və mədəni hüquqlarının qorunması sahəsindəki vəziyyət narahat edir. Buna baxmayaraq, Türkiyə Çin Xalq Respublikasının ərazi bütövlüyünə hörmətlə yanaşır. Ümumiyyətlə, Ankara Çin ərazisində yaşayan türk və müsəlman xalqlarına Çin ilə münasibətlərdə “körpü” kimi baxır. Türkiyə Pekin-Vaşinqton münasibətlərində

olan rəqabətə müdaxilə etmir, hər iki tərəflə əməkdaşlıq edərək uğurla siyasətini yürüdür.

ÇXR-in Mərkəzi Asiya ilə əməkdaşlığı da xüsusilə diqqəti cəlb edir. **Mərkəzi Asiyanın** Çinin enerji ehtiyacları üçün mühüm mənbə kimi rolu son dövrlərdə xüsusilə artır. Bu da bir sıra amillərlə bağlıdır. Hər şeydən əvvəl Fars körfəzi ölkələrindəki qeyri-sabit vəziyyət Mərkəzi Asiya regionunun Çin üçün əhəmiyyətini artırmışdır. Məlumdur ki, Çin Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində regionda fəal siyasət yürüdür. Çin bu gün Mərkəzi Asiyada ŞƏT vasitəsi ilə iqtisadi inteqrasiyanın başlıca təminatçısıdır.

Yeni şəraitdə Çinin Mərkəzi Asiya regionunda olan maraqları kifayət qədər aydın və şəffafdır: birincisi, rəsmi Pekini daim narahat edən "Şərqi Türküstan" hərəkatının qarşısının alınması; ikincisi, Mərkəzi Asiyanın Çinin əsas dayaq nöqtəsi olmaq şərtilə təhlükəsizliyinin təmin edilməsi; üçüncüsü, regionu xarici ticarət sahəsinin obyektinə və ixrac mənbələrindən birinə çevirmək məqsədi ilə çoxplanlı iqtisadi münasibətləri inkişaf etdirmək.[1]

Qeyd etmək lazımdır ki, Çinin Mərkəzi Asiya siyasətində enerji, maliyyə və təhlükəsizlik məsələləri prioritet istiqamətlərə çevrilmişdir. Belə ki, sürətli iqtisadi inkişafın nəticəsində enerji daşıyıcılarına və digər təbii ehtiyatlarına ehtiyacın kəskin şəkildə artması rəsmi Pekinin Mərkəzi Asiya ölkələri ilə münasibətlərini yeni səviyyəyə çıxarmışdır. 2030-cu ildə dünyada ən iri enerji istehlakçısı olacağını proqnozlaşdıran Çin hökuməti enerji idxalında qeyri-sabit Yaxın Şərq regionundan asılılığını azaltmaq məqsədi ilə şaxələndirmə siyasətini həyata keçirir.

---

[1] Ağalar Abbasbəyli. Dünya siyasəti. Bakı, "Nurlan", 2011, səh.550

Mərkəzi Asiya ölkələri hazırda dünyanın ikinci ən böyük neft istehlakçısı ÇXR üçün prioritet əhəmiyyət daşıyır. Bu səbəbdən rəsmi Pekin təbii sərvətlərin çıxarılması və onları Çinə nəql edəcək infrastrukturun yaradılması üçün müvafiq sahələrə çoxmilyardlı sərmayələr yatırır.

Mərkəzi Asiya regionu üzərində geniş təsir vasitələrindən biri sayılan maliyyə sektorunda Çin rəqibləri ilə müqayisədə daha aktiv fəaliyyət göstərir. Belə ki, iqtisadiyyatı zəif olan Mərkəzi Asiya ölkələrinə milyardlarla ABŞ dolları həcmində uzunmüddətli kreditlər verən ÇXR Qərb dövlətləri və Rusiyanın maliyyə institutlarının bu sahədə həmin ölkələrə təsir imkanlarını azaltmaqdadır. ÇXR-in kreditlərini cəlbedici edən əsas amillərdən biri onların hər hansı siyasi və ya iqtisadi islahat tələbi ilə birgə gündəmə gətirilməməsidir. Belə ki, Qərbin maliyyə institutlarından fərqli olaraq Çin hazırda irihəcmli kreditlərin verilməsinə dair danışıqlar zamanı ölkədaxili siyasi vəziyyət, insan haqları və iqtisadiyyatın liberallaşdırılması kimi məsələləri müzakirəyə çıxarmır. Bu da Qərb qarşısında Çinin üstünlüyünü saxlayan amillərdən biridir.

Çinin Mərkəzi Asiya ölkələri ilə əlaqələrində digər prioritet sahə regional təhlükəsizlik məsələləridir. 1987-ci ildə qəbul edilən ÇXR-in 70 illik Strateji İnkişaf Planının üçüncü mərhələsi olan ölkənin Qərb Bölgələrinin İnkişaf Strategiyasının tamamlanması üçün Sincan-Uyğur Muxtar Rayonunda təhlükəsizlik və sabitliyin təmin olunması vacibdir. Belə ki, sözügedən bölgədə fəal olan millətçilərin Mərkəzi Asiyadakı uyğur diasporu ilə əlaqələrinin qarşısının alınması, dini ekstremizmin Mərkəzi Asiya ölkələrindən Çinin qərb vilayətlərinə yayılmaması üçün rəsmi

Pekin region ölkələri ilə sıx əməkdaşlıq edir. Həmçinin, 2001-ci ildən etibarən Əfqanıstana yüklərin daşınması və koalisiya qüvvələrinin təchizatı ilə əlaqədar ABŞ-ın Mərkəzi Asiya ölkələri ilə hərbi sahədə əməkdaşlığı ÇXR-in ciddi narahatlığına səbəb olmuşdur. Bu səbəbdən regional təhlükəsizlik və sərhəd məsələləri ilə əlaqədar müvafiq tədbirlərin görülməsi məqsədilə Çin tərəfi Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı təşviq etməklə mövqelərini möhkəmləndirməyə çalışır.

Qeyd olunan prioritetlər baxımından ÇXR-in Sədri Si Cinpinin 2013-cü il 3-13 sentyabr tarixlərində Mərkəzi Asiya ölkələrinə dövlət səfəri, həmçinin Bişkekdə keçirilmiş Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin 13-cü Zirvə Toplantısında iştirakı zamanı əldə edilmiş yüksək nəticələr xüsusi əhəmiyyət kəsb edir. Bu səfər çərçivəsində Qazaxıstanla 30 mlrd. ABŞ dolları həcmində, Özbəkistanla ümumi dəyəri 15 mlrd., Qırğızıstanla isə ümumi dəyəri 3 mlrd. ABŞ dolları həcmində bir sıra sənədlər imzalanmışdır. Ümumilikdə səfər çərçivəsində ümumi dəyəri təqribən 60 mlrd. ABŞ dolları həcmində əldə olunan razılaşmalarla Çinin regionda daha da artan iqtisadi gücünün gələcəkdə siyasi dividendlər gətirəcəyi gözlənilir. Çinin genişlənməkdə olan ticarət-iqtisadi əlaqələri ölkəyə bir sıra siyasi üstünlükləri gətirir.

Mərkəzi Asiyada yerləşən Türkmənistan ilə Çin arasında münasibətlər diqqəti cəlb edir. Bu münasibətlərin bir sıra özünəməxsusluqları vardır. Çin-**Türkmənistan** münasibətləri başlıca olaraq 2009-cu ilin dekabr ayında yeni Türkmənistan-Özbəkistan-Qazaxıstan-Çin qaz boru kəmərinin açılması ilə müəyyən olunur. Çinin bu ölkə-

də neft-qaz sektoru, nəqliyyat, səhiyyə, turizm və ticarət sahəsində investisiya qoyuluşları genişlənir. Türkmənistanda Çin ilə digər ölkələr arasında rəqabət də güclənir.

ÇXR-in Sədri Si Cinpinin yuxarıda qeyd olunan səfəri zamanı Türkmənistan ilə sayca üçüncü təbii qaz boru kəmərinin inşasının sürətləndirilməsi və ən qısa zamanda 4-cü xəttin inşasına başlanılması, Amu-Dərya çayının sağ sahilində və "Qalkınış" qaz yatağında kəşfiyyat axtarışı aparılması haqqında razılığa gəlinmişdir. Yeni boru kəmərinin Özbəkistan, Tacikistan və Qırğızıstandan keçməsi planlaşdırılır. Layihə reallaşacağı təqdirdə Tacikistan və Qırğızıstan Çin hökumətinin səyi ilə həm təbii qaz, həm də tranzit ölkə olaraq yeni gəlir əldə etmək imkanı qazanacaqdır. Yeni müqavilələrlə Türkmənistandan Çinə nəql ediləcək qazın ümumi həcminin ildə 40 mlrd. kubmetrdən 65 mlrd. kubmetrədək artırılması nəzərdə tutulur. Mütəxəssislər tərəfindən iki ölkə arasında imzalanmış sazişlərin ümumilikdə 8 mlrd. ABŞ dolları dəyərində olduğu bildirilir.

Çinin **Özbəkistan** ilə münasibətləri də diqqəti cəlb edir. İki ölkə arasında əməkdaşlıq ŞƏT çərçivəsində genişlənsə də, 2005-ci il Əndican hadisələrindən sonra Çinin bu ölkədəki mövqeyi daha da güclənmişdir. Belə ki, Əndican hadisələrinə Özbəkistan hökumətinin münasibəti Qərbdə mənfi qarşılandı, Avropa Şurası və ABŞ Konqresi tərəfindən bu ölkəyə qarşı xüsusilə silah satışı sahəsində sanksiyalar tətbiq edildi. Bu isə Özbəkistanın Qərb ilə münasibətlərində soyuqlaşma və Karşı-Xanabaddakı Amerika hərbi bazasının bağlanması ilə nəticələndi. Əvəzində isə Çin və Özbəkistan arasında yaxınlaşma daha da sürətləndi. Doğrudur, az sonra ABŞ Özbəkistanda yenidən hərbi

baza əldə etdi. Lakin Özbəkistan Çin ilə münasibətlərini inkişaf etdirir.[1]

Çinin Qırğızıstan ilə münasibətləri də inkişaf edir. Bu münasibətləri bir sıra amillər şərtləndirir. Hər şeydən əvvəl, bu ölkələrin hər ikisi Ümumdünya Ticarət Təşkilatının üzvləri olduğundan Çin məhsullarının bu ölkəyə daxil olması digər Mərkəzi Asiya ölkələrindən daha asandır.[2]

Çin bu qonşu ölkədə digər ölkələrin, xüsusən ABŞ-ın nüfuz qazanmasına qarşı çıxır. Bu da səbəbsiz deyildir. Məlum olduğu kimi, region ABŞ-ın da maraqlarında xüsusi yer tutur. Xüsusilə, ABŞ-da 2001-ci il 11 sentyabr tarixində törədilən terror aktlarından sonra Birləşmiş Ştatların Əfqanıstanda hərbi əməliyyatlara başlaması ilə əlaqədar bölgəyə nəzarət üçün regionun əhəmiyyəti artmışdı. Qırğızıstandakı "Manas" aerodromu isə ABŞ hərbi təyyarələri üçün mühüm dayaq nöqtəsidir. ABŞ-ın regionda hərbi bazasının mövcudluğu Çin və Rusiyanı ciddi şəkildə narahat edir. Çinin ABŞ hərbi bazasının Qırğızıstandan çıxarılması istiqamətində fəal siyasəti heç bir nəticə verməmişdir. Son illərdə Qırğızıstanda baş verən dərin, sosial-iqtisadi, siyasi proseslərin nəticəsində hakimiyyət dəyişikliyi, eyni zamanda bu ölkədə böyük ölkələr arasında gedən nüfuz uğrunda mübarizəni dayandırmamışdır.

Çinin **Tacikistan** ilə münasibətləri həm ikitərəfli, həm də Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində genişlənir. Bu çərçivədə Tacikistan Çindən 600 milyon dollar güzəştli

---

[1] М.В.Данилович. Китайско-узбекские отношения в 2001-2012. s.26-39// Актуальные проблемы международных отношений и глобального развития : сб. науч. ст. Вып. 1 / сост. Е.А.Достанко; Редкол.: А.М.Байчоров (гл.ред.). [и др.]. — Минск: BQU, 2013.-114 с. , с.27.

[2] Лузянин С.Г. КНР-Центральная Азия, с.99-102 / Вызовы безопасности Центральной Азии, Москва: İMGMO RAN, 2013, 150 с., с.100.

kredit əldə etmişdir. Həmin məbləğin bir hissəsi Şar-şar dağ keçidi altından tunelin çəkilməsinə sərf ediləcəkdir. ŞƏT-ə üzv ölkələrin 13-cü Zirvə Toplantısında iştirakı çərçivəsində Bişkekə səfər etmiş Tacikistan Prezidenti Emoməli Rəhmon ilə ÇXR Sədrinin görüşü zamanı müzakirələrin əsas mövzusu 400 km-lik hissəsi Tacikistan ərazisindən keçirilməsi planlaşdırılan Türkmənistan-Çin yeni qaz boru kəmərinin (4-cü xətt) inşası olmuşdur. Bu layihə Çinin enerji təhlükəsizliyi üçün əhəmiyyətli olmaqla yanaşı Tacikistanın iqtisadi inkişafında da mühüm rol oynayacaqdır. Belə ki, həmin çərçivədə Çinin Tacikistana 3 mlrd. ABŞ dollarından artıq sərmayə yatıracağı gözlənilir. Çin bu ölkənin yüngül sənayesinin inkişafına da kömək göstərir.[1] Siyasi sahədə isə Çin bütün region dövlətləri kimi Tacikistanın da daxili işlərinə qarışmamaq siyasəti yürüdür. Bu da digər iddialı ölkələrlə müqayisədə ÇXR-ə müəyyən üstünlüklər verir.

Beləliklə, Çinin xarici siyasətinin qarşısında duran əsas məqsəd ölkənin daxili inkişafı və xalqın daha yaxşı yaşamasını təmin etmək üçün əlverişli beynəlxalq və regional şəraitin yaradılması, rəqiblərinin regionda təsirinə mane olmaq, eyni zamanda, xüsusilə də enerji ehtiyatlarına olan tələbatı təmin etməyə yönəlmişdir. Onun əksər dövlətlərlə, o cümlədən Asiya ölkələri ilə münasibətlərinin əsasında məhz bu məqsədlər durur. Rəsmi Pekin yürütdüyü siyasətlə rəqiblərinin təsirinin yayılmasına mane ola bilir.

### 1.3. Azərbaycan Respublikası- Çin əməkdaşlığı

Beynəlxalq əlaqələrini sürətlə genişləndirən ÇXR-in xarici siyasətində Azərbaycan Respublikası özünəməxsus

---

[1] Лузянин С.Г. КНР -Центральная Азия, с.99-102 / Вызовы безопасности Центральной Азии, Москва: İMGMO RAN, 2013, 150 с., с.102.

yer tutur. İki ölkə arasında münasibətləri bir sıra amillər şərtləndirir. Hər şeydən əvvəl, Azərbaycan-Çin əlaqələrinin qədim tarixi kökləri vardır. Azərbaycan qədim İpək Yolunun üzərində yerləşdiyinə görə ən qədim dövrlərdən Şərqi Asiya, o cümlədən Çin ilə ticarət-iqtisadi və eyni zamanda mədəni sahədə əlaqələri mövcud olmuşdur. Ümumiyyətlə, Azərbaycanın coğrafi mövqeyi onun Avropa və Asiya ölkələri ilə əlaqələrinin yaranması və genişləndirilməsinə imkan vermişdir. Azərbaycanın əlverişli strateji və coğrafi mövqeyi ilə bağlı Ümummilli lider Heydər Əliyev demişdir: "Azərbaycan Asiya ilə Avropanı birləşdirən bir növ körpü, o cümlədən ticarət körpüsü olmuşdur... Tarix və coğrafiya Azərbaycanla Çin arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün çox əlverişli şərait yaratmışdır".[1] ÇXR BMT təhlükəsizlik Şurasının daimi üzvü kimi dünya siyasətində xüsusi yeri və mövqeyi olan bir dövlətdir. Bu rolu Azərbaycan ilə münasibətlərə təsir edən amillərdən biridir.

Sonrakı dövrlərdə də bu əlaqələr davam etmiş və daha da genişlənmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycanın Çinlə qədim tarixə əsaslanan münasibətləri ənənəvi ticarət əlaqələri ilə bitmir. İki ölkə arasında siyasi və mədəni əlaqələrin də tarixi zəngindir. Qaynaqlar qədim və orta əsrlər dövründə Azərbaycan və Çin dövlətləri arasında siyasi əlaqələr, diplomatik missiyalar mübadiləsi ilə bağlı faktlarla zəngindir. Bu iki ölkə arasında ticarət, iqtisadi əlaqələrlə yanaşı mədəni təsirin mövcudluğunu da sübut edən mənbələr çoxdur. Azərbaycan incəsənəti, ədəbiyyatı Çin ilə mədəni əlaqələrin mövcudluğunu sübut

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr). Birinci kitab. Bakı: Azərnəşr, 1997, s.290

edən nümunələrlə zəngindir. Bundan əlavə, Azərbaycan ərazisində mövcud olmuş dövlətlər ilə Çin arasında elm, o cümlədən tibb sahəsində əlaqələrə dair çoxsaylı faktlar da mövcuddur.

Tarixi İpək Yolunun bərpası ilə daha da aktivləşən əlaqələr həmin tarixin davamıdır. Bir sözlə, Azərbaycan və Çin arasında bu tarixi bağlılıq, aradan min illərin keçməsinə baxmayaraq, öz əhəmiyyətini itirməmiş, daha da genişlənmişdir. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra Çin ilə əməkdaşlığın inkişaf etdirilməsi imkanları daha da artmışdır. Hələ sovet hakimiyyəti dövründə də Çin ilə Azərbaycanın əlaqələri Mərkəzin nəzarəti altında var idi. Bu sahədə əsas problem, artıq qeyd edildiyi kimi, bütün bu əlaqələrin "mərkəzdən", yəni Moskvadan idarə olunması idi. Müstəqilliyin bərpa edilməsindən sonra bu maneə aradan qalxdı.

Məlum olduğu kimi, Çin Xalq Respublikası Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Belə ki, ÇXR Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabrın 27-də tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il aprelin 2-də qurulmuşdur. Həmin ilin avqust ayında Çin Xalq Respublikasının Bakıda səfirliyi açılmışdır. 1993-cü ildə isə Azərbaycanın bu ölkədəki səfirliyinin açılması bütün istiqamətlərdə qarşılıqlı əlaqələrin güclənməsinə təkan vermişdir. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra isə Azərbaycan Respublikasının dünya siyasətində fəallaşması sayəsində Çin ilə münasibətlərdə də yeni, yüksəliş mərhələsi başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin mart ayında Çin Xalq Respublikasına səfərinin iki ölkə arasında bütün sahələrdə tərəfdaşlığın genişlənməsində misilsiz rolu olmuşdur.[1]

İki ölkə arasında siyasi münasibətlərin əsasını ölkələrin ərazi bütövlüyünün və suverenliyinin tanınması və müdafiə olunması təşkil etmişdir.[2] Məlum olduğu kimi, 1949-cu ildən etibarən Çində Tayvan problemi mövcud idi. Tayvan artıq 25 dövlətlə diplomatik əlaqələr qurmuşdu. Çində Tayvanın iddiaları, Ermənistanın isə Azərbaycana qarşı təcavüzü Azərbaycan Respublikası ilə ÇXR-i yaxınlaşdırırdı. Bu baxımdan Çin və Azərbaycan strateji tərəfdaşlara çevrilirdilər. Çinin digər regionlarında da separatçılıq hərəkətləri mövcud idi.

Danışıqlarda görkəmli dövlət xadimi Heydər Əliyev Ermənistanın təcavüzü və bu təcavüzün ağır nəticələri barədə geniş bəhs etmişdir. Çin tərəfinin Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıdığını və münaqişənin sülh yolu ilə tezliklə həllinə tərəfdar olduğunu bəyan etməsi səfərin ən böyük nəticəsi hesab edilməlidir.[3]

Heydər Əliyevin 1994-cü il mart ayının 7-10-da Çinə səfəri zamanı Pekində təşkil olunan mətbuat konfransında verdiyi bəyanat iki ölkə arasında əlaqələrin hərtərəfli və müvəffəqiyyətlə inkişaf edəcəyini göstərirdi. Belə ki, Prezident səfərin ikinci günü verdiyi bəyanatda bildirmişdi: "Çin Xalq Respublikasının müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrin müqəddəratı ilə bağlı mövqeyi

---

[1] Qasımov (Qasımlı) M.Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər) Bakı, Gənclik, 1996, s.80 (140 s.)
[2] Seyidov E. Azərbaycan-Çin münasibətləri. Bakı, 2007, s.15
[3] Çin-Azərbaycan: Dostluq sərhədləri aşır. Bakı, 2000, s.5

məsələsində, dövlətlərin ərazi bütövlüyü, sərhədlərin pozulmazlığı, suverenlik, istiqlaliyyət məsələlərində mövqe və baxışlarımızın tamamilə uyğun gəldiyini aşkara çıxardıq".[1] Səfərin yekunlarının mühüm nəticələrinin təhlili ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatları dünya ictimaiyyətinin də böyük marağına səbəb olmuşdur. İmzalanmış sənədlər haqqında verilmiş ilkin şərhlər Azərbaycan-Çin əlaqələrində yeni mərhələnin başlanmasını göstərirdi: "Biz Çin Xalq Respublikasının Sədri və mən ölkələrimiz arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzaladıq. Dövlətlərarası əlaqələrə dair daha yeddi sənəd imzalandı. Bu sənədlər Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirir".[2]

Bundan əlavə, mətbuat konfransında Prezident Azərbaycanın başlıca problemi olan Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllində Çin Xalq Respublikasının BMT Təhlükəsizlik Şurası çərçivəsində çox prinsipial və ədalətli mövqe tutduğunu da qeyd etmişdir.

Səfər zamanı Heydər Əliyev ÇXR Sədri Tszyan Tszemin, Baş Nazir Li Pen ilə rəsmi görüşlər keçirmiş, əlaqələri daha da möhkəmləndirmişdir.

Çin Xalq Respublikasına Azərbaycan Pespublikası Prezidentinin səfəri çərçivəsində olkələr arasında ikitərəfli əməkdaşlığa dair 10 mühüm sənəd – dostluq münasibətlərinin əsasları haqqında birgə bəyanat, turizm, sərmayələrin təşviqi və qarşılıqlı qorunması, elmi-texniki, mədəni, hava əlaqəsi, səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq

[1] Göstərilən mənbə.
[2] Çin-Azərbaycan: Dostluq sərhədləri aşır. Bakı, 2000, s.5

haqqında sazişlər, kinematoqrafiya, radio verilişləri və televiziya sahəsində əməkdaşlığa dair protokol imzalandı. ÇXR Azərbaycana 60 milyon yuan həcmində əmtəə krediti ayırdı. İki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı.

Martın 9-da Heydər Əliyev Pekində Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsində çıxış etmişdir. Çıxışda iki ölkə arasında tarixi əlaqələr, Azərbaycanın coğrafi-siyasi mövqeyi, tarixi, problemləri, Ermənistanın təcavüzü və müharibənin törətdiyi çətinliklər, eyni zamanda Azərbaycanın hərtərəfli inkişaf imkanı və perspektivlərindən geniş söz açmışdır. Prezident bu səfərin ilk görüş və tanışlıq olduğunu, lakin Azərbaycanın Çin ilə əməkdaşlıq arzusunun böyük olduğunu qeyd etmişdir. Dövlət başçısı Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsi ilə birbaşa əlaqənin yarandığını, müvafiq şirkətlərin, firmaların rəhbərləri ilə ünsiyyətin qurulduğunu əhəmiyyətli hadisə kimi qiymətləndirmişdir.[1]

İki ölkə arasında qarşılıqlı münasibətlərdə yeni bir mərhələnin başlanğıcını qoyan bu səfərin böyük tarixi əhəmiyyəti var idi. Heydər Əliyev özü bu böyük səfərin nəticələrini Bakıya qayıdarkən Almatıda jurnalistlər qarşısında çıxışı zamanı aşağıdakı kimi dəyərləndirmişdir: "Hesab edirəm ki, Çin Xalq Respublikasına səfərimiz böyük tarixi hadisədir. Çünki Çin ilə Azərbaycan arasında heç vaxt bu səviyyədə əlaqələr olmamışdır. Doğrudur, tarixən müəyyən əlaqələr, "Böyük İpək yolu" və s. olduğunu xatırlayırıq. İndi isə dövlətlərarası sıx münasibətlərin yaranması ilk növbədə Azərbaycan Respublikası üçün

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müşahidələr) – Birinci kitab. Bakı, Azərnəşr, 1997, səh. 29

böyük hadisədir”. (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasına rəsmi səfəri (7-10 mart 1994-cü il) /”Heydər Əliyev irsi” Beynəlxalq Elektron Kitabxanası-http://lib.aliyev-heritage.org/az/32490422.html).

Azərbaycan Prezidentinin ÇXR-ə səfərinin tarixi əhəmiyyəti var idi. Bu səfər iki ölkə arasında münasibətlərin inkişafı üçün təmas nöqtələrinin axtarılaraq müəyyən edilməsində və əlaqələrin yeni əməkdaşlıq istiqamətinə daxil olmasına şərait yaratmaqla ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ açır, münasibətlərin gələcək perspektivlərinin müəyyənləndirilməsinə imkan verirdi. Bununla əlaqədar olaraq Heydər Əliyev deyirdi: «… Azərbaycanla Çin kimi böyük dövlət arasında yüksək səviyyətdə əlaqələr yaradılmış və münasibətlərimizin daha da müvəffəqiyyətlə inkişaf etməsi üçün perspektiv açılmışdır. Biz buna böyük əhəmiyyət veririk, çünki Çin Xalq Respublikası dünya iqtisadi sistemində mühüm yer tutur, beynəlxalq həyatda və dünya siyasətində böyük nüfuza malikdir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür»[1].

Qeyd etmək lazımdır ki, Çin Azərbaycanın dövlət müstəqilliyini hələ 1991-ci ildə tanımasına baxmayaraq, iki dövlət arasında münasibətlər 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfərindən sonra formalaşmağa başladı. İlkin mərhələdə ticarət münasibətləri toxuculuq və məişət avadanlıqlarından ibarət olsa da, sonradan Çin özünün enerji təminatının diversifikasiyasına nail olmaq üçün Azərbaycanın xam neftinə və təbii qazına maraq göstərirdi.

---

[1]Heydər Əliyev. Çin Xalq Respublikasına rəsmi səfər zamanı Pekində konfransında bəyanat. 8 mart 1994-cü il. – Müstəqilliyimiz əbədidir. I kitab, s.458. [1]

Heydər Əliyevin ÇXR-ə səfərindən sonra münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoydu. Qarşılıqlı münasibətlərin maddi təməllərinin və hüquq-müqavilə əsaslarının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıldı. 1994-cü il mayın 14-də Azərbaycan Respublikası hökuməti və Çin Xalq Respublikası hökuməti arasında ÇXR-dən Azərbaycan Respublikasına mallar göndərilməsi üçün dövlət krediti ayrılması haqqında saziş imzalandı.

Müstəqilliyin ilk illərində Çinlə mədəni əlaqələrin yenidən qurulmasında rol oynamış bir sıra qarşılıqlı səfərlər təşkil olundu. 1994-cü ilin sentyabrında Ümumçin Xalq Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin dəvəti ilə "Azərbaycan dünyası" Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti Nəbi Xəzri başda olmaqla ziyalılardan ibarət bir qrup ÇXR-də səfərdə olmuş, qarşılıqlı surətdə mədəniyyət ongünlüklərinin keçirilməsi, mübadilə səfərlərinin təşkili haqqında razılıq əldə edilmişdir. Eyni zamanda, görüşdə Çinin Dalyan şəhəri ilə Bakı şəhərlərinin qardaşlaşması barədə təklif də irəli sürülmüşdür. Görüş zamanı qaldırılmış məsələlər öz həllini 1995-ci ildə Çin nümayəndə heyətinin Bakıya səfərində tapmışdır.[1]

Əməkdaşlıqda növbəti addım 1997-ci il avqustun 30-da Ümumçin Xalq Nümayəndələri Məclisi sədrinin müavini Van Binsyanın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri olmuşdur. Danışıqlarda əsasən iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edildi. Hər iki tərəf iqtisadi əlaqələrin genişləndirilməsində maraqlı idi. Bu niyyət 1998-ci il iyunun 18-də Bakıda Azərbaycan Respublikası hökuməti

[1] Manafova M. Azərbaycanın Şərqi Asiya ilə mədəni əlaqələri, Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2008, s. 36

ilə Çin Xalq Respublikası hökuməti arasında Çinin Azərbaycana güzəştli kredit verməsi haqqında çərçivə sazişinin imzalanması ilə nəticələndi.

1998-ci il sentyabrın 8-də Bakıda Heydər Əliyevin təşəbbüsü ilə Böyük İpək Yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində Avropa və Asiya dövlət başçılarının zirvə görüşünə həsr olunmuş beynəlxalq konfrans da iki ölkə arasında münasibətlərin daha da inkişafını təmin edən hadisələrdən biri idi. Bundan sonra Azərbaycanla Çin arasında əməkdaşlıq daha da genişlənmişdir.

2000-ci ilin iyun ayında Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Penin Azərbaycana səfəri zamanı ÇXR-in Azərbaycandakı səfirliyinin binasının təməlqoyma mərasimi keçirildi.

Li Peni 2000-ci il iyunun 23-də Heydər Əliyev qəbul etmişdir[1]. Daha sonra nümayəndə heyətləri arasında geniş tərkibli danışıqlar oldu. Danışıqlarda Çin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, sərhədlərin dəyişdirilməsinin əleyhinə çıxdığını bildirir, təkqütblü dünyanı qəbul etməyərək çoxqütblü dünya yaradılması üçün səylər edirdi[2]. Çinin mövqeyinə görə, hər bir ölkə dini və milli inkişaf yolunu özü istədiyi kimi müəyyənləşdirməlidir. Danışıqlarda Çin tərəfi siyasi, iqtisadi və mədəniyyət sahələrində əməkdaşlıq etməyə və onu genişləndirməyə hazır olduğunu bəyan etdi.

---

[1] Heydər Əliyevin Ümumçin Xalq Nümayəndələr Məclisi Daimi Komitəsinin Sədri Li Pen ilə təkbətək görüşdə söhbəti. 23 iyun 2000-ci il. – Müstəqilliyimiz əbədidir. XXVIII kitab. Bakı, 2009, s.285-286

[2] Heydər Əliyevin. Azərbaycan Respublikasının nümayəndə heyəti ilə Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin Sədri Li Penin başçılıq etdiyi nümayəndə heyəti arasında danışıqlar. 23 iyun 2000-ci il. – Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s.287-293.

2002-ci ildə Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının on ili tamam oldu. Ötən illər ərzində münasibətlər inkişaf etimş və əməkdaşlıq dərinləşmişdi.

Bu münasibətlə Heydər Əliyev ÇXR Sədri Tzyan Tseminə göndərdiyi təbrik məktubunda keçən illlər ərzində iki ölkə arasında münasibətlərdə dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələrinin təşəkkül tapdığını, bu əlaqələrin dairəsinin genişləndiyini və səviyyəsinin yüksəldiyini xüsusi qeyd etmişdir. Tzyan Tsemin isə Heydər Əliyevə ünvanladığı təbrik məktubunda Çin ilə Azərbaycanı qədim İpək Yolu dövründən etibarən dostluq münasibətlərinin bağladığını, diplomatik münasibətlərin qurulmasının yeni səhifə açdığını diqqət mərkəzinə çəkmişdir. ÇXR Sədri iki ölkənin müstəqilliyinin, suverenlik və ərazi bütövlüyünün qorunması, habelə iqtisadiyyatının inkişaf etdirilməsi naminə səylərdə qarşılıqlı anlaşmanı və əməkdaşlığı dəstəklədiklərini, dostluq və həmrəyliyin saxlanılmasının və inkişafının hər iki ölkənin və xalqın mənafelərinə uyğun olduğunu nəzərə çatdırmışdır.

Çin Azərbaycan ilə enerji sahəsində də əməkdaşlığa daim maraq göstərmişdir. Bu baxımdan 2002-ci ilin iyun ayında ARDNŞ ilə Çin Neft-Kimya Korporasiyasının törəmə müəssisəsi olan və ölkənin 500 ən iri şirkəti arasında altıncı yeri tutan Şengli şirkəti arasında qarşılıqlı anlaşma memorandumunun imzalanması əhəmiyyətli hadisə olmuşdur. Bu, ikitərəfli münasibətəlrin maddi təməllərini daha da möhkəmləndirirdi. Qeyd etmək lazımdır ki, 27 milyon illik neft hasilatı olan bu şirkət çoxşahəli fəaliyyətə malik olub kəşfiyyat, işlənmə, saxlanma, nəql, emal

və karbohidrogen satışı ilə məşğul olmaqla fərqlənmişdir.

Çin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmək istiqamətində konkret addım atmışdır. Belə ki, 2002-ci il 2 dekabr tarixində «BMT və ATƏT arasında əməkdaşlıq haqqında qətnamə»yə Azərbaycan tərəfindən hər il irəli sürülən düzəliş üzrə BMT Baş Məclisində keçirilmiş səsvermədə Təhlükəsizlik Şurasının daimi üzvləri arasında ÇXR ərazi bütövlüyünə dair düzəlişin lehinə səs verən yeganə dövlət olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də yeni, qüdrətli Azərbaycanın quruculuğu siyasətini davam etdirərək, ölkəmizin beynəlxalq aləmdə rolunun qorunub saxlanması və daha da gücləndirilməsi istiqamətində uğurlu siyasət həyata küçirir. İlham Əliyevin yürütdüyü xarici siyasət kursunda da dünyanın ən böyük dövlətlərindən olan və dünya siyasətində xüsusi nüfuza malik Çin ilə münasibətlərə xüsusi əhəmiyyət verilir.

Bunun nəticəsidir ki, 2005-ci il 17-19 mart tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkəyə dövlət səfəri iki ölkə arasında çoxcəhətli əməkdaşlıq baxımından mühüm bir addım olmuşdur.[1] Martın 17-də ÇXR parlamentində – Ümumçin Xalq Nümayəndələri Məclisində İlham Əliyevin rəsmi qarşılanma mərasimi təşkil edilmişdir. Daha sonra keçirilən danışıqlarda tərəfləri maraqlandıran ikitərəfli, regional və beynəlxalq məsələlər müzakirə edilmişdir.[2]

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri – Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi: Bakı, 2005. «QARİSMA» MMC, 2009, s.113. (648 s.)

[2] Geniş tərkibdə Azərbaycan-Çin danışıqları. – Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. I hissə, s.114-115

Rəsmi danışıqlar prosesində Çin tərəfi Azərbaycana 15 milyon yuan məbləğində birdəfəlik təmənnasız yardım edəcəyini bildirmişdir.[1] Danışıqlardan sonra iki ölkə arasında sənədlər imzalanmış, qarşılıqlı münasibətləri yeni səviyyəyə çıxarmaq üçün addımlar atılmışdır. Səfər çərçivəsində Azərbaycan-Çin biznes forumu da keçirilmiş, sahibkarlığın inkişafına hesablanmış tədbirlər keçirilmişdir. Səfəri ÇXR Sədri Hu Tszintao iki ölkə arasında münasibətlərin tarixində mühüm hadisə kimi qiymətləndirmişdir. Çin Xalq Respublikasının rəhbəri Azərbaycanın Cənubi Qafqazda liderlik mövqeyinin möhkəmlənməsindən razı qaldığını bəyan etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də öz növbəsində Çin işgüzar dairələrinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymasına kömək göstərəcəyini razılıqla qarşıladığını ifadə etmişdir. Bu səfərdən sonra qarşılıqlı münasibətlərdə yeni və geniş səhifələr açılmışdır.[2]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci il avqustun 8-də XXIX Pekin Yay Olimpiya Oyunlarının təntənəli açılış mərasimində iştirak etmək üçün ÇXR-ə səfər etmişdir. Avqust ayının 10-da Pekində «China World Hotel»də XXIX Yay Olimpiya Oyunları çərçivəsində «Azərbaycan günü» keçirilmiş və Prezident İlham Əliyev mərasimdə çıxış etmişdir (http://www.president.az/). Prezident Azərbaycan Respublikasının müstəqil dövlət kimi artıq dördüncü dəfədir ki, Olimpiya oyunlarında iştirak etdiyini qeyd etmiş və bu oyunların qlobal

---

[1] Geniş tərkibdə Azərbaycan-Çin danışıqları. – Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. I hissə, s.114-115

[2] Turan A. Prezident İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri nəticəsində iki ölkə arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoydu. “Azərbaycan” qəzeti, 2014-cü il, 24 may, №168

miqyasda əhəmiyyətindən, Azərbaycanda idmanın inkişafına göstərilən diqqətdən söz açmış və idmançılarımıza uğurlar arzulamışdır.[1] Bu səfər Azərbaycanın dünyada qlobal əhəmiyyətli proseslərə qoşulmasını, ölkəmizin beynəlqalq aləmə geniş inteqrasiya etdiyini göstərir və dövlətlərarası əlaqələrin inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi.

Artıq qeyd edildiyi kimi, beynəlxalq təşkilatlarda da Azərbaycan və Çin bir-birini dəstəkləyir, qarşılıqlı maraqlara hörmətlə yanaşır, mövqelər qarşılıqlı şəkildə müdafiə olunur. Çinin Azərbaycana dəstək verdiyi mühüm məqamlardan biri də Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi olmuşdur.

Çin Xalq Respublikası Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə hörmət edir və dünya ictimaiyyəti ilə birlikdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə tərəfdardır, həmçinin BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi müvafiq qətnamələrin həll edilməsini dəstəkləyir. Öz növbəsində Azərbaycan Respublikasının hökuməti də ÇXR-in vahid Çin siyasətinə hörmət bəsləyir və Tayvanı Çinin tərkib hissəsi kimi qəbul edir. Azərbaycan Respublikası Tayvan adlı dövlət tanımır, onunla heç bir diplomatik və ya digər münasibətləri yoxdur. Tayvanın beynəlxalq təşkilatlara üzvlüklə bağlı qaldırdığı məsələlərdə Azərbaycan Respublikası yalnız vahid Çin prinsipindən çıxış edir və ancaq ÇXR-i təmsil edən qurumları tanıyır.

---

[1] Pekində XXIX Yay Olimpiya Oyunları çərçivəsində "Azərbaycan günü" keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. "Azərbaycan" qəzeti, 2008, 12 avqust.

Belə mövqe iki ölkənin daha səmərəli əməkdaşlıq etməsinə müsbət təsir edir. Ona görə də ölkələr beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birilərinə dəstək verirlər. Bu baxımdan Prezident İlham Əliyevin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin IV Zirvə Toplantısında iştirak etmək üçün 2014-cü il may ayının 19-da Çin Xalq Respublikasına növbəti işgüzar səfəri yüksələn xətt üzrə inkişaf edən Azərbaycan-Çin münasibətlərinin tarixində mühüm hadisəyə çevrilmişdir.

Səfər zamanı ÇXR Sədri Si Cinpin ilə görüşən Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin artıq sülhün, sabitliyin və əməkdaşlığın təşviq olunması sahəsində nüfuzlu beynəlxalq foruma çevrildiyini və bu müşavirədə sədrliyin Çin tərəfinə keçməsinin Asiyada sülh və təhlükəsizliyin daha da möhkəmlənməsinə səbəb olacağını bildirmişdir. Prezident Azərbaycanın da terrorizmin qurbanı olduğunu qeyd edərək, erməni terrorunun Azərbaycan üçün ağır nəticələrindən danışmışdır.[1]

Ümumiyyətlə, bütün xarici səfərlərdə, beynəlxalq təşkilatlardakı çıxışlarında və ölkəmizdə keçirilən yüksək səviyyəli görüşlərdə, o cümlədən də Çin Xalq Respublikasında olduğu bütün səfərləri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışının mühüm bir hissəsini Ermənistanın ölkəmizə təcavüzü, erməni terroru, xalqımıza qarşı törədilən vəhşiliklər, Xocalıdakı soyqırımı haqqında bəyanat təşkil edir. Bu isə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün ən əsas vasitələrdən biri idi. O cümlədən, 40-dan artıq dövlət və

[1]Turan A. Prezident İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri nəticəsində iki ölkə arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoydu". "Xalq qəzeti", № 108, 2014, 24 may [1]

beynəlxalq təşkilatları təmsil edən birinci şəxslərin iştirak etdiyi bu mötəbər tədbirdə Azərbaycan haqqında həqiqətlərdən geniş bəhs edilməsi, ölkəmizin regionda və Asiyadakı proseslərdə iştirakına və təhlükəsizliyin təminatına dair tədbirlərdəki rolundan bəhs edilməsi dünya dövlətlərinin ölkəmizə marağının və diqqətinin artması baxımından əhəmiyyətlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çində keçirdiyi görüşlərdə enerji, yüksək texnologiyalar, ticarət dövriyyəsi, humanitar sahələrdə ikitərəfli münasibətlər kimi məsələlər də müzakirə olunmuşdur. Öz növbəsində Çin tərəfi də Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyini bir daha bəyan etmişdir.

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 4-cü Zirvə Toplantısı mayın 20-də Şanxayda öz işinə başlamışdır. Sammitdə əsas müzakirə mövzusu regionda və dünyada beynəlxalq təhlükəsizlik məsələləri idi. Sammitdə Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsindən, erməni terrorundan bəhs edən Prezident İlham Əliyev Azərbaycanın enerji sektoru sahəsindəki rolundan da geniş danışmışdır. Prezident nitqində Azərbaycanın tarixi İpək Yolunun bərpasında oynadığı roldan, həmin beynəlxalq marşrutun bir hissəsi olacaq Ələt limanından danışaraq, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə veriləcəyini ayrıca qeyd etmişdir.[1]

Zirvə toplantısının yekununda qəbul edilmiş bəyannamənin bəzi müddəaları Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Bu müddəalar bəyannamənin müəyyən

---

[1] Rasim Musabəyov, Uzaq Şərq yaxın olur // Region plus, 2014; http://regionplus.az/az/articles/view/2337, (27.05.2014).

olunmuş altı bəndində öz əksini tapmışdır. Bunlardan 1.3-cü bənd sülh və sabitliyin qorunması üçün heç bir dövlət və ya dövlətlər qrupunun müstəsna məsuliyyətinin olmaması; 1.4-cü bənd istənilən dövlətlərin bir-birinin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığına hörmət, münaqişələri sülh yolu ilə həll etmə, daxili işlərə müdaxilə etməmək, iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində beynəlxalq səviyyədə əməkdaşlıq və sair kimi öhdəlikləri əhatə edir. Bəyannamədəki 2.4-cü bənd dövlətlərin separatçılarla istənilən münasibətinin yaradılmaması; 2.6-cı bənd inkişaf etməkdə olan ölkələrin enerji təhlükəsizliyinin gücləndirilməsi öhdəliyi; 2.7-ci bənd regional və beynəlxalq nəqliyyat və tranzit əməkdaşlığının sürətləndirilməsi məsələsini və nəhayət, 3.5-ci bənd Ermənistan və Azərbaycan arasında münaqişənin beynəlxalq hüququn prinsipləri və normaları əsasında sülh yolu ilə həllinə dəstək verilməsi ilə bağlı məsələləri və öhdəlikləri nəzərdə tutur.[1] Beləliklə, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda da Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan Respublikasının xarici siyasət kursu öz bəhrəsini verməkdədir. Azərbaycan Respublikası bu gün regional iqtisadi inkişafın aparıcı qüvvəsidir. Ölkəmiz Xəzər hövzəsinin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasında mühüm rol oynayır. Bir sözlə, Azərbaycan həm siyasi, həm də iqtisadi baxımdan Cənubi Qafqaz regionunun lideridir. Çin Xalq Respublikası da bu sahədə Azərbaycanın ən mühüm

[1] "Şanxayda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad tədbirləri üzrə Müşavirənin dördüncü Zirvə Toplantısında Bəyannamə qəbul olunmuşdur. "Azərbaycan" qəz., 2014-cü il, 22 may

və ən əsası isə etibarlı tərəfdaşlarındandır. Xarici siyasətdə ÇXR kimi dünya siyasətində həlledici sözə malik olan faydalı və etibarlı tərəfdaşın əldə edilməsi isə böyük tarixi nailiyyətdir.

İki ölkə arasındakı münasibətlərin inkişafında digər istiqamətlər də inkişaf etməkdədir. Həmin formaların içərisində parlamentlər arasında əməkdaşlıq xüsusi yer tutur. Parlament nümayəndə heyətlərinin görüşləri tərəflərə geniş müzakirələrin aparılması və qarşılıqlı anlaşma baxımından böyük fayda verir. Ümumçin Xalq Nümayəndələri Yığıncağında və Azərbaycan Milli Məclisində fəaliyyət göstərən dostluq qruplarının qarşılıqlı olaraq səfərlər həyata keçirmələri, danışıqlar aparmaları, təcrübə mübadiləsi əldə etmələri tərəflərin əməkdaşlığının əhəmiyyətli səhifələrinə çevrilmişdir. Parlamentlərarası Azərbaycan-Çin əlaqələrinin daim inkişaf edən bir istiqaməti olaraq hər iki ölkə üçün əhəmiyyətli siyasi baxışların formalaşmasına uğurla xidmət edir.

Bundan başqa, ölkəmizin siyasi həyatında əhəmiyyətli mövqeyə malik olan Yeni Azərbaycan Partiyası ilə Çin Xalq Respublikasının iqtidar partiyası arasında əməkdaşlıq memorandumunun izmalanması da dövlətlərarası siyasi dialoqun daha da genişləndirilməsinə şərait yaratmışdır. Siyasi partiyaların nümayəndə heyətlərinin Azərbaycanda və Çində keçirdikləri görüşlər, müzakirə etdikləri məsələlər əməkdaşlığın mühüm forması kimi hər iki ölkədə razılıqla qarşılanmışdır.

Siyasi münasibətlərlə yanaşı Azərbaycan-Çin münasibətlərinin iqtisadi təməlləri də möhkəmdir. İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlıq da yüksələn xətlə inkişaf

edir. Həmin inkişafın real nəticələri bu sahədə əldə edilmiş böyük uğurların miqyasını açıq şəkildə təsəvvür etməyə imkan verir. Belə bir fakt diqqəti cəlb edir ki, 2004-2012-ci illər ərzində Azərbaycanda Çin kapitalına əsaslanan 50-dən çox şirkət qeydiyyatdan keçmişdir.

Çin şirkətləri Azərbaycanın əsasən neft və təbii qaz (K&K (Qarabağlı və Kürsəngi), Pirsaat, Qobustan yataqları), elektrik enerjisi, alüminium sənayesi, sement və digər tikinti materialları istehsalı sənayesi, kommunikasiya, infrastruktur layihələrinə, maşınqayırmaya və s. sərmayə qoymuşdur. Çində isə Azərbaycan kapitalı ilə 16 şirkət qeydiyyatdadır. Onların ölkə iqtisadiyyatına yönəltdikləri investisiyaların həcmi təxminən 5 milyon dollar təşkil edir.

1995-ci ildən ötən müddət ərzində iki ölkə arasında iqtisadi əməkdaşlıq sonralar daha da genişlənmiş və yeni formalar tətbiq edilmişdir. 1995-2011-ci illərdə Çin şirkətləri Azərbaycanın qeyri-neft sektoruna 102,5 mln. ABŞ dolları, neft-qaz sektoruna isə 598 mln. dollar məbləğində investisiya qoymuşdur. Azərbaycanda dövlət sifarişinə əsasən Çin şirkətlərinin iştirakı ilə reallaşdırılan layihələrin dəyəri isə 417 mln. avro təşkil edir.[1] 2013-cü ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsinin həcmi 654,97 milyon dollar həcmində olmuşdur. Ümumiyyətlə, Azərbaycan və Çin arasında indiyədək ticarət-iqtisadi sahədə əməkdaşlığa dair iyirmi sənəd imzalanmışdır.

İki ölkənin ticarət-iqtisadi əməkdaşlığının genişlənməsində Hökumətlərarası Komissiyanın da rolu böyükdür.

---

[1] Azərbaycan və Çin iqtisadi əlaqələri genişləndirmək niyyətindədirlər. "İnterfaks-Azərbaycan" informasiya agentliyi, 14.06.2014- http://interfax.az/print/544489/az.

Azərbaycan ilə Çin arasında iqtisadi sahədə əməkdaşlığı genişləndirmək üçün Azərbaycan-Çin Ticarət-İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya, eləcə də Azərbaycan Respublikası və Çin Xalq Respublikasının Sincan-Uyğur Muxtar Vilayəti (SUMV) arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə İşçi Qrupu fəaliyyət göstərir. Hökümətlərarası Komissiya və İşçi Qrup iclaslarında əməkdaşlığın yeni sahələrini müəyyənləşdirir, inkişafa mane olan məsələlərin aradan qaldırılması üçün tədbirlər görür. Bu isə özünün konkret nəticəsini verir. Belə ki, Azərbaycan-Çin ticarət əlaqələrində əhəmiyyətli hadisə 2013-cü il aprelin 18-də Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Çin biznes forumunun keçirilməsi olmuşdur. Forumun gedişində tərəflər arasında anlaşma memorandumu imzalanmış, əməkdaşlıq üçün daha bir imkan yaradılmışdır. Memorandum iki ölkə arasında ticarət-iqtisadi sahədə əməkdaşlığın inkişafına daha bir təkana çevrilmişdir. Ümumiyyətlə, belə layihələr ölkələr arasında əməkdaşlığın potensialının və inkişaf perspektivlərinin böyük olduğunu göstərir. Çində aparılan islahatların təcrübəsinin öyrənilməsi və mümkün variantların yaradıcı şəkildə öyrənilərək ölkəmizin maraqlarına uyğun surətdə tətbiq edilməsi Azərbaycan-Çin əməkdaşlığını yeni keyfiyyət səviyyəsinə çatdırdığını göstərir.[1]

Azərbaycan-Çin əlaqələri arasındakı əhəmiyyətli bir əməkdaşlıq istiqaməti də mədəniyyət sahəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hələ 2005-ci ildə Çin səfəri çərçivəsində atılan ən mühüm ad-

[1] Qasımov (Qasımlı) M.Azərbaycanın xarici siyasəti. Bakı, "Mütərcim", 1997, s.80

dımlardan biri də Azərbaycan Respublikası və Çin Xalq Respublikası mədəniyyət nazirlikləri arasında 2005-2009-cu illərdə mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında protokolun imzalanması idi.[1] Bu əməkdaşlıq hazırda da uğurla davam etdirilir. Həmin protokolun yerinə yetirilməsi nəticəsində 2008-ci və 2012-ci illərdə Çin Xalq Respublikasında Azərbaycan mədəniyyət günləri, 2011-ci ildə isə Azərbaycanda Çin mədəniyyət günləri keçirilmişdir. Mədəniyyət günləri hər iki ölkə arasında anlaşmanın, bir-birilərini daha yaxından tanımanın formalarından biri kimi əhəmiyyətli olmuşdur.

2012-ci ildə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında diplomatik əlaqələrin yaradılmasının 20 illiyi geniş qeyd olunmuşdur. Qeyd edilmişdir ki, Azərbaycan və Çin Xalq Respublikası həm ikitərəfli, həm də çoxcəhətli formatda səmərəli əməkdaşlıq edirlər. Əməkdaşlığın istiqamətləri daim genişlənir və inkişaf edir. Belə istiqamətlərdən biri təhsil sahəsində əməkdaşlıq idi. Müstəqil münasibətlər qurulduqdan keçən müddət ərzində iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın istiqamətləri və formaları müəyyənləşdirilmişdir. Məhz həmin sənədlərin əsasında Azərbaycan və Çin arasında təhsil sahəsində qarşılıqlı tələbə mübadiləsi də davam etdirilir. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində Çin dili öyrədilir, Azərbaycan Dillər Universitetində isə Çin dili və mədəniyyəti mərkəzi fəaliyyət göstərir. Çində azərbaycanlı tələbələr təhsil alırlar.

2014-cü ilin aprelində Bakıda Çin dili və mədəniyyəti mərkəzinin təşkilatçılığı ilə Azərbaycan ilə Çin arasında

---

[1] Manafova M. Azərbaycanın Şərqi Asiya ilə mədəni əlaqələri, Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2008, s.28

diplomatik əlaqələrin qurulmasının 21-ci ildönümünə həsr olunan təntənəli mədəniyyət tədbiri keçirilmişdir. Həmin il may ayının 12-də isə Azərbaycan Dillər Universitetində Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Azərbaycan-Çin ictimai əlaqələrinin perspektivləri və tarixi» mövzusunda keçirilmiş konfransda əldə olunmuş nailiyyətlərə nəzər salınmışdır. Azərbaycan ilə Çin arasında bütün sahələrdə əməkdaşlığın böyük perspektivlərinin olduğu xüsusi olaraq qeyd edilmişdir.

Bundan başqa, Bakı Dövlət Universitetində yaradılmış Konstitusiya mərkəzi də təhsil və elmi əməkdaşlıq sahəsində Azərbaycan-Çin əlaqələrinin inkişafına səmərəli töhfə verir. Konstitusiya mərkəzi eyni zamanda Azərbaycan üçün çinşünaslıq üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında mühüm rol oynayır. Həmçinin Çin Xalq Respublikası üçün azərbaycanşünas mütəxəssislərin hazırlanmasına da xüsusi diqqət yetirilir.

Çin və uyğur ədəbiyyatlarından Azərbaycan dilinə edilmiş tərcümə əsərlərinin Azərbaycanda nəşrinə də diqqət artmışdır. Bundan başqa, ölkəmizdə uyğur dili və mədəniyyətinə dair tədqiqatların aparılması sahəsində də müəyyən nailiyyətlər əldə olunmuşdur.

Beləliklə, bütövlükdə Xəzər hövzəsi ölkələri, o cümlədən də xüsusən Azərbaycan ilə əməkdaşlıq Çin üçün əhəmiyyətlidir. Xüsusilə son dövrdə Çinin əsas enerji mənbəyi olan Fars körfəzi ölkələrindəki münaqişələr səbəbindən Çin üçün alternativ enerji mənbəyi olaraq Xəzər hövzəsinin rolu daha da artmışdır. Həm də Azərbaycanın əlverişli coğrafi-siyasi mövqeyi Asiyanı Avropa ilə əlaqələndirən

çox əlverişli boru kəməri marşrutlarının açılmasına imkan verir. Ona görə də Fars körfəzinin neft ehtiyatlarına alternativ olaraq enerji dövriyyəsi baxımından Mərkəzi Asiya ölkələri, o cümlədən Qazaxıstan və Türkmənistan ilə birlikdə Azərbaycan da Çinin xüsusi maraq dairəsinə daxildir. Azərbaycan Böyük İpək Yolunun bərpası üzrə TRASEKA layihəsinin reallaşdırılması sahəsində də əsas qüvvədir. Bu yol Çini Avropa ilə əlaqələndirən ən rahat və Çin üçün sərfəli olan yoldur. Bütün bu amillər Azərbaycan dövlətini Çinin öz xarici siyasət kursunda xüsusi önəm verdiyi bir ölkəyə çevirir və ölkələri daha da yaxınlaşdırır. Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi də bütövlükdə Asiya ölkələri ilə birlikdə Çinin də Azərbaycanla, Qafqaz ölkələri ilə, Türkiyə və Avropa dövlətləri ilə əlaqələrinin genişlənməsində mühüm rol oynayacaqdır. Azərbaycanın rəhbərlik etdiyi Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin Dəmir İpək Yolu adlandırılması da təsadüfi olmayıb, bu layihənin Avropa ilə Asiya arasında möhkəm və etibarlı körpüyə çevrilə biləcəyi mənasını ifadə edir. Heç şübhəsiz ki, Bakı-Tbilisi-Qars Dəmir İpək Yolu Azərbaycan-Çin iqtisadi əlaqələrinə də özünün böyük töhfəsini verəcəkdir.

Bütövlükdə Azərbaycan-Çin əlaqələri beynəlxalq münasibətlərdə və ölkəmizin Asiya əlaqələrində böyük əhəmiyyətə malikdir.

# ƏSAS MƏNBƏLƏR


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr). Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612s.
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri. Bax: Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi, 2005. Bakı, 2009
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfəri zamanı Pekində mətbuat konfransında bəyanatı. Bax: Heydər Əliyev irsi Beynəlxalq elektron kitabxanası, 8 mart 1994-cü il
4. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri. Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi
5. Azərbaycan-Çin: Dostluq sərhədləri aşır. Bakı, 2000
6. Ağalar Abbasbəyli. Dünya siyasəti. Bakı, “Nurlar”, 2011, 584 səh.
7. Арыстанбекова А. Глобализация. Объективная логика и новые вызовы// Международная жизнь, 2004, № 4-5-, с.54-65
8. Бзежинский З. Выбор: мировое государство или глобальное лидертсво.М: 2005, 288 с.
9. Ekrem E. Çinin Orta Asiya politikaları. Ankara. Hoca Ahmet Yesevi Uluslararası Türk-Kazak Universiteti, 2011
10. Евдакимова А.А. История стран Востока в новое время. Россия, Ростов на Дону, «Феникс», 2001

11. Fidan C. Çin Arap dünyası ilişkiləri. Eski köyə yeni adət. «XXI yüzyıl dərgisi», Türkiyə, Ankara, 2011, №27
12. Фортинатов В. История мировых цивилизаций. Москва-Санкт-Петербург. «Питер», 2011.
13. Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана. Баку: «Şərq-Qərb», 2007, 904 s.
14. Qasımlı M. Azərbaycanın xarici siyasəti. Bakı, «Mütərcim», 1997
15. Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, «Gənclik», 1996
16. Qlobal siyasət: təhdidlər, çağırışlar, ümidlər – Newtimes.az analitik informasiya portalının məqalələr toplusu. Bakı, 2013, 320 səh.
17. Yılmaz S. Yükselen güc. Çinin güvenlik politika və stratejiləru. Strateji Araşdırma dərgisi. Türkiyə, Ankara, №|1-2-, 2008
18. Henry Kissincer. Diplomacy. Simon & Schuster. 1995.
19. Hillari Klinton. Hard choises. Pengnim, 2014
20. Manafova Maral. Azərbaycanın Şərqi Asiya ilə mədəni əlaqələri. Bakı, 2008
21. Musabəyov R. Uzaq Şərq yaxın olar. "Region plyus" jurnalı, 2014, №6
22. Novruz Məmmədov. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, 2013. 264 s.
23. Пахмутова М.А. Политика Китая в странах арабского Востока (1978-2012). Москва, 2013.

24. Pekində XXIX Yay Olimpiya oyunları çərçivəsində "Azərbaycan günü" keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. "Xalq qəzeti", 12 avqust, 2008
25. R.İsmayıl, N.Axundova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi (1945-2000-ci illər). Bakı, «Çaşıoğlu», 2001
26. Ziyad Səmədzadə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, 2009, 608 səh.
27. Seyidov E. Azərbaycan-Çin münasibətləri, Bakı, 2007
28. Создание зоны свободной торговли Китай-ASEAN образцы взаимовыгодного и взаимовыигрышного регионального сотрудничества - http://russian.people.com.cn/95181/6857733.html, (02.01.2010).
29. Şanxayda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad tədbirləri üzrə Müşavirənin dördüncü Zirvə Toplantısında Bəyannamə qəbul olunmuşdur. "Azərbaycan" qəz., 2014-cü il, 22 may
30. Шюулин Гао. Глобализация. Взгляд из Китае. «Азия и Африка сегодня», №11, 2004, №9
31. Уткин А. Единственная сверхдержава. Москва, "Алгоритм", 2003, 576 с.
32. Уткин А. Подъем и падение Запада. М.: AST издательство, 2008, 761 с.
33. Василенко И.А. Геополитика современного мира. Москва, 2002.

# 2. BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ YAPONİYA

## 2.1. Dünya siyasətinin cazibə qüvvəsi: Yaponiya

XX əsrin böyük güc və cazibə qüvvəsi olaraq meydana çıxartdığı ölkələrdən biri Yaponiyadır. Elmi ədəbiyyatda Yaponiya Gündoğar ölkə kimi də adlandırılır. Əslində Yaponiya son yüzilliyin elm və texnologiyasının, iqtisadiyyatının günəşi olaraq meydana çıxmışdır. Yaponiya samuraylar ölkəsi də adlanır. Qədim samuray xalqları və mədəniyyətinin yaşadılması və möhkəmləndirilməsi də Yaponiyanın inkişafında mühüm rol oynayır. Yaponiyaya adalar ölkəsi də deyirlər. Coğrafi məlumatlara görə, Yaponiyada 3 mindən çox ada vardır. Zəlzələlərin və təhlükəli qasırğaların tez-tez baş verməsinə baxmayaraq ölkədən köçmək halı çox azdır. Yaponiya böyük sürətlə inkişaf edir və dünyanın əsas cazibə mərkəzlərindən birinə çevrilir.

Hələ XIX əsrin sonlarında ABŞ-ın dövlət katibi C.M. Hey ölkəsinin gələcək planlarından danışarkən qeyd edirdi: "Aralıq dənizi – keçmişin okeanıdır, Atlantik okeanı – bugünün okeanıdır, Sakit okean – gələcəyin okeanıdır". Həqiqətən də, əgər XX əsrdə Qərb ölkələrinin böyük əksəriyyəti dünya siyasi proseslərinin fəal iştirakçıları idilərsə, əsrin sonlarından başlayaraq isə Çin, Yaponiya, Cənubi Koreya, Sinqapur, Malayziya, İndoneziya və Asiya-Sakit okean regionunun digər ölkələri müasir dünyanın taleyinə böyük təsir göstərirlər. Bu ölkələr arasında Yaponiya xüsusi yer tutur. Hazırda iqtisadi inkişafının sə-

viyyəsinə görə dünyada ən aparıcı yerlərdən birini tutan Yaponiya beynəlxalq proseslərdə də özünün siyasi rolunun güclənməsinə çalışır. Doğrudur, son 10 ili Yaponiya üçün «itirilmiş 10 illik» adlandırırlar. Çünki ölkə tarixində ən dəhşətli təbii fəlakətlər, sunami qasırğaları və atom elektrik stansiyasında baş verən dəhşətli faciə Yaponiya iqtisadiyyatına da təsirsiz ötüşmədi. Lakin bu keçid dövründən sonra yeni inkişaf mərhələsinin olacağı barədə nikbin proqnozlar da səslənirdi. «Ekonomist» jurnalının ekspertləri yazırlar: «Yaponiya yenidən doğulmanın həzzini yaşayır. Ötən 20 ilin çox hissəsi ərzində qiymətlərin aşağı düşməsi iqtisadiyyat üçün bir fəlakət idi, lakin Yaponiya Bankının pul çapetmə əməliyyatı valyuta kursunu aşağı saldı, qiymətləri isə qaldırdı – bu, adətən, narahatedici bir kombinasiyadır, lakin deflyasiyaya meyilli olan Yaponiyada yox».[1]

Müasir dövrdə Yaponiya Asiya-Sakit okean regionu ölkələri arasında iqtisadi cəhətdən ən çox inkişaf etmişdir. Siyasi və iqtisadi inkişafın "Yaponiya modeli" istehsalat və idarəçilik üsullarının və strukturunun Qərb texnologiyaları əsasında özünün mədəni sərvətlərini və tarixi xüsusiyyətlərini qorumaqla regionun digər ölkələrinə də nümunə olmuşdur. SSRİ dağıldıqdan sonra yaranan və müstəqillik qazanmış ölkələrlə beynəlxalq münasibətlərin qurulmasında da Yaponiya özünəməxsus mövqe nümayiş etdirmişdir. Ölkə yeni qurulmuş müstəqil dövlətlərin yaranmasını dəstəkləmiş, lakin həmin ölkələrlə diplomatik münasbətlərin qurulmasında, iqtisadi-mədəni əlaqələrin yaradılmasında təmkinli davranışla addımlar atmağa üstünlük vermişdir.

[1] "Economist – Dünya" jurnalı, Bakı, «Şərq-Qərb» 2014, səh.24.

Məşhur amerikan politoloqu Z.Bjezinskinin dediyi kimi, Yesidanın prinsiplərini həyata keçirərək Yaponiya "Amerika xarici sayasətinin davamı" olmuşdur. Elmi ədəbiyyatlarda deyildiyi kimi, həqiqətən də «Yaponiya Birləşmiş Ştatlarla əlaqələrin prioritetliyini mütləq şəkildə qəbul edir».[1] Amerika Birləşmiş Ştatları ilə yaradılan dərin münasibətlər sayəsində xüsusi təhlükəsizliyini təmin etmək zərurətindən azad olan Yaponiya özünün bütün gücünü iqtisadi nəticələrin yüksəlməsinə sərf edir. Belə ki, iqtisadi baxımdan güclü dövlət olaraq "gündoğan ölkə" özünün xarici siyasət kursunun bəzi müddəalarına yenidən baxılmasının, xüsusilə, dünyada Yaponiyanın siyasi rolunu gücləndirmək, beynəlxalq təşkilatlarda ölkənin iştirakını fəallaşdırmaq və onun təsirini Asiya-Sakit okean regionunda yüksəltməyin vacibliyini başa düşdü. Bütün görülən bu işlər qısa tarixi müddət ərzində Yaponiyanın çiçəklənən ölkəyə çevrilməsinə imkan verdi.

Bu gün Yaponiya dünyanın ən çox inkişaf etmiş ölkələrindən biridir. Yer kürəsi əhalisinin 2,5%-ni, sahəsinin isə 0,3%-ni təşkil edən Yaponiya hazırda iqtisadi potensialına görə ABŞ və Çin Xalq Respublikası ilə eyni səviyyədə dayanır. Əhalinin sayına düşən ümumdaxili məhsulun həcminə görə Yaponiya hətta ABŞ-ı da ötüb keçir. Dünya sənaye istehsalının 12%-i Yaponiyanın payına düşür. Gəmilərin, avtomobillərin, traktorların, metal istehsal edən avadanlıqların, texniki məişət avadanlıqlarının və yeni texnologiyaların istehsalına görə bu ölkə dünyada birinci yerdədir.

---

[1] Джеймс Л. Мак-Клейн. Япония. От сегуната Токучавы – в XXI век. Москва, АСТ, Астгель, 2007.

Yaponiyanın qızıl-valyuta ehtiyatları, 2012-ci ilin məlumatına görə, 1,250 trilyon ABŞ dollaradır çoxdur. Bu göstəriciyə görə Yaponiya dünyada yalnız Çin Xalq Respublikasından geridədir. Yüksək dərəcədə inkişaf etmiş kənd təsərrüfatı ölkənin 130 milyondan çox olan əhalisini lazımlı ərzaqla təmin edir.

Yaponiya hər il digər ölkələrin inkişafı üçün rəsmi dövlət yardımına on bir milyard dollardan çox vəsait sərf edir. Yaponiya dünyada ən iri donor dövlətdir. Bu, dövlət inkişaf edən ölkələrin iqtisadiyyatına böyük sərmayələr qoyur. Bundan əlavə, Yaponiya bütün dünya iqtisadiyyatının sabitliyinin təmin olunmasına təsir edir. Bu ölkə hər il Dünya Bankına və Beynəlxalq Valyuta Fonduna hamıdan çox üzvlük haqqı ödəyir.

"Gündoğan ölkələr"in dünya təsərrüfatındakı müasir mövqeyi XX əsrin ikinci yarısından sonrakı iqtisadi inkişafının nəticəsidir. Qeyd etmək lazımdır ki, 1950-ci ildə dünya ümumdaxili məhsulunda Yaponiyanın payı 1 faizdən artıq deyildisə, indi onun payı 17 faizdir.

XX əsrin axırlarında Yaponiya dünyanın başqa ölkələrinin inkişaf sürətini qabaqlayan yüksək iqtisadi artımı dünyaya nümayiş etdirmişdir. Yaponiyanın inkişaf sürəti 1960-1973-cü illərdə bir il üçün 10,1%, ABŞ-da 3,9% , AFR-də 4,5%, Britaniyada 3,1%, Fransada 5,6%, İtaliyada isə 5% təşkil edirdi. Bir neçə illər ərzində yaranmış vəziyyət 60-70-ci illərdə baş verən Yaponiyanın "iqtisadi möcüzə"si haqqında ilk nəşrlər dalğasını yaratdı. Artıq yapon iqtisadi möcüzəsi yer üzündə model olaraq qəbul edilir. Yaponiyanın ümumdaxili məhsulu 2000-ci ildə 511.835.9 milyard yenə çatmışdır. Son onillikdə ölkədə bir neçə dəfə

təbii fəlakətlərin baş verməsinə baxmayaraq Yaponiyada iqtisadi artım yüksələn xətlə inkişaf edir.

Yaponiyanın sürətli iqtisadi inkişafının başlıca səbəbləri aşağıdakılardır: İşğal olunan illərdə sosial-iqtisadi sahədə həyata keçirilən bir sıra ciddi islahatlar; kapitalın bütünlüklə yenilənməsi və torpaq islahatı nəticəsində daxili bazarın genişləndirilməsi; ən əsası, ölkədə yeni texnologiyanın inkişaf etdirilməsi. Yaponiyanın ABŞ-ın əvvəlcə Koreyada, sonra Vyetnamda müharibəsi üçün aldığı hərbi sifarişlər, həmçinin ümumdaxili məhsulun milli gəlirin ancaq 1%-ni təşkil edən hərbi xərclərin az bir hissəsi kapitalın artmasına təsir etmişdir. Belə ki, müharibədən sonrakı ilk onilliklərdə iqtisadi inkişaf mineral xammalın sabit aşağı qiyməti şəraitində baş vermişdir. Yaponiya idxala əsaslanaraq güclü enerjitutumlu və sərmayəyönümlü istehsalatı yarada bilmişdir: qara və əlvan metallurgiya, neftçıxarma, gəmiqayırma və sair sahələrdə ölkə dünya iqtisadi məkanında yeni rekordlar göstərir.

İqtisadi inkişafın Yaponiya modelinin əsas xarakterik əlamətlərindən biri milli ənənələrin və işçi qüvvəsinin imkanlarından səmərəli istifadə etməsidir: əməyin yüksək məhsuldarlığı, Qərb ölkələri ilə müqayisədə əmək haqqının aşağı səviyyəsi, bütün növ işçilərin zəhmətsevərliyi onların özlərini müəssisələrinin bir hissəsi kimi hiss etmələri, bütün imkanlarını və enerjisini tanıdaraq çalışdığı sahəyə həsr etməsi ilə əlaqədardır. Çünki onların şəxsi rifahları, praktikaları, ömürlük məşğulluqları və təqaüdlərin məbləği ümumi uğurdan çox asılıdır.

Xarici elmi-texniki nailiyyətləri əldə tutaraq Yaponiya təkcə ölkədə istehsal olunan yeni texnikasını ixrac etmir-

di, habelə texnologiyaların lisenziyalarını və patentlərini alırdı. Bununla da elmi-texniki tədqiqatlara sərf olunan vaxta və vəsaitə qənaət edirdi. Aşağı qiymətə və yüksək keyfiyyətli yapon mallarının ixracı gələcəkdə istehsalatın genişləndirilməsi üçün vəsaiti təmin edirdi.

Ölkə elmi sahələrin – elektronika, prosessorların və kompüterlərin istehsalı, telekommunikasiya və nəzarət-ölçü avadanlıqları, avtomatlaşdırma vasitələri və biotexnologiyanın inkişafının vacibliyini başa düşürdü. Patentlərin və lisenziyaların alışı elmi və texniki tədqiqatların maliyyələşdirilməsindən sonra ölkədə ikinci plana keçdi. Çünki qısa müddətdən sonra Yaponiya özü dünyanın ən böyük patent, səmərələşdirici təkliflər ölkəsinə çevrilmişdir.

Yaponiya iqtisadiyyatda baş verən dəyişikliklərin nəticəsində dünyada ən iri robot (dünya istehsalatının 50%-dən çoxu), yarımkeçiricilər (40%-dən çox), minik avtomobilləri, gəmilər, dəzgahlar, rezinlər, metallar, soyuducular, paltaryuyan maşınlar istehsalçısına çevrildi. Hal-hazırda Yaponiya ənənəvi məhsulların istehsalında öz aparıcı mövqeyini qoruyaraq, yalnız elm tutumlu istehsalatda ABŞ-dan geri qalır.

İqtisadiyyat, enerji, inqilabi yeni texnologiyalar, habelə hər şeyi əhatə edən iqtisadi quruluş və sərt siyasət nəticəsində Yaponiya iqtisadiyyatı son yarım əsrdə neft böhranından çıxdı və daha da qüdrətli dövlətə sahib oldu. Bununla da dünyada görünməmiş yapon bumu başladı. Əgər 1979-1980-cı illərdə Yaponiyanın ticarət balansının saldosu mənfi idisə, 1981-ci ildə müsbət oldu. Ondan son-

ra isə bu göstərici ildırım sürəti ilə artdı. 1981-1986-cı illərdə ABŞ-a yapon mallarının ixracatı iki dəfədən çox artmışdır.

Amerika və Avropa ölkələri ilə ticarətdə böyük müsbət saldo kəskin münaqişələrə və Yaponiya üçün dövlətlərarası iqtisadi əlaqələrin əsas məsələsinə çevrildi. 1985-ci ildə "Plaza" otelində məşhur razılaşma qəbul olunduqdan sonra ölkənin əsas valyutası olan yenin qiyməti sürətlə bahalaşdı. Bununla əlaqədar olaraq daxili istehsalın maya dəyəri kəskin surətdə artdı və müvafiq olaraq, Yaponiyanın ixrac etdiyi məhsulların da qiyməti artdı. Beləliklə, ixracata yönəldilmiş modelin artımına son qoyuldu.

Tədqiqatçılar müşahidə etmişdilər ki, qonşuları olan Asiya ölkələri ilə əməkdaşlığın inkişaf etdirilməsi Yaponiyanın xarici və daxili siyasətində mühüm yer tutur. Həmin yolla regionda sülh və sabitliyin, həm də iqtisadi əməkdaşlığın təmin olunması prosesi baş verir. Məsələnin bu cəhəti dünya siyasəti üçün də, region dövlətlərindən ötrü də əhəmiyyətlidir. Buna görədir ki, XX əsrin axırlarından etibarən Yaponiya şirkətləri özlərinin istehsal bazalarını Asiya ölkələrinə daşımağa başladılar və bu qitəyə böyük həcmdə investisiyalar yatırdılar. Vəziyyət elə gətirdi ki, ağır istehsal Yaponiyanın xaricinə daşındı, onun özündə isə əsasən yüksək texnologiyalı istehsal qaldı. Beləliklə, öz investisiyaları və texnologiyalarını Asiya ölkələrinə verməklə Yaponiya bu ölkələrin texniki təchizat səviyyəsini artırdı və sənayeləşmələrini həyata keçirdi. Bu yolla XXI əsrdə Yaponiya dünyanın lider ölkəsi iddiasında olmaq şansını çoxaltmışdır. Bu güclü iqtisadi nəhəngin Ümumi

Daxili Məhsulu 2013-cü ildə 5 trilyon dollar təşkil etmişdir.[1] Yarım əsr müddətində Yaponiya Asiyada ən dinamik inkişaf edən bir ölkə olmuşdur. Ölkənin sürətli iqtisadi inkişafı onun beynəlxalq münasibətlərdə rolunun və yerinin güclənməsinə gətirib çıxarmışdır.

1956-cı ildə BMT-yə daxil olduqdan sonra Yaponiya özünün xarici siyasətinin əsas "sütun"larından biri kimi "BMT-yə istiqamət"ini elan etdi. Hal-hazırda "gündoğan ölkə" BMT-nin bütün ixtisaslaşdırılmış qurumlarında təmsil olunan nadir dövlətlərdən biridir.

Yaponiya səkkiz dəfə BMT-nin Təhlükəsizlik Şurasının müvəqqəti üzvü seçilmişdir. Bu da ölkənin xüsusi nailiyyətidir. 1982-ci ildə Yaponiya BMT-nin insan huquqları üzrə komissiyasının üzvü olmuşdur. Yaponiya, hər il BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarlığına vəsaitin 10%-ini ayırır. Təkcə 1998-ci ildə Yaponiya BMT-nin büdcəsinin 15%-ini ödəmişdir. Bu göstəriciyə görə o, dünyada ABŞ-dan sonra ikinci yeri tutur.

1992-ci ilədək Yaponiya öz silahlı qüvvələrini BMT-nin sülhməramlı əməliyyatlarında iştirak etmək üçün göndərməkdən imtina edirdi. Buna səbəb ölkənin Konstitusiyasının 9-cu bəndi göstərilirdi. Yaponiyanın sülhün və təhlükəsizliyin saxlanmasına töhfəsi yalnız iqtisadi və humanitar yardımla məhdudlaşırdı. Lakin Fars körfəzində başlanan müharibə Yaponiyanın xarici siyasətində dönüş nöqtəsi oldu. Rəsmi Tokio BMT-nin sərt tədbirlərini müdafiə etdi, Yaponiya "körfəzdə müharibəyə" 13 milyard dollar vəsait ayırdı. Onun hərəkətləri bir çox ölkələr tərəfindən ümumi problemin həllindən "pul ilə özünü azad

---

[1] "ax: www.çia.gov

etmək" istəyi kimi başa düşüldü. Yaponiyanın təcridçilik siyasəti xaricdə tənqidə səbəb oldu və ölkənin beynəlxalq nüfuzuna zərər vurdu. Bu isə Yaponiyanın qlobal dövlət roluna iddiasını təhlükə altına sala bilərdi. Ona görə də 1992-ci ilin iyununda ölkə parlamenti sülhü təmin etmək üçün beynəlxalq əməkdaşlıq haqqında qanun qəbul etdi. Bununla da yapon hərbçilərinin BMT-nın sülhü qorumaq əməliyyatlarında iştirakını təmin etməyə dair qanun təsdiq edildi. Bundan sonra yapon hərbi kontingenti BMT-nın Kambocada, Mozambikdə, Suriyada, Holan yüksəkliklərində, habelə Zair və Keniyada humanitar və xilasetmə əməliyyatlarında iştirak etməyə başladı. Yaponiya artıq hərbi güc olaraq da görünməkdədir.

Artıq bir neçə ildir ki, Yaponiya diplomatik proqramının əsas maddələrindən biri ölkənin BMT çərçivəsində rəsmi statusunu bu təşkilatın həqiqi vəziyyətinə müvafiq olaraq təyin etməkdir. Yaponiya BMT Təhlükəsizlik Şurasında islahatlar aparılmasına çalışır. Rəsmi Tokionun baxışına görə, indi bu orqanın daimi üzvlərinin sayının artırılması vacibdir. Bu zaman Yaponiya özünü Təhlükəsizlik Şurasının üzvlərindən biri kimi görür. Belə ki, bunun üçün ona BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin qabaqcadan razılığını almaq lazımdır. Lakin Yaponiyanın Rusiya və Çin ilə bir çox nizama salınmamış problemləri vardır. Bütün bunlar həmin məqsədin reallaşdırılmasına mane olur. Lakin BMT Təhlükəsizlik Şurasına yeni üzvlər qəbul edilərsə, onda özünə yaxın tərəfdaşlar əldə etməklə Yaponiya bu qurumda yüksək səviyyədə təmsil oluna bilər. Sülhsevər ölkə kimi tanındığı üçün məsələnin bu cəhətinin dünyanın digər ölkələri tərəfindən də müsbət qarşılanmaq ehtimalı böyükdür.

## 2.2. Yaponiya və ABŞ strateji əməkdaşlığı

Dünyanın yeni cazibə qüvvələrindən biri olan Yaponiyanın ən böyük strateji müttəfiqi Amerika Birləşmiş Ştatlarıdır. Yarım əsrdən çoxdur ki, yapon hökumətinin hər bir başçısı belə bir formulanı daim təsdiq edir: "ABŞ ilə münasibətlər yapon xarici siyasətinin təməl daşıdır". Birləşmiş Ştatlar XX əsrin ikinci yarısından etibarən "Gündoğan ölkənin" əsas müttəfiqi rolunda çıxış edir. Yaponiyanı bu ölkə ilə bağlayan, hər şeydən əvvəl, iki ölkənin qarşılıqlı iqtisadiyyatını yaradan, son dərəcə sıx, çoxtərəfli, geniş miqyaslı iqtisadi və ticarət münasibətləridir. ABŞ və Yaponiyanın qarşılıqlı ticarət əlaqələri həcminə görə dünyada ABŞ-Kanada "cütlüyü"ndən sonra ən iri, mühüm bir "cütlüyü" təmsil edir. Hələ keçən əsrin əllinci illərinin əvvəllərində qanuniləşdirilmiş hərbi-siyasi ittifaq Yaponiyanın milli təhlükəsizliyini təmin edərək, bu ölkəni Asiya-Sakit okean regionunda ABŞ-ın hərbi-siyasi iştirakının əsasında özünün vacib, qlobal müttəfiqinə çevirmişdir. Nyu-Yorkdakı Binqamton Universitetinin tədqiqatçısı Covani Erikin fikrincə, Yaponiyanın güclü sənaye və maliyyə ölkəsinə çevrilməsi ölkənin ABŞ ilə əvvəlki siyasi və iqtisadi münasibətlərindəki vassal münasibətlərini aradan qaldırmışdır.

SSRİ-nin dağılması və "soyuq müharibə"nin sona çatması Yaponiyanın və Yapon-Amerika əməkdaşlığının gələcək taleyi haqqında sual doğururdu. ABŞ-dan fərqli olaraq Yaponiya bu tarixi hadisəyə əhəmiyyətli dərəcədə təmkinlə yanaşdı. Bu zaman Yapon cəmiyyətində və ziyalıların dairəsində gələcək dünyada Yaponiyanın yeri

haqqında mübahisələr yenidən başladı. SSRİ dağılana qədər Şərqi Asiyada ABŞ-ın dinc müttəfiqi rolunda olmasına baxmayaraq, bu vəziyyət artıq həm yapon siyasi elitası, həm də ictimai dairələr üçün qənaətbəxş deyildi. Hamı Yaponiyanın beynəlxalq mövqelərinin gücləndirilməsi fikrini, ölkənin iqtisadi və siyasi nüfuzunun bərabərliyinin vacibliyini tez-tez söyləyirdi. Nəticədə 1990-cı illərdə Yaponiyanın böyük həcmdə müxtəlif modellərini müdafiə edən bir neçə elmi məktəb yarandı. Həmin məktəblərdə Yaponiyanın daxili ictimai-siyasi, hərbi-iqtisadi, mədəni həyatına dair məsələlərlə yanaşı, xarici siyasətinə aid bütün problemlər müzakirə edilirdi. "Xeyriyyə hegemonluğu" adı altında ABŞ ilə birlikdə dünyanı idarə etmək, iki ölkənin bitkin iqtisadi inteqrasiyası və birmənalı yapon üstünlüyü bu müzakirələrin başlıca qayəsi idi. Hətta Yaponiyanın "qlobal qeyri-hərbi dövlət" konsepsiyası da mövcud idi. Buna görə ölkə gələcəyin bir nümunəvi model dövləti olmalı idi. Bütün bu konsepsiyaların mənbəyi Yaponiyanın ciddi siyasi roluna cavab verməyən nəhəng iqtisadi gücü idi. Ona görə də bu ölkə dünya üçün müxtəlif vasitələrdən istifadə edirdi. Lakin dünya siyasətində Yaponiyanın rolunun artırılmasına mane olmağa çalışan dövlətlər də var idi. Lakin Yaponiya rəqabət mühitində radikal yox, liberal mövqe nümayiş etdirməklə onları zərərsizləşdirdi.

Keçən əsrin 90-cı illərinin əvvəllərində bəzi məsələlərə görə Yaponiya-ABŞ münasibətlərində soyuqluq hiss olunurdu. Buna nümunə olaraq – Fars körfəzi müharibəsində Yaponiyanın rolunu, ölkədə ABŞ hərbi gücünün qüvvətlənməsini, Çin və digər Asiya ölkələrində insan

hüquqlarının qorunmasına dair Amerika siyasətinə qarşı Yaponiya tərəfinin mövqeyini, Yaponiyanın sülhməramlı əməliyyatlarda və iqtisadi münasibətlərdə, hər şeydən əvvəl, ticarətdə iştirakını göstərmək olar. ABŞ hökuməti, xüsusən Bill Klinton hakimiyyəti dövründə Yaponiyadan böyük güzəştlər tələb edirdi. 1993-cü ildə ABŞ Yaponiya ilə iyirmidən çox iqtisadi-ticarət razılaşması imzalamışdı. Öz növbəsində Yaponiya tərəfi onlara inadla müqavimət göstərirdi. 1994-cü ilin martında Bill Klinton Yaponiyaya qarşı ciddi sanksiyaların yeridilməsinə dair ona hüquq verən qərarı imzaladı. Yaponiya da cavab tədbirləri qəbul etdi. XX əsrin 90-cı illərinin ortalarında narazılıq o dərəcəyə çatdı ki, bir sıra siyasi xadimlər Amerikanın hərbi müdaxiləsinin labüdlüyünə dair proqnozlar səslənməyə başladı. Əgər 1985-ci ildə amerikalıların 87%-i Yaponiyaya mehribancasına yanaşırdılarsa, 1993-cü ildə onların sayı 47%-ə enmişdi. Yaponiya cəmiyyətində də münasibətlərin kəskin dərəcədə aşağı düşməsi müşahidə edilirdi. Lakin Amerika prosesləri dəyişmək məcburiyyətində qaldı. Ona görə də 1992-ci ilin yanvarında ABŞ Prezidenti Corc Buşun Yaponiyaya səfəri Yaponiya-Amerika münasibətlərində yeni keyfiyyət nümayiş etdirərək qlobal əməkdaşlıq səviyyəsinə qalxdı. Amerika Birləşmiş Ştatlarının Asiya-Sakit okean regionuna diqqəti XX əsrdə daha da artdı. ABŞ dövlət katibinin köməkçisi U.Lord əsassız olmayaraq bəyan etdi ki, bu gün Birləşmiş Ştatlar üçün Asiya-Sakit okean regionundan vacib heç nə yoxdur. Sabah, XXI əsrdə bu meyil tam olaraq qorunacaqdır. Ona görə də doxsanıncı illər boyunca bütün Yaponiya baş nazirləri köhnə əlaqələrə sədaqəti təsdiq etdilər. Belə ki, 1992-ci il

yanvarın 24-də proqram nitqi ilə parlamentdə çıxış edən Yaponiyanın 78-ci baş naziri Kiti Miyadzava bildirdi ki, bizim Birləşmiş Ştatlarla təhlükəsizliyə dair razılaşmamız Asiya-Sakit okean regionunda sülhün və çiçəklənmənin əvəzolunmaz əsası hesab olunur və Yaponiya buna ciddi surətdə riayət edəcəkdir". Öz nitqi zamanı Yaponiyanın xarici işlər naziri Yukixiko İkeda Yaponiyanın ABŞ və BMT ilə əməkdaşlığında sözsüz sadiqliyini qeyd etdi. İkeda "soyuq müharibə"nin sona yetməsini, geniş həcmdə təhlükəli münaqişələrin azaldılmasını qeyd edərək, «soyuq müharibə» sisteminin iflasının yer kürəsinin bir çox nöqtələrində qeyri-sabitliyə gətirəcəyini söylədi. Bundan yararlanaraq o, Yaponiyanın ABŞ ilə hərbi əməkdaşlıqdan imtina etməsinin qeyri-mümkün olduğunu və hər şeydən əvvəl, müxtəlif regionlarda münaqişəli şəraitin yaranmasına gətirib çıxacağını nəzərə çarpdırdı. Yarım ildən sonra nüfuzlu "Japan Quarterly" jurnalında əsası ABŞ ilə strateji əməkdaşlığa toxunan Asiya və Sakit okean regionundakı siyasətdən bəhs edən xarici işlər nazirinin çıxışı çap olundu. O bildirirdi ki, Yaponiya hər şeydən əvvəl, regionda sabitliyi və təhlükəsizliyi təmin edən mühitdə mövcud olmalı və inkişaf etməlidir.

Yaponiyanın baş naziri Hasimoto Ryutaro tərəfindən 1996-cı il aprelin 17-də birgə Yaponiya-ABŞ təhlükəsizlik bəyannaməsi qəbul edildi. O, yalnız hər iki tərəfin mövcud siyasətdə bağlılığını deyil, həm də yapon və ABŞ əməkdaşlığının Asiya-Sakit okean regionunda strateji rolunu təsdiq edirdi. 90-cı illərin birinci yarısında daxili siyasətdəki iqtisadi və xarici ticarətdən ziyan çəkən Yaponiya-Amerika münasibətlərindəki fəallıq və yaxınlaşma

xarici siyasətdə mühüm yer tuturdu. Yeni birgə əməkdaşlıq bəyannaməsi Asiya-Sakit okean regionunda ABŞ hərbi qüvvələrinin qorunmasına zəmanət verirdi. Bu da Koreya yarımadasında, Kambocada, Koreya Xalq Respublikasında və Tayvanda artıb güclənməsinə gətirib çıxarırdı. Yaponiya hökuməti Amerika Birləşmiş Ştatları ilə mövcud danışıqlar çərçivəsindəki öhdəliklərə riayət edirdi. Rəsmi surətdə "soyuq müharibə"nin sona çatması və bununla yanaşı dünyada pozucu amillərin qorunub saxlanması elan edildi.

1997-ci ilin sentyabrında hələ 1978-ci ildə qəbul olunmuş analoji sənədləri əvəz edən və 1996-cı ildə qəbul edilmiş birgə Bəyannaməni inkişaf etdirən "ABŞ və Yaponiya arasında əməkdaşlığın və hərbi yoldaşlığın əsas istiqamətləri" adlı Bəyannamə elan edildi. Bu bəyannamədə müdafiə və təhlükəsizlik sahəsində əvvəllər iki ölkə arasında imzalanan sənədlərin, başqa sözlə desək, "San-Fransisko sistemi"nin əsaslarının qüvvədə qaldığı vurğulanırdı. Əməkdaşlığın başlıca məqsədi tərəflərin böhranlı vəziyyətdə səmərəli və sürətli fəaliyyətlərinin əlaqələndirilməsinə və nəticələrin təmin olunmasına yönəlmişdir.

Təhlükəsizlik müqaviləsi Yaponiya-ABŞ hərbi ittifaqında əhəmiyyətli dəyişiklikləri əks etdirirdi: Həmin keyfiyyət dəyişiklikləri Yaponiyanın kiçik tərəfdaş statusundan bərabərhüquqlu iştirakçı statusuna keçməsi və bu keçid ilə əlaqədar olan bütün öhdəliklərlə ölçülür. "Yaponiya beynəlxalq münasibətlər forumu»nun nöqteyi-nəzərindən təhlükəsizlik sazişi hazırda Yaponiyanın müdafiə tələbatlarını arxa plana keçirir. O, ikitərəfli mühüm əməkdaşlıq mexanizmini və Asiya-Sakit okean regionunda təhlükə-

sizlik təminatını əlaqələndirir. Sazişdən görünür ki, ABŞ və Yaponiya onun təminatçısı kimi çıxış edirlər. Yaponiya ABŞ Prezidenti Corc Buşun Asiya ölkələrinə səfəri zamanı ABŞ-ın Şimali Koreya ilə açıq şəkildə həmrəyliyini vacib bilmədi. ABŞ-a bildirdi ki, Yaponiya Şimali Koreyaya qarşı güc tərbiq edilməsinin tərəfdarı deyildir. Çünki bu, Asiya-Sakit okean regionunda, həmçinin Uzaq Şərqdə şəraitin gərginləşməsinə səbəb ola bilər.

Yaponiya-Amerika əməkdaşlığı XXI əsrdə də davam etməkdədir. Yaponiya Amerika iqtisadi bazarında Çinlə rəqabət aparır. Bu məsələdə Amerika ilə Yaponiyanın mövqeləri üst-üstə düşür. Buna görədir ki, artıq Amerika bazarında yeni texnologiyalara aid məhsullar üzrə Yaponiya Çin Xalq Respublikasını üstələmişdir. Eyni zamanda, Amerika da Sakit Okean regionunda Yaponiyaya özünün ən etibarlı hərbi müttəfiqi kimi istinad edir. Mövcud geosiyasi vəziyyət Rusiya-Çin münasibətləri müqabilində Amerika-Yaponiya münasibətlərinin də daha da möhkəmləndirilməsinə zərurət yaradır.

### 2.3. Yaponiya-Çin münasibətləri

Yaponiya və Çin Xalq Respublikası arasında mövcud olan gərgin münasibətlər hər iki tərəfin baxışına görə, öz başlanğıcını min illər bundan əvvəlki etnik ədavətdən götürür. Buna dair çoxlu faktlar göstərmək olar. Lakin XX əsrdə Çin-Yaponiya ədavətinin başlıca səbəbi 1931-1945-ci illərdə Yaponiyanın həyata keçirdiyi işğalla əlaqədardır. Artıq yarım əsrdən çoxdur ki, yaponlar Çinə güclü mədəni cazibə qüvvəsi kimi baxırlar. "Soyuq müharibə" illərində Yaponiya Uzaq Şərqdə ABŞ xarici siyasətinin re-

gionda bələdçisi rolunu oynayırdı. XX əsrin əllinci illərinin əvvəllərində Asiyada Çindən "üçüncü qüvvə" kimi istifadə edən ABŞ-ın əsas məqsədi Asiyada kommunizmin və SSRİ-nin təsirinin yayılmasına yol verməmək idi. Bu məqsədi həyata keçirən Birləşmiş Ştatlar Yaponiyanın simasında etibarlı tərəfdaş qazanmışdı. Ona görə də Yaponiya-Çin münasibətlərindən danışarkən Çin Xalq Respublikası və ABŞ arasında qarşılıqlı münasibətləri nəzərə almaq vacibdir.

Doğru olaraq qeyd edilmişdir ki, İkinci Dünya müharibəsindən sonra ABŞ və Çin arasındakı münasibətlər saat kəfkirinə bənzəyirdi: gah dayanır, gah da hərəkət edirdi. 50-60-ci illərdə ABŞ tərəfindən Çinin hərtərəfli münasibətlərdəki geniş inkişafının "qarşısının alınması" 70-ci illərdə Yaponiya və Çin Xalq Respublikası arasında sərt dönüşə səbəb oldu. Yaponiyanın Çini "yeganə qanuni hökumət" kimi tanıması və 1972-ci ildə Tayvan ilə diplomatik münasibətləri pozması beynəlxalq əlaqələrin geniş inkişafına yol açdı. Çinlə münasibətlər sürətlə inkişaf etməyə başladı. Hətta 1973-1978-ci illərdə ölkələr arasında bir sıra sazişlər və razılaşmalar bağlandı. Bu sənədlər seriyasını 1978-ci il 12 avqust tarixdə Pekində imzalanan sülh və dostluq haqqında Yaponiya-Çin müqaviləsi tamamladı.

Daha sonralar bütün səviyyələrdə intensiv danışıqlar aparıldı. Nəticədə Yaponiya-Çin əlaqələrinin inkişaf mexanizmi yaradıldı. Çin Xalq Respublikasının ali rəhbərləri Yaponiyada, Yaponiya ali rəhbərləri də Çində səfərdə oldular. Dövlətlərarası münasibətlərdə yeni formalar təsbit olundu. 1980-ci ildən bəri iki ölkənin xarici işlər nazirləri arasında daimi qrup halında müşavirə keçirilir. XXI

əsrin Yaponiya-Çin Dostluq Komitəsi fəal fəaliyyət göstərir, Yaponiya-Çin münasibətlərində uzunmüddətli dostluq anlaşma strategiyasının həyata keçməsini ölkə olaraq bir tapşırıq kimi qarşısına məqsəd qoymuşdur.

Beləliklə, Çin və Yaponiya arasında tədricən elə münasibətlər yaranmışdır ki, onlar kanalların müxtəlifliyinə və rabitənin səviyyəsinə, etibarlıq dərəcəsinə, müzakirə olunan ikitərəfli və beynəlxalq problemlərin əhatə dairəsinin genişliyinə, iqtisadi-ticarət əlaqələrinin həcminə görə Çin Xalq Respublikasının hər hansı digər bir kapitalist ölkəsi ilə münasibətlərindən daha artıq inkişaf etmişdir. 70-80-ci illərdə Yaponiya-Çin münasibətlərindəki inkişafın sürətli tempi yalnız siyasi münasibətlərlə deyil, həm də iqtisadi maraqların yüksək səviyyəsi ilə izah edilirdi. Yaponiya Çin üçün indi də onu müasir texnologiya, avadanlıq, müxtəlif maşın və iqtisadiyyatının inkişafında vacib olan sənaye malları ilə təchiz edən bir ölkədir.

Yaponiya öz tərəfindən Çinə özünün sənaye mallarının satışı və vacib enerji daşıyıcıları və digər xammal növlərinin – ilk növbədə, neft və daş kömür satışının bazarı kimi baxır.

Bununla belə, uğurlu iqtisadi əməkdaşlıq fonunda 80-ci illərin ortasında ziddiyyətlər yaranırdı. Hər iki ölkə arasında yaranan ziddiyyətlər sosial fikir ayrılığına, tarixi inkişafın xüsusiliyinə və köklərinə gedib çıxırdı.

Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi Yaponiya dərsliklərində İkinci Dünya müharibəsi tarixinin təhrif olunması faktlarına görə rəsmi etirazını bildirmişdir. Yaponiya hakimiyyətinin bir sıra üzvləri öz çıxışlarında Sakit okean regionunda müharibənin baş verməsində Ya-

poniyanın cavabdehliyini şübhə altına alırdı. Çin tərəfinin kəskin etirazları nəticəsində 1991-ci ildə baş nazir Takesida rəsmi şəkildə üzr istəməyə məcbur oldu.

Artıq qeyd edildiyi kimi, hələ 1972-ci ildə diplomatik münasibətlərin pozulmasına baxmayaraq Yaponiya ilə Tayvan arasında yüksək səviyyədəki rəsmi münasibətlər Çində narazılıq doğururdu. 1989-cu ildə Yaponiya və Tayvan arasındakı ticarət dövriyyəsi 29,4 milyard dollar təşkil edirdi. Bu da Çin Xalq Respublikası ilə Yaponiya arasında ticarətin həcmini 23,8% keçirdi.

Çin tərəfi Yaponiya bazarının daha da genişlənməsini, bəzi məhsulların daşınmasına qoyulan məhdudiyyətlərin aradan götürülməsini tələb edirdi. Çin Yaponiyadan yüksək səviyyəli texnologiya və maşınların gətirilməsinə qoyulmuş məhdudiyyətə görə kəskin etiraz etdi, təhlükəli rəqib olaraq dünya bazarında Çinin qarşısını almaq üçün Yaponiya sənaye məhsullarının bəzi növlərinin ixracına ara verdi. Çində tədricən yaranmış ziddiyyətlərin nəticəsi kimi antiyapon əhval-ruhiyyəsi gücləndi. 1985-ci ildə Sakit okeanda müharibənin sona çatması və Yaponiya militarizminin darmadağın edilməsi münasibətilə geniş tədbirlər keçirilirdi. Çin Xalq Respublikasının böyük şəhərlərində Yaponiya əleyhinə şüarlar ilə nümayiş və mitinqlər keçirildi. 1988-ci ilin avqust ayında aparılmış ümumxalq rəyinin nəticələrinə görə 44% çinlilər Yaponiyaya qarşı inamsız olduqlarını elan etdilər.

Eyni vaxtda Yaponiyada da Çinə qarşı münasibət dəyişməyə başladı. Bir sıra mühafizəkar qruplar Pekinə qarşı daha təmkinli münasibət göstərməyi tələb edirdilər. 1989-cu ilin iyun ayında Yaponiya hökuməti Pekindəki

hökumət əleyhinə olan tələbə çıxışlarının nəticəsi kimi Çinlə iqtisadi əlaqələrə bəzi məhdudiyyətlər qoyulduğunu elan etdi. Lakin Yaponiya "Yeddilik" adlanan aparıcı kapitalist dövlətlərindən daha əvvəl bütün məhdudiyyətləri aradan götürdü.

XX əsrin 80-ci illərinin sonlarında Çin öz güclənmiş iqtisadi potensialını hərbi qüdrətinin və siyasi təsirinin inkişaf etdirilməsinə yönəltdi. Çin Xalq Respublikasının rolunun və çəkisinin artması Sovet İttifaqının dağılması, "soyuq müharibə"nin sonu ilə üst-üstə düşdü. Bu hadisələr regionda gücün tətbiq olunması imkanlarını dəyişdirdi. Təbii olaraq öz ardınca ikitərəfli əlaqələrin inkişafında dəyişikliklərə gətirib çıxardı. Bu baxımdan Yaponiya-Çin münasibətləri də istisna deyildi. Baş nazirlərin bir sıra görüşlərindən sonra, 1992-ci ildə Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Czyan Szemin Yaponiyada səfərdə oldu. Elə həmin ildə Çinə Yaponiyanın imperatoru Akixito səfər etdi. Pekinə səfəri zamanı imperator İkinci Dünya müharibəsi dövründə yapon ordusunun işğal zamanı Çin xalqını ağır vəziyyətə saldığına görə formal şəkildə şifahi üzr istədi. Hadisələrin belə gedişi iki ölkə arasında münasibətlərin istiləşməsinə gətirib çıxardı. Lakin 1996-cı ildə Tayvan boğazında Çinin üç nüvə silahının sınaqdan keçirilməsi Yaponiya tərəfinin kəskin etirazına səbəb oldu. Nəticədə Yaponiya tərəfi Çinə etdiyi yardımı dayandırdı. Həll edilməmiş ərazi məsələləri üstündə yenə də soyuqluq əmələ gəldi. İlk növbədə Cənubi Çin dənizində neftlə zəngin Spratli adasının ərazisinin mənsubiyyətinə dair Çin və Yaponiya arasındakı mübahisə qızışdı. 1995-ci ilin may ayında dənizaltı ehtiyatların

tədqiqatı ilə məşğul olan Çin tədqiqatçıları Senkako adaları yaxınlığında Yaponiyanın ərazi sularına daxil olaraq bir sıra xırda münaqişələr yaratdılar. 1996-1997-ci illərdə Yaponiya və Amerika arasında əməkdaşlığın daha da möhkəmlənməsi Çinin ciddi narazılığına səbəb oldu.

1997-ci il sentyabrın 23-də Nyu-Yorkda Amerika və Yaponiya arasında "Müdafiə sahəsində Yaponiya-Amerika əməkdaşlığının əsas istiqamətləri" haqqında ikitərəfli razılaşma imzalandı. Razılaşmada qeyd olunurdu ki, nəinki Yaponiyaya hücum zamanı, əvvəllər olduğu kimi, həmçinin "yanındakı ərazilərdə də fövqəladə hallarda" hər iki tərəf razılaşaraq hərəkət edəcəkdir. Baxmayaraq ki, bu ərazilərin coğrafi mövqeləri qeyd olunmamışdı, aydın görünürdü ki, onlar Koreya yarımadasını və Tayvanı işğal edirlər.

Beləliklə, Tayvan problemi bir daha Çin ilə "gündoğan ölkə" arasındakı qarşılıqlı münasibətlərdə dolaşaraq qaldı. 1997-ci ildə Honkonqun 1999-cu ildə Makao ilə Çin Xalq Respublikasının birləşməsindən sonra Tayvan məsələsi Çinin xarici siyasətinin prioritet məsələlərindən biri oldu. Bu məsələnin həllində Çin hər cür, hətta hərbi üsullardan da istifadə ilə olsa belə hazır olduğunu bildirmişdi. Beləliklə, Tayvan yarımadasının yeni ABŞ-Yaponiya hərbi razılaşmasına daxil edilməsini Çin onun daxili işlərinə qarışmaq kimi qiymətləndirdi. "Əsas istiqamətlərə" yenidən baxışı, özünümüdafiə qüvvələrini gücləndirməsi, Yaponiyanın RƏM sistemini inkişaf etdirməsi Çini ayıq, ehtiyatlı olmağa çağırırdı. Yaponiya hakimiyyəti hələ 1972-ci ildə qəbul olunan Tayvana qarşı rəsmi mövqeyi təsdiq etməyə tələsirdi.

ABŞ ilə birgə hərbi ittifaqın yenilənməsinə baxmayaraq, 1997-ci ildə Yaponiya diplomatiyasının manevrləri Tokionun Vaşinqtona olan əvvəlki birtərəfli meyilləməsindən Tokionun uzaqlaşdığını göstərirdi. Çinin güclənməsini və Cənub- Şərqi Asiyada dominant gücə çevrildiyini görən Yaponiya özünün xarici siyasət doktrinasına mövcud siyasi reallıqlar əsasında yenidən baxılmasının vacibliyini başa düşdü.

Tokionun Pekinə münasibətlərinin yeni gedişi, əvvəllər təyin olunmuş Moskva ilə hərtərəfli əlaqələrin yaxşılaşmasına dair kursu 1997-ci ildə Yaponiyanın baş naziri R. Hasimotonun özü ilə gətirdiyi "Avrasiya diplomatiyası"-nın əsası oldu. Baş nazirin sözlərinə görə, Çin ilə qarşılıqlı əlaqələr bundan sonra "qarşılıqlı anlaşmanın dərinləşməsi, dialoqların genişlənməsi, əməkdaşlığın inkişafı və yeganə regional qaydaların formalaşdırılması" üzərində qurulacaqdır.

Son illərdə Yaponiyada vəziyyət daha da kəskinləşməkdə davam edir. Üstəlik, adalar məsələsində də qarşıdurma meyilləri gündəmə gəlir. Ona görə də Yaponiya-Çin və Amerika münasibətlərində müəyyən gərginlik yaranmaqdadır. Bir tərəfdən Yaponiya ABŞ-ın strateji müttəfiqidir. Ona görə də bu ölkənin Çinə olan münasibəti və siyasəti nəhəng müttəfiqinin mövqeyi ilə təyin edilir. Digər tərəfdən, Çin rəsmi Tokio üçün nəhəng ticarət müttəfiqi və güclü qonşudur. Bu dövlət vəziyyətdən asılı olaraq həm mehriban, həm də təhlükəli qonşu ola bilər. Yaponiyada şübhə etmirlər ki, son 10-15 ildə Şərqi Asiyadakı mövcud qüvvə dəyişəcək. Söylənən fikirlərə görə, əgər Çin Xalq Respublikası ABŞ-ı ərazidən çıxartmağa müvəffəq olmasa, sadəcə bu ölkəni sıxışdırıb çıxardacaqdır.

Yaponiya "daxiletmə" siyasətinə əməl edir və özünü sadəcə ABŞ, Çin Xalq Respublikası, Yaponiya üçbucağında vasitəçi və tənzimləyici rolunda görür. Əgər Çinin iqtisadi gücü olduqca çox güclənərsə, üçbucaq iki yerə bölünəcəkmi? Bu sualın cavabını ancaq gələcək göstərəcəkdir. XXI əsrin reallıqları göstərir ki, dövlətlərarası münasibətlərdə Yaponiya-Çin əlaqələri ilə müqayisədə Yaponiya-Amerika münasibətləri daha möhkəmdir. Amerika Çinə qarşı rəqibi, Yaponiyaya münasibətdə isə müttəfiqi kimi davranır. Rusiya-Çin münasibətlərinin daha da yaxınlaşması Yaponiyanın da Amerika ilə əlaqələri inkişaf etdirməsinə ciddi təkan verir.

**2.4. Yaponiya-Rusiya əlaqələri**

Yaponiyanın Rusiya ilə münasibətləri XIX əsrin sonlarından etibarən yaranmağa başlamışdır. İlk dəfə Yaponiya və Rusiya arasında rəsmi dövlət münasibətləri 1855-ci ildə ölkələr ticarət və sərhədlər haqqında Simod Traktat sazişi imzaladıqdan sonra yaranmışdır. O zaman Yaponiya və Rusiya arasında dövlət sərhəd xətti təbii şərtlərlə aparılmışdır. Tərəflər Kunaşir, İturup, Şikotan və Xabomay adalarını Yaponiya ərazisi, Urup və ondan şimalda olan digər on yeddi adanı isə Rusiya adaları hesab etməyə razılaşmışdılar. Saxalinin yaponların və rusların birgə yaşadığı ərazi kimi hesab edilməsi qərara alınmışdır. Az müddətdən sonra çətin beynəlxalq vəziyyətdə ərazi problemləri ətrafında gedən münasibətlər yeni güc ilə artmağa başladı.

1875-ci ildə Yaponiya və Rusiya Saxalinin bütünlükdə Rusiya imperiyasına, bütün Kuril adalarının isə Yaponi-

yaya keçməsi haqqında saziş imzaladılar. 1904-1905-ci illər Rus-Yapon müharibəsində Rusiyanın məğlub olmasından sonra Portsmut sülh müqaviləsinə görə, Cənubi Saxalin Yaponiyaya verildi. Bununla əlaqədar olaraq Rusiya Nazirlər Şürasının sədri S.Y.Vitte öz gündəliyində yazırdı ki, belə aşağılayan saziş Rusiyada hələ olmamışdır və bu, gec-tez aradan götürüləcəkdir. Doğrudan da İkinci Dünya müharibəsinin yekununda, 1945-ci ildə SSRİ Cənubi Saxalini, Kuril adalarını və həmçinin Kunaşir, İturup, Şikotan və bir sıra Xabomai adaları qrupunu öz ərazilərinə qatdı.

Sonralar Cənubi Kuril problemi sovet-yapon, SSRİ dağılandan sonra isə Rusiya-Yaponiya münasibətlərindəki sabitsizliyin başlıca səbəbi oldu. İndinin özündə bütünlükdə bu münasibətlər normallaşmamışdır.

XX əsrin birinci yarısında Uzaq Şərqdə və Asiya-Sakit regionunda Yaponiyanın keçirdiyi hərbi zəncirvarı aksiyalar, ərazilər haqqında fikir ayrılığı, həmçinin ruslar və yaponlar arasındakı çoxdan yaranmış ədavət Rusiya-Yaponiya münasibətlərinin uzun illər ərzində formalaşmasına gətirib çıxardı.

Nəhayət, 1951-ci ildə SSRİ San-Fransiskodakı konfransda iştirak etdi. Yaponiya və onunla vuruşan ittifaq ölkələri arasında kollektiv sülh müqaviləsi imzalandı. Müttəfiqlərin bir çoxu sülh müqaviləsini imzaladılar. Lakin SSRİ bu sənədə imza atmadı. Ona görə ki, bu saziş Kuril adalarındakı sovet hakimiyyətinin hökmranlığına hüquqi cəhətdən cavab vermirdi. Beləliklə, Yaponiya və Sovet İttifaqı arasında münasibətlər tənzimlənməmiş qaldı. 1951-ci ildə ABŞ ilə ilk "təhlükəsizlik sazişi"ni imzalayaraq iki əks

düşərgənin "soyuq müharibə"ni başladığı dövr ərzində Yaponiya "barrikada"nın digər tərəfində – "azad dünya" tərəfində idi. Bu da SSRİ və Yaponiya arasında qarşılıqlı narazılığı daha da gücləndirdi. Bu münaqişəni süni şəkildə ABŞ "soyuq müharibə" məntiqi ilə tənzimləyənləri "qızışdırırdı".

Rusiya-Yaponiya münasibətlərinin son dərəcə kəskinləşməsinə səbəb Sovet İttifaqı tərəfindən rəsmi surətdə tanınmış beynəlxalq hüquqi normaların qəbul olunmasına baxmayaraq, on il ərzində Yaponiyadan olan hərbi əsirlərin çox çətin katorqa şəraitində, Sibirin tikintilərində və SSRİ-nin digər sərt iqlimi olan ərazilərində işlədilməsi idi.

1955-ci ildə "soyuq müharibə" dövründə SSRİ Yaponiya ilə münasibətlərin normallaşmasına tərəfdar olan kimi çıxış etdi. Danışıqlarda başlıca məsələ Cənubi Kuril və ya yaponların adlandırdığı kimi "Şimal əraziləri" idi. Yaponiya öz ərazilərinin geri qaytarılmasını tələb edirdi. SSRİ isə bu tələblərə etiraz edirdi. Nəticədə SSRİ Yaponiyaya Xobomei və Şikotan adalarını geri qaytarmağa hazır olduğunu bildirdi. Öz növbəsində Yaponiya Kunaşir və İturup adalarının da problemini həll etməyi tələb etdi. Uzun danışıqlardan sonra tərəflər 1956-cı ildə kompromis qərar qəbul edərək razılığa gəldilər ki, ilk öncə diplomatik münasibətləri bərpa etsinlər, daha sonra sülh müqaviləsi, Kunaşir və İterup adalarının taleyini də həll etsinlər. 1956-cı ilin oktyabr ayında Yaponiya və SSRİ arasında hökumətlərarası bəyannamə qəbul edildi. Həmin sənədlərdə diplomatik münasibətlərin qurulması, Xabomaye və Şikotan adalarının sülh müqaviləsi imzalandıqdan sonra qaytarılmasının labüdlüyü orada öz əksini tapırdı.

Bundan sonra 1960-cı ildə SSRİ Yaponiya ilə yeni müqavilə bağlayaraq Xabomaye və Şikotan adalarını Yaponiya ərazilərindən bütün xarici, o cümlədən ABŞ orduları çıxarılmayana qədər qaytarmayacağını bəyan etdi. Bir müddət keçdikdən sonra SSRİ öz mövqeyini dəyişərək Yaponiyaya özünün ərazi məsələlərinin çoxdan həll edildiyini və onunla heç bir danışığa getməyəcəyini bildirdi. Bununla SSRİ birtərəfli şəkildə öhdəsinə götürdüyü öhdəlikləri pozdu. Ona görə də Yaponiya və Sovet İttifaqı arasındakı münasibətlər kifayət qədər soyuq oldu. Qarşılıqlı münasibətlər əsasən iqtisadiyyat və mədəniyyət sahəsində əməkdaşlıq məsələlərini əhatə edirdi. Siyasi və digər istənilən qarşılıqlı əlaqə "Şimal əraziləri" problemi ilə çətinliyə salınırdı. Məsələnin həlli ona görə çətinləşirdi ki, münasibətlərin inkişafında müxtəlif motivlər önə gətirilirdi. Hər iki tərəf öz maraqlarını müdafiə etməyə çalışırdı.

Məlum olduğu kimi, obyektiv səbəblərə görə Yaponiya heç vaxt sovet siyasətinin Asiyadakı əsas prioriteti olmamışdır. Lakin tədricən SSRİ-nin Yaponiya ilə münasibətlərinin yaxşılaşmasında strateji əsaslar ortaya çıxmışdır. Məhz bu, SSRİ-nin əsas məqsədlərinin gücləndirilməsi idi. Sərhəd problemlərinin nizama salınması SSRİ üçün qarşıya qoyulmuş məqsədə çatmaq idi. Yaponiya ilə münasibətləri yaxşılaşdırmaq məqsədi ilə SSRİ sərhəd çəkmək problemində xüsusi fəallıq göstərirdi.

Yaponiyanın strateji məqsədlə SSRİ ilə yaxınlaşması xüsusi şəraitdə sərhədçəkmə problemini nizama salmağa yönəlmişdi. Bu mənada SSRİ ilə münasibətlərin yaxşılaşması Yaponiya üçün əsas məqsədinə çatmaq idi. Məhz

buna görə də müəyyən olunmuş çərçivədə Yaponiya SSRİ ilə vəziyyətin yaxşılaşdırılmasında diplomatik çeviklik göstərir, onu dörd adanın qaytarılmasına sövq edirdi.

Yaponiya ilə münasibətlərin yaxşılaşdırılması sahəsində SSRİ bir dəfə də olsun 1956-cı ildəki birgə bəyannamə əsasında sülh müqaviləsindəki Xabomaye və Şikotan adalarının qaytarılmasına hazır olduğunu bəyan etmədi. Yaponiyaya iki digər adanın qaytarılmasının mümkünlüyünü və yaxud onları Yaponiya ərazisi kimi tanımağı SSRİ heç vaxt qəbul etmədi. Əksinə, Yaponiya hər zaman özünün Kunaşir və İturup adalarına olan qanuni hüquqlarını sübuta yetirirdi. Münasib bildiyi zamanda onların Xabomaye və Şikotan adaları ilə birgə geri qaytarılmasına çalışırdı.

Keçən əsrin 80-ci illərdə Yaponiya-SSRİ münasibətləri daha da kəskinləşdi. Sovet ordusunun Əfqanıstana yeridilməsi ilə bağlı dünyanın digər aparıcı qüvvələri kimi Yaponiya hökuməti də sanksiyalara qoşuldu. Bu, rəsmi tərəfdən bütün əlaqələri pozdu, bağlanmış sazişlərin yerinə yetirilməsini dondurdu, dövlət xətti ilə kreditlərin verilməsini dayandırdı, SSRİ-yə yeni texnika və texnologiyaların göndərilməsinə məhdudiyyət qoydu. Yaponiyada amerikalıların hərbi müstəqillik və siyasi aksiyalarda fəal iştirakından narahat olan SSRİ münasibətlərin inkişaf etdirilməsində maraqlı deyildi.

XX əsrin 80-ci illərinin ikinci yarısında SSRİ və Qərb ölkələri arasında qarşıdurma bir qədər zəiflədi. Bu da yapon-sovet münasibətlərində istilik yaratdı. Bütün səviyyələrdə ikitərəfli danışıqların başlanğıcına start verildi. Moskva və Tokio ərazi problemləri də daxil edilməklə

bütün problemləri müzakirə etdilər. Qarşılıqlı səfərlər və əmtəə mübadiləsi artdı. 1988-ci ildə ölkələr arasında ticarət genişləndi. SSRİ və Yaponiya arasında münasibətlərin yaxşılaşmasına əyani sübut SSRİ tarixində ilk dəfə olaraq 1991-ci ilin aprel ayında SSRİ-nin prezidenti M.S.Qorbaçovun Tokioya səfər etməsi oldu.

Beləliklə, 1991-ci ilin dekabrında SSRİ-nin dağılması və suveren Rusiya Federasiyasının yaranması rus-yapon münasibətlərinin tənzimlənməsində, xarici siyasətində yeni prinsiplər ortaya çıxardı. Bundan sonra tərəflər bir-birini daha az günahlandırmağa başladılar. Mətbuatda iki ölkə arasında qeyri-normal münasibətlərin və köhnədən qalmış narazılıqların aradan qaldırılması və vəziyyətin aydınlaşdırılmasına dair elmi dairələrdə məqalələr çap edilməyə başlandı. Qarşılıqlı münasibətlərdə normallaşma meyilləri hiss olunurdu.

90-cı illərin əvvəllərində Mixayıl Qorbaçov və Boris Yeltsin arasında hakimiyyət uğurundakı mübarizə xarici siyasətə, xüsusilə də Kuril adaları məsələsinə təsir etdi. B.Yeltsin tərəfdarları xüsusi şərtlərlə adaların Yaponiyaya geri verilməsinə tərəfdar kimi çıxış edirdilər. Bu fəaliyyətin nəticəsi olaraq 1990-cı ildə Yaponiyaya səfərində beşmərhələli "ərazi məsələsi planı" qəbul edildi. Plana əsasən aşağıdakı məsələlər daxil edilmişdi:

1) "Problemin" rəsmi tanınması; 2) Adaların hərbsizləşdirilməsi; 3) Azad sahibkarlıq zonası elan olunması; 4) Sülh sazişinin imzalanması və "adalar üzərində "birgə idarəetmə"ni həyata keçirmək; 5) Gələcək nəsil siyasətçilər üçün axtarış yollarının tamamilə həll olunması.[1]

[1] Bax: Rza Talıbov. Yaponiya-Azərbaycan əməkdaşlığı müasir mərhələdə. Bakı, "Çaşıoğlu", 2005,səh.58.

Sonrakı illərdə Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin "beşmərhələli plan"ı gündəliyindən düşürmədi. Lakin rəsmi səviyyədə bu barədə danışmırdı. Bununla yanaşı, B.Yeltsin və icraçı hakimiyyətin müxtəlif səviyyələrdəki hərəkətləri deməyə əsas verirdi ki, bu plan sarsılmazdır, ancaq buna baxmayaraq, bəzi düzəlişlərlə yerinə yetirilirdi. Bundan əlavə, hesab etmək olardı ki, bu plan Kremlin Kuril problemi kimi adlandırılan əsas siyasətinin "məxfi planı" idi.

1993-cü ildə Boris Yeltsin Yaponiyaya səfər etdi. Səfərin gedişində Tokio bəyannaməsi qəbul edildi. Bu sənəd iki ölkə arasında ərazi ziddiyyətlərinin mövcudluğunu təsdiq edirdi. Bəyannamədə yazılırdı: "...Tərəflər razılaşır ki, iki ölkə arasında danışıqları sülh sazişi ilə bitirmək üçün İturup, Kunaşir, Çikotan və Xabomaye adalarının tarixi, hüquqi amillər əsasında mövcudluğunu və həmçinin iki ölkə arasında işlənmiş sənədlərin əsasında, ədalət və qanun prinsipləri çərçivəsində ikitərəfli münasibətləri tam şəkildə normallaşdırmaq vacibdir".

İkitərəfli münasibətlərin yenidən yüksəlməsi üçün "qalstuksuz görüş" çərçivəsində prezident B.Yeltsin ilə baş nazir R.Hasimonun 1997-ci ildə Krasnoyarskda görüşü oldu. Görüşdə prinsipcə vacib olan yapon liderinin irəli sürdüyü Rusiya ilə münasibətləri novatorcasına qurmaq planı idi. Bu plan "Haşimoto planı" adlandırılır.

Son illərdə Rusiya-Yaponiya münasibətlərində Çin amilinin rolu artmışdır. Çin Xalq Respublikası ilə qarşılıqlı münasibətlər uzun illər Yaponiya tərəfindən xeyirxahlıqla müzakirə olunurdu. SSRİ-nin qəti düşməni və "sovet təhlükəsi"nin əks ağırlığı, yəni, əgər müttəfiq deyilsə, onda

ən azından düşmən kimi, SSRİ-nin dağılması və Rusiyanın Uzaq Şərqdəki hərbi qüvvələrinin ixtisar edilməsi və ASH-nin bütünlüklə Çinin güclü iqtisadi inkişafı ilə əlaqəsi və onun hərbi gücünün artması güclərin tarazlığını regionda onun xeyrinə dəyişmişdi. Bundan əlavə, Moskva və Pekin keçmiş illərin düşmənçiliyinə son qoymadılar, həmçinin strateji əməkdaşlığa keçidi elan etdilər. Ona görə də Rusiya ilə əməkdaşlıq və regionda strateji tarazlığı qorumaq vacibdir. Yaponiya üçün BMT-nin daimi üzvü olan Rusiyanın bu orqanın yenidən qurulmasında dəstəyi çox vacib idi.

Krasnoyarskda keçirilən qeyri-rəsmi görüşün nəticələrinə görə tərəflər yeni, geniş əməkdaşlıq imkanlarını müzakirə etdilər. 2000-ci ilin sonlarınadək yeni sülh müqaviləsini bağlamaq üçün əllərindən gələn səyləri göstərmək, nikbinliyi təlqin etmək haqqında ümumi razılığa gəldilər. Havanada keçirilən qeyri-rəsmi görüş də bu cür müsbət ruhda keçdi. Orada yapon tərəfi problemlərin əvvəllər Rusiya üçün qəbuledilməz olan yeni həllini, sərhədlərin ayrılması formulasını təqdim etdi.

İlk dəfə əsrin sonlarında - 1998-ci ilin noyabrında Yaponiyanın baş naziri Keydzo Obudinin Rusiyaya rəsmi səfəri baş tutdu. Bu hadisə əsasında yüksək səviyyədə danışıqların yekunlarına görə Moskva bəyannaməsi qəbul olundu. Danışıqların nəticəsində ölkələr "yaradıcı əməkdaşlıq" haqqında razılığa gəldilər.

Yaponiya ilə dialoqu davam etdirmək məsələsi Rusiyanın yeni prezidenti V.Putinin üzərinə düşmüşdü. 2000-ci ilin sentyabrında onun Yaponiyaya səfərinin nəticəsi bəzi analitiklərin düşüncəsinə görə, Rusiya-Yaponiya münasi-

bətlərinin son illərdəki ən yüksək səviyyəsi kimi qiymətləndirilirdi.

Beynəlxalq məsələlərdə əməkdaşlıq haqqında bir bəyanatda görünməmiş geniş sualların əhatəsində yeni dünya qaydalarının əsasında nüvə silahının yayılmaması və raket əleyhinə müdafiə sistemlərinin qorunması haqqında sazişə qədər qarşılıqlı anlayış qeyd olunmuşdu. Bundan başqa, Rusiya tərəfi Yaponiyanın BMT-nin daimi üzvlüyə namizədliyini özünün müdafiə edəcəyini bildirmişdi.

Ən böyük ziddiyyət sərhədlərin ayrılması probleminin müzakirəsində əldə olunmuşdu. Rusiya lideri son qırx ildə ilk dəfə olaraq bəyan etdi ki, 1956-cı ildə imzalanan Birgə əməkdaşlıq haqqında bəyannamə öz qüvvəsində qalır.

Çətinlik onda idi ki, V.Putinin Tokioya səfərinə qədər Yaponiyada hakimiyyətdə olan partiya daxilində parçalanma müşahidə olundu. Belə ki, təkcə sərhədləri ayırmaq problemində deyil, bütünlüklə Rusiya ilə bağlı məsələlərdə ciddi fikir ayrılıqları mövcud idi. Bir qrup (şərti adı "ənənəçilər" olan) sərt, kompromissiz əvvəlki yanaşmanı müdafiə edirdi: Onların fikrincə, sülh müqaviləsini bağlamaq və Rusiya ilə əlaqələri yaxşılaşdırmaq üçün yaponları mübahisəli adalarla bütövlüklə təmin etmək mütləq ilkin şərt idi.

Başqa qrup "modernistlər" idi. Onlar belə hesab edirdilər ki, dəyişən dünyada Rusiya ilə münasibətdə müstəqil dəyərini qazanmış Yaponiya ərazi tələblərinin bütünlüklə təmin olunmamasından ziyan çəkməməli idi. Beləliklə, "modernistlər" Rusiya ilə rasional kompromis şəraitində sərhədlərin çəkilməsi problemi üzrə sülh müqaviləsinin bağlanmasına etiraz etmirdilər.

Rusiyalıların böyük əksəriyyəti isə inanır ki, yaponlara heç bir ərazini vermək olmaz. Onları inandırmaq çətin idi ki, Xabomai və Şikotan adalarının verilməsi SSRİ-nin hüquq öhdəçilikləri ilə nəzərdə tutulmuşdur. Öz növbəsində yaponların əksəriyyəti bütün dörd mübahisəli adaların qaytarılmasının vacibliyinə inanırdılar. Onları da çətin inandırmaq olardı ki, Kunaşir və İturup adalarını geri istəmələrinin lazımi hüquqi əsası yoxdur. Şübhəsiz ki, bu istək qənaətbəxş deyildir. Bu mənada sərhədlərin çəkilməsi məsələsində istənilən razılaşma, demək olar ki, Rusiya kimi Yaponiya ictimaiyyətində də qəti etiraz doğuracaqdır. Bu, yaxın gələcəkdə ərazi mübahisələrinin nizamlanması və mükəmməl Yaponiya-Rusiya münasibətlərini qaydaya salmaq qərarını şübhə altına alır. Bununla belə, hazırda Yaponiya-Rusiya münasibətlərində nisbi bir sakitlik mövcuddur. Xüsusən də Rusiya-Amerika münasibətlərindəki gərginlik Yaponiya-Rusiya arasındakı adalar məsələsini bir qədər arxa plana keçirmişdir. Hazırda Rusiya tərəfi Yaponiya ilə yumşaq davranmağa üstünlük verir.

## 2.5. Cənub-Şərqi Asiya ölkələri ilə münasibətlərdə Yaponiya

İkinci Dünya müharibəsindən və ölkənin iqtisadiyyatının tədricən bərpasından sonra Yaponiyanın əsas xarici siyasət priotetlərindən biri Cənub-Şərqi Asiya ölkələri ilə həm iqtisadi, həm də siyasi münasibətlərin inkişafı olmuşdur. Qeyd olunduğu kimi, “Asiyadakı qonşuları ilə diplomatik əlaqələri bərpa etmək Yaponiyanın xarici si-

yasətində mühüm yer tutur".[1] İqtisadi planda bu region indiyədək Yaponiya sənaye məhsulları üçün nəhəng satış bazarları, iqtisadiyyatın xammal və yanacaq növünün normal fəaliyyət göstərməsi üçün bir mənbə və nəhayət, kapitalın aparılmasına görə son dərəcə cəlbedici ucuz işçi qüvvəsinin çoxluğu ilə diqqət mərkəzində olmuşdur və indi də diqqət mərkəzindədir. Cənub-Şərqi Asiya ölkələrinin Yaponiya üçün həm də xüsusi siyasi və hərbi-strateji əhəmiyyəti vardır.

Tokionun region ölkələri ilə müharibədən sonrakı əlaqələri hərbi təzminatla əlaqədar danışıqlardan sonra başlanmışdır. 1954-1959-cu illər ərzində Yaponiya əvvəlcə Birma, sonra isə Filippin, İndoneziya və Vyetnam Respublikası ilə razılaşma əldə etdi. 60-cı illərdə Cənub-Şərqi Asiyanın başqa ölkələri ilə də sıx iqtisadi əlaqələr quruldu. Həmin vaxtdan başlayaraq Yaponiya region ölkələri ilə qarşılıqlı münasibətlərə xüsusi diqqət yetirdi. Bu ölkələrin inkişafı üçün Yaponiyanın etdiyi iqtisadi yardımı xüsusi olaraq qeyd etmək lazımdır.

1967-ci ildə Tailand, Malayziya, Sinqapur, İndoneziya və Filippin iqtisadi əməkdaşlığı gücləndirmək məqsədilə Cənub-Şərqi Asiya ölkələri Assosiasiyası və ya ASEAN yaratdılar (sonralar Bruney, Laos, Birma və Vyetnam bu təşkilatın üzvü oldular). Bu ölkələrin sənaye artımı yapon texnologiyalarının idxalı və Yaponiyanın maliyyə yardımı sayəsində baş verdi.

Sonrakı onilliklərdə ASEAN Yaponiya xarici siyasətinin əsas vacib obyektlərindən biri oldu. Yaponiya üçün regional əlaqələrin əhəmiyyəti bir qədər böyük idi. Bu ölkə

[1] Джеймс Л. Мак Клейн. Япония. От Сегуната Токуравы – в XXI век. Москва, АСТ. Астгель, 2007, с. 839

ABŞ ilə əməkdaşlığını təkmilləşdirməyə çalışır, "Böyük səkkizlik"də və BMT-də iştirak etmək, bununla da özünün beynəlxalq vəziyyətini möhkəmləndirmək istəyirdi. Lakin Yaponiya və Cənub-Şərqi Asiya ölkələrinin münasibətlərinin inkişafı hamar deyildi. Yaponiya kapitalının yayılması və Cənub-Şərqi Asiya ölkələrinin vacib sənaye sahələrinin Yaponiya iqtisadiyyatına artan bağlılığı bəzən bu region ölkələrini sayıq olmağa sövq edirdi. Yaponiyanın siyasi və işgüzar dairələri bütün bunları müşahidə edirdilər. Bununla bağlı olaraq Yaponiyanın baş naziri T. Fukuda 1977-ci ildə Cənub-Şərqi Asiya regionuna münasibətdə yürüdülən yeni yapon xarici siyasətinin doktrinasını təklif etdi. Bu doktrinaya uyğun olaraq Yaponiyanın hərbi gücünün bərpa edilməsinə dair hər hansı bir fikir rədd olunur və region ölkələri ilə isti münasibətlər saxlamaq niyyəti bəyan edilirdi. Sonralar T.Fukudanın "Manila bəyannaməsi" prinsiplərinə bağlılığı dəfələrlə təsdiq edildi.

Belə ki, 1983-cü ilin may ayında baş nazir Y.Nakasone ASEAN ölkələrinin liderləri ilə danışıqlarda bu ölkələrə onların milli sənayelərinin inkişafı üçün və Yaponiya ilə ticarətdə böyük mənfi saldonu aradan qaldırmaq üçün güzəştli şərtlərlə kreditlərin və istiqrazların artırılması, sənaye mallarının, yarımfabrikatların, ərzaq mallarının bu ölkələrdən Yaponiyaya ixracında tariflə bağlı əngəlləri azaltmaq və ləğv etmək haqqında vəd verdi. O, bəyan etdi ki, ASEAN ölkələri ilə əlaqələrin dərinləşməsi üçün Yaponiya sənaye texnologiyalarının ötürülməsini genişləndirmək, maşınqayırma, tibb, kənd təsərrüfatı və bir sıra əsas sahələrdə elmi-texniki əməkdaşlıq qurmaq, Yaponiya ilə

ASEAN ölkələri xalqlarının qarşılıqlı anlaşma şəraitinin dərinləşməsi üçün şəxsi əlaqələrin yaradılmasına yardım göstərmək niyyətindədir. Bu sahədə bütün fəaliyyətin koordinasiyası 1986-cı ilin fevral ayında Yaponiya Xarici İşlər Nazirliyi nəzdində yaradılan Cənub-Şərqi Asiya ölkələrinə münasibətdə iqtisadi problemlərin öyrənilməsi Şurasına həvalə olundu.

Xarici işlər naziri S.Abe tərəfindən 1986-cı ilin iyununda elan edilən doktrina Yaponiyanın və Cənub-Şərqi Asiya siyasətinin inkişafında və güclənməsində yeni addım idi. Yeni doktrina elan edilənə qədər Yaponiyanın ASEAN olkələri ilə qarşılıqlı əlaqələrində müəyyən problemlər var idi. Tailand və Filippin kimi bir sira dövlətlər ticarətdə qeyri-tarazlıqdan daima əziyyət çəkirdilər. İndoneziya ASEAN ölkələrinə Yaponiya investisiyalarının azalmasından narahatlıq keçirirdi. Onlar belə bir fikir söylədilər ki, Yaponiya bu ölkələrin maraqları ilə hesablaşmayaraq ancaq öz məqsədini güdür. S.Abe doktrinası ona görə təyin olunmuşdu ki, bir tərəfdən, Yaponiyanın məqsədlərinə qarşı Cənub-Şərqi Asiya ölkələri ictimaiyyətini sakitləşdirsin, digər tərəfdən isə Yaponiya-ASEAN münasibətlərinin səviyyəsi proqramını göstərsin. O, 80-ci illərin reallığını əks etdirən Fukuda doktrinasının əsas müddəalara bağlılığını təsdiq edirdi. Doktrinada deyilirdi ki, ASEAN ölkələri Yaponiyanın yardım proqramlarında prioritet olacaqdır. Bununla belə, hər bir konkret ölkənin sosial-iqtisadi inkişafı məqsədilə yardım göstəriləcək; Yaponiya bütün ASEAN ölkələri ilə münasibətlərin və dialoqların təkmilləşməsi mexanizminə, ticarət sahəsində isə bir sıra ölkələrlə olduğu kimi qeyri-tarazlığın aradan qaldırılmasına çalışacaqdır.

XX əsrin 90-cı illərinin başlanğıcında Yaponiya hakimiyyəti mövcud olan ziddiyyətləri və Cənub-Şərqi Asiya ölkələri ilə əməkdaşlığı təkcə iqtisadi sahədə deyil, həm də daha sıx siyasi qarşılıqlı əlaqələr sahəsində möhkəmləndirməyə çalışırdı. Yaponiyanın baş naziri Marixiro Xosokava 30-40-cı illərdə Yaponiyanın hərəkətlərinə görə Asiya dövlətlərindən ölkəsi adından üzr istədi. Sonralar Çinə, Koreyaya, ASEAN ölkələrinə səfəri zamanı M.Xosokava və xarici işlər naziri S.Xata bir daha üzr istədilər.

M.Xosokavanı əvəz edən T.Muroyama 1994-cü ilin avqust ayında Filippin, Sinqapur, Malayziya və Vyetnama ona görə rəsmi səfər etdi ki, keçmişdə Yaponiyanın təcavüzünə görə üzr istəsin və bu ölkələrə gələcəkdə iqtisadi yardım göstərilməsi haqqındakı vədə əməl etsin.

Xarici İşlər Naziri Y.Kononun xarici siyasətdəki fəallığı həmçinin hansısa müddətdə əsasən Asiya-Sakit okean hövzəsinə cəmlənmişdi. O, nəinki keçmişə görə üzr istədi, habelə çalışdı ki, "yeni eranın yaradılması" uğrunda region ölkələri ilə birlikdə Yaponiyanın maraqlarını maksimum dərəcədə qeyd etsin. Onun səylərinin bir istiqaməti də inkişaf etmiş ölkələr və ASEAN ilə qarşılıqlı inamsızlığının aradan götürülməsi idi. 1995-ci ilin avqust ayında Y.Kono Bruneydə ASEAN-ın regional forumunda iştirak etdi. Öz növbəsində Yaponiyanın baş naziri T.Murayama kapitulyasiya haqqında imperator reskriptinin ildönümündə çıxış edərkən Yaponiya təcavüzündən əziyyət çəkmiş bütün Asiya ölkələrindən qəti şəkildə üzr istədi. Bu xarici siyasət aksiyaları ilə Yaponiya tərəfi Cənub-Şərqi Asiya ölkələrinin hakimiyyəti və ictimaiyyətinin gözündə bəraət qazanmaq və etimadsızlığını aradan qaldırmaq istəyirdi.

Hazırda Yaponiya Cənub-Şərqi Asiya ölkələrinin başlıca ticarət ortağı kimi çıxış edir.[1] O, İndoneziyanın 37% ixrac və 24% idxal, Malayziyanın 26% idxal və 16% ixrac, Sinqapurun 21% idxal və 17% ixracını təmin edir. Yaponiya şirkətləri Cənub-Şərqi Asiya ilə elmi-texniki əməkdaşlığı və sənaye kooperasiyasının inkişafını genişləndirir, bir sıra məhsulların istehsalını qonşu ölkələrə keçirməyə, özü isə texnoloji çətin məhsulların istehsalı və mənimsənilməsi sahəsində diqqətini cəmləşdirməyə çalışır. Nəticədə dünyanın Asiya hissəsində elmi-texniki və sənayenin bir-biri ilə qarşılıqlı əlaqədə yapon-sentrist modeli gözdən keçirilir. 80-ci illərin ortalarında Yaponiya kapitalının Cənub-Şərqi Asiya ölkələrinə yerləşdirilməsinə başlandı. Yaponiya kapitalının bu regiona qoyulması yerli adamlarla yapon iş adamları və digər ölkələrdən olan tərəfdaşları arasında mürəkkəb istehsal ixtisaslaşdırılmasına və müxtəlifyönlü münasibətlərin yaranmasına gətirib çıxardı. Rəsmi yardımın xeyli hissəsi, təqribən 60%-i Asiya regionunun ənənəvi inkişafına yönəldi. Yardımın çox hissəsini ÇXR, Hindistan, Banqladeş, Tailand, Filippin və İndoneziya alır.

Mövcud şəraitdə Şimali-Şərqi Asiya ilə Cənub-Şərqi Asiya ölkələrinin, həmçinin Yaponiyanın mədəni-siyasi və iqtisadi baxımdan yaxınlaşması Avropa İttifaqı və NAFTA kimi beynəlxalq iqtisadi bloklara qarşı durmaq, həmçinin Cənib-Şərqi Asiya ölkələrinin dünya birliyində layiqli yer tutması kimi obyektiv zərurətə əsaslanır. Bu mütləqlik regionun bir çox ölkələri tərəfindən dərk edilir və bu da Sinqapurda 2000-ci ilin noyabrında ASEAN-a

---

[1] Rza Talıbov. Azərbaycan-Yaponiya əməkdaşlığı müasir mərhələdə. Bakı, "Çaşıoğlu", 2005, səh.72.

daxil olan dövlət başçılarının qəbul etdiyi son qərarlarına şahidlik edir. Çin, Yaponiya və Cənubi Koreyanın rəhbərliyi ilə Cənub-Şərqi Asiya ölkələrinin liderləri yalnız Cənub-Şərqi Asiya regionu çərçivəsində deyil, belə demək olarsa, Tokio, Pekin, Seul daxil olmaqla Böyük Şərqi Asiya miqyasında azad ticarət zonası yaratmaq qərarını bəyan etdilər. Belə bəyanatların nə qədər həqiqətə uyğun olub-olmadığı bir neçə ildən sonra məlum olacaqdır. Belə ki, adı çəkilən ölkələrin bu yaxınlaşmaya meyilləri artıq mövcuddur. Yaponiya həmin əlaqələrin yaranmasında maraqlı tərəflərdən biridir.

Bütövlükdə Yaponiya beynəlxalq aləmdə əsas söz sahibinə, dünyanın yeni cazibə qüvvəsinə çevrilmişdir.

## 2.6. AZƏRBAYCAN-YAPONİYA MÜNASİBƏTLƏRİ

### 2.6.1. Siyasi-diplomatik əlaqələr

Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən biri Yaponiya olmuşdur. Yaponiya 1991-ci il dekabrın 28-dən Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması haqqında bəyanat verdi. Bu, gənc Azərbaycan dövlətinin böyük qələbəsi idi. Belə ki, Yaponiya bütün dünyada böyük siyasi, iqtisadi gücə malik olan və ən güclü inkişaf edən dövlətlərdən biri hesab edilir. "Səkkizlər" qrupuna daxil olan ən inkişaf etmiş ölkələrdən biri olaraq onun səsi bütün dünyada eşidilir. Bir müddət keçdikdən sonra, 1992-ci il sentyabrın 1-də Azərbaycan Respublikası ilə Yaponiya arasında diplomatik əlaqələr quruldu. Azərbaycanda Yaponiyanın səfirliyi

yaradılmış, Azərbaycan Respublikasının Milli Məclisində dostluq və əməkdaşlıq üzrə Yaponiya-Azərbaycan parlament qrupu təşkil olunmuşdur.

Yaponiya və Azərbaycan arasındakı münasibətlər görkəmli dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin respublikada 1993-cü ildə hakimiyyətə gəlişindən sonra ardıcıl və səmərəli surətdə inkişaf etdirilmişdir. Beləliklə, Azərbaycanla Yaponiya arasında geniş və hərtərəfli əlaqələrin inkişafına dövlət səviyyəsində ciddi təkan verilmişdir. Yaponiyanın Beynəlxalq İqtisadi Əməkdaşlıq Fondunun çətin şəraitdə Azərbaycana münasibətdə göstərdiyi xoşməramlı münasibət əlaqələrin formalaşmasında mühüm rol oynamışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 17 yanvar 1998-ci il tarixində Yaponiyanın Beynəlxalq İqtisadi Əməkdaşlıq Fondunun nümayəndə heyətini qəbul etmişdir. Bu görüşdə ölkəmizin rəhbəri Azərbaycan dövlətinin Yaponiya ilə əməkdaşlığa xüsusi diqqət verdiyini qeyd etmiş, həmçinin Azərbaycan və Yaponiyanın bütün fəaliyyət sahələrində yaxşı tərəfdaş olmaq imkanlarını diqqət mərkəzinə çəkmişdir. Yaponiya nümayəndə heyətinin rəhbəri Akiro Nişiqaki də öz növbəsində iki ölkə arasında əməkdaşlığın inkişafına maksimum səy göstərəcəyini bildirmişdir. Bu, ikitərəfli əməkdaşlıqda böyük təməl rolunu oynamışdır.

Azərbaycan Respublikası karbohidrogen ehtiyatları ilə bərabər, böyük təbii resurslara malik bir dövlətdir. Bu da dünyanın bir çox aparıcı dövlətlərinin diqqətini özünə cəlb edir və onlarla bütün səviyyələrdə yaxınlaşmaq üçün münasib şərtlərin zəruriliyini yaradır. Yaponiya dövlətinin Azərbaycana olan marağı iqtisadi faktorla yanaşı, si-

yasi amilləri də əhatə edir. Azərbaycan Respublikasının neft-qaz ehtiyatları ilə yanaşı, Qafqazda və Orta Şərqdə mühüm geosiyasi mövqe tutması Yaponiyanı ölkəmizə cəlb edən məsələlər içərisində mühüm yer tutur.

Azərbaycan-Yaponiya münasibətlərindəki hərtərəfli inkişaf 1998-ci il yanvarın 26-dan fevralın 1-nə qədər Azərbaycan Respublikasının Baş naziri Artur Rəsizadənin Yaponiyaya dövlət səfəri ilə davam etmişdir. Yanvarın 27-dən Tokioda Azərbaycan Respublikası üzrə Dünya Bankı konsultativ qrupunun ikinci iclası işə başladı. İclasda on dörd ölkə və Almaniya, Belçika, Misir, Türkiyə, Pakistan, İngiltərə, ABŞ, İsveçrə kimi doqquz beynəlxalq maliyyə təşkilatlarının nümayəndələri və həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankı, BVF, Dünya Bankı və s. qurumlar iştirak edirdi. Bu, beynəlxalq miqyasa malik rəsmi yığıncağın 28 yanvar 1998-ci il tarixdə Dünya Bankı Maliyyə Korporasiyası qrupu tərəfindən təşkil edilmiş investisiya konfransı Azərbaycana həsr edilmişdi. Bu konfransda beynəlxalq maliyyə təşkilatları, korporasiyalar, kompaniyalar və firmaların nümayəndələri iştirak edirdilər. Konfransın gedişi zamanı məlum oldu ki, xarici biznesmenlər, böyük maliyyəçilər Azərbaycandakı "özəl sektorun inkişafına investisiya qoyulması" proqramına böyük maraq göstərirlər. Nəticədə böyük siyasi maraqlar yüksək səviyyədə sazişlərin bağlanmasına gətirib çıxardı. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində keçirilmiş bu beynəlxalq tədbir ölkəmizin Yaponiya ilə əlaqələrində uğurlu start rolunu həyata keçirmişdir.

Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il fevralın 24-dən 28-nə qədər Yaponiyaya ilk rəsmi səfəri yalnız iki ölkə arasında qarşılıqlı münasibətlərdə deyil, həmçinin Azərbaycan Respublikası ilə Cənub-Şərqi Asiya dövlətləri arasında siyasi və iqtisadi əlaqələrin tarixində də yeni səhifə açmışdır.

Qeyd etmək lazımdır ki, Çin və Mərkəzi Asiya ölkələri uzun illər Yaponiya iqtisadiyyatı və maliyyə inteqrasiyası prosesində yaxından iştirak edirdilərsə, Azərbaycan Respublikası Yaponiya işgüzar dairəsinin səmərəli fəaliyyət sahəsinə yenicə daxil olmuşdur. Buna baxmayaraq, Azərbaycan və Yaponiya arasındakı münasibətlər son zamanlar kifayət dərəcədə müvəffəqiyyətlə inkişaf edir. Hər iki ölkə bütün sahələrdə yaxınlaşmağa və sıx əməkdaşlığa böyük maraq göstərir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Yaponiyada rəsmi səfərdə olarkən bu ölkənin siyasi və işgüzar dairələri ilə çoxlu sayda səmərəli görüşlər keçirdi. Onların arasında öz əhəmiyyətinə görə Yaponiyanın İmperatoru Akixito, baş nazir Ryütaro Hasimoto, xarici işlər naziri Keyzo Obuti, xarici ticarət və sənaye naziri Mistio Xoroçi, Yaponiya İdxal-İxrac Bankının prezidenti Yasuda Xeroşi və başqaları ilə görüş və söhbətlər xüsusi yer tuturdu.

Yaponiyanın imperatoru ilə danışıqlar zamanı ikitərəfli münasibətlərin genişlənməsinə, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına xüsusi diqqət yetirilmişdir.

Fevralın 26-da ölkələr arasında ikitərəfli sənədlərin imzalanması mərasimi keçirilmişdir. Prezident Heydər Əli-

yev və baş nazir Ryütaro Hasimoto "Azərbaycan Respublikası və Yaponiya arasında dostluq və əməkdaşlıq haqqında birgə bəyanat"a imza atdılar və həmçinin "Azərbaycan Respublikası və Yaponiya arasında ticarət və iqtisadiyyat sahəsində birgə bəyanat" qəbul edildi.

Azərbaycan Respublikası və Yaponiya arasında dostluq və əməkdaşlıq haqqında birgə bəyanatda göstərilirdi ki, hər iki tərəf ikitərəfli münasibətlərini müstəqilliyə hörmət və bir-birinin ərazi bütövlüyü və müstəqilliyi, bir-birinə inam, qarşılıqlı etibar və əməkdaşlıq üzərində quracaqlar. Sənəddə ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin qarşılıqlı maraqlar əsasında həyata keçirilməsinin vacibliyi öz əksini tapmışdır. Birgə sənəddə Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda bütün səylərin TransAvropa-Asiya dəhlizinin inkişafına yönəlməsindən bəhs edilirdi.

Azərbaycan Respublikası Prezidentinin Yaponiyaya səfəri zamanı "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yaponiya Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında birgə rəsmi məlumat", "Azərbaycan və Yaponiyanın xarici ölkələrlə iqtisadi əməkdaşlıq Fondu arasında kredit razılaşması", "Şimal" buxar-qaz elektrik stansiyası tikintisinin layihəsi haqqında notalar mübadiləsi baş tutmuşdur.

Səfər zamanı Yaponiya dövlətinin ayırdığı kənd təsərrüfatı texnikasının alınması üçün yardım haqqında notalar mübadiləsi, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Yaponiyanın Misui Neft Şirkəti arasında iştirak payının verilməsi haqqında razılaşma da imzalanmışdır. Tarixi əhəmiyyət kəsb edən bu sənədlər bizim ölkələrimi-

zin gələcək inkişafı və əməkdaşlıq üçün mühüm əsasdır.

Prezident Heydər Əliyevin "İtoçi", "Nidjimen", "Mitsui", "Mitsubişi", "Tomen", "Sumitomo", "Marubeni" kimi dünyada tanınan firmaların prezidentləri, habelə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və Eksimbankla apardığı işgüzar görüşlər Azərbaycanın neft sektorunda Yaponiyanın etibarlı tərəfdaşa çevrilməsi ilə nəticələnmişdir.

Bütövlükdə Prezident Heydər Əliyevin Yaponiyaya rəsmi səfərində Yaponiya - Azərbaycan münasibətlərinin qarşılıqlı faydalı inkişafının əsasını təşkil edən səkkiz sənəd imzalanmışdır. Bu sənədlər Azərbaycan-Yaponiya əlaqələrinin möhkəm təməllərini təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəsmi səfəri zamanı əldə olunan razılaşmalara əsasən 2000-ci yanvarın 21-də Azərbaycanda Yaponiyanın səfirliyi təsis olundu. Yaponiyanın Azərbaycan Respublikasına təyin etdiyi birinci səfir T.Xirose özünün etimadnaməsini respublikanın Prezidenti Heydər Əliyevə təqdim edərkən ölkələrin qarşılıqlı maraqlarının üst-üstə düşdüyü xüsusi olaraq qeyd edilmişdir.

Bundan sonra iki ölkə arasında siyasi əlaqələr qarşılıqlı olaraq genişlənirdi. Qeyd etmək lazımdır ki, 1999-cu ilin may ayında Yaponiyanın xarici işlər naziri Masaxiko Koumuranın Azərbaycana səfəri ilə ikitərəfli əlaqələrdə davamlı bir proses təmin olunmuşdur.

Yaponiya dövləti Prezident Heydər Əliyevin Böyük İpək Yolunun bərpası təşəbbüsünü alqışlayırdı. Bu məqsədlə də 2002-ci ilin iyul ayında Yaponiyanın xarici işlər nazirinin müavini Şeiken Şuqura Azərbaycana səfər etmişdir.

Ondan əvvəl isə 2001-ci ilin iyununda Azərbaycan Respublikasının xarici işlər nazirinin Yaponiyaya səfəri təşkil olunmuşdu. Aparılan danışıqlar İpək Yolu layihəsinin həllində birgə fəaliyyətin təmin edilməsində mühüm rol oynamışdır.

Yaponiya-Azərbaycan münasibətlərində yeni mərhələ İlham Əliyevin Azərbaycan Respublikası Prezidenti seçilməsi ilə başlanmışdır. Ötən dövr bütünlüklə Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan ölkənin siyasi kursunun davamlı bir proses kimi qəbul olunduğunu təsdiq etdi. Buna parlaq nümunələrdən biri də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Yaponiyaya olan münasibəti idi. 2003-cü il noyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyev Yaponiyanın xarici işlər nazirinin müavini İçiro Fuçisakeni qəbul edərək Yaponiya-Azərbaycan münasibətlərinin sarsılmaz olduğunu bir daha bəyan etmişdir. Görüş zamanı İ.Fuçisaki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Yaponiyanın baş naziri Y.Koizüminin şəxsi müraciətini çatdırmışdır. Müraciətdə Yaponiyanın gələcəkdə də ikitərəfli münasibətlərin möhkəmlənməsinə çalışacağı və bu münasibətlərin yeni mərhələyə çatdırılacağına səy göstəriləcəyi qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7-10 mart 2006-cı ildə Yaponiyaya rəsmi səfəri ölkələrarası münasibətləri yeni səviyyəyə qaldırmışdır. Yaponiya Azərbaycanda cəmiyyət həyatının ən müxtəlif sahələrində həyata keçirilən proqramlarda sanballı səkildə təmsil olunan əsas ölkələrdən biridir. Yaponiya Azərbaycanda neft sektorunun inkişaf etdirilməsində, “İpək yolu” la-

yihəsinin həyata keçirilməsində, sosial-mədəni sahələrdə yeni texnologiyaya əsaslanan müasir inkişafın təmin olunmasında yaxından iştirak edir. Siyasi-diplomatik və iqtisadi sahələrdə olduğu kimi sosial-mədəni sahələrdə də Azərbaycan-Yaponiya əməkdaşlığı böyük fayda verir və mühüm əhəmiyyət kəsb edir. Hazırda Yaponiyanın Azərbaycanla ticarət dövriyyəsi bir neçə dəfə artmışdır. Rəsmi səfər zamanı imzalanmış sənədlər, aparılmış səmərəli danışıqlar, əldə olunmuş razılaşmalar daha böyük inkişafın üfüqlərini açmışdır.

### 2.6.2. Sosial-iqtisadi sahədə əməkdaşlıq

Yaponiya-Azərbaycan əlaqələri Azərbaycanda cəmiyyət həyatının geniş sahələrini əhatə edir. Bütün əsas sahələr üzrə bu Gündoğar ölkə ilə əlaqələrin özünəməxsus mühüm göstəriciləri vardır. Bununla belə, Azərbaycan-Yaponiya əməkdaşlığında iqtisadiyyat sahəsindəki davamlı əlaqələri ayrıca qeyd etmək lazım gəlir. Artıq 20 ildən çoxdur ki, iqtisadiyyat sahəsində ölkələrarası qarşılıqlı, faydalı əməkdaşlıq yeni yüksəkliyə doğru inkişaf edir. Buna görə də iki ölkə arasındakı münasibətlərdən bəhs edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq demişdir: “Yaponiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir və Azərbaycan bu münasibətlərin genişlənib möhkəmlənməsində maraqlıdır”.

Yaponiya-Azərbaycan münasibətlərinin çoxillik tarixə malik olmasını qeyd etmək vacibdir. Bu əlaqələrin bünövrəsinə ilk kərpiclər hələ SSRİ-nin mövcudluğu dövrdə qoyulmuşdur. 1973-1975-ci illərdə Bakıda Azərbaycanın rəhbəri Heydər Əliyevin böyük səyi ilə Yapo-

niya mütəxəssislərinin iştirakı və yapon texnologiyasının köməyi ilə o dövrlər üçün ultramüasir hesab edilən məişət kondisionerləri zavodu – "Bakkondiosener" tikilib istifadəyə verilmişdir. Bu zavod ildə 400 min ədəd kondisioner istehsal etmək gücünə malik olan Yaponiyanın məşhur "Toşiba" kompaniyasının lisenziyası əsasında keçmiş SSRİ ərazisində qurulan yeganə müəssisə idi. Bu, Azərbaycan-Yaponiya əməkdaşlığının böyük təməli, həm də mühüm nailiyyəti idi.

Azərbaycanda Yaponiya ilə əməkdaşlıq nəticəsində qurulmuş digər böyük obyekt 1967-ci ildə tikilmiş "AZON" zavodu idi. Texniki təchizata görə bu zavodun Sovet İttifaqında analoqu yox idi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Yaponiya ilə qarşılıqlı münasibətlərdə yeni bir dövr başladı. Yaponiya və Azərbaycan Respublikası arasında çoxcəhətli əməkdaşlıq həm siyasi, həm də iqtisadi sahədə sürətlə inkişaf etmək imkanı qazandı. Hər iki ölkə qarşılıqlı ikitərəfli münasibətlərin əsası yenidən qoyulmuş mərhələsini uğurla yerinə yetirir.

Yaponiya-Azərbaycan arasında iqtisadiyyat sahəsində əməkdaşlıq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yaponiyaya rəsmi səfəri zamanı öz təsdiqini tapdı. Səfər çərçivəsində Yaponiyanın baş naziri Ryütaro Hasimoto ilə 1998-ci il fevralın 26-da keçirilən danışıqlarda qeyd edildi ki, Yaponiya hökuməti "Şimal" buxar-qaz elektrik stansiyasının tikintisinə və layihələşdirilməsinə güzəştli şərtlərlə 165 milyon dollar, həmçinin "EP-300"-ün etil-polietilen zavodunda qurulmasına 75 milyon dollar vəsait ayırmağa razıdır. Həmçinin qeyd olundu ki, 165

milyon dollar 40 il müddətinə ayrılmışdır və ilk on ildə Azərbaycan tərəfi heç bir faiz ödəməyəcəkdir. Sonrakı 30 ildə isə qalan 0,75-i ödəməklə kifayətlənəcəkdir. Bundan əlavə, ərzaq mallarının istehsalının inkişafı məqsədi ilə Yaponiya Azərbaycana 3 milyon 250 min dollarlıq qrant, səhiyyə sahəsində inkişaf və yenidənqurma üçün 1,7 milyon dollar məbləğində humanitar yardım ayırmışdır. Bütün bunlar xüsusən Azərbaycanın müstəqillik qazandığı ilk dövrlərdə baş verdiyi üçün mühüm əhəmiyyətə malikdir. Bununla Yaponiya hökuməti həm Azərbaycanda konkret sahələr üzrə inkişafa kömək etmiş, həm də bütövlükdə Azərbaycanda dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə öz dəstəyini vermişdir.

Yaponiya firmaları Azərbaycanda neft-qaz və enerji sənayesində aktiv fəaliyyət göstərir, həmçinin ölkəmizdə kommunikasiyaların yenidən qurulması və təchizatı, ekologiya, infrastruktur və sair sahələrdə yaxından iştirak edirdilər.

Azərbaycan-Yaponiya münasibətlərinin daha da inkişaf etdirilməsi məqsədi ilə 1998-ci il martın 10-da "Azərbaycan Respublikası və Yaponiya arasında əməkdaşlığın genişlənməsi haqqında" xüsusi saziş imzalanmışdır. On beş hissədən ibarət olan bu sənəd ikitərəfli münasibətlərin inkişafı və möhkəmləndirilməsi sahəsində mühüm bir proqram xarakteri daşıyır. Azərbaycan Respublikası Prezidentinin imzaladığı sərəncamda bu əlaqələrin istiqamət və sahələri konkretləşdirilmiş, vəzifələr müəyyən olunmuşdur.

Qısa müddətdə Yaponiyanın köməyi ilə Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və başqa şəhərlərdə bir çox müəs-

sisələr müasirləşdirilmiş, yeni infrastruktur layihələri həyata keçirilmişdir. Bu əlaqələr Prezident Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya rəsmi səfərindən sonra ən yüksək inkişaf nöqtəsinə çatdırılmışdır. Bu tarixi səfər zamanı Azərbaycan Respublikasının bir sıra iqtisadi sahələrində modernləşmə və yenidən təchizetmə haqqında razılaşma əldə edildi. Burada neft-maşınqayırma sektoru xüsusi yer tutmuşdur. Bundan sonra ölkələr arasında "Layihə modeli üzrə" memorandum imzalandı. Onun da əsas məqsədi neft və maşınqayırma sahələri üzrə beynəlxalq standartlara cavab verən Azərbaycan mütəxəssislərinin təlim və hazırlığı məsələlərinin həyata keçirilməsi idi. Bu layihə uğurla yerinə yetirilmiş, müsbət nəticələr əldə olunmuşdur.

Yaponiyanın böyük "İnpex" şirkətinin Azərbaycanın investisiya layihələrindəki fəal iştirakı iki ölkə arasında iqtisadiyyat sahəsində əməkdaşlığının hərtərəfli genişlənməsində yeni mərhələ oldu. Bu şirkət "Əsrin müqaviləsi" əsasında Azəri-Çiraq-Günəşli layihələrinin işlənib hazırlanmasında, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisində fəal iştirak edərək, Azərbaycan-Yaponiya əməkdaşlığına yeni səhifələr əlavə etdi. Yaponiya ilə əməkdaşlığın əhəmiyyətindən danışarkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yaponiyanın "İnpex" şirkətinin prezidenti Kunixio Masuonu qəbul edən zaman söylədiyi aşağıdakı sözlər görülmüş işlərə verilmiş qiymətlə yanaşı, böyük perspektivi də özündə əks etdirir: " Mən əminəm ki, sizin Azərbaycan dövləti, Azərbaycanın neft şirkətləri ilə əməkdaşlığınız gələcəkdə də müvəffəqiyyətlə inkişaf edəcək və bizim gələcək birgə layihələrimiz üçün yeni perspektivlər açacaqdır".

Yaponiya mütəxəssislərinin köməkliyi ilə inşa olunan Qarabağ qaz-kompressor stansiyası iki ölkənin iqtisadi əməkdaşlığında yeni bir mərhələ oldu. Bununla eyni vaxtda ölkəmizdə uzunluğu 87 kilometr olan qaz boru kəməri tikildi. Ən başlıcası ondan ibarətdir ki, bu mühüm obyekt Yaponiya tərəfinin 40 il müddətinə, çox aşağı faizlərlə ayırdığı güzəştli kreditlərin sayəsində qurulmuşdur. Bu, Yaponiya-Azərbaycan səmərəli əməkdaşlığının parlaq bir nümunəsidir.

Məlum olduğu kimi, 1995-ci ildən Azərbaycan Respublikasında iqtisadiyyatın sabitləşməsi mərhələsi başlandı və bununla da "Əsrin müqaviləsi", Xəzər dənizinin Azərbaycan sektorunda neft ehtiyatlarının mənimsənilməsi prosesi müvəffəqiyyətlə reallaşdı, Bundan sonra Yaponiya Azərbaycan layihələrinə öz münasibətini fəallaşdırdı. Yaponiya şirkətlərindən ilk olaraq "İtoçi sedzi" şirkəti Azərbaycan şelfində neft çıxarılmasında iştirak etdi. Bu şirkət tarixi "Əsrin müqaviləsi"nin iştirakçısı kimi "McDermott" (2,45%) Amerika şirkətinin və qismən "Pennzoil"in (1,47%) hissələrini bütünlüklə almaqla nəhəng dünya neft korporasiyalarının beynəlxalq konsorsiumuna daxil oldu. 1996-cı ilin sonlarında "İtoçi" şirkəti daha bir neft müqaviləsində – "Dan Ulduzu" və "Əşrəfi" yataqlarının kəşfiyyatı və istismarı müqaviləsində iştirakçısına çevrildi. Bu müqavilədə Yaponiya tərəfin payı 20% təşkil edirdi.

Bu addımlar Yaponiyanın Xəzər dənizinin neft yataqlarının istismarı prosesinə fəal qoşulmasını təsdiq edir. Araşdırmalar göstərir ki, Yaponiyanın enerji təchizatçılarının sayını artırmaq siyasəti ölkənin istehlak etdiyi bü-

tün neftin 90 faizini verən yaxın Şərq ölkələri neftindən öz iqtisadiyyatının asılılığını azaltmağa və gələcəkdə hətta tam aradan qaldırmağa istiqamətləndirilmişdir. Yaponiya işgüzar dairələrinin nüfuzlu təşkilatı "Keydanrən"ın (İqtisadi Təşkilatlar Federasiyası) nümayəndələrinin göstərdiyi kimi, Azərbaycanda və Mərkəzi Asiya ölkələrində enerji daşıyıcılarının alternativ mənbələrinə yol tapmaq səyləri XXI əsrdə Yaponiyanın uzunmüddətli enerji təhlükəsizliyinin təminatına yönəlmişdir.

Son vaxtlar Yaponiyanın kapital qoyuluşunun mümkünlüyünün öyrənilməsi məqsədilə bu ölkənin nəinki neft istehsalı sahəsindəki, hətta neft-kimya sənayesi, kommunikasiya sahələrində də ixtisaslaşmış böyük şirkətlərinin nümayəndələri Azərbaycana can atırdılar. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev öz tərəfindən respublikanın Yaponiyanın "regionda ötürülmüş imkanların yerini doldurmaq" cəhdlərini işgüzar layihələrin həyata keçirilməsinə yönəltməklə hər iki ölkə üçün faydalı sayıla bilən mühüm nəticələrə nail oldu.

Yaponiya kapitalının Azərbaycanda və həmçinin güclü mövqe tutduqları Mərkəzi Asiya ölkələrində aktivləşməsi nəticəsində ölkənin iqtisadi və siyasi elitası neft və qazla zəngin olan bir ölkə ilə münasibətlərin inkişafının yeni strategiyası müəyyən etmişdir. Həmin strategiyanı işləyib hazırlayarkən Yaponiya mütəxəssisləri əsasən aşağıdakıları nəzərə alırdılar:

– Xəzər dənizinin Azərbaycan sektorunda olan zəngin neft və qaz resursları Yaponiyanın marağında olan dünya enerji resursları bazarında mühüm faktdır;

– Azərbaycan öz kommunikasiyaları ilə Avrasiya regio-

nu, Şimal-Cənub, Qərb-Şərq ölkələri ilə əlaqələrdə körpü rolunu oynaya bilər;

– Mərkəzi Asiyanın suveren ölkələri və Cənubi Qafqaz ölkələrinin dövlət quruculuğu prosesində Yaponiyanın fəal yardımının böyük əhəmiyyəti olacaq, nəticədə Yaponiya nəinki ən yeni müstəqil ölkələr, habelə onların qonşuları – Rusiya Federasiyası, ÇXR, həmçinin Türkiyə və İran ilə XXI əsrdə Avrasiya regionunda özünün siyasi və iqtisadi təsirini əhəmiyyətli dərəcədə genişləndirəcəkdir.

Artıq qeyd edildiyi kimi, Yaponiyanın "Avrasiya diplomatiyası" adını alan yeni xarici siyasət strategiyası ilk dəfə 1997-ci ilin iyulunda Yaponiyanın keçmiş baş naziri Ryutaro Hasimoto tərəfindən rəsmi şəkildə irəli sürülmüşdür. Bu xarici siyasət sənədində Yaponiya üçün Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri ilə münasibətlərin inkişafının dəqiq konsepsiyası dürüst ifadə olunmuşdur.

Elan olunmuş strategiya çərçivəsində Yaponiya Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinə münasibətdə bu ölkələrlə əlaqələrinin möhkəmləndirilməsinə yönələn xarici siyasət kursunu reallaşdırır. Bu sənəddə Azərbaycan Respublikasına xüsusi yer ayrılmışdır. Yaponiyanın yeni xarici siyasət doktrinasında bu əlaqələrin inkişafının üç əsas istiqaməti müəyyən olunmuşdur:

– gələcək inam və qarşılıqlı anlaşmanın əsası üçün siyasi dialoq;

– təbii ehtiyatların öyrənilməsi sahəsində iqtisadi əməkdaşlıq;

– nüvə silahının yayılmaması, demokratikləşmə və sabitləşmə vasitəsi ilə regionda sülhə nail olmaq.

Yaponiya Nazirlər Kabinetinin 1998-ci ilin yanvar ayında qəbul etdiyi Böyük İpək Yolunun Diplomatiyası fəaliyyət Proqramı "Avrasiya diplomatiyası" strategiyasını ifadə edir. Yaponiya Azərbaycan Respublikasına İpək Yolunun üstündə yerləşən əsas ölkə kimi baxır, Azərbaycanın güclənməsi Avropa və Asiyanın bir çox ölkələrinin ümumi maraq dairəsindədir. Bununla əlaqədar Azərbaycan ilə iqtisadi və siyasi əlaqələrin inkişafı Yaponiyanın "Avrasiya diplomatiyası"nda xüsusi yer tutur.

Prezident Heydər Əliyevin Yaponiyaya səfəri bu ölkənin şirkətlərinin Azərbaycanla iqtisadi əməkdaşlığına, hər şeydən əvvəl, iqtisadiyyatın neft sektorunda əməkdaşlığa təkan verdi.

Yaponiyadan qayıtdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ikitərəfli əməkdaşlığın hərtərəfli inkişafının stimullaşdırılmasına kömək edən "Azərbaycan və Yaponiya arasında əməkdaşlığın genişləndirilməsinə dair" xüsusi sərəncam imzaladı. Bu sərəncam Azərbaycan dövlətinin Yaponiya ilə qarşılıqlı münasibətləri genişləndirmək üçün konkret tədbirlərin görülməsini nəzərdə tuturdu.

Bundan sonra 1999-cu ilin may ayında Yaponiyanın xarici işlər naziri Masaxiko Komura Azərbaycana rəsmi səfərə gəldi. Masaxiko Komuro və Azərbaycanın Baş naziri Artur Rasizadə arasında olan danışıqlar zamanı bir çox vacib razılaşmalar əldə olundu. O cümlədən, tərəflər 2000-ci ildə Bakıda Yaponiya səfirliyinin açılması haqqında razılığa gəldilər. Bundan əlavə, M.Komuronun sözlərinə görə, nəqliyyat sisteminin inkişafına yardım çərçivəsində avtomobil yollarının yenidən qurulması və tikintisi

üçün maşın və texnikanın alınmasına Azərbaycana 1 milyard yen miqdarında vəsaitin verilməsi məsələsi Yaponiyada müzakirə olunmuş və müsbət qarşılanmışdır.

Dövlətlərarası ikitərəfli əlaqələr və onların inkişafı Yaponiyanın yeni iqtisadi strategiyasının reallaşmasının əsas hissəsi oldu. Belə ki, 1998-ci ildə Heydər Əliyevin Yaponiyaya səfəri zamanı "Misui" şirkəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ehtiyatı 500-800 mln. barel qiymətləndirilən Kürdaşı neft yataqlarının gələcək istismarında 15 faizlik iştirakına dair müqavilə imzaladı.

1998-ci ilin dekabr ayında ilk dəfə Azərbaycanda Amerika və Avropa şirkətlərinin iştirakı olmadan, ancaq Yaponiya şirkətlərindən ibarət konsorsium təşkil olundu. Bu konsorsium ARDNŞ ilə Yanan-Tava, Muğan dəniz və Atəşgah yataqlarının birgə paritet əsaslarla istismarına dair saziş imzaladı. Onların ehtiyatları mütəxəssislər tərəfindən 100 milyon ton həcmində qiymətləndirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il fevralın 5-də imzaladığı sərəncama görə Yaponiya və Azərbaycan arasında iqtisadi əməkdaşlıq üzrə dövlət komissiyası yaradıldı. Baş nazirin müavini Abid Şərifov başda olmaqla yaradılan komissiyanın tərkibinə Azərbaycanın aparıcı sahələrinin rəhbərləri daxil edildi. Yaponiyada müvafiq komissiyaya "Nitimen" korporasiyasının prezidenti Akira Vatari başçılıq edirdi. Bu komissiyanın işində Azərbaycanla iqtisadi əlaqələrdə və respublikaya, xüsusilə neft sektoruna investisiya qoymaqda maraqlı olan Yaponiyanın xarici ticarət və sənaye nazirliyinin, Yaponiyanın xarici işlər nazirliyinin, həmçinin 19-dan artıq iri Yaponiya şirkətlərinin nümayəndələri iştirak edirdilər.

Bakıda ilk dəfə 1999-cu ilin mart ayında iqtisadi əməkdaşlıq üzrə ikitərəfli komissiyanın iclası keçirildi. Onun nəticələrinə görə Yaponiya Azərbaycana iki xəstəxana təchizatının və respublikanın yeyinti sənayesinin inkişafının təmin edilməsi məqsədi ilə qrant ayırdı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yaponiyaya səfəri Azərbaycana yapon investisiyasının qoyulması və infrastruktur layihələrinin gerçəkləşməsinə geniş imkan yaratdı. Yaponiyanın xarici ticarət və sənaye nazirinin 1996-cı ildə qəbul etdiyi qərara əsasən, Azərbaycanda sığorta sisteminin daha da genişləndirilməsinə imkan yaradıldı. Bir qayda olaraq, Yaponiya şirkətləri öz kapitallarını dövlət tərəfindən zəmanəti olan yüksək risk kateqoriyasına aid olan ölkələrə qoymağa üstünlük verirlər və Yaponiya tərəfinin qiymətləndirməsinə görə, Azərbaycan da artıq belə ölkələrin siyahısına daxil olmuşdur. Qəbul olunan qərara əsasən, Yaponiyanın İdxal-İxrac Bankı (Eksimbank) bu ehtiyaclar üçün 100 milyon dollar həcmində kredit açmışdır. Sonralar Yaponiya biznesmenlərinin qeyd etdikləri kimi, məhz dövlətin zəmanəti əsas fakt olaraq onların Azərbaycanda işə başlamalarına imkan vermişdir.

Bu qərar iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin yaxşılaşmasına səbəb oldu. 1996-cı ilə qədər iki ölkə arasında ticarət mübadiləsi rəmzi xarakter daşıyırdı. Xarici ticarət razılaşmalarında Yaponiyanın payı Azərbaycanın əsas idxalatçılarının sırasında 30-cu yerdən yuxarı qalxa bilmirdi. Azərbaycan Yaponiyadan əsasən avtomobillər, məişətdə işlənən elektrik cihazları və kompüter texnikası idxal edirdi.

1998-ci ildə Yaponiyanın Beynəlxalq İqtisadi Əməkdaşlıq Fondu Bakı ətrafında 50-ci illərin əvvəlində tikilən, paytaxtı elektrik enerjisinə olan tələbatının demək olar ki, yarısı ilə təmin edən "Şimal" İES-in yenidən qurulması üçün 165 milyon dollar həcmində illik ödənişi 0,75 faiz olan və 50 il müddətinə və 10 ili güzəştli şərtlər altında olmaqla ayrılmış kredit layihəsinin ümumi dəyəri 310 milyon dollar idi. Bu, keçən əsrin doxsanıncı illəri üçün əhəmiyyətli rəqəm sayılırdı.

Öz növbəsində, "Nitimen" korporasiyası Sumqayıtda Azərkimya Dövlət Konserninə daxil olan və ümumi dəyəri 95 milyon təşkil edən etilen istehsalı üzrə iri neft-kimya kompleksinin modernləşdirilməsi layihəsində yaxından iştirak edir. Bu məbləğdən 15 milyon dolları "Nitimen" korporasiyası verir, qalan məbləğ isə Yaponiyanın Eksim-bankı tərəflərindən müxtəlif şirkətlərin işə cəlb edilməsi yolu ilə ödənilir. Artıq ilkin mühüm nəticələr əldə olunmuş, inkişaf baş vermişdir.

"İtoçi" və "Cey Ci Si" Yaponiya şirkətləri ARDNŞ-ə müzakirə üçün "Azneftyanacaq" İstehsalat Birliyinin (İB) modernləşdirilməsinin baş planını təqdim etmişdir. Bu birlik ildə 300 min tona qədər benzin istehsal edir. 1997-ci ilin əvvəllərindən Azərbaycanın bütün neft emal edən kompleksinin "mazut rejimi"nə keşməsi ilə əlaqədar olaraq (enerji böhranının qarşısını almaq üçün) birlik hər ay 350 min tona qədər mazut istehsal etməyə başlamışdır. Layihənin Yaponiya dövlətinin kredit xəttinin köməkliyi ilə maliyyələşdirilməsi nəzərdə tutulur. Bu layihənin iki mərhələdə həyata keçirilməsi planlaşdırılır: birinci mərhələdə - köhnəlmiş avadanlığı dəyişdirmək, ikincidə

- yeni komplekslərin tikintisi. Hər iki mərhələ üzrə nəzərdə tutulmuş işlər həyata keçirilmiş, nəticədə istehsalın modernləşdirilməsi baxımından mühüm irəliləyişə nail olunmuşdur.

Rəsmi şəxslərin məlumatına görə, Yaponiya "Avropa-Qafqaz-Asiya" nəqliyyat dəhlizinin ayrı-ayrı hissələrinin qurulması üçün kapital qoymaqda maraqlı olan ölkədir. Bu layihənin reallaşması Azərbaycana "Qərb-Şərq" iqtisadi körpüsünə qoşulmağa imkan verəcək və ölkəyə milyonlarla dollar xeyir gətirəcəkdir. İkitərəfli əlaqələrin inkişafı Yaponiyaya imkan verdi ki, Azərbaycanı – Yaponiya "İnkişaf ehtiyacları üçün rəsmi kömək" – İRK presedent ölkələri siyahısına salsın. İRK çərçivəsində Yaponiya hökuməti Azərbaycana kənd təsərrüfatı, səhiyyə, habelə xırda və orta biznes sahələrində əvəzsiz yardım göstərir.

Yaponiya-Azərbaycan birgə layihələrinin siyahısı onların iri həcmli olacağına da əminlik yaradır. Yaponiya 1997-ci ildən etibarən "Xəzərneftqaz" beynəlxalq sərgisinin daimi iştirakçısıdır. İki ölkə arasında mal dövriyyəsi artmışdır. Belə ki, əgər 1996-cı ildə mal dövriyyəsi ancaq 2,6 milyon dollar təşkil edirdisə, cəmi 3 ildən sonra, yəni 1999-cu ildə Yaponiya və Azərbaycan arasında mal dövriyyəsi 55,9 milyon dollara çatmışdır. 2001-ci ildə bu rəqəm demək olar ki, 67 milyon dollara qədər artmış, 2003-cü ildə isə ticarət dövriyyəsi 122 milyonu keçə bilmişdir.

Yaponiya tərəfi Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün də kreditlər verir. Belə ki, 1995-ci ildə Yaponiya hökuməti Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə kənd təsərrüfatının inkişafı üçün 1,2 milyard yen həcmində iki qrant ayırmışdır. 1999-cu ildə elə bu

məqsədlər üçün yenə 390 milyon yen (3,2 milyon dollardan artıq) həcmində daha bir qrant da vermişdır. Bu məbləğə 30 taxılbiçən kombayn, 13 traktor, 12 toxumsəpən və traktorlar üçün 12 kotan alınmasını nəzərdə tutulur. Bütün texnika həmin fermerlərə 4 il müddətinə icarəyə verilir və onun dəyərini bütünlüklə ödədikdən sonra, icarədarın əmlakı hesab olunacaqdır. Öz tərəfindən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi əvvəlki Yaponiya qrantlarından sonra texnikanın icarəsindən 500 milyon manat gəlir əldə etmişdir. Həm də Azərbaycanda yeni yaradılmış fermer təsərrüfatları inkişaf etmək imkanı qazanmışdır.

Bundan əlavə, Yaponiya hökuməti Azərbaycana qaçqınların yaşayış yerlərində məktəb və xəstəxana tikintisinə 200 milyon dollar həcmində əvəzsiz yardım ayırmışdır. Ayrılmış qrantlar təyinat üzrə xərclənmiş, qaçqınların sosial məsələləri müəyyən dərəcədə həll olunmuşdur.

Yaponiyanın xarici siyasət kursunun prioritet istiqamətlərindən biri XXI əsrin astanasında postsovet məkanının ölkələri ilə əlaqələrin qurulması və inkişafı məsələləridir. Lakin Yaponiyanın yeni müstəqil dövlətlər ilə qarşılıqlı əlaqələrinin inkişafı kifayət qədər fərqli xarakter daşıyır. Rusiya ilə ərazi mübahisələri, Yaponiya kapitalının fəal nüfuz etməsi və bu ölkələrin əsas sənaye sahələrinin Yaponiya iqtisadiyyatına artan bağlılığı Yaponiyanın gənc, müstəqil dövlətlərlə müəyyən siyasi ehtiyatlılığının yaranmasına səbəb oldu. Lakin proses tədricən nizamlanmış, dövlət müstəqilliklərini möhkəmləndirən ölkələr Yaponiya ilə daha sərbəst şəkildə əlaqələr qurur və qarşılıqlı maraqları nəzərə almaqla münasibətləri inkişaf etdirmək-

də davam edirlər. Azərbaycan Respublikası da Yaponiya ilə ikitərəfli və çoxcəhətli əməkdaşlığı uğurla davam etdirir.

Hazırda Azərbaycanda 19 Yaponiya şirkəti fəaliyyət göstərir. İndiyədək ölkələrimiz arasında dövlət səviyyəsində 17 mühüm sənəd imzalanmışdır. Azərbaycan Respublikasının İsmayıllı rayonu ilə Yaponiyanın İto şəhərinin qardaşlaşması haqqında 2013-cü ildə protokolun imzalanması və əməkdaşlıq əlaqələrinin regionlar üzrə də genişləndirilməsi ölkələrarası münasibətlərdəki inkişafın real göstəricilərdəndir. Bakının Xəzər rayonu ilə Yaponiyanın Kitakunşu şəhəri arasında dostluq və tərəfdaşlıq sazişinin bağlanmasına dair razılaşmanın əldə edilməsi əlaqələrin davamlı prosesə çevrildiyini təsdiq edir.

Müasir mərhələdə Azərbaycanla Yaponiya arasında iqtisadiyyatla yanaşı, humanitar istiqamətdə də əməkdaşlıq genişlənir və inkişaf edir.

Çoxaspektli xarakterə malik olan Azərbaycan-Yaponiya əlaqələrində humanitar sahə də əhəmiyyətli yer tutur. Ölkələrimiz arasında bu istiqamətdəki əlaqələr Azərbaycanda mədəniyyət, elm, təhsil, səhiyyə, idman sahələrində dünyaya inteqrasiyanın daha da genişlənməsinə müsbət təsir göstərir. Bu isə öz növbəsində ölkəmizdə digər sahələrlə yanaşı, humanitar sahənin də inkişafına ciddi təkan verir. Yaponiyanın təcrübəsi və dəstəyi respublikamızın humanitar problemlərinin həllində ən müasir yanaşmaların tətbiqinə, yeni texnologiyaların və ideyaların təcrübədə özünə yer almasına münbit şərait yaradır.

Humanitar sahədə Azərbaycan-Yaponiya əlaqələrinin əhatə dairəsi genişdir. Azərbaycan-Yaponiya əlaqələri hu-

manitar sahəni əsasən aşağıdakı istiqamətlər üzrə əhatə edir:

1. Təhsil sahəsində Azərbaycan-Yaponiya əməkdaşlığı əlaqələri;

2. Turizm, səhiyyə və idman sahələrində əlaqələri;

3. Mədəni əlaqələrin inkişafı;

4. Ədəbi əlaqələr.

Qeyd olunan sahələrdən hər biri üzrə artıq Azərbaycanda müəyyən məsafə qət olunmuş, təcrübə əldə edilmişdir. Həmin istiqamətlərdən hər biri üzrə baş verən proseslərin və əldə olunmuş nəticələrin öyrənilməsi bir çox ümumiləşmiş nəticələrin çıxarılmasına imkan verir.

### 2.6.3. Təhsil sahəsində Azərbaycan-Yaponiya əməkdaşlığı

Yaponiya dünyada həm də ən qabaqcıl elm və təhsil ölkəsi kimi qəbul olunur. İkinci Dünya müharibəsi dövründə böyük dağıntılara məruz qalmış, iqtisadi cəhətdən geri salınmış Yaponiya müasir inkişaf səviyyəsinə daha çox elm və təhsil sahəsində keçirdiyi islahatlar, habelə ölkədə yeni texnologiyaların yaradılması və tətbiqinin genişləndirilməsi üzrə atdığı böyük addımlar nəticəsində gəlib çata bilmişdir. Ona görə də dünyada Yaponiyanın elm və təhsil sahəsindəki təcrübəsinin öyrənilməsinə böyük maraq vardır. O cümlədən də Yaponiya ilə təhsil sahəsində qarşılıqlı əməkdaşlıq Azərbaycan üçün də əhəmiyyətli əlaqə formalarından biri kimi müəyyən olunmuşdur.

Müstəqillik mərhələsində Yaponiya ölkəsi ilə əlaqələrimiz yalnız iqtisadi sahədə deyil, elm, təhsil, mədəniyyət,

turizm, səhiyyə, idman sahələri üzrə də formalaşmış, mühüm nəticələr əldə edilmişdir.

Yaponiya ilə əlaqələrimizdə xüsusi yer tutan istiqamətlərdən biri də təhsil sahəsi ilə bağlıdır. Bunun aşağıdakı səbəbləri vardır:

1. Özünəmxsus üstün xüsusiyyətlərə malik olan Yaponiya təhsil sisteminin ənənələrindən öyrənmək və imkanlarından faydalanmaq müstəqil Azərbaycan dövlətinin təhsil siyasətinin ana xətlərindən birini təşkil edir.

2. Yaponiya dövlətinin beynəlxalq aləmdə təhsilə dəstək proqramlarını həyata keçirməkdə marağı vardır.

Yuxarıda qeyd olunan hər iki səbəb ölkələrimizin təhsillə bağlı maraqlarının üst-üstə düşdüyünü və bir-birini tamamladığını göstərir. Bunun nəticəsidir ki, Yaponiyanın təhsil inkişafına dəstək proqramları 2000-ci ildən etibarən Azərbaycanda da uğurla həyata keçirilməkdədir.

Bu vaxtadək Azərbaycanla Yaponiyanın təhsil nazirlikləri arasında əməkdaşlığa dair hər hansı müqavilə və ya razılaşma sənədi imzalanmasa da, dövlət başçıları tərəfindən qəbul edilmiş sənədlərdə elm, təhsil və yeni texnologiyaların tətbiqi ilə əlaqədar məsələlərin öz əksini tapması ölkəmizdə həmin istiqamətdə müəyyən layihələrin həyata keçirilməsinə şərait yaratmışdır. Yaponiyanın təhsillə əlaqədar Azərbaycanda həyata keçirdiyi layihələr özünün xarakterinə görə çoxplanlı olub, bir çox əsas istiqamətləri əhatə edir. Həmin sahələri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Təhsilin inkişafına dəstək üçün yardım layihələrinin həyata keçirilməsi;

2. Ümumtəhsil məktəblərinin təmir edilməsi və tikintisi üzrə əməkdaşlıq;

3. Müəllim və tələbə mübadiləsi proqramlarının yerinə yetirilməsi;

4. Yeni texnologiyaların tətbiqi.

Azərbaycan-Yaponiya birgə əməkdaşlığı əsasında təhsilin inkişafına dəstək üzrə yardım layihələrinin həyata keçirilməsi sahəsində artıq müəyyən addımlar atılmışdır. Yaponiya höküməti 2003-cü ildə Bakı Dövlət Universitetində yapon dili laboratoriyasının yaradılması məqsədilə 30 min, Bülbül adına Musiqi Məktəbinin yeni və müasir musiqi avadanlıqları ilə təchiz olunmasından ötrü 61.189 min, 2005-ci ildə isə Yevlax Şəhər İdman Məktəbinin idman ləvazimatları ilə təchizatına 87.975 min ABŞ dolları həcmində maliyyə vəsaiti sərf etmişdir. Təhsilin inkişafına dəstək vermək üçün yardım layihəsi Yaponiya hökumətinin dünyada, o cümlədən ölkəmizdə həyata keçirdiyi «Ot kökləri və insan təhlükəsizliyi» qrant proqramı hesabına gerçəkləşdirilmişdir. Bundan başqa, Yaponiya hökuməti Beynəlxalq İnkişaf Assosiasiyası vasitəsi ilə Azərbaycanda İkinci Təhsi İslahatı layihəsini hazırlanmasına 483 min ABŞ dolları həcmində qrant maliyyə yardımı ayırmışdır ki, bu vəsaitə də 2002-2011-ci illərdə Azərbaycan Respublikasında təhsil üzrə strategiyanın və prioritet istiqamətlərin, habelə islahat proqramlarının hazırlanmasına sərf olunmuşdur. Milli təhsilə dəstək üçün Yaponiya hökuməti tərəfindən ayrılmış yardımlar daha çox ölkəmizdə təhsil sahəsinin müasirləşdirilməsinə yönəldilmişdir.

Bakı Dövlət Universitetində fəaliyyət göstərən Yapon dili mərkəzi öz fəaliyyətini genişləndirərək həm də Yapo-

niya təhsil və mədəniyyət mərkəzinə çevrilmişdir. Universitetdə həmin ixtisas üzrə təhsil alan tələbələr Yaponiyada kurslarda iştirak etmiş, ölkənin təhsil sistemi və mədəniyyəti ilə də yaxından tanış ola bilmişlər. Bakı Dövlət Universitetinin Yapon dili və mədəniyyəti mərkəzi geniş mənada Yaponiya üzrə vəzifələrini də yerinə yetirir.

Göründüyü kimi, təhsilin inkişaf etdirilməsi sahəsində Azərbaycan-Yaponiya əlaqələrində Yaponiya hökumətinin «Ot kökləri və insan təhlükəsizliyi» qrant proqramının həyata keçirilməsi üstünlük təşkil edir. Bu proqramda məktəblərin tikintisi və təmiri ilə bağlı məsələlər daha geniş yer tutur. Qeyd olunan layihənin həyata keçirilməsi üzrə 2000-2008-ci illərdə Bakı şəhərində və Azərbaycan Respublikasının müxtəlif rayonlarında qaçqınlar və məcburi köçkünlər üçün olan tikililər də daxil olmaqla 5 milyard 282 milyon 718 min yen həcmində iş icra olunmuşdur. Yaponiyanın Azərbaycandakı səfirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə qarşılıqlı razılaşma əsasında ölkəmizin ayrı-ayrı regionlarında 82 layihə həyata keçirmişdir. Layihənin icrasının təhlili göstərir ki, Yaponiya hökuməti daha çox ucqar rayonlarda məktəblərin tikintisinə və təmirinə diqqət yetirmişdir. Belə ki, 2005-ci illədək icra olunan 40 layihədən yalnız 7-si Bakı şəhərini, ətrafını və Sumqayıt şəhərini əhatə etmişdir. Mərkəzdə yalnız Bakı şəhərinin Suraxanı rayonundakı 2 saylı uşaq evinin istilik və su sisteminin yenidən qurulması, Səngəçal qəsəbəsində uşaq bağçasının bərpa olunması, Bakıdakı 225 saylı məktəbin, Avropa liseyinin və Qaradağ rayonundakı Buta qəsəbə orta məktəbinin təmiri, habelə Sumqayıtda məskunlaşmış məcburi köçkünlər üçün təh-

sil şəraitinin yaşılaşdırılması, layihələrin yerinə yetirilməsidir. «Ot kökləri və insan təhlükəsizliyi» qrant proqramlarının əhatə etdiyi digər layihələr Azərbaycan Respublikasının Astara, Lənkəran, Lerik, Yardımlı, Qax, İsmayıllı, Şəki, Xaçmaz, Qusar, Zərdab, Beyləqan, Göyçay və s. rayonlarında həyata keçirilmişdir. Rayonlarda əsasən məktəblər təmir olunmuş, avadanlıqlarla təchiz olunmaqla istilik sistemləri yenidən qurulmuşdur. Bununla yanaşı, Yaponiya hökuməti qrant proqramı çərçivəsində bir neçə rayonda - Ley (Lənkəran), Çarxı və Qaraçuq (Xaçmaz), Şahsevən (Beyləqan), Çayrəsullu (Gədəbəy), Mollavaizli (Saatlı), Qoruqbağı (Zərdab), Molla və Arsila (Yardımlı), Güllük (Qax), Alpoud (Göyçay), Kərimbəyli (Salyan), Axura (Astara), Uludaş (Qəbələ) kəndlərində yeni məktəb binaları tikilib istifadəyə verilmişdir. Layihədə məcburi köçkünlər və qaçqınlar üçün məktəblərin tikintisi və ya təmiri xüsusi yer tutur. Sumqayıt şəhərində, Ağdam və Bərdə rayonlarında, Bakının Sulutəpə qəsəbəsində məskunlaşmış qaçqınlar və məcburi köçkünlər üçün yeni məktəb binaları tikilib və təhsil ocaqları müasir tipli avadanlıqlarla təchiz olunmuşdur.

Yaponiya hökuməti 2005-ci ildən sonra “Ot kökləri və insan təhlükəsizliyi” proqramı əsasında təhsil müəssisələrinin tikintisini və təmirini daha da sürətləndirmişdir. Belə ki, 2005-2008-ci llərdə respublika üzrə «ot kökləri» proqramı çərçivəsində 42 layihə həyata keçirilmişdir. Məktəblərin tikintisi və təmiri sahəsində əvvəlki illərdə formalaşmış ənənə davam etdirilmiş, daha çox məcburi köçkünlərin və qaçqınların məskunlaşdığı ərazilərdə və

ucqar rayonlarda layihələrin gerçəkləşdirilməsinə üstünlük verilmişdir.

Azərbaycanın Şəki rayonunda «Ot kökləri və insan təhlükəsizliyi» qrant layihəsi ilə 2000-2014-cü illər arasında 14 layihə həyata keçirilmişdir. Layihələrin bir çoxu məktəb və bağça təhsilini əhatə etmişdir.

Bu layihə üzrə ikinci mərhələ ölkəmizdə 2010-2015-ci illər üzrə həyata keçirilməkdə davam etdirilir. Yaponiya hökuməti Azərbaycan rayonlarında tikib istifadəyə verdiyi təhsil müəssisələrini həm də müasir yapon texnologiyası və avadanlıqları ilə də təchiz edir.

Müəllimlərin və tələbələrin mübadiləsi sahəsində də Azərbaycanla Yaponiya arasında faydalı əməkdaşlıq proqramı həyata keçirilir. Yaponiya dövlətinin müəyyən etdiyi «Orta məktəb müəllimləri üçün tədris səfəri» proqramı çərçivəsində 2002-ci ildən başlayaraq Bakı şəhərinin ümumtəhsil məktəblərinin nümayəndələri Yaponiyada olmuş, bu ölkənin təhsil sistemi, mədəniyyəti və cəmiyyəti ilə yaxından tanış olmaq imkanı qazanmışlar. Azərbaycanın ayrı-ayrı rayonlarının məktəbliləri də Yaponiyaya səfər etmişlər. Yaponiyanın İto şəhəri ilə qardaşlaşmış Azərbaycanın İsmayıllı rayonunun şagirdləri 2014-cü ildə Tokioda və ölkənin regionlarında yapon məktəblilərlə görüşmüşlər. Məktəb şagirdlərinin görüşləri təcrübə mübadiləsi ilə yanaşı, yeni nəslin dünyagörüşünün inkişafına, habelə dostluq əlaqələrinin möhkəmlənməsinə xidmət edir.

Azərbaycan müəllimlərinin Yaponiya səfərləri yeni nəsil pedaqoqlarının dünyagörüşünün daha da inkişaf etdirilməsində mühüm rol oynayır. Bununla belə, orta mək-

təb müəllimləri müqayisədə ali məktəblərin müəllimləri və tələbələri daha geniş şəkildə Yaponiya universitetlərinin imkanlarından faydalanmaq şansı qazana bilirlər. İndiyədək müxtəlif illərdə Bakı Dövlət Universitetinin və Naxçıvan Dövlət Universitetinin nümayəndə heyətləri Yaponiya ali məktəblərinin iş təcrübəsini öyrənmək üçün Gündoğar ölkəyə səfər etmişlər. Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun səfəri zamanı Gündoğar ölkənin ali təhsil müəssisələrinin rəhbərləri ilə qarşılıqlı olaraq Azərbaycan və Yaponiya üzrə mütəxəssis hazırlığı məsələləri müzakirə olunmuşdur. Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəyli və hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbovdan ibarət olan nümayəndə heyəti 2012-ci ildə Tokio şəhərindəki universitetlərin iş təcrübəsini öyrənməklə yanaşı, qarşılıqlı əlaqələrinin qurulmasına dair razılaşmalar da əldə etmişlər.[1] Həyata keçirilən səfərlər eyni zamanda Azərbaycan universitetlərinin Yaponiyada tanıdılması baxımından da əhəmiyyətli olmuşdur.

Bundan başqa, ölkəmizdə Yaponiyada ali təhsil almağa marağın artdığı da müşahidə edilməkdədir. Bu vaxtadək Azərbaycan ali məktəblərində müsabiqə əsasında seçilmiş onlarla tələbə bakalavr və «Monbukadakuso» adlandırılan proqram üzrə magistrlər Yaponiya Universitetlərində təhsil almaq imkanı əldə etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici ölkələrdə ali təhsil şəbəkəsinin genişləndirilməsi haqqındakı sərəncamına uyğun olaraq 2007-ci ildən başlayaraq bir sıra dünya ölkələrində, o cümlədən Yaponiyada azərbaycanlı

[1] Bax: Mehriban Sultan. Yaponiya səfəri maraqlı görüşlərlə zəngin olub. «Azərbaycan müəllimi» qəzeti, 18 may, 2012-ci il

tələbələrin geniş miqyasda ali təhsil almaları təmin edilir. Bu isə öz növbəsində Azərbaycan Respublikası üçün Yaponiyada təhsil almış yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına ciddi təkan verəcəkdir.

Azərbaycan təhsil sistemində yeni texnologiyaların tətbiqi baxımından da Yaponiyanın müəyyən köməyi mövcuddur. Əvvəla, «Ot kökləri və insan təhlükəsizdiyi» proqramı əsasında tikilmiş, yaxud təmir olunmuş məktəblərə Yaponiyanın Azərbaycandakı səfirliyi tərəfindən kompüter dəstləri, müasir tipli məktəb ləvazimatları, laboratoriya avadanlıqları hədiyyə olunmuşdur. Bundan başqa, Yaponiya hökumətinin qrant layihəsi əsasında Şəki şəhərində ayrıca kompüter tədris mərkəzi yaradılmış (2001), Bakı Dövlət Universitetinin yapon dili laboratoriyası ən yeni informasiya texnologiyaları və müasir laboratoriya avadanlıqları ilə təchiz edilmişdir (2003). Yeni texnologiya ilə təchizat Azərbaycanda modern təhsil sistemi yaratmağa kömək edən vasitə kimi əhəmiyyətlidir. Yaponiyanın Azərbaycandakı səfirliyi 2008-ci ilin yanvar ayında respublika Təhsil Nazirliyi ilə «Ot kökləri və insan təhlükəsizliyi» proqramını qraşıdakı mərhələ üçün yenidən imzalamışdır. Deməli, 2000-2007-ci illəri əhatə edən birinci mərhələdə özünü doğrultmuş bu səmərəli proqram bundan sonra da davam etdiriləcəkdir. Buna görədir ki, Yaponiya səfirliyi 2008-ci ilin iyun ayında 2-ci dəfə Yaponiya hökumətinin «Ot kökləri və insan təhlükəsizliyi» qrant layihəsi əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə müqavilə imzalamışdır. Müqavilə əsasında Ağcabədi rayonunun Taxtakörpü kəndində məcburi

köçkünlər üçün məktəb və Şəki rayonundakı Dərəcənnət kəndində məktəb binasının tikilməsi həyata keçirilmişdir[1].

Bütövlükdə ötən dövr ərzində 2015-ciilədək Yaponiyanın «Ot kökləri və insan təhlükəsizliyi» qrant layihəsi əsasında Azərbaycanda ümumi dəyəri 15 milyon 924 min ABŞ dolları miqdarında olan 189 layihə başa çatdırılmışdır. Həyata keçirilən layihələr qarşılıqlı yardımdan daha çox ölkələrarası əlaqələrin genişləndirilməsi, dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə xidmət etdiyi üçün xüsusilə faydalı olmuşdur.

Son vaxtlar Yaponiyanın təhsil üzrə yardımlarının məktəblərin tikintisi ilə yanaşı, bu sahədə islahatların həyata keçirilməsinə yönəltdiyi də müşahidə olunur. Təhsil islahatlarının surətləndirilməsinə maliyyə vəsaiti ayrılması ilə Azərbaycan-Yaponiya əlaqələrində yeni mərhələ başlanıb. Dünya Bankının 2008-ci ildən etibarən «Azərbaycanın ali təhsil sistemində islahatlar layihəsi»ni həyata keçirmək üçün maliyyə vəsaitinin ayrılması barədəki təşəbbüsünə müsbət reaksiya verən Yaponiya hökuməti bu məqsədlə respublika Təhsil Nazirliyinə 430 min ABŞ dolları miqdarında maliyyə vəsaiti ayırmışdır. Həmin qrant hesabına «ilkin olaraq ali təhsil sisteminin maliyyələşdirilməsi, ali məktəblərdə kredit sisteminin, akkreditasiyasının tətbiqi məsələlərini əhatə etməsi nəzərdə tutulur. Layihə çərçivəsində ali məktəblərdə adambaşına maliyyələşdirmə sisteminə keçid, ödənişli əsaslarla təhsil almaq üçün kreditin ayrılması, hazırkı akkreditasiya qaydalarının modernləşdirilməsi» kimi məsələlərin həlli təmin ediləcəkdir.[2]

---

[1] Hicran Əkbərova. Yaponiya səfirliyində imzalanma mərasimi. «Azərbaycan müəllimi», 4 iyul, 2008-ci il

[2] Yaponiya ali təhsil sistemində islahatlara qrant ayıracaq. «Palitra» qəzeti, 15

Göründüyü kimi, Azərbaycan-Yaponiya əlaqələrində təhsil amili mühüm yer tutur. Yapon təhsil modeli ənənələrindən faydalanmaq Azərbaycanda elmi və təhsili inkişaf etdirmək baxımından mühüm əhəmiyyətə malikdir. Daha çox Avropaya inteqrasiya üstündə köklənmiş Azərbaycan təhsilində Yapon təhsil modelindən də öyrənmək milli təhsilimizin tam mənada dünya təhsil sisteminə uyğunlaşmasını təmin edir. Təhsil əlaqələri ölkələrarası əlaqələrin inkişafında mühüm rol oynayır.

**2.6.4. Turizm, səhiyyə və idman əlaqələri**

Yaponiya ilə keçmiş Sovet İttifaqı arasında bir çox sahələrdə, o cümlədən turizm sahəsində qarşılıqlı əməkdaşlıq həyata keçirilmişdir. Turizm sahəsində ölkələrarası əlaqələr Yaponiya dövləti ilə Sovet Sosialist Respublikaları İttifaqı hökuməti arasında bağlanmış «Vizaların verilməsində konsulluq yığımlarının qarşılıqlı ləğv edilməsi barədə» (26 fevral 1965-ci il), «Hava əlaqəsi haqqında» (21 yanvar 1966-cı il) və «Konsulluq konvensiyasına dair» (29 iyul 1966-cı il) qanunları vasitəsilə icra edilmiş və tənzimlənmişdir. Bu illərdə Yaponiyadan turizm axını əsasən Sovet İttifaqının Moskva və Sankt-Peterburq kimi şəhərlərinə yönəldilmişdir. Hətta həmin məqsədlə Sovet İttifaqının paytaxtı Moskva şəhərində xüsusi olaraq "Tokio" mehmanxanası və restoranı da fəaliyyət göstərməkdə idi. Keçmiş Sovet İttifaqı zamanı müttəfiq respublkalara, o cümlədən Azərbaycana Yaponiyadan turistlərin gəlməsi planlaşdırılmırdı. Bunnula belə, Yaponiyadan Moskvaya,

avqust, 2008-ci il

yaxud Peterburqa gələn turistlərin həmin səfər çərçivəsində arzu etdikləri təqdirdə müttəfiq respublikalara qısamüddətli gəlişi təmin edilirdi. O cümlədən, Azərbaycana da Sovet dövründə cəmi bir neçə dəfə yapon turistlərin nümayəndələri gələ bilmişdir. Lakin bu hal sistemli xarakter daşımırdı və Yaponiyadan gələn azsaylı turistlərin 1-2 gün ərzində konkret obyekt, yaxud sahə üzrə, məsələn Qobustanla, İçərişəhərlə, Şirvanşahlar sarayı, Xalça muzeyi ilə tanışlığı ilə məhdudlaşırdı.

Azərbaycanla Yaponiya arasında turizm əlaqələri ölkəmiz müstəqillik qazandıqdan sonra ardıcıl və sistemli xarakter daşımışdır. Yaponiya-Azərbaycan turizm əlaqələrini yenidən qurmaq üçün, hər şeydən əvvəl, müvafiq qanunvericilik bazası formalaşdırılmışdır. Bu məqsədlə Sovet İttifaqı zamanı bağlanmış, adları yuxarıda qeyd edilən sazişlərə Azərbaycan Respublikasının Milli Məclisində yenidən baxılmış, ilkin mərhələdə bəzi zəruri əlavələrlə həmin sazişlərin təsdiq olunması təmin edilmişdir. Xüsusən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisin təklifi əsasında «Yaponiya ilə Sovet Sosialist Respublikaları İttifaqı arasında bağlanmış müqavilələrin Azərbaycan Respublikasına münasibətdə hüquqi varisliyi ilə əlaqədar Azərbaycan Respublikası və Yaponiya arasında 2005-ci il mayın 30-da mübadilə edilmiş notalarının təsdiq edilməsi haqqında" Qanunu təsdiq etməsi digər sahələrlə yanaşı, turizmin inkişafı üçün də münasib imkanlar açmışdır. Bütün bunlar ölkələrarası turizm əlaqələrinin formalaşmasına özünün müsbət təsirini göstərmişdir. Ona görə də müstəqillik illərində Azərbaycana Yaponiyadan turizm axını ildən-ilə xeyli artmış-

dır. Belə ki, 2003-cü ildə Azərbaycana müxtəlif kanallarla Gündoğar ölkədən cəmi 767 yapon vətəndaşı gəlmişdir ki, bu, başlanğıc üçün yaxşı göstəricidir. Qısa müddətdən sonra Yaponiya ilə Azərbaycan arasında cəmiyyət həyatının digər sahələrində əlaqələrin genişlənməsi turizmin də inkişafına təkan vermişdir. Bunun nəticəsidir ki, artıq 2006-cı ildə Yaponiyadan Azərbaycana gələn turistlərin sayı 925 nəfərə çatmışdır. Bu rəqəm 2007-ci ildə bir qədər də inkişaf edərək 1036 nəfər olmuşdur.[1] Ölkəmizə Yaponiyadan turist axını 2008-ci ildə daha da genişlənərək 1500 nəfəri keçmişdir. 2013-cü ilin statistikasına əsasən, il ərzində Yaponiyadan ölkəmizə gələnlərin sayı 3 min nəfərdən çox olmuşdur. Yaponiya turistləri Bakı şəhəri ilə yanaşı Azərbaycanın regionlarına da səfərlər etməyə başlamışlar.

Son illərdə Azərbaycanda baş verən böyük iqtisadi inkişaf, xalqın sosial rifahının yaxşılaşması Azərbaycandan da Yaponiyaya turist qruplarının yola düşməsinə zəmin yaradır. Artıq Azərbaycandan Yaponiyaya rəsmi əməkdaşlıq münasibətləri ilə əlaqədar gedənlərlə yanaşı, səyahət etmək üçün yola çıxanlar da vardır. Hazırda mövcud olan fərdi və pərakəndə turizmin tədricən sistemli və mütəşəkkil turizmlə əvəz olunması Yaponiya-Azərbaycan əlaqələrinin inkişafında yeni mərhələyə çevrilə biləcəkdir.

Aparılan təhlillər Azərbaycan-Yaponiya turizm əlaqələrinin qarşıdakı illərdə daha da genişlənəcəyini göstərir. Son vaxtlarda Azərbaycanın paytaxtı Bakıda, habelə Naxçıvan, Şəki, Lənkəran və Qəbələdə yeni və ən müasir tipli 5 ulduzlu otellərin tikilib istifadəyə verilməsi, ölkəmizdə

---

[1] Gələrsən -görərsən. Mart-aprel, 2008, №2, səh.21

sosial-mədəni servis xidmətinin dünya standartlarına uyğun yenidən qurulması, respublikamızın hava nəqliyyatında böyük dəyişikliklərin baş verməsi müxtəlif ölkələrdən, o cümlədən Yaponiyadan Azərbaycana turist axınının qısa müddətdə bir neçə dəfə artacağını proqnozlaşdırmağa əsas verir. Ölkələrarası münasibətlərdə ən səmərəli və sərfəli sahə olan turizm əlaqələrinin inkişaf etdirilməsi bütövlükdə Yaponiya ilə Azərbaycan arasında çoxcəhətli münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycanda səhiyyə sahəsinin inkişaf etdirilməsində və müasirləşdirilməsində də Yaponiya ilə əlaqələrin mühüm rolu müşahidə olunur. Səhiyyə sahəsində Yaponiyanın Azərbaycandakı səfirliyinin vasitəsi və dəstəyi ilə həyata keçirilən tədbirlər aşağıdakı istiqamətləri əhatə etmişdir:

1. Səhiyyə müəssisələrinin yenidən qurulmasına dəstək göstərilməsi;
2. Səhiyyə sahəsində yeni texnologiyanın tətbiqi;
3. Səhiyyə maarifçiliyinin təşkili.

Aparılmış təhlillər göstərir ki, Yaponiya hökuməti ölkəmizdə 1999-2001-ci illərdə daha çox səhiyyə müəssisələrinin yenidən qurulması və təmir edilməsi məsələlərinə diqqət yetirmişdir. 2001-2005-ci illərdə isə səhiyyə sahəsində maddi-texniki bazanın möhkəmləndirilməsi işinə köməklik göstərilmişdir. 2000-ci ildən sonrakı mərhələdə isə səhiyyə üzrə Yaponiya ilə əlaqələrdə yeni texnologiyaların tətbiqinə üstünlük verildiyi müşahidə olunur.

Qeyd olunduğu kimi, Yaponiya dövləti Azərbaycanda səhiyyə müəssisələrinin – xəstəxanaların, uşaq evlərinin, qadın məsləhətxanalarının və poliklinikaların əsaslı şə-

kildə yenidən qurulması və yeni texnologiya ilə təchiz edilməsi sahəsində Azərbaycan Respublikasında dövlət səviyyəsində aparılan tədbirlərin daha da genişləndirilməsini diqqət mərkəzində saxlamışdır. Gəncə şəhərindəki Qadın məsləhətxana-poliklinikasının, Sumqayıt şəhərindəki Psixonevroloji dispanserin, Bakı şəhərinin Türkan qəsəbəsindəki Əlil uşaqlar evinin, Ramana qəsəbəsindəki uşaq evinin, Bakı şəhərindəki 2 saylı uşaq evinin əsaslı şəkildə yenidən qurulması və müasir texnologiya ilə təchiz edilməsi, istilik sisteminin yeniləşdirilməsi Yapon dövlətinin Azərbaycan səhiyyəsinin inkişafına göstərdiyi diqqəti və qayğını əks etdirir.

Səhiyyə sistemində maddi-texniki bazanın möhkəmləndirilməsi baxımından da Yaponiya ilə əlaqələr mühüm əhəmiyyət kəsb edir. Bu sahədə həyata keçirilən tədbirlər əsasən Yaponiya dövlətinin ayırdığı qrant layihələri hesabına səhiyyə müəssisələri üçün tibb avadanlıqlarının alınması məsələlərini əhatə edir. Qeyd etmək lazımdır ki, Yaponiyanın qrant layihələri əsasında yenidən qurulmuş səhiyyə müəssisələrinin hamısına həm də müəyyən tibbi avadanlıqlar da alınmışdır. Bununla belə, bir sıra səhiyyə ocaqlarında müəyyən qrant layihəsi xüsusi olaraq yeni tibbi cihazların və avadanlıqların alınmasına yönəldilmişdir. Yaponiya 1999 -cu ildə Azərbaycan Elmi-Tədqiqat Fizioterapiya və Pulmonologiya İnstitutuna müasir avadanlıqların alınması üçün 2 milyon ABŞ dolları həcmində qrant ayırmışdır. [1]

Sonrakı illərdə Yaponiya dövləti tərəfindən ayrılmış 4,2 milyon ABŞ dolları hesabına Bakı şəhərindəki Ş.Ələsgəro-

[1] Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolları. Bakı, “Elm”, 2014, səh. 263

va adına 5 saylı Doğum evi, 1 saylı Bakı şəhər xəstəxanası, Abdulla Qarayev adına Uşaq klinik xəstəxanası ən müasir tibb avadanlıqları ilə təchiz edilmişdir. Bundan başqa, Bakı şəhərindəki Ş.Ələsgərova adına 5 saylı Doğum evində xüsusi laboratoriyanın yaradılması təmin edilmişdir. Həmin laboratoriyanın təşkili və fəaliyyəti üçün Yaponiya dövlətinin ayırdığı 2 milyon ABŞ dolları həcmində olan qrant layihəsi əsasında laboratoriya ən müasir avadanlıqlarla təchiz edilmiş, bu laboratoriyada çalışan həkimlərə treninqlər keçirilmişdir. Eyni məqsədlə müəyyən olunmuş 2 milyon dollarlıq qrant vasitəsilə Azərbaycan Ciyər xəstəlikləri xəstəxanasında yeni tibb avadanlıqları quraşdırılmışdır. Bundan başqa, A.Qarayev adına Uşaq xəstəxanasında da 2 milyon ABŞ dolları həcmində yeni laboratoriyalar yaradılmışdır.[1] Respublikanın səhiyyə müəssisələrinə ən müasir tibb avadanlıqlarının alınması, yeni laboratoriyaların təşkili bu sahənin müasir tələblər səviyyəsində yenidən qurulmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir. Bu isə Azərbaycandan xarici ölkələrə xəstə axınının qarşısının alınmasını təmin etməyə imkan vermişdir. Bütün bunlar son nəticədə Azərbaycanda səhiyyə sisteminin dünya standartlarına yaxınlaşdırılması yollarında mühüm addımlara çevrilmişdir.

Yaponiya tərəfindən ayrılmış qrant layihələrinin bir hissəsi səhiyyə maarifçiliyi sahəsinə yönəldilmişdir. Bu yolla Azərbaycan həkimləri Yaponiyanın ölkəmizdəki səfirliyi vasitəsilə Bakıda keçirilən treninqlərə cəlb olunmuş, yaxud Yaponiyada tibb müəssisələrində stajirovka keç-

[1] Azernews, Bakı, iyul 2001, 21

mişlər. Aparılmış səhiyyə maarifçiliyi respublikamızda yeni texnologiyaya bələd olan, elmin son nailiyyətlərinə yiyələnmiş yüksək ixtisaslı tibb kadrlarının formalaşdırılması prosesinin daha da sürətləndirilməsinə təkan verir.

Məlum olduğu kimi, Yaponiya dünyada həm də fərqli idman ölkəsi kimi tanınır. Bir çox oyun növlərinin vətəni yalnız Yaponiyadır. Buna görə də Yaponiyanın idman ənənələrini öyrənməyə beynəlxalq aləmdə böyük maraq vardır. Yaponiya-Azərbaycan əlaqələrində idman sahəsinin də müəyyən yer tutması bütün bunlarla əlaqədardır.

Əvvəla, Yaponiya dövlətinin səhiyyə - sağlamlıq sahəsində apardığı tədbirlər həm də idmanın inkişafı ilə bağlıdır. Bununla belə, konkret olaraq Yaponiya dövlətinin Azərbaycanda idmanın inkişafına yönəltdiyi tədbirlər də müşahidə olunmaqdadır. Digər sahələrdə olduğu kimi, idman sahəsində də Yaponiya daha çox ölkəmizdə idman komplekslərinin yeni avadanlıqlarla, müasir texnologiya ilə təmin olunmasına köməklik göstərməyə üstünlük verir. Yaponiyanın 1999-cu ildə Azərbaycanda idman kompleksinin inkişaf etdirilməsinə 49,3 milyon yen (450 min ABŞ dolları) həcmində yönəltdiyi maliyyə vəsaitinin əsas hissəsi ən zəruri yeni texnologiyanın və avadanlıqların alınmasına sərf edilmişdir. Həmin layihə əsasında Bakıdakı ən mühüm idman mərkəzləri texnologiya baxımından yenidən qurulmuş və müasir avadanlıqlarla təchiz olunmuşdur. Eyni zamanda, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi üzrə də yapon qrant layihələri əsasında idman və yanğın təhlükəsizliyi avadanlıqları əldə edilmişdir.[1]

[1] Тураев Б.А. Глобальные выводы человечеству. М., 2002, стр.19

Yaponiya dövləti ölkəmizdə Şərq yönlü idman növlərinin daha da inkişaf etdirilməsində maraqlıdır. Cüdo, əlbəyaxa döyüş, karate tipli idman oyunları Yaponiyada da geniş yayılmışdır. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Yaponiyanın respublikamızdakı səfirliyi arasında 1999-cu ildə bağlanmış müqaviləyə əsasən ölkəmizdə Şərq əlbəyaxa döyüş idman növünün genişləndirilməsinə və inkişaf etdirilməsinə 400 min ABŞ dolları miqdarında maliyyə vəsaiti ayrılmışdır. Həmin maliyyə vəsaiti Bakıda Şərq əlbəyaxa döyüş idman növünün təşkilinə xidmət edən müasir tipli idman bazasının yaradılmasına, mövcud idman müəssisələrinin yeni avadanlıqlarla təchiz olunmasına, yarışların keçirilməsinə xərclənmişdir. Nəticədə Azərbaycanda idmanın bu sahəsinə maraq daha da artmış, həmin çətin idman növünə gənclər daha çox qoşulmuş, müsbət nəticələr əldə olunmuşdur.

Azərbaycan idmançıları Yaponiyada keçirilən idman yarışlarında da fəal iştirak edirlər. Cüdo idman növünün banisi Ciqaro Komonun şərəfinə 2008-ci ilin dekabr ayında Yaponiyanın paytaxtı Tokio şəhərində keçirilmiş xatirə turnirində baş məşqçi Ağayar Axundzadənin rəhbərlik etdiyi Azərbaycan yığma komandasının iştirakı idman sahəsindəki əməkdaşlığın yeni mərhələdəki uğurlu bəhrəsi sayılmağa layiqdir. İdmançılarımızın 81 kiloqram çəki dərəcəsində Zaur Paşayevin, 66 kiloqram çəki dərəcəsində isə Sərxan Əhmədovun cüdoçuların Tokio görüşlərində əldə etdikləri müsbət nəticələr Azərbaycan idmanının beynəlxalq aləmdə tanınması baxımından daha bir əhəmiyyətli addıma çevrilmişdir.[1] Bir sözlə, Yaponi-

[1] Yaponiyaya yollanan heyət. "İki sahil" qəzeti, 4 dekabr 2008-ci il, №230 (4789)

ya-Azərbaycan idman əlaqələri ölkəmizdə idmanın daha da inkişaf etdirilməsinə və respublikamızın idman şöhrətinin dünyada təbliğinə uğurla xidmət edir.

Göründüyü kimi, humanitar sahədə Yaponiya-Azərbaycan əlaqələri ictimai həyatın əksər sahələrini əhatə etməklə səciyyələnir. Humanitar sahədəki əlaqələr və birgə əməkdaşlıq qarşılıqlı şəkildə ölkələrin və xalqların bir-birlərini daha yaxından tanınmalarına şərait yaradır. Dünyanın qabaqcıl ölkələrindən olan Yaponiya ilə əməkdaşlıq layihələrinin həyata keçirilməsi Azərbaycanın müstəqil bir dövlət kimi dünyada tanıdılmasına geniş üfüqlər açır. Eyni zamanda, humanitar sahədə ölkələrimiz arasında genişlənməkdə olan əlaqələr mədəniyyət, təhsil və turizm üzrə Yaponiya təcrübəsinin Azərbaycana da axınına şərait yaradır. Turizm, səhiyyə və idman əlaqələri qarşılıqlı olaraq Azərbaycanın da müstəqil bir dövlət kimi Yaponiyada daha yaxından tanıdılmasına xidmət edir. Qrant layihələri həm də ölkələrimizdə birgə proqramların işlənib hazırlanması və həyata keçirilməsi sahəsində biliklərin, təcrübənin, vərdişlərin formalaşmasında da əhəmiyyətli rola malikdir.

### 2.6.5. Mədəni əlaqələr

Çoxsaylı elmi ədəbiyyatlarda Yapoinya daha çox yeni texnologiyanın vətəni kimi səciyyələndirilirsə də bu ölkənin özünəməxsus bənzərsiz mədəniyyətə malik olması həmişə etiraf olunmuşdur. Bu özünəməxsusluq, hər şeydən əvvəl, Yapon mədəniyyətində keçmişlə müasirliyin vəhdətində[1] və Qərblə Şərqin sintezində[2] özünü göstərir.

[1] Образ Японии. Токио, 2000, стр.18

[2] Kaori Shoji. Tokio görüntüləri (ingilis dilində). Yapoinya, Tokio, 2005, səh.84

Şərq-Qərb sintezi əsasında formalaşmış Yapon mədəniyyətində folklordan, milli etnoqrafiyadan gələn ənənələrin böyük payı vardır. Yapon mədəniyyətində millilik və qədimlik qorunub saxlanılmışdır. Elmi ədəbiyyatlarda yapon mədəniyyəti aşağıdakı kimi xarakterizə olunur: «Yaxından tanış olduqda aydın olur ki, sənayeləşmiş Qərb cəmiyyətinin qarşısında ənənələrə əsaslanan Yaponiya özünün dəyişilməzliyi ilə dayanır. Əvvəllərdə olduğu kimi, indi də ölkədə ənənəvi incəsənət növlərinin çoxusu yaşayır, qədim ənənələr bütün hallarda cəmiyyət həyatında və biznes sahəsində əvəzedilməz rol oynayır. «Yapon ruhu» isə gündəlik həyatda hakim rola malikdir.[1]

Məhz bu cəhətlər Yapon mədəniyyətininin dünya mədəniyyətindəki özünəməxsus yerini müəyyən edir. Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycanın mədəniyyətində də Şərq-Qərb sintezinin və köklü folklor ənənələrinin üstünlüyü bir-birindən uzaq məsafədə yerləşən bu iki ölkənin mədəniyyətlərinin tipoloji yaxınlığını nəzərə çarpdırır.

Mədəniyyət üzrə əməkdaşlıq Azərbaycan-Yaponiya əlaqələrində özünəməxsus yer tutur. Bu sahəyə dair əlaqələrin inkişafında ilk növbədə Yaponiya dövlətinin Azərbaycanda musiqi mədəniyyətinin daha da inkişaf etdirilməsinə göstərdiyi qayğını ayrıca qeyd etmək lazım gəlir. Belə ki, Yaponiya hökuməti 2004-cü ilin yanvar ayında Azərbaycan Dövlət Opera və Balet Teatrının işıqlandırma sisteminin yenidən qurulmasına 354 min ABŞ dolları həcmində qrant ayırmışdır. Həmin qrant layihəsinin həyata keçirilməsi Opera və Balet Teatrında işıqlandırma və

[1] Япония от Айкидо до Акитори. Москва, «Восток-Запад», 2007, стр.7

elektrik sisteminin müasir tələblər səviyyəsində təşkilinə, bu sahənin zəruri yeni texnologiya ilə təmin edilməsinə şərait yaratmışdır. Bu isə öz növbəsində Opera və Balet Teatrında tamalaşaların daha canlı təqdiminə normal şərait yaratmağa xidmət etmişdir.

Fikrimizcə, Yaponiyanın Azərbaycan Dövlət Opera və Balet Teatrının inkişaf etdirilməsinə xüsusi diqqət göstərməsi heç də təsadüfi olmayıb, bu teatrda milli mədəniyyət ənənələrinin qorunub saxlanılmasına əməli kömək məqsədini izləyir. Yaponiya hökumətinin Azərbaycan Dövlət Simfonik Orkestri üçün musiqi alətlərinin alınmasına göstərdiyi dəstək böyük ənənələrə malik olan bu orkestrin maddi-texniki bazasının daha da möhkəmləndirilməsinə təkan vermişdir. Eyni zamanda, Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasına alınmış fortepiano və royallar həm bu ali təhsil ocağında musiqi təhsilinin müasir tələblər səviyyəsində qurulmasına, həm də musiqi mədəniyyətinin inkişafına köməyin ifadəsinə çevrilmişdir. Yaponiya dövlətinin əlamətdar tarixi günlərində Bakı Musiqi Akademiyasında Azərbaycanda yaşayan yaponiyalılar, habelə Yaponiyanın ölkəmizdəki səfirliyinin əməkdaşları üçün təşkil edilən konsertlər mədəni əlaqələrin inkişafına özünün lazımi töhfəsini verir. Eyni zamanda, Bakıdakı Yaponiya səfirliyində Azərbaycan və Yaponiya musiqiçilərinin birgə iştirakı ilə keçirilən konsertlər ölkələrimiz arasındakı münasibətlərin daha da yaxınlaşdırılmasına və mədəniyyət sahəsində inteqrasiyanın inkişaf etdirilməsinə müsbət təsir göstərir.

Azərbaycandakı kitabxanaların inkişaf etdirilməsinə də Yaponiya hökuməti lazımi diqqət yetirmişdir. İlk növbədə Yaponiya hökumətinin dəstəyi ilə 2004-cü ildə

M.F.Axundov adına Respublika Kitabxanasının audio-vizual sistemi yenidən qurulmuşdur.[1] Bu, ölkəmizdə kitabxana işinin müasirləşdirilməsi baxımından mühüm addım olmuşdur. Bundan başqa, Yaponiyanın ölkəmizdəki səfirliyi ilə birgə həyata keçirilən qrant layihəsi əsasında M.F.Axundov adına Respublika Kitabxanasında elektron kataloq sistemi yaradılmışdır ki, bu da öz növbəsində oxucuların kitabxanadan istifadəsini asanlaşdırmış və yaxşılaşdırmışdır. Respublika kitabxanasında elektron kataloqun yaradılması dünyanın ayrı-ayrı ölkələrində bu kitabxananın imkanlarından istifadə üçün müraciətlərin meydana çıxmasına şərait yaratmışdır. Bu isə son nəticədə həm də Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanıdılmasına və təbliğinə də meydan açmışdır.

Keçirilmiş tədbirlərin bir qismi də yapon mədəniyyətinin təbliğinə həsr olunmuşdur. Bakıda 2007-ci ildə təşkil olunmuş Yapon kuklaları sərgisi bu cəhətdən mühüm əhəmiyyət kəsb etmişdir. Yaponiya hökumətinin bütün dünyada nümayiş etdirdiyi Kukla sərgisi bu ölkənin tarixi-mədəni əlaqələrini təbliğ etmək məqsədini izləyir. Çünki, mətbuatda qeyd olunduğu kimi, «Yaponiya ölkənin tarixini, adət və ənənələrini, hətta əfsanələrini özündə əks etdirən zəngin kukla mədəniyyətinə malikdir. Qədim zamanlardan başlayaraq gündəlik həyatın bir hissəsi olan kuklaların hər birinin həyatla bağlı xüsusi məna və məqsədi vardır».[2]

Bundan başqa, 2006-cı ildə Yaponiyanın Azərbaycandakı səfirliyinin Bakıda təşkil etdiyi «Ekibano» sərgisində yapon xalqının tarixi ənənələrə malik olan Gül buketi düzəltmə sənəti sahəsindəki nailiyyətləri nümayiş etdiril-

[1] Bax: Yaponiyanın Azərbaycandakı səfirliyinin arxivi
[2] Yapon kuklaları Bakıda. «Yeni Azərbaycan» qəzeti, 21 iyun 2007-ci il

mişdir. Həmçinin 2007-ci ildə Azərbaycan Respublikası ilə Yaponiya dövləti arasında diplomatik münasibətlərin yaradılmasının 15 illiyi münasibətilə «Azərbaycan-Yaponiya dostluq əlaqələri» adlı poçt markasının buraxılması ölkəmizdə mədəni hadisə kimi qeyd olunmuşdur.

Eyni zamanda, 2013-2014-cü illərdə Bakıda Rəşid Behbudov adına Mahnı Teatrında, Muğam Mərkəzində təşkil olunan mədəniyyət tədbirləri, İncəsənət Muzeyində açılmış Yapon rəsm əsərləri sərgisi mədəniyyət əlaqələrinin yeni səviyyəsini nümayiş etdirmişdir.

Yaponiya dövləti öz ölkəsində Azərbaycanı tanıtmaq üçün maraqlı və əhəmiyyətli sərgilər təşkil edir. Həmin sərgilərin təşkili mədəni əlaqələrin inkişafına da öz töhfəsini verir. Belə ki, 25 fevral 2007-ci ildə Yaponiya-Azərbaycan Dostluq Cəmiyyətinin Yaponiyanın Osaka şəhərində Azərbaycandakı Xocalı soyqırımının 15 illiyi münasibətilə təşkil və nümayiş etdirdiyi sərgidə dəhşətli faciəni əks etdirən fotomaterialla yanaşı, Azərbaycan rəssamlarının mövzu ilə əlaqədar rəsm əsərləri də nümayiş etdirilmişdir. Tədbir zamanı Xocalı faciəsi ilə əlaqədar sənədli filmin nümayiş etdirilməsi Azərbaycanda erməni təcavüzünün acı nəticələrini dünya ictimaiyyətinə çatdırmaq baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Osaka şəhərində Xocalı soyqırımı ilə əlaqədar sərginin təşkili həm də Azərbaycan xalqının vaxtilə Yaponiyada baş vermiş Xirosima faciəsi ilə həmrəyliyi kimi səslənmişdir. Naxçıvan Dövlət Universiteti nümayəndə heyətinin 2012-ci ildə Xirosima Sülh muzeyinə səfəri də bu nadir və ibrətamiz muzeylə tanışlıqdan başqa həm də Xocalı-Xirosima faciələrinə münasibətdə həmrəyliyin ifadəsi idi.

XX əsr ərzində Azərbaycan rəssamlarının yaradıcılı-

ğında Yaponiya mövzusu, xüsusən Xirosima və Naqasaki motivləri geniş yer tutmuşdur. Azərbaycanın xalq rəssamı Tahir Salahovun yağlı boya ilə çəkilmiş «Xirosima» əsərində bu şəhərdə torədilmiş faciənin bütün dünya üçün ibrət dərsi olması fikri aşılanmışdır. Görkəmli fırça ustasının Yaponiya mövzusunda çəkilmiş qrafika əsərlərində bu ölkənin ən səciyyəvi cəhətləri öz əksini tapmışdır. Dünya şöhrətli rəssamın 1979-cu ildə Yaponiyanın paytaxtı Tokio şəhərində nümayiş etdirilmiş fərdi sərgisi Azərbaycan təsviri sənətinə böyük şöhrət qazandırmışdır.[1]

Son illərdə də Azərbaycan-Yaponiya münasibətlərində rəssamlıq sahəsində yaradıcılıq təşkilatları arasında əlaqələrin yaranması və inkişaf etdirilməsini ayrıca qeyd etmək lazımdır. Xüsusən, Azərbaycan Rəssamlar İttifaqının Yaponiya ilə əlaqələrdə daha fəal mövqe nümayiş etdirməsi XX əsr boyu formalaşmış ənənələrin yeni şəraitdəki davamı kimi səslənir. Azərbaycan rəssamlarının 2007-ci ildə Yaponiyada təşkil edilmiş rəsm sərgisi Gündoğar ölkədə ölkəmizin təsviri sənətinə böyük maraq oyatmışdır. Bundan başqa, Azərbaycan Rəssamlar İttifaqı Yaponiyanın Mədəniyyət Assosiasiyası ilə birlikdə 2007-ci ildə bir neçə qrant layihəsi həyata keçirmişdir. Bu layihələrin həyata keçirilməsi Azərbaycan və Yaponiya rəssamlarının birgə əməkdaşlığının, qarşılıqlı əlaqələrinin təmin edilməsi baxımından mühüm əhəmiyyətə malik olmuşdur.[2]

Eyni zamanda, 2008-ci ilin dekabr ayında Bakıda Yaponiya İmperatoru Akihitonun doğum günü münasibətilə keçirilmiş tədbir də özünün xarakterinə görə daha

---

[1] Тахир Салахов (сосиавитель А.М.Коляденько). Москва, «Советский художник», 1986, стр.201

[2]APA Azeri-Press Agency. 14 avqust 2007-ci il

çox mədəniyyətyönümlü olması ilə diqqəti cəlb etmişdir. Tədbirdə Yaponiya ölkəsinin tərəqqisində, ölkənin dirçəlişində imperator Akihitonun roluna dair nümayiş etdirilən film Yaponiyada digər sahələrlə yanaşı mədəniyyət və incəsənət sahələrinin sürətli inkişafı haqqında dolğun təsəvvürlərin yaradılmasını təmin etmişdir. Bu maraqlı tədbirdə rəsmi nümayəndələrlə bir sırada Azərbaycanın və Yaponiyanın tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı qarşılıqlı əlaqələrin inkişafına daha bir töhfə verə bilmişdir.[1]

Həmçinin 2014-cü ildə Azərbaycan Dövlət İncəsənət Muzeyində təşkil edilmiş Yaponiya rəssamlarının təsviri sənət sərgisi və həmin tədbir çərçivəsində Yapon rəssamları ilə ünsiyyət Gündoğar ölkənin özünəməxsus rəngləri ilə tanışlıqla yanaşı, bu sahədə əməkdaşlığın inkişafına da yol açmışdır.

Beləliklə, Azərbaycan-Yaponiya mədəniyyət əlaqələri bir çox sahələri əhatə etmiş, ölkəmizin inkişafına öz töhfəsini vermişdir. Ümumilikdə dövlət müstəqilliyi mərhələsində Yaponiya hökuməti Azərbaycanda mədəniyyət sahəsinin inkişafına dair dəstək verdiyini nümayiş etdirmişdir. Xüsusən, dövlət müstəqilliyinin başlanğıc illərində ölkəmizə göstərilən diqqət və dəstək əsil dostluq və qarşılıqlı əməkdaşlığın möhkəm bünövrəsinə çevrilmişdir. Bütövlükdə Azərbaycan-Yaponiya qarşılıqlı əməkdaşlığının inkişaf etdirilməsi mədəniyyətlərarası dialoqun formalaşmasında həlledici faktorlardan birini təşkil edir. Yaponiya ilə əlaqələr mədəniyyətimizin və incəsənətimizin dünyada təbliği işinə də özünün böyük töhfəsini vermişdir.

---

[1] «Palitra» qəzeti, 2 dekabr 2008, №128 (1278)

### 2.6.6. Ədəbi əlaqələr

Azərbaycan-Yaponiya əlaqələrinin xüsusi bir sahəsini ədəbi əlaqələr təşkil edir. Azərbaycan ədəbiyyatında XX əsr boyu Yaponiya mövzusu əksər hallarda Xirosima və Naqasaki faciələrinin yad edilməsi və mənalandırılması ilə bağlı olmuşdur. Bu mövzuya əsasən şairlər müraciət etmişlər. Azərbaycan poeziyasında Xirosima və Naqasaki motivindən müharibə əleyhinə çağırış və sülhə dəvət kimi istifadə olunmuşdur. Bununla belə, XX əsrdə Azərbaycanın xalq şairləri Rəsul Rza və Nəbi Xəzrinin yaradıcılığında, müstəqillik illərində isə Şahin Fazilin əsərlərində Yaponiya mövzusu fərqli mətləbləri də əhatə etmişdir. Yaponiyada səfərdə olmuş görkəmli sənətkarlar bu ölkə haqqında özlərinin daha geniş təəssüratlarını poetik cəhətdən mənalandırmışlar. Beləliklə, Azərbaycan ədəbiyyatında Yaponiya mövzusu özünə sanballı yer ala bilmişdir. Azərbaycan şairlərinin Yaponiya haqqında yazdıqları şeirlər Gündoğar ölkənin orijinal poetik xəritəsinin canlandırılması ilə nəticələnmişdir. Şeirimizdə Yaponiya mövzusu ilə əlaqədar meydana çıxmış bədii nümunələr Yaponiya ölkəsinə poetik bələdçi funksiyasını da uğurla yerinə yetirir.

Azərbaycanın xalq şairi Rəsul Rza (1910-1981) XX əsr Azərbaycan poeziyasının qüdrətli nymayəndələrindən biridir. O, Azərbaycan ədəbiyyatında sərbəst şeirin ən görkəmli yaradıcısı kimi böyük şöhrət qazanmışdır. Xalq şairinin «Qızıl gül olmayaydı», «Bir gün də insan ömrüdür» kimi poemaları haqlı olaraq «poetik siqləti, mövzusu, problemi baxımından orijinallığı, novator mahiyyəti ilə seçilən əsərlər»[1] kimi dəyərləndirilmişdir. Rəsul Rza-

[1] Müasir Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild (müəlliflər kollektivi). Bakı Universiteti

nın «Rənglər» silsiləsinə daxil olan ciddi ictimai məzmunu ilə diqqəti cəlb edən şeirləri dünya poeziyasının qiymətli poetik sərvətinə çevrilmişdir.

Azərbaycanın xalq şairi Rəsul Rzanın yaradıcılığında dünya ölkələri və səfər təəssüratları haqqında poetik düşüncələr mühüm yer tutur. Görkəmli şairin müxtəlif vaxtlarda dünyanın ayrı-ayrı ölkələrinə dair müşahidələri və həmin ölkələrə səfərləri az sonra yaddaqalan, mənalı sislsilə şeirlərə çevrilmişdir. Çeşidli dünya ölkələrinə həsr olunmuş bu şeirlər bütövlükdə Rəsul Rzaya «ilk insan yurdu», «qoynu həyatla isinmiş məskən», «Böyük qəlbli insan Vətəni» kimi tərənnüm etdiyi Yer kürəsi, planetimiz haqqında ümumiləşmiş bədii qənaətlərini ifadə etməyə imkan vermişdir. Səfər təəssüratları silsilələri böyük vətəndaş şair kimi geniş şöhrət qazanmış Rəsul Rzanın həm də bəşəri sənətkar olduğunu bəyan edir. Bu baxımdan müxtəlif vaxtlarda xalq şairinin yaradıcılığında meydana çıxmış «Hindistan dəftərindən», «Afrika nəğmələrindən», «İraq xatirələri», «Suriya dəftərindən», «Praqa xatirələri», «Gülhanə parkında bir ceviz ağacı», «Yaponiya motivləri», «Eyfel qülləsi», «Çin notları» kimi mənalı poetik silsilələr bir-birini tamamlayır, bütövlükdə şərqli-qərbli dünyanın tam, bütöv bədii mənzərəsini yaratmağa uğurla xidmət edir.

Keçmiş sovet ədəbiyyatında adətən səfər şeirləri, bədii-publisist səfərnamələr daha çox ideoloji xarakter daşımış, əsasən Sovet İttifaqının kapitalist dünyasından üstünlüklərini təqdim etməyə doğru istiqamətləndirilmişdir. Əslində, o zaman tanınmış yazıçı v şairlərin xarici ölkələrə səfərləri də dövlət tərəfindən həmin məqsədlə təşkil olu-

nəşriyyatı, 2007, səh.448

nurdu. Lakin aparılan axtarışlar göstərir ki, xalq şairi Rəsul Rzanın yaradıcılığındakı poetik səfərnamələrdə ideologiyadan qat-qat çox sənət meyarı üstünlük təşkil edir. Bir tərəfdən geniş dünyagörüşə malik olan şair həmin qəbildən olan şeirlər vasitəsilə geniş mənada insan və dünya haqqında bir sənətkar kimi özünün qənaətlərini açıqlayır, digər tərəfdən isə öz yaradıcılığını yeni mövzular və ideyalarla daha da zənginləşdirir. Bu baxımdan yanaşdıqda filologiya elmləri doktoru Arif Abdullazadənin vaxtilə irəli sürdüyü aşağıdakı qənaətlər Rəsul Rza yaradıcılığındakı dünya motivli, yaxud səfər təəssüratları şeirlərinin öxünəməxsusluqlarını çox dolğun şəkildə ifadə edir: «Məsələ burasındadır ki, ...silsilə şeirlərin əksəriyyətində ...maraqlı xarici səfərlər zamanı şairlərimizin əksəriyyətinin guya bu ölkələrdə müdhiş dərəcədə darıxdıqlarından söhbət gedir. Güya onları bu ölkələrə zorla göndərmişlər və bu səfərlər onların ah-naləsini ərşə çıxarır. ...Rəsul Rza şeirində isə məsələnin mahiyyəti tamamilə başqa tiplidir. Şair xüsusi həvəslə getdiyi bu ölkələrdə hər şeylə maraqlanır və ...poeziya materialına çevrilə biləcək məqam və detalları ümumiləşdirib, onlara poetik münasibətini bildirir».[1]

Bundan başqa, Rəsul Rzanın xarici ölkələr haqqındakı şeirlərinin bir çoxu bu yolla örtülü şəkildə Azərbaycanın dərdlərinin başqa ölkələrin həyatından alınmış motivlər vasitəsilə ifadə olunmasına yönəldilmişdir. Xalq yazıçısı Anarın yazdığı kimi, «Azərbaycanın ağrılı taleyinə aid problemləri uzaq ölkələrə, ilk növbədə və ən çox müstəmləkə ölkələrinə ünvanlayaraq ifadə etmək»[2] Rəsul Rza

---

[1] Arif Abdullazadə. Od nə çəkdi. Bakı, «Azərnəşr», 1990, səh.90

[2] Anar. Çinar ömrü. Bax: Rəsul Rza. Seçilmiş əsərləri, 5 cilddə, I cild (müqəddimə). Bakı, Azərnəşr, 2002, səh.50-51

üçün seçilmiş, düşünülmüş ədəbi priyom olmuşdur.

Bu baxımdan yanaşdıqda xalq şairi Rəsul Rzanın «Yaponiya motivləri» şeirlər silsiləsi xüsusi əhəmiyyət kəsb edir. Yaponiya şeirləri Rəsul Rza yaradıcılığındakı poetik səfərnamələrin ən yaxşısı və əhəmiyyətlisi hesab oluna bilər. Bu şeirlər 1962 və 1974-cü illərdə görkəmli şairin Gündoğar ölkə haqqındakı müşahidələri, habelə bu ölkəyə səfəri əsasında yazılmışdır. Ayrı-ayrı illərdə qələmə alınmasına baxmayaraq, Rəsul Rza yaradıcılığındakı Yaponiya şeirləri mövzu və ideya etibarilə olduğu kimi, bədii yanaşma və mənalandırma baxımından da vahid bir tamın üzvi tərkib hissələri səviyyəsində ümumiləşə bilir.

Xalq şairi Rəsul Rzanın «Yaponiya motivləri» silsiləsi, hər şeydən qabaq, bu Gündoğar ölkə haqqında oxuculurda dolğun, obyektiv və obrazlı fikir formalaşdırmaq məqsədini daşıyır. Sovet ideologiyasının tələblərinə görə kapitalist idarə üsuluna əsaslanan xarici ölkələr, o cümlədən də Yaponiya barəsində dərsliklərdə və mətbuatda birtərəfli informasiyaların möhkəm yer tutduğu bir şəraitdə bu ölkə haqqında obyektiv söz demək böyük cəsarət tələb edirdi. Belə bir vaxtda Rəsul Rza heç nədən çəkinmədən Yaponiyanı necə varsa - olduğu kimi, bütün əsas cizgiləri ilə təqdim etməyi bacarmışdır. Şair Yaponiyanı «zəlzələlər üstündə» qərar tutan, əhalisinin sayına görə «qarışqa yuvasına» bənzəyən, dünyada «ən modern texnikanın möcüzəsini», «elektron maşınların irisi, xırdasını» diqtə edən inkişaf etmiş bir ölkə kimi təqdim etmişdir. Oxucuda bütöv qənaət hasil olsun deyə o, hətta Tokionun «rəng-rəng fanarlı», «kafeli, kazinolu» küçələrini də, «kimonoların əlvan naxışını» da obrazlı şəkildə şeirdə mənalaşdırmağı vacib saymışdır. Bütün bunlar Yaponiya haqqında tam,

bütöv, hərtərəfli təsəvvürlərin formalaşdırılmasına şərait yaratmışdır. Bu mənada, aşağıdakı şeir parçası Yaponiyanın poetik coğrafiyası təəssüratı doğurur:

*Tokionun elə bil*
*Nə uzunu var, nə eni.*
*Dalğalı bir dənizdir Tokio -*
*İnsan dənizi.*
*Buluddan baxsan*
*Bir qarışqa yuvasıdır,*
*Ucsuz-bucaqsız.*
*Tez-tez diksinir,*
*Altında torpaq.*
*Hər qarışı Yaponiyanın*
*Ya vulkanlayıb,*
*Ya vulkanlayacaq.*[1]

Məlum olduğu kimi, İkinci Dünya müharibəsi zamanı Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atom bombasının atılması nəticəsində çoxsaylı insan itkisinə yol verilməsi dünya ədəbiyyatında geniş əks-səda tapmışdır. Xalq şairi Rəsul Rzanın da "Yaponiya motivləri" silsiləsində Xirosima faciəsinin müxtəlif yönlərdən mənalandırılması diqqət mərkəzində dayanır. Bu silsiləyə daxil olan "Xirosimanın yüz minlik qurbanı haqqında sətirlər", "Gözlərin matəmi", "Bombardman" şeirlərində Xirosima həqiqətləri Rəsul Rza sənətinə xas olan obrazlı düşüncə vasitəsi ilə göz önünə gətirilir. Həmin şeirlərdə Yaponiyada sınaqdan çıxarılmış dəhşətli atom bombası "yaralı torpağa çökmüş zəhər", yaxud "yerdən şığıyıb göyə qalxan nəhəng göbələk", dağıdılmış və yandırılmış, ot bitməyən kömür rəngli Xirosima torpağı isə "üfüqdən-üfüqə uzan-

[1] Rəsul Rza. Seçilmiş əsərləri, 5 cilddə, III cild. Bakı, «Öndər» 2005, səh.76

mış qara tabut" kimi mənalandırılmışdır. Nəzərə çarpdırılan yaddaqalan bənzətmələr haqqında yüzlərlə şeirlər yazılmış Yaponiya gerçəkliyi barədə yalnız xalq şairi Rəsul Rzaya məxsus olan orijinal bədii təsvir vasitələridir. Şair "altı üstünə çevrilmiş şəhər" kimi təqdim etdiyi Xirosimanın da müharibədən, dəhşətli dağıntıdan sonrakı təkrarsız bədii obrazını canlandırmışdır:

*Yerdən göyə sükut,*
*Kömür, kül.*
*Kündə-kündə filiz,*
*Daş-torpaqdan yoğrulmuş*
*Eybəcər sima -*
*Xirosima.*[1]

Rəsul Rzanın "Yaponiya motivləri" silsiləsi insanlığın xilası, müharibə təhlükəsinin aradan qaldırılması, dünyada sülhün bərqərar olması kimi bəşəri ideyalarla tamamlanır. Belə məqamlarda Azərbaycanın xalq şairi, Azərbaycanda Sülh Komitəsinin rəhbəri Rəsul Rza bəşəriyyətin taleyi üçün dərindən narahatlıq keçirən, Yer kürəsinin xilasına çalışan barış, sülh və ədalət carçısı kimi çıxış edir. Vətəndaş şair dünyanın bütün xalqlarını Xirosima dəhşətlərindən lazımi ibrət dərsi çıxarmağa, müharibələrə son qoymağa çağırır:

*Havanı qoxlayın!!!*
*Təşviş, nigarançılıq qoxusu gəlir.*
*Bir qurtum yağış suyu*
*Fəlakət dadır.*
*İnsanlar!*

---

[1] Rəsul Rza. Seçilmiş əsərləri, 5 cilddə, III cild. Bakı, «Öndər», 2005, səh.78

*Yer üzünün taleyi*
*Sizin əlinizdə,*
*İnsanlardadır.*
*Müharibə carçılarının*
*Dilini kəsin!*
*Bir olmuş cinayət*
*Bir də baş verməsin.*[1]

Təxminən 46 il bundan əvvəl, 1962-ci ildə yazılmış bu sətirlər sonrakı bütün dövrlər, eyni zamanda, çağdaş mərhələ və dövlətimiz, xalqımız üçün də aktual səslənir. Bu isə öz növbəsində Rəsul Rza sənətinin bəşəriliyi ilə yanaşı, aktuallıq və müasirliyini də müəyyən edir.

Azərbaycan poeziyasında xüsusi yeri olan Rəsul Rzanın "Rənglər" şeirlər silsiləsi məşhur Yapon rəssamı Tosio Utamaro Sanın təsviri sənətdə rənglərdən istifadə imkanları ilə müqayisə olunmuşdur. Tanınmış rus alimi, akademik Nikolay Federenko "Yaponiya qeydləri" kitabında yazmışdır: "Mən Tosio Sanın - Yapon rəssamının rəng qamması haqqında söhbətini dinləyirəm və yadıma Azərbaycanın xalq şairi Rəsul Rzanın "Rənglər"i düşür. Şairin təsvirində hər rəng mənalandırılıb, öz xüsusi məzmununa malikdir, biri həsrətimizi xatırladır, biri dərdimizi, biri arzumuzu. Rəssam Utamaro kimi şair Rəsul Rza da qeyd edir ki, "rənglər" könlümüzdən keçir, isti-sərin küləklər kimi. "Rənglər" xatirələr oyadır, duyğular oyadır və eyni zamanda onu da deyir ki, "gördüyümüzdən artıq görmək istəməsək, hər rəng adicə boyadır".[2]

Forma etibarilə də Rəsul Rzanın "Rənglər" şeir silsiləsi müasir Yapon şeirinə yaxındır. Bu isə Rəsul Rza şeiri ilə yeni Yapon şeirinin tipoloji oxşarlığını da meydana qoyur.

[1] Göstərilən mənbə, səh.81
[2] Rənglər haqqında. Bax: Rəsul Rza. Rənglər Bakı, XXI YNE, 2001, səh.39

Xalq şairi Rəsul Rzanın Gündoğar ölkə haqqındakı şeirləri Azərbaycan-Yaponiya əlaqələrinin qiymətli bir səhifəsi kimi də mühüm əhəmiyyətə malikdir.

Azərbaycan ədəbiyyatında Yaponiya mövzusunda əsərlər yazan şairlər sırasında xalq şairi Nəbi Xəzrinin də özünəməxsus yeri və xidmətləri vardır.

Xalq şairi Nəbi Xəzri (1924-2007) Azərbaycanda bənzərsiz lirik şair, qiymətli poemalar və pyeslər müəllifi olan görkəmli sənətkar kimi tanınmışdır. Yeni dövr Azərbaycan ədəbiyyatı tarixində o, "müasir poeziyanın ən parlaq nümayəndələrindən biri" və "geniş yaradıcılıq palitrasına malik olan xalq şairi"[1] səviyyəsində qəbul olunmuşdur. Nəbi Xəzri uzun illər Dünya Azərbaycanlıları ilə Həmrəylik Cəmiyyətinə rəhbərlik etdiyi üçün çoxsaylı xarici səfərlərdə olmuş və səfər təəssüratlarından yoğrulan yaddaqalan şeirlər və poemalar yaratmışdır. Onun yaradıcılığında Avropa ölkələrinə, Türkiyə və İrana olan səfərləri əsasında yazılmış əsərlər xüsusi yer tutur. Bu əsərlər Azərbaycan oxucusu üçün dünyaya poetik pəncərə funksiyasını böyük uğurla həyata keçirə bilmişdir. Dünyaya geniş ölçülərdə yanaşmaq, Azərbaycana kainatın günəşli bir parçası kimi baxmaq, Odlar yurdundan Yer kürəsinə şairanə nəzər salmaq kimi keyfiyyətlər Nəbi Xəzrinin məsələlərə qlobal yanaşma bacarığını nümayiş etdirir. Təsadüfi deyildir ki, elmi ədəbiyyatda da "Nəbi Xəzrinin poetik təfəkkürünün məğzində qloballığın dayandığı"[2] xüsusi olaraq nəzərə çarpdırılmışdır. Dünya ölkələrinə, qitələrə və xalqlara həsr etdiyi ilhamlı şeirlər Nəbi Xəzrinin geniş mənada insan, dünya və zaman haqqında dərin düşüncələrini mənalandırmasına meydan açmışdır.

---

[1] Müasir Azərbaycan ədəbiyyatı (müəlliflər kollektivi), I cild, Bakı, 2007.

[2] Budaq Budaqov. Nəbi Xəzri kəhkəşanı. Bax: Nəbi XƏzri. Seçilmiş əsərləri, 2 clddə, I cild (müqəddimə). Bakı, "Lider" nəşriyyatı, 2004, səh.5

Görkəmli xalq şairi Nəbi Xəzrinin yaradıcılığında Yaponiya mövzusunun da özünəməxsus yeri vardır. Şair 1974-cü ilin oktyabr ayında Yaponiyaya səfər etmiş, bu Gündoğar ölkənin müxtəlif şəhərlərində olmuşdur. O, səfərdən aldığı təəssüratları mənalı, təsirli şeirlərə çevirmişdir. Onun "Yaponiya dəftərindən" şeirlər silsiləsinə on şeir daxildir. Bu şeirlərdə Yaponiya həyatının ayrı-ayrı məqamları, yaddaqalan anları böyük ilhamla poetikləşdirilmişdir. "Yaponiya dəftərindən" silsiləsinə daxil olan "Qatarda mürgüləyən qız" şeirində müəllif Kamakura şəhərinə gedərkən yolda müşahidə etdiyi, işdən evə qayıdan, "yorğunluq heykəlinə" bənzəyən qızı "yapon torpağının gözəli" kimi mənalandırmışdır. Şairin digər bir şeirində küçələrindən maralların "buynuzları şaxlı-budaqlı meşə" kimi keçdiyi Yaponiyanın Nara şəhəri "marallar şəhəri" adlandırılmışdır. "Daşlar bağı" şeirində də Kiato şəhərindəki "həyatın ölməzlik nişanəsi"nə, yaxud "dünya boyda sükuta" bənzədilən daşlı park obrazlı şəkildə "daşlar bağı" kimi təqdim olunmuşdur. "Qürbət yuxusuzluğu" və "Vüqarlandım" şeirləri uzaq ölkədə Vətən həsrəti duyğularını məharətlə poetikləşdirən uğurlu sənət nümunələri kimi yadda qalır. Beləliklə, "Yaponiya dəftərindən" şeirlər silsiləsinin bir qismi bu Gündoğar ölkənin özünəməxsus poetik görkəminin, bütöv mənzərəsinin canlandırılmasına həsr olunmuşdur. Bu silsilədən olan şeirlərin bir neçəsində isə Nəbi Xəzri yapon xalqının xarakterini açmağa çalışmışdır. Xalq şairinin "yaponsayağı" adlandırdığı həmin şeirlərdə bu xalqın müdrikliyi, nikbinliyi, intellektual düşüncəyə malik olması kimi xüsusiyyətləri diqqət mərkəzinə çəkilmişdir. "Yaponsayağı" qəbilindən olan "Qocanın dediyi" şeiri qeyd olunan xüsusiyyətləri bütün aydınlığı ilə əks etdirmək imkanlarına malikdir:

*- Həyatda gördüyün*
*Yüz qərinədir,*
*Sən de,*
*Görüş nədir,*
*Ayrılıq nədir?*
*Onunla birinci*
*görüşüm idi,*
*Onun müdrik səsi*
*Qəlbimə çatır.*
*O deyir;*
*- Ayrılıq görüş ümidi,*
*Görüş ayrılığın*
*Başlanğıcıdır.*[1]

Göründüyü kimi, xalq şairi Nəbi Xəzrinin "Yaponiya dəftərindən" şeirlər silsiləsi Gündoğar ölkəni tanımağa, yapon xalqının özünəməxsus xüsusiyyətlərini öyrənməyə bələdçilik edir.

"Yaponiya dəftərindən" adlı poetik silsilədə Xirosima motivləri geniş yer tutur. Nəbi Xəzrinin "Şəhidlər və şahidlər" poeması bütövlükdə Xirosima faciəsinə həsr olunmuşdur. Bu əsər Azərbaycan ədəbiyyatında Xirosima haqqında yazılmış ilk poema kimi də mühüm əhəmiyyət kəsb edir. Şair "Şəhidlər və şahidlər" əsərini "poema-müraciət" formasında düşünmüşdür. Seçilmiş bədii forma həm Xirosima faciəsinin mahiyyətini açmağa, həm də həmin faciənin ibrət dərslərini, aşıladığı sülhsevər ideyanı oxuculara çatdırmağa imkan verir. Bu mənada, XX əsrin ortalarında baş vermiş faciəli hadisəyə təxminən 30 il sonradan müraciət edilməsi şairin Xirosimanı bir daha yada salmaqla bəşəriyyəti yeni müharibə təhlükəsindən xilas

[1] Nəbi Xəzri. Son illərin sətirləri. Bakı, "Gənclik" nəşriyyatı, 1975, səh.64

olmağa səsləmək qayəsindən irəli gəlir. Xalq şairinin "ah çəkən insana", "susmayan vicdana" bənzətdiyi Xirosimadan tarix və zaman kimi söz açması əsərdə tarixiliklə müasirliyin vəhdətdə ifadə edilməsini şərtləndirmişdir.

"Şəhidlər və şahidlər" poemasının ayrı-ayrı hissələrində Xirosima faciəsinin törədildiyi vaxt baş verən hadisələrlə əlaqədar seçilmiş detalların poetik baxımından mənalandırılmasına xüsusi diqqət yetirilmişdir. Belə ki, poemanın "Heykəl qızcığaz" bölməsində dünya uşaqlarının pul yığıb Xirosima faciəsində həlak olmuş məktəbli qıza abidə ucaltmaları kimi ibrətamiz hadisə poetikləşdirilmişdir. "Fəlakət gözləri" şeirində Xirosimada yanıb dağılmış minlərlə binalardan birinin uçuq divarının qorunub saxlanılması, "Ölüm təpəsi" şeirində qazıntılar zamanı aşkar edilmiş insan sümüklərindən təpə kimi məzarların düzəldilməsi faktlarının poeziyanın predmetinə çevrilməsi XX əsrin bu böyük faciəsinin bir daha mahiyyətinin açılmasına xidmət edir. Şair faciədən salamat çıxmış uçuq divardan obrazlı şəkildə "qucağında fəlakət yatan dəhşətli muzey", aşkar edilmiş insan sümüklərindən "adsızlaşan tarix" kimi söz açır. Poemanın "8-15 dəqiqə" bölməsində isə Xirosimadakı xatirə muzeyində saxlanan bu şəhərdə atom bombasının partladıldığı vaxt həmin dəqiqə ərzində dayanmış cib saatı barədəki poetik mülahizələr müharibə tərəfdarlarına ağır ittiham aktının şahidi səviyyəsində ümumiləşir:

*Atəşli göbələk qalxdı, ucaldı,*
*Ucaldı ölümün qanadı kimi.*
*Yer yandı, göy yandı...*
*Mən isə qaldım.*

*Mən qaldım ittiham saatı kimi.*
*Xatirəm acıdan acıdır mənim,*
*Qəzəbim - o gündür,*
*Kinim - o gündür.*
*Sanki əqrəblərim qayçıdır mənim,*
*Qara fikirləri kəsmək üçündür".*[1]

Nəbi Xəzri "Şəhidlər və şahidlər" poemasında Xirosima şəhidlərinin dilindən ifadə etdiyi mətləblərlə baş vermiş fəlakətin, böyük faciənin fəlsəfəsini bütün yönləri ilə, daha dərindən açmağa nail ola bilmişdir. "Yerdən gələn səslər" kimi mənalandırılan, hər kəlməsi "sükutda dinən güllə"yə bənzədilən şəhid səsləri yanıqlı, təsirli qayəsi ilə keçmiş faciənin acı təzahürlərini göz önünə gətirir. "İkinci səsin" dilindən deyilmiş aşağıdakı misralar Xirosima həqiqətlərinin təzadlı cizgilərini, yanıqlı məqamlarını bir daha yada salır:

*Mən bir müğənniydim, sevirdi cahan,*
*Kəsildi, dayandı birdən nəğmələr.*
*Sizi dinləyirəm torpağın altdan,*
*Mənə tanış gəlir hərdən nəğmələr.*
*Elə istərdim ki, oxuyum mən də*
*O qədər nəğmələr susdu sinəmdə.*[2]

Poema-müraciətin hər hissəsi ibrətamiz sonluqla nəticələnir. Yaxşı cəhətdir ki, şair belə məqamlarda özünü təkrar etmir. Əsərdə hər bölmənin finalında ifadə olunan ibrətamiz fikirlər bir-birini tamamlayan və daha da qü-

---

[1]Nəbi Xəzri. Son illərin sətirləri. Bakı, "Gənclik" nəşriyyatı, 1975, səh.71
[2] Yenə orada, səh.83

vvətləndirən poetik bəyanatlar kimi səslənir. Məsələn, "Heykəl qızcığaz" bölməsində günahkar ataların öldürdüyü məktəbli qıza günahsız övladların ucaltdığı abidə son nəticədə heç də müsbət hadisə kimi təqdim olunmur:

*İnsanlar,*
*Açılsın qanadlarımız!*
*Qoy zəka xeyirxah əmələ dönsün!*
*İnsanlar, qoymayın övladlarımız,*
*Bir daha mənimtək heykələ dönsün!*[1]

Poemanın "8-15 dəqiqə" adlanan hissəsində isə Nəbi Xəzri bütün bəşəriyyətə üz tutaraq var gücü ilə Xirosima faciəsinin təkrarlanmaması üçün insanları həmişə ayıq-sayıq olmağa çağırır. Burada çağırış motivi həm də əqrəbləri dayanmış "ittiham saatı"nın mənalandırılması funksiyasını yerinə yetirir.

*Baxın, səkkiz-on beş...*
*Baxın insanlar*
*Sükutla dayanın bu dəqiqədə.*
*Yatsanız yuxudan qalxın, insanlar,*
*Diksinin, oyanın bu dəqiqədə.*

* * *

*Üzü tutulmasın Günəşin, Ayın,*
*Bəşər məni ansın bu dəqiqədə.*
*Amandır, insanlar,*
*Bir də qoymayın,*
*Saatlar dayansın bu dəqiqədə*[2].

[1] Göstərilən mənbə, səh.75
[2] Yenə orada, səh.72

"Şəhidlər və şahidlər" poemasının epiloqunda səsləndirilən yekun qənaət əsər boyu izlənilən əsas qayənin - müharibələrə bir daha yol verilməməsi motivinin aşılaya biləcəyi ana xətti tamamlayır. Bu məqamda şairin səsi qüvvətli bir orkestr kimi ucalır.

Şair "Dərdli yapon adası", "Planetin bədəninin sağalmayan yarası" kimi məna verdiyi Xirosima faciəsindən dərs çıxarıb, yer üzünün sabahını qorumağı bəşər övladının böyük borcu hesab edir.

*Eşit məni*
*İnsan oğlu,*
*Ümman oğlu,*
*Tufan oğlu*
*Bağça əkib*
*Gül qoxuyaq,*
*Bir səs-səsə gəl oxuyaq:*
*Bir əl-ələ gəl qoruyaq,*
*İnsan oğlu,*
*Cahan oğlu*
*Yer üzünün sabahını"*[1].

Hər hissənin sonluğunda səsləndirən çağırışlar, qənaətlər, ümumiləşdirici yekun bəyanatlar əsərin janr etibarilə poema-müraciət adlandırılmasına əsas verir. "Şəhidlər və şahidlər" poeması sanki Azərbaycan şairinin Yaponiyadan səslənən poetik müraciətidir. Poema eyni zamanda Azərbaycan xalqının Gündoğar ölkəyə diqqətinin və ehtiramının, yapon xalqı ilə həmrəyliyinin ifadəsidir. Xalq

[1] Yenə orada, səh. 90-91

şairi Nəbi Xəzrinin "Əlvida, Yaponiya" şeiri isə həm qeyd olunan poema-müraciətdə, həm də təqdim edilən şeirlər silsiləsində yapon xalqına ifadə olunan doğma münasibəti və böyük ehtiramı bütün dərinliyi ilə ümumiləşdirir:

*Baxdım:*
*Gözlərimdə doğma bir ölkə...*
*Söz açdım Xəzərə sədaqətimdən*
*Günəş okeandan qalxmırdı bəlkə,*
*Qalxırdı okean məhəbbətindən*[11]*.*

Nəbi Xəzrinin "Yaponiya dəftərindən" silsiləsi Azərbaycan-Yaponiya ədəbi əlaqələrinin qiymətli və əhəmiyyətli səhifəsidir. Bu poetik silsilə ilə Azərbaycan ədəbiyyatında Yaponiya mövzusu daha da genişlənmiş və dərinləşmişdir.

Xalq şairi Fikrət Qocanın "Xirosima", Əli Kərimin "Xirosimada məktəbsiz uşaq" şeirlərində də Yaponiya mövzusu öz əksini tapmışdır. Fikrət Qoca Xirosima faciəsini "XX əsrin səbri partlamışdır" şəklində təqdim etmişdir. Şeirdən sanki Xirosimada partladılmış atom bombasının dəhşətli səsi eşidilir. Bu şeir yazılış tərzi, misraların düzümü etibarilə partlamış atom bombasını xatırladır:

*...Hələ bu Yer kürəsi də maviliklərin*
*Dərin sükutu içində balaca bir qayıqmış.*
*Od alıb elə yanır ki, yanır elə bil*
*bir çəngə qamış*
*yanır yer, göy, su, hava.*
*- Sus, dava başlayıb -*
*deyir bir səs: Partlayış!*
*Deyirlər XX əsrin Səbri partlamış!*

---

[1] Yenə orada, səh.66-67

*Yanır kirpiklərdə yaş.*
*Yanır arzu, murad, təlaş*
*Ömrün yoludur yanan qarşımızda*[1].

Görkəmli şair Əli Kərimin "Xirosimada məktəbsiz qız" şeirində həmin faciədən ağır xəsarət aldığı üçün məktəbə gedə bilməyən qızın nisgili ifadə olunmuşdur. Şair xəstəlik ucbatından məktəbdən uzaq düşən, lakin oxumaq arzusunda olan qızın həyəcanlarını çox təbii şəkildə dilə gətirmişdir. Heç vaxt Yaponiyada olmayan, Xirosima faciəsi haqqında qəzetlərdən, kitablardan oxuyan Əli Kərim "Xirosimada məktəbli qız" şeirində sanki həmin ölkədə olub, qələmə aldığı məktəb şagirdlərinin iztirablarını yaxından müşahidə etmiş şair kimi təqdim edilən motivi bütün təbiiliyi ilə canlandıra bilmişdir:

*...Eşidir zəngi birdən*
*Yenə uçur məktəbə.*
*...Ağlağan könlün adı*
*Jurnalda yoxdur yenə.*
*Neçə il bir sinifdə qalır*
*Qızın ürəyi,*
*Ürəklərin kövrəyi,*
*...Nə danışar, nə dinər.*
*...Gah da ümidsizliyin,*
*Qəmin təkinə yenər.*
*Ona dərman verərlər,*
*Dərman xəstələnər.*
*Sənin loğmanın ollam,*
*Mənim məktəbsiz balam.*[2]

[1] Fikrət Qoca. Seçilmiş əsərləri, Bakı, "Şərq-Qərb", 2004, səh.15
[2] Əli Kərim. Seçilmiş əsərləri. Bakı, "Lider" nəşriyyatı, 2004, səh.125-126

Tarix elmləri doktoru, professor Şahin Fazilin «Yaponiya səfərnaməsi» əsəri tanınmış alimin Gündoğar ölkəyə zəngin səfər təəssüratlarına həsr olunmuşdur. Bu, Azərbaycan ədəbiyyatında Yaponiya haqqında ilk səfərnamədir. Bundan əvvəl 2007-ci ildə Şahin Fazilin Yapon şeir ənənəsi üstündə köklənmiş «Azərbaycan haykıları» kitabı oxuculara çatdırılmışdır. Yapon ədəbiyyatına və Gündoğar ölkənin tarixinə, adət-ənənələrinə dair geniş elmi təsəvvürü olan Şahin Fazilin «Yaponiya səfərnaməsi» janr baxımından şeirlə nəsrin növbələşməsi əsasında yazılmış dastan təəəssüratı yaradır. Şahin Fazil 15 dekabr 2008-ci ildən 18 fevral 2009-cu ilədək Yaponiyanın Senday şəhərindəki Tohoku Universitetində Azərbaycan tarixinə dair mühazirələr oxumuş, ölkənin müxtəlif şəhərlərində görüşlərdə olmuş, zəngin təəssüratlar yaşamışdır. «Yaponiya səfərnaməsi» Gündoğar ölkəyə həsr olunmuş qiymətli mənbədir. Kitabda Yaponiya haqqında şeirlər də öz əksini tapmışdır. «Gündoğar ölkə» şeirində Yaponiya günəşin övladı kimi dünyaya gələn işıqlı ölkə kimi tərənnüm olunmuşdur. «Yaponlar» rədifli qəzəlində «Aləmlə girib bəhsə fərasətli yaponlar, Heyrətdə qoyur aləmi heyrətli yaponlar» kimi misralarda Yapon xalqı özünəməxsusluğu məharətlə vəsf edilmişdir. «Samuraylar» qəzəlində isə Şahin Fazil yapon xalqının milli-mənəvi dəyərlərini şeirlə canlandırmışdır:

*Mərd adlarını tarixə salmış samuraylar,*
*Bir çox xəzərin üstünü almış samuraylar.*
*…Onlarda «Busido» deyilən ruh yaşamaqda,*
*Ruh ilə coşub ərşə ucalmış samuraylar.*

*...Hifz eyləyərək «mərd», «igid» ismini, Şahin,*
*Tarix kitabında belə qalmış samuraylar.*[1]

Şahin Fazilin «Yaponiya səfərnaməsi» əsəri Azərbaycan xalqının Gündoğar ölkəyə hörmət və ehtiramının ifadəsidir.

Artıq Azərbaycanda Yapon ədəbiyyatının tədqiqi sahəsində də addımlar atılmaqdadır. Bu barədə ilkin araşdırmalara dair məqalələrlə yanaşı, geniş həcmə malik elmi əsərlər də nəşr olunaraq ictimaiyyətə çatdırılıb. Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Xumar Məmmədovanın «Yapon ədəbiyyatının inkişaf yolu» kitabı bu istiqamətdə meydana çıxmış birinci monoqrafik əsərdir. Kitabda Yapon ədəbiyyatının qədim dövrdən müasir mərhələyə qədərki inkişaf yolu bu ədəbiyyatın görkəmli yaradıcılarının xidmətləri geniş təhlil olunmuşdur. Xumar Məmmədovanın kitabı Yapon ədəbiyyatını öyrənənlər üçün əhəmiyyətli bir bələdçidir.[2]

Beləliklə, Azərbaycan-Yaponiya ədəbi əlaqələri ölkənin genişlənən əlaqələri ilə birlikdə inkişaf edir. Göründüyü kimi, Azərbaycan-Yaponiya ədəbi əlaqələri geniş imkanlara malik olan əhəmiyyətli bir problemdir. Fikrimizcə, bu mövzuda müstəqil bir elmi-tədqiqat işi yazmaq mümkündür. Azərbaycan ədəbiyyatında Yaponiya mövzusu ilə yanaşı, yapon bədii fikrində Azərbaycan mövzusuna müraciət məsələsi də araşdırılıb öyrənilməlidir. Yapon ədəbiyyatından Azərbaycan dilinə, yaxud əksinə, Azərbaycan ədəbiyyatından yapon dilinə edilmiş tərcümə əsərləri

---

[1] Şahin Fazil, Yaponiya səyahətnaməsi. Bakı, Elm və təhsil», 2001.səh.184

[2] Bax: Xumar Məmmədova. Yapon ədəbiyyatının inkişaf yolu. Naxçıvan, «Əcəmi», 2014

də ölkələrarası ədəbi əlaqələrin xüsusi bir istiqaməti kimi mühüm əhəmiyyətə malikdir.

Bütövlükdə Azərbaycan-Yaponiya əlaqələri cəmiyyət həyatının bütün sahələrini əhatə edən və daim inkişafda olan real bir prosesə çevrilmişdir. Bu əlaqələr yeni epoxada hər iki ölkə üçün, geniş mənada, beynəlxalq aləm üçün faydalı olan əhəmiyyətli hadisədir.

## ƏSAS MƏNBƏLƏR


1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yaponiyaya səfəri. «Azərbaycan» qəzeti, 27 fevral 1998-ci il
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yaponiyaya səfəri. «Azərbaycan» qəzeti, 8 mart 2006-cı il
3. Abbasbəyli Ağalar. Dünya siyasəti. Bakı, "Nurlar", 2011
4. Abbasov C.M. Azərbaycanın dünya inteqrasiya yolları. Bakı, «Elm», 2014
5. Arif Abdullazadə. Od nə çəkdi. Bakı, «Azərnəşr», 1960
6. Budaq Budaqov. Nəbi Xəzri kəhkəşanı. Bakı, «Lider», 2004
7. Fikrət Qoca. Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb», 2004
8. Əli Kərim. Seçilmiş əsərləri. Bakı, «Lider», 2004
9. Kaori Shoji. Tokio görüntüləri (ingilis dilində). Yaponiya, Tokio. 2007

10. Məmmədova Xumar. Yapon ədəbiyyatının inkişaf yolu. Naxçıvan, «Əcəmi», 2014
11. Mehriban Sultan. Yaponiya səfəri maraqlı görüşlərlə zəngin olub. "Azərbaycan müəllimi" qəzeti, 28 may, 2012-ci il
12. Nəbi Xəzri. Son illərin sətirləri. Bakı, «Gənclik», 1975
13. Rəsul Rza. Seçilmiş əsərləri. 5 cilddə, I cild. Bakı, «Azərnəşr», 2002
14. Şahin Fazil. Azərbaycan haykulları. Bakı, «Təknur», 2007
15. Şahin Fazil. Yaponiya səfərnaməsi. Bakı, «Elm və təhsil», 2011
16. Тахир Салахов (альбом). Москва, «Совесткий художник», 1986
17. Талыбов Рза. Японо-Азербайджанское сотрудничество на современном этапе. Баку, 2005
18. Talıbov Rza. Azərbaycan-Yapon əməkdaşlığı. Bakı, «Elm və təhsil», 2009
19. Тураев Б.А. Глобальные вызовы человечества. Москва, 2002

# 3. KOREYA RESPUBLİKASI DÜNYA SİYASƏTİNDƏ

## 3.1. Müasir beynəlxalq münasibətlər və Koreya Respublikası

Məlum olduğu kimi, bütünlükdə dünyada baş verən hadisələrin mahiyyət və məzmunu etibarilə XX əsr zəngin bir dövrdür. Bir yüzillikdə iki dünya müharibəsi bəşəriyyətin inkişaf tarixində yalnız XX əsrdə baş vermişdir. Planetin axırıncı, ən böyük imperiyası olan nəhəng Sovetlər İttifaqı adlanan imperiyanın dağılması və yeni müstəqil dövlətlərin yaranması XX əsrin mühüm tarixi hadisəsidir. Yüksək texnologiyaların inkişafı, qloballaşma proseslərinin başlanması və dünyada yenidən qütbləşmə proseslərinin getməsi də bu əsrdə meydana çıxmış hadisələrdir. Aparılmış hesablamalara görə, XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində dünyada ümumilikdə 1000-ə yaxın böyük və kiçik müharibə olmuşdur. Ciddi insan tələfatına səbəb olan, böyük dağıntılar yaratmış Koreya və Vyetnam müharibələri, İran-İraq, Sovet-Əfqanıstan, Amerika-Əfqanıstan, İraq-Amerika, İsrail-Fələstin müharibələrinin dünyanı lərzəyə salan nəticələri, Misir Ərəb Respublikasında, Suriyada baş verən hərbi-siyasi proseslər dünya tarixində nadir hadisələr sayıla bilər. XX əsrin axırları, XXI əsrin əvvəllərində bütün bu hadisələr qloballaşan dünyanın məzmununa uyğun olaraq dünya siyasətini yenidən şəkilləndirdi. Siyasi-iqtisadi, sosial-mədəni və ya digər istiqamətlərdə inkişaf və geriləmə kimi qabarıq çəkilən proseslər beynəlxalq aləmdə dünya ölkələ-

rinin yerini və mövqeyini xeyli dərəcədə dəyişmiş oldu. Belə dövlətlərdən biri Koreya Respublikasıdır.

Koreya Respublikasının dünya siyasətində yerinin və mövqeyinin müəyyənləşməsi bu ölkənin beynəlxalq təşkilatlarda təmsil olunması XX əsrdə baş vermiş müxtəlif tarixi proseslərlə və iqtisadi islahatlarla bağlıdır. Qısa vaxtda dərin iqtisadi böhrandan böyük inkişafa doğru addımlayan Koreya Respublikası artıq müasir dünyada əsas güc mərkəzlərindən biri kimi qəbul olunur. Lakin XX əsr ərzində Koreya Respublikası dərin hərbi-siyasi böhranlar yaşamış, müharibə ilə üzləşmiş, tarixin çətin sınaqlarından keçməli olmuşdur. Nəhayət, 1954-cü ildə sona çatan müharibə nəticəsində ölkə iki hissəyə parçalanmışdır. Koreya Respublikası və Koreya Xalq Demokratik Respublikası kimi tanınan ölkələr artıq 60 ildən çoxdur ki, müstəqil və fərqli dövlətlər kimi fəaliyyətlərini davam etdirirlər. Koreya Respublikası həm Cənubi Koreya, Koreya Xalq Demokratik Respublikası isə həm də Şimali Koreya adlanır. Bu gün dünyada inkişaf etmiş dövlətlərdən biri olan Cənubi Koreyanın yeri və mövqeyi, siyasi maraqları məhz bu ölkənin inkişaf etmiş iqtisadiyyatı ilə bağlıdır. Yaxın keçmişdə digər dünya ölkələrindən yardımlar almaqla yaşayan Koreya Respublikası indi donor dövlət olaraq qrantlar ayırır. Ölkənin sürətli iqtisadi inkişafı xalqın güclü iradəsi və çalışqanlığı ilə əlaqədardır. Tarix baxımından çox da böyük olmayan zaman ərzində Koreya Respublikası müharibədən xilas olunmuş, siyasi böhrandan çıxmış, inkişaf etməkdə olan ölkədən inkişaf etmiş dövlət səviyyəsinə gəlib çatmışdır. Hazırda Koreya Respublikası dünyanın ən güclü 20 dövləti sırasında xüsusi yer tutur.

Qeyd etmək lazımdır ki, XX əsrin səksəninci illərindən etibarən siyasi-iqtisadi liberalizm ideologiyası dünya iqtisadiyyatının inkişafına gətirib çıxardı. Bu tərəqqi, irəliləyiş bir çox ölkələrin, Cənub-Şərqi Asiya regionu dövlətlərinin, xüsusilə Cənubi Koreyanın iqtisadiyyatına güclü təsir etdi və qısa müddətdə həyata keçirilmiş məqsədyönlü iqtisadi islahatlar nəticəsində dünya ölkələri içərisində Koreya Respublikası xüsusi yer qazana bildi. Hazırda Koreya Respublikasının sahəsi 99.6 min $km^2$, əhalisi isə 48 milyon nəfərdən ibarətdir. 2013-cü ilin göstəricilərinə görə, ümumi daxili məhsulun artım sürəti 7 faizdir. Koreya Respublikası iqtisadi inkişafına görə nəinki Asiya qitəsində, hətta Avropada bir çox ölkələri ötüb keçmişdir. Dünyanın yeni texnologiyalar və avtomobil bazarında Koreya Respublikası Çin, Yaponiya, Almaniya və s. kimi ölkələrlə rəqabət aparır. Cənubi Koreya dünyanın ən inkişaf etmiş, ixrac imkanları olan ölkələrindən biri hesab olunur. Koreya Respublikası 17 sentyabr 1991-ci il tarixdən Birləşmiş Millətlər Təşkilatının üzvüdür.

XX əsrin səksəninci illərindən başlayaraq Cənubi Koreya iqtisadiyyatı xarici investisiyaların idxalı ilə yanaşı, həm də xaricdən müasir texnologiyaların cəlb edilməsilə istiqamətləndirilirdi. Belə ki, 1962-1982-ci illərdə Cənubi Koreya inkişaf etmiş kapitalist ölkələrindən yeni texniki avadanlıqların alınması barədə ümumi məbləği 681 milyon dollar həcmində olan müqavilə bağlamışdı. Bu, həmin dövr ərzində birbaşa investisiyaların ümumi məbləğinin 47,7 faizinə bərabər idi.[1]

[1] Ziyad Səmədzadə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, 2009, səh.72.

Dünya iqtisadiyyatının qlobal inkişafı nəticəsində XX əsrin sonlarına doğru yeni sənaye ölkələri (YSÖ) yarandı. Bu zaman Koreya Respublikası Cənub-Şərqi Asiya regionunda inkişaf etmiş yeni sənaye ölkəsi kimi meydana çıxdı və böyük sürətlə inkişaf edərək dünyanın lider dövlətləri ilə rəqabətə girəcək qədər mühüm nəticələr əldə etdi, dünya siyasi meydanında yer aldı. Artıq haqlı olaraq Koreya Respublikasının adı Yeni Sənaye Ölkələri içərisində inkişaf etməkdə olan deyil, inkişaf etmiş ölkələrin siyahısına daxil edilmişdir. Dünya iqtisadçılarının inkişaf sürətinə görə qruplaşdırdığı Yeni Sənaye Ölkələri içərisində I qrupa Tayvan, Sinqapur , həmçinin Latın Amerikası ölkələri – Argentina, Braziliya və Meksika ilə bərabər, ilk olaraq Cənubi Koreya daxil edilir. Dünya iqtisadçıları son 3 əsrin müxtəlif dövrlərində inkişaf edən ölkələrin iqtisadi inkişaf sürəti ilə müqayisələr apararaq belə nəticəyə gəlmişlər ki, XVII əsrin 80-ci illərində Britaniyanın ümumi istehsal artımı 60 ilə, XX əsrin 80-ci illərində Yaponiyada bu proses 34 ilə başa çatmışdır. Cənubi Koreyada isə yüksək inkişaf üçün sərf olunan tarix cəmisi 11 ildir. Bu və digər faktlara əsasən, Koreya Respublikası dünya iqtisadiyyatını stimullaşdıran donor ölkəyə çevrilmişdir.

Mütəxəssislər Asiyanın "kiçik əjdahaları"ndan olan Koreya Respublikasının iqtisadi inkişafını şərtləndirən mühüm amil kimi ilk növbədə dövlət siyasətini, yəni iqtisadi inkişafda xüsusilə maraqlı olan dövlət ideologiyasını mühüm şərt kimi göstərirlər. Digər amillər isə səmərəli siyasi seçim, mədəniyyət və təhsilin inkişafı, elm və texnikanın vəhdət təşkil etməsi, habelə ixtisaslaşmış beynəlxalq sənaye ilə əlaqədardır. Xarici texnologiyaların alınmasına

sənayeləşmə proqramından başlayan Koreya Respublikası yüksək texnologiyalı avadanlıqların ölkəyə gətirilməsi, ixtisaslaşmış kadrların yetişdirilməsi nəticəsində iqtisadi dirçəlişə nail oldu. Bu isə öz növbəsində qısa müddətdən sonra ölkə daxilində yüksək texnologiyalı məhsulların istehsal edilməsinə, yeni sənaye sahələrinin yaradılmasına gətirib çıxartdı. Böyük iqtisadi sıçrayış nəticəsində Koreya Respublikasında atom energetikası yarandı. Hazırda ölkədə istehsal olunan elektrik enerjisinin 54 faizini verən 10 nəhəng atom enerjisi stansiyası fəaliyyət göstərir.

Koreya Respublikasında elm və texnika inkişaf etmiş olsa da, insan amili öndə gəlir. Çünki iqtisadi inkişaf mexanizmini işə salan, hərəkət etdirən insandır. Bunun üçün ölkədə təhsilin təşkilinə çox böyük məsuliyyətlə yanaşılır, bütün pillələr üzrə yüksək səviyyədə təhsilin həyata keçirilməsi üçün hər bir şərait yaradılır. Buna görədir ki, "Koreyada lisey məzunlarının 84 faizi universitetə qəbul olunur. 50 milyona yaxın əhalisi olan ölkədə universitetlərin sayı 408-dir. Koreya Respublikası universitetə daxilolma nisbətlərinə görə ABŞ, Yaponiya, Fransa və Almaniya kimi ölkələrlə müqayisə oluna bilər. Universitet məzunlarının 40 faizi elm sahəsində çalışır. Ölkədə Ümumi Daxili Məhsulun 3,7 faizi elmi araşdırmalara ayrılır".[1]

Koreya Respublikasında icbari təhsil siyasətinin həyata keçirilməsi və təhsildə tam dövlət təminatının müəyyən olunması ölkənin ümumi inkişafını təmin edən savadlı təbəqənin formalaşmasında mühüm əhəmiyyət təşkil edir. Bundan başqa, təhsil sistemində ixtisaslaşmaya və fasiləsiz təhsilə üstünlük verilməsi də yüksək ixtisaslı mütəxəs-

[1] Səfalətdən zirvəyə - Cənubi Koreya, 2010;http://sia.az/az/news/interesting/67895.

sislərin hazırlanmasında mühüm rol oynayır. Qeyd olunduğu kimi, «Koreyada uşaqlar 3 yaşından məktəbəqədər təhsilə cəlb olunur. 6 yaşı (istisna hallarda 5 yaşı) tamam olmuş uşaqlar pulsuz və icbari ibtidai təhsil məktəblərinə qəbul oluna bilirlər. İbtidai təhsil 6 il davam edir. Daha sonra heç bir məhdudiyyət qoyulmadan şagirdlərə 3 illik əsas məktəblərdə oxumaq imkanı verilir. Əsas təhsil pilləsini bitirənlər orta təhsil almaq hüququna malikdirlər. Orta məktəblər 3 illik ümumi orta, peşə və ixtisaslaşmış məktəblərə (xarici dil, incəsənət, təbiət təmayüllü) bölünür".[1] Ölkənin müasir təhsil sisteminin əsasları XX əsrin müharibələrindən çıxmış koreyalıların təhsildə yaratdığı inkişaf proqramının davamıdır. Mütəxəssislər qeyd edirlər ki, Cənubi Koreyada elm və texnikanın əsas bazası hesab olunan təhsilə, xüsusilə orta təhsilin inkişafına maraq müharibədən sonra yaranmışdır. Çünki Koreya xalqı müharibə çətinliklərini yaşayarkən ölkənin həyatında təhsilin, elm və texnikanın, güclü iqtisadiyyatın həyat və mücadilə üçün nə qədər zəruri olduğunu dərindən anlamışdır. Ona görə də ölkənin təhsil sistemində konstitusiyaya görə hökumət həyat boyu təhsilin təmin olunmasına məsuliyyəti öz öhdəsinə götürmüşdür. Təhsilə dövlət marağının, qayğısının nəticəsi olaraq dövlət büdcəsindən bu sahəyə ayırmaların həcmi hər il artır. Bu da paralel olaraq ölkəni inkişaf etdirir, dünyada inkişaf etmiş ölkələr sırasında bu dövlətin yerini müəyyənləşdirir. Bundan başqa ölkədə təhsilin bütün pillələrində özəl sektora da şərait yaradılır. Hazırda Koreya Respublikasında özəl təhsilin böyük şəbəkəsi mövcuddur. Dövlət icbari təhsili ilə özəl

[1] Bax: Koreya Respublikasının təhsil sistemi, "Azərbaycan müəllimi" qəzeti, yanvar, 2014.

təhsil sektorunun rəqabəti ölkənin təhsil səviyyəsinin inkişafına müsbət təsir göstərir. Koreya Respublikasında özəl təhsilə, xüsusən də məktəbəqədər təhsil sahəsində özəl sektorun inkişafına dövlət dəstəyi həyata keçirilir. Bütün bunlar Koreya Respublikasında müasir inkişaf səviyyəsinə nail olunmasında əsas faktordur.

Koreya Respublikasında mövcud olan iqtisadi inkişaf öz növbəsində digər sahələrin inkişafına ciddi təsir göstərir. Təbii olaraq iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə olduğu kimi Koreya Respublikasında da əhalinin rifah halının yüksəlməsi ölkənin hərtərəfli inkişafına gətirib çıxarmışdır. Məsələn, ölkənin adambaşına düşən illik gəliri keçən əsrin 60-cı illərinin əvvəllərində 80 ABŞ dolları idisə, 2005-ci ilin məlumatına görə isə bu rəqəm 1500 ABŞ dolları səviyyəsinə çatmışdır. Beləliklə, Koreya Respublikası dünya siyasətində özünəməxsus yeri olan ölkə kimi beynəlxalq aləmdə maraqlı və əhəmiyyətli bir regiona çevrilmişdir. İqtisadiyyatda liberalizm siyasətinin həyata keçirilməsi, təhsilə məsuliyyətli münasibət və sənayeləşmənin inkişaf etdirilməsi Koreya Respublikasının müasir səviyyəyə gəlib çatmasında mühüm rol oynamışdır.

Məlum olduğu kimi, XX əsrin yetmişinci illərindən başlayaraq dünya iqtisadiyyatına liderlik edən Amerika Birləşmiş Ştatları, Avropa İttifaqı, Çin və Yaponiya elm tutumlu məhsulların istehsalı ilə yanaşı, ixracı ilə da məşğul olurlar. Bu ölkələrlə bərabər, elm və texnologiya tutumlu iqtisadiyyatının inkişafı ilə seçilən, xüsusilə, elektron texnikası istehsalı ilə məşğul olan Cənub-Şərqi Asiya regionunun yeni sənaye ölkələri içərisində Koreya Respublikası da xüsusi yer tutur. Bu sıraya sonralar qoşulmuş Sinqa-

pur və Malayziya ilə müqayisədə də Koreya Respublikası bir çox sahələrdə üstünlüyü qoruyub saxlamağa çalışır. Bu məqamda ən mühüm faktorlardan biri əlverişli təşkil olunmuş xarici əlaqələrdən ibarətdir. Hesablamalara görə, Koreya Respublikasında ölkə büdcəsinə daxil olan gəlirin böyük hissəsini xarici bazarlardan gələn gəlirlər təşkil edir. Hətta, Koreya Respublikası dünya iqtisadiyyatının lider ölkələri olan, ABŞ-ın və Avropanın öndə olan şirkətləri ilə rəqabətə girən inkişaf etmiş istehsala malikdir.

Koreya Respublikası XX əsrin sonlarına doğru əldə etdiyi böyük inkişafa, dünyada nüfuzunun yüksəlməsinə gəlib çatana qədər bir çox çətin və mürəkkəb tarixi prosesləri, müharibələri, müstəmləkə həyatını yaşamışdır. Belə ki, 1910-cu ildə Yaponiya tərəfindən işğal edilən Koreya bu vəziyyətdən yalnız II Dünya müharibəsində Yaponiyanın məğlub olması ilə çıxa bilmişdir. Ölkədə 1945-ci ildə müstəmləkə zülmü başa çatsa da, hər hansı bir müharibədən çıxan ölkə kimi Cənubi Koreyanın da daxili potensialını bərpa etməsi prosesi illərlə davam etmişdir. Koreya Respublikasının həyatında müharibədən sonrakı dövr, hər şeydən əvvəl, xaos dövrü kimi yadda qalmışdır. Bundan başqa, Koreya II Dünya müharibəsindən sonra Şimal və Cənub olaraq iki yerə bölünmüşdür. Yeni müharibə dalğası 1950-ci il iyunun 25-də başlamış və 1953-cü il iyulun 27-dək davam etmişdir. II Dünya müharibəsindən sonra başlayan "soyuq müharibə"də isə Şimali Koreya keçmiş SSRİ-yə, Cənubi Koreya isə Qərb blokuna yaxınlaşmışdır. Yeni müharibə şəraitində Şimali Koreyanın Cənubi Koreyaya hücumu 3 il davam etmişdir. Bu da hər iki ölkənin hərtərəfli inkişafına mane olmuş, nəticə etibarilə

siyasi və iqtisadi böhrana gətirib çıxarmışdır. Xaos dövrü Cənubi Koreya üçün daha çətin keçmişdir. Çünki müharibədən sonra Cənubi Koreya təklənmiş, iqtisadi böhran həddi çox dərinləşmişdir. Bundan sonra, ölkədə 1961-ci ilə qədər davam edən iqtisadi bərpa prosesində Şərqi Asiya tipli inkişaf modeli deyil, Vyetnam müharibəsində ABŞ ordusuna verilən dəstəyin qarşılığı olaraq alınan yardımlar və Yaponiyanın ödədiyi müharibə təzminatları ilə ötüşmək kimi dözümlü bir proses yaşanmışdır.

Koreya Respublikasının tamamilə dağıdılmış iqtisadiyyatının bərpası prosesində dövlət siyasəti, kadr dəyişikliyi xüsusi əhəmiyyətə malikdir. Ölkədə 1961-ci ildə hərbi çevriliş nəticəsində dövlət başçısı dəyişmiş, idarəçiliyi ələ alan Park Çung Hi ölkənin iqtisadi inkişafı üçün bütün lazımi qüvvələri, inkişaf mexanizmlərini səfərbər etmiş və Koreya Respublikasının qarşıdakı 5 il ərzində reallaşacaq "inkişaf proqramı" hazırlanmışdır. Bu proqrama görə, ölkədə yoxsulluğun ləğv edilməsi, milliləşmə siyasətinin aparılması nəzərdə tutulmuşdu. Nəticə olaraq Park Çung Hinin siyasi hakimiyyəti dövründə Koreya Respublikasının bankları milliləşmiş, investisiya dövriyyəsi artmış, şirkətlərin fəaliyyətinə təkan olaraq verilən kreditlər genişlənmiş, iqtisadiyyatda zəruri struktur islahatları aparılmışdır. Park Çung Hinin ölkəni böhran vəziyyətindən xilas edərək iqtisadi inkişafa nail olmaq istəyi Cənubi Koreya tarixində 3 beşillik (15 illik) inkişaf proqramı əsasında reallaşmışdır. Ayrı-ayrı sənaye strukturlarının inkişafına yönəlmiş inkişaf proqramlarının üçüncüsü ağır sənayenin, eləcə də kimya sənayesinin inkişaf etdirilməsi ilə nəticələnmişdir. Bu proses əsasən 1972-1976-cı illəri əhatə

etmişdir. Həmin proqramlar ölkənin gələcək inkişafında mühüm rol oynamışdır.

Cənubi Koreyanın XX əsrin ikinci yarısında reallaşan inkişaf proqramının mühüm nəticəsi hesab edilən "Posco" şirkəti dünyanın 30 nəhəng ağır sənaye şirkətindən biridir. 2011-ci ilin statistik məlumatlarına görə, dünyada ağır sənayenin qara metallurgiya sahəsi üzrə 1,49 milyard ton polad istehsal olunmuşdur ki, onun da əsas hissəsi Asiyanın payına düşür. Asiyada həmin işi əsasən "Posco" şirkəti həyata keçirmişdir. Statistik məlumatlardan aydın olur ki, 1968-ci ildə Tae Jon Park tərəfindən qurulan "Posco" polad şirkəti bu gün dünyanın ən böyük polad nəhəngləri arasındadır. Hazırda şirkətin 37 milyard dollarlıq sərmayəsi vardır. Dünyanın müxtəlif ölkələrində 36 istehsal müəssisəsi olan "Posco"da 18 min nəfərə yaxın işçi çalışır. Şirkətin 22 ölkədə ümumilikdə 42 polad xidmət mərkəzi fəaliyyət göstərir.[1]

Keçən əsrin 60-cı illərində iqtisadi inkişaf baxımından geridə qalmış ölkə hesab olunan Koreya Respublikasının inkişaf strategiyasının digər istiqamətini avtomobil bölməsi təşkil edir. Bu sahədə Koreya Respublikasının ən böyük şirkəti istehsalı ilə bütün dünyanı əhatə edən böyük avtomobil firması "Hyundai"dır. Mütəxəssislərin fikrincə, ilk avtomobil istehsalında "Hyundai" firması Yaponiya texnologiyasından yararlanmış, onlardan alınmış avadanlıqların əsasında çalışmışdır. Lakin ölkədə gedən inkişaf mexanizminin milliləşmə prinsiplərinə əsasən koreyalılar yapon modelinə öz üslublarını əlavə etmiş, texniki məsələlərdə müəyyən dəyişikliklər yaratmışlar. Bunun

---
[1] Səfalətdən zirvəyə. http://sia.az/az/news/interesting/67895.

əsasında ölkənin iqtisadi inkişafında avtomobil sənayesi öz mövqeyini və sürətini saxlaya bilmişdir. “Hyundai” firması avtomobillə yanaşı gəmi istehsalı, polad, neft-kimya, maşın, elektronika, maliyyə sektoru kimi sahələrdə də uğurla fəaliyyət göstərir.

Koreya Respublikasının iqtisadi inkişafı 1997-ci ilə qədər yüksələn xətlə davam etmişdir. Lakin böyük iqtisadi potensiala malik ölkələrlə bərabər, Koreya Respublikası da XX əsrin axırlarında iqtisadi böhranla qarşılaşmışdır. Buna baxmayaraq, ölkə tez bir zamanda Beynəlxalq Valyuta Fondunun yardımı ilə Asiya maliyyə böhranından xilas olmuşdur. Hazırda Koreya Respublikasında yüngül və ağır sənayenin inkişafı üzrə xidmətli texnologiyalar, şirkətlər öz fəaliyyətlərini səmərəli şəkildə davam etdirirlər. Elektronika məhsulları istehsalının inkişafı və ixracı ölkənin iqtisadiyyatına böyük təkan verir. XX əsrin 70-80-ci illərində yaranan “Samsung”, “LG” firmaları müasir dövrdə də dünya bazarında xüsusi yeri olan istehsalçılardır. Koreya Respublikasının “Daewoo”, “Elektroniks”, “Samsung”, “LG” kimi firmaları bütün dünyada etibar qazanmış şirkətlərdir.

Bir çox Cənub-Şərqi Asiya regionu ölkələrində, o cümlədən Koreya Respublikası, Sinqapur, Malayziya, Yaponiya və Çinin iqtisadiyyatında informasiya texnologiyaları sektorunun inkişafı müstəsna üstünlüyə malikdir. Bu ölkələr prosessorlar, sərt disklər, ana platalar, fərdi kompüterlər, noutbuklar və sair kimi müxtəlif İKT məhsullarının istehsalı və ixracı sahəsində dünyada tanınırlar. Mikroelektronika və avtomatlaşdırma, biotexnologiya Koreya Respublikasının iqtisadi inkişafında yeni sahələr

kimi inkişaf etməkdədir. Müasir dövrdə Koreya Respublikası yeni informasiya texnologiyaları istehsalı sahəsində dünya bazarındakı böyük rəqabət mühitində mövqeyini qoruyub saxlaya bilir.

Bütün bunlar Koreya Respublikasını nəinki Asiyanın əsas inkişaf etmiş dövlətləri sırasına çıxarmış, hətta Avropada da qəbul edilən güclü dövlətlərdən biri səviyyəsinə çatdırmışdır. Bütün bunlar isə dünya siyasətində də Koreya Respublikasını söz sahiblərindən birinə çevirmişdir. Müasir dövrün beynəlxalq münasibətlərində Koreya Respublikasının özünəməxsus yeri və üstün mövqeyi vardır.

### 3.2. Koreya Respublikası beynəlxalq təşkilatlarda

XX əsrin sonlarına doğru xüsusilə elm və texnikanın, yeni sənaye sahələrinin inkişafında maraqlı olan ardıcıl və səmərəli iqtisadi siyasətin və ciddi islahatların nəticəsində dünya siyasətində Koreya Respublikasının mövqeyi artmış, beynəlxalq münasibətlərdə bu ölkənin yeri daha da möhkəmlənmişdir. Eyni zamanda, Koreya Respublikası qlobal masştabda beynəlxalq münasibətlər üçün maraqlı və əhəmiyyətli ərazi statusunu qazanmışdır. Belə ki, Amerika Birləşmiş Ştatlarının Uzaq Şərq siyasətində Cənubi Koreya zəruri yerlərdən birini tutmuşdur. Asiya regionunda möhkəmlənmək istiqamətində Şimali Koreya Çin Xalq Respublikası üçün, Cənubi Koreya isə Amerika Birləşmiş Ştatları üçün əsas dayaq nöqtələri, mühüm nüfuz dairələridir. Cənubi Koreyanın beynəlxalq təşkilatlarda təmsil olunması dünyada siyasi-iqtisadi münasibətlərin tənzimlənməsində və inkişafında böyük əhəmiyyətə malikdir. Asiya-Sakit okean regionunun iqtisadiyyatının

daha da müstəqilləşməsini təmin etmək üçün 1989-cu ildə yaradılan Asiya - Sakit Okean İqtisadi Əməkdaşlı-ğı – ASOİƏ təşkilatının (APEC – Asia-Pacific Economic Cooperations) – regionda və ümumiyyətlə dünyada iq-tisadi inkişafa dəstək vermək kimi böyük məqsədləri və məramları olan təşkilatın əsas üzvlərindən biri də Koreya Respublikasıdır. Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatında Koreya Respublikası xüsusi çəkiyə malikdir. Amerika Birləşmiş Ştatları da bu böyük təşkilatda Cənu-bi Koreyanın mövqeyinə tam dəstək verir. Buna görədir ki, Asiya – Sakit Okean Əməkdaşlıq Təşkilatı (ASOİƏT) ölkələrinin liderləri 2006-cı ildə Hanoyda keçirilən Sam-mitdə Şimali Koreyanın nüvə problemi əleyhinə birgə bə-yanat qəbul etmişlər. Bu bəyanat Koreya Xalq Demokratik Respublikası (KXDR) tərəfindən 2006-cı ilin iyul ayında gerçəkləşdirilmiş raket buraxılışları və həmin ilin oktyabr ayında həyata keçirilmiş yeraltı nüvə silahı sınağı ilə bağlı həyəcan xarakteri daşıyır. Nüvə problemi Koreya Respub-likasının özü üçün də təhlükə olduğundan, təbii olaraq müttəfiq ölkə olaraq Amerika Birləşmiş Ştatları ilə Cənu-bi Koreyanın maraqları və fəaliyyətləri birləşir. Dəfələrlə müzakirə obyektinə çevrilmiş bu məsələyə Cənubi Ko-reyanın münasibəti birmənalı olaraq dəyişmir. KXDR-in nüvə problemi ilə bağlı 6 tərəfli danışıqların bütün raund-larında ABŞ və onun bölgədə digər müttəfiqləri - Yaponiya və Koreya Respublikası Şimali Koreyanın mövqeyini qəti olaraq rədd etmişlər. Çin və Rusiyanın Şimali Pxenyan ilə birgə strategiya hazırlamaq səylərinin qarşısında həmişə Yaponiya ilə birlikdə Koreya Respublikası dayanmışdır. Cənub-Şərqi Asiya regionundakı müstəqil və sürətli inki-

şafa başlamış digər dövlətlər də bu cəhətdən Koreya Respublikası ilə həmrəylik nümayiş etdirirlər. Bundan başqa, Koreya Respublikası 1996-cı ildə iqtisadi əməkdaşlıq və inkişaf təşkilatına daxil olmağa müvəffəq olmuşdur. Son zamanlar ölkə beynəlxalq əməkdaşlığın inkişafına dəstək vermək məqsədilə inkişaf etməkdə olan ölkələrə «Koreya təşəbbüsü» adlanan yeni modeli tətbiq etməyi təklif edir. Bu model aşağıdakı amillərlə səciyyələnir: hökumət tərəfindən yürüdülən ictimai siyasət, İqtisadiyyat Planlaşdırma Şurası kimi pilot agentliklərin səmərəli rolu, ehtiyatların strateji bölüşdürülməsi, insan resurslarının inkişafı, mərkəzləşmiş tədqiqat və inkişaf sərmayəsi, güclü liderlik, xalqın modernləşdirmə və sənayeləşdirməyə qüvvətli meyli, zəngin millətin və qüdrətli ordunun yaradılması. Bu modelin ən üstün cəhəti isə onun ölkədə yoxsulluğun azaldılmasına və qısa müddət ərzində yüksək iqtisadi inkişafa mühüm töhfə verməsi ilə əlaqədardır.

Məlum olduğu kimi, Cənub-Şərqi Asiya regionunda indiki dövrdə ABŞ hərbi cəhətdən hegemon mövqeyə malikdir. Regionda Çinə müvafiq status-kvo verməmək, Rusiyanın Uzaq Şərqdə hərbi qüvvələrinin bərpasına imkan yaratmamaq məqsədilə ABŞ-ın Yaponiya və Koreya Respublikasını stimullaşdırmaq kimi maraqları vardır. Mütəxəssislər belə hesab edirlər ki, Cənubi Koreya Uzaq Şərqin geosiyasi mərkəzidir. Bu məqamda Amerika üçün Koreya Respublikası hətta Yaponiyadan da önəmlidir. Çünki hazırda Çin ilə böyük rəqabətdə inkişaf edən Yaponiya da Amerika Birləşmiş Ştatları baxımından nə zamansa regionda müəyyən təhlükəyə çevrilə bilər. Bu mənada Koreya Respublikasının Birləşmiş Ştatlarla sıx əlaqələri

Amerikaya Yaponiya üçün qalxan rolunu oynamağa və bunun vasitəsilə də Yaponiyanın Amerika qüvvələrinin orada iştirakı olmadan müstəqil və güclü, habelə hərbi cəhətdən üstün dövlətə çevrilməsinə yol verməməyə imkan yaradır. Koreya Respublikasının statusunda istər onun Şimali Koreya ilə birləşməsi ilə, istərsə də Çinin genişlənən təsir sahəsinə keçidi baxımından baş verən istənilən mühüm dəyişiklik mütləq olaraq Yaponiyanın rolunu da dəyişə bilər. Bu isə öz növbəsində ABŞ-ı Uzaq Şərq siyasətinə yenidən baxmağa məcbur edərdi. Bundan əlavə, Koreya Respublikasının artan iqtisadi gücü onu öz-özlüyündə daha da mühüm bir «məkan»a çevirir. Bu səbəbdən onun üzərində nəzarət və beynəlxalq münasibətlər baxımından mühüm əhəmiyyət daşıyır.[1]

Bununla belə, çinli tarixçi Lyu Tszaytsi ABŞ-Çin münasibətlərinin müəyyənləşməsində Koreya Respublikasının rolundan bəhs edərkən ABŞ və Çin arasında ziddiyyətlərlə yanaşı, onların ümumi maraqlarının da mövcudluğunu qeyd edir. O yazır: ABŞ-ın bir çox müttəfiqləri – Misir, Səudiyyə Ərəbistanı, Küveyt, Sinqapur, Yaponiya və Cənubi Koreya arasında həm dini, həm də mədəni fərqlər dərindir. Buna baxmayaraq, onlar Vaşinqtonla müttəfiqlik edirlər. Bu nöqteyi- nəzərdən Çin Amerikanın müttəfiqi statusuna malik ola bilər.

Belə olduğu halda yenə də regionda nəzarət imkanlarını qoruyub saxlamaq üçün ABŞ üçün Koreya Respublikası zəruri baza kimi gərəkli olacaqdır. Məsələnin bu cəhəti Amerika-Koreya Respublikası əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edir. Bununla birlikdə Koreya

[1] Bax: Ağalar Abbasbəyli. Dünya siyasəti. Bakı, 2009. səh.106

Respublikası Çin və Yaponiya ilə, digər Asiya ölkələri ilə iqtisadi əməkdaşlıq əlaqələrini genişləndirməkdə davam edir. Avropa ölkələrində də Koreya Respublikasına etimad çoxdur. Koreya məhsulları Avropa bazarlarında öz yerini qazanmışdır. Koreya Respublikası Sovetlər İttifaqı dağıldığından sonra yaranmış ölkələrlə də əlaqələrini genişləndirməkdə davam edir.

**3.3. Şimali Koreya dünya siyasətində**

İkinci Dünya müharibəsindən sonra Koreyanın parçalanması nəticəsində yaranmış Koreya Xalq Demokratik Respublikası dünyada nüvə silahlarına malik olan ölkələrdən biridir.

Dünyanın müasir mənzərəsində dövlətlərin hərbi rəqiblərlə münasibətində güclü olması üçün nüvə silahının təkmilləşdirilməsi dövrümüzün ən aktual problemi sayılır. Beynəlxalq münasibətlərdə, dövlətlərin xarici siyasətində gərginlik yaradan nüvə silahı problemi, nüvə texnologiyasının yayılması həyəcanı müasir dünyanı təhlükədə saxlayan böyük problem olaraq qalmaqdadır. Yer üzündə nüvə silahının yayılmaması üçün müxtəlif layihələr və proqramlar mövcuddur. Beynəlxalq Atom Enerjisi Agentliyi (MAOATE) dünyada nüvə proqramlarının tənzimlənməsinə nəzarət funksiyalarını həyata keçirir.

XXI əsrin əvvəllərində dünya siyasətində Koreya Xalq Demokratik Respublikası ballistik raketlərin qurulması ilə böyük ölkələrin siyasi baxış və müzakirələrinin diqqət mərkəzinə çevrildi. Beynəlxalq münasibətlər sistemində, eləcə də ABŞ və Rusiya, ÇXR kimi nəhəng ölkələrin münasibətlərində Şimali Koreya mühüm rol oynadı. Şi-

mali Koreyanın nüvə proqramı problemi ətrafında mübahisələr 2002-ci ildə Birləşmiş Ştatlarda bu ölkəni uranın zənginləşdirilməsi üzrə gizli proqramın həyata keçirilməsi və nüvə silahı hazırlanmasında günahlandırıldıqdan sonra başladı. O zaman ABŞ Prezidenti Corc Buş Şimali Koreyanı terrorçu ölkələr sırasına aid etmişdir. Bundan sonra 2002-ci ilin oktyabr ayında isə ABŞ Dövlət katibinin müavini Con Kerri KXDR-in artıq uranı zənginləşdirdiyini dünya ictimaiyyətinə çatdırmışdır. Az sonra Birləşmiş Ştatlar Şimali Koreyaya elektrik stansiyalarının fəaliyyəti üçün yanacaq göndərilməsini dayandırdı. Buna sərt cavab olaraq KXDR 2002-ci il dekabrın 12-də rəsmi şəkildə nüvə proqramının yeniləşdirilməsini elan edərək Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin müfəttişlərini ölkədən çıxarmışdır. Beləliklə, Şimali Koreya rəsmi sürətdə özünü atom-nüvə ölkəsi kimi bəyan etmişdir.

Məlum olduğu kimi, keçən əsrin 90-cı illərində SSRİ-nin dağılması və soyuq müharibənin başa çatması dünyada ABŞ-ı rəqibsiz hakimə çevirdi. Politoloqlar bu mərhələni ABŞ dövrü adlandırırlar. Lakin çox keçmədən Asiya ölkələrinin zərərli texnologiyalara marağının artması, o cümlədən, Koreya Xalq Demokratik Respublikası ilə yanaşı Çin və Hindistanın ballistik raketlər yaratmağa başlaması ABŞ-ı narahat etməyə başlanmışdır. Nəticədə Amerika dövləti raketlərə qarşı müdafiə sistemləri yaratmışdır. Qeyd etmək lazımdır ki, Şimali Koreya ABŞ ərazilərinə çata bilən raketlərə malikdir. Bu raketlər "Toxodon-3" sisteminə aid olan Havay adaları, Alyaska və Amerikanın Sakit okean sahilinin şimal hissələrindəki hədəfləri və Sakit okean hərbi-dəniz donanmasını məhv

etməyə qadirdir. Hətta açıq internet məlumatlarında bildirilir ki, Şimali Koreya ümumilikdə 800 ədəd ballistik, 1000 ədəd müxtəlif 1500 km-lik uçuş məsafəli raketlərə malikdir. Bu isə ABŞ-ın və böyük dövlətlərin narahatlığına səbəb olar. KXDR-in Çin və Rusiya ilə sıx əməkdaşlığını Birləşmiş Ştatlar təhlükəsizlik baxımından böyük problem kimi dəyərləndirir. Bu fakt bütövlükdə dünya ictimaiyyətini də narahat edir.

Hadisə və proseslərin gedişi göstərir ki, nüvə problemi ABŞ və ÇXR arasındakı münasibətlərdə nəzərə alınır. Bu münasibətlərin mərkəzində Şimali Koreyanın nüvə problemi əsas götürülür. Həmin istiqamətdə proseslərin tənzimlənməsi baxımından Şimali Koreyanın nüvə silahından imtina etdirilməsi və sabitləşmənin əsas amil kimi nəzərə alınması istiqamətində danışıqların aparılması zəruridir. Qeyd etmək lazımdır ki, 2005-ci ilin sentyabr ayında Rusiya, ABŞ, ÇXR, Yaponiya və Koreya Respublikasının dünyada təhlükəsizlik və inkişafın mühüm məsələlərini müzakirə etdikləri danışıqlarda birgə bəyannamənin qəbul edilməsi müsbət hadisə sayılmalıdır. Bu, nüvə silahlarına qarşı münasibətlərin tənzimlənməsində çoxtərəfli danışıqların başlanması baxımından mühüm hadisə idi. Çin iqtisadi inkişaf istiqamətində dünyada mühüm mövqeyə malik olsa da, Amerika Birləşmiş Ştatlarına rəqib sayılmır. Lakin Çinin beynəlxalq fəallığı, Afrika, Latın Amerikası və Yaxın Şərqdəki iqtisadi nüfuzu nəhəng ABŞ-ı narahat etməyə bilməz. Bu mənada nüvə silahlarının tənzimlənməsinə dair altıtərəfli danışıqlar ABŞ-ÇXR münasibətlərinin gərginləşməsinə səbəb olmuşdur. Belə ki, rəsmi Pekinin Şimali Koreyanın nüvə

problemi üzrə danışıqlarda sərt mövqe tutması və İrana qarşı sanksiyaları müdafiə etməməsi də ABŞ-ın hiddətinə səbəb olmuşdur. İkiyə bölünmüş Koreya Çin Xalq Respublikasının siyasi maraqlarında mühüm yer tutur. ABŞ və Yaponiyanın nüfuz dairəsinə çevrilmək təhlükəsindən çəkinən rəsmi Çin Şimali Koreyanın nüvə məsələsinə İranın nüvə probleminə baxdığı kimi münasibət bəsləmədi. ABŞ və ÇXR-in birgə fəaliyyət göstərdikləri regional problem Şimali Koreyanın nüvə proqramı ilə bağlı gərgin olsa da, müasir dövrdə parçalanmış Koreya Çinin siyasi maraqlarına cavab verir. Çin tərəfi Asiya-Sakit okean regionunda hərbi-siyasi tarazlıq, kütləvi qırğın silahları və raket texnologiyalarına nəzarət üçün ABŞ-ın yaratdığı raketlərə qarşı müdafiə sisteminə qarşı çıxır. ÇXR-in Şimali Koreyadakı rejimə tərəfdar olmasının digər bir səbəbi isə iki ölkə arasındakı ictimai-siyasi quruluşun oxşarlığıdır. Müvafiq olaraq, ABŞ-ın bu rejimə düşmən münasibətinin də əsasında onun nüvə proqramı ilə yanaşı, kommunist rejiminin mövcudluğu dayanır. Əlbəttə, ideoloji eynilik qabardılsa da, əslində Çin tərəfi bütün məsələləri öz milli təhlükəsizliyi baxımından qiymətləndirir və ona uyğun olaraq qərarlar qəbul edir. Çin Xalq Respublikası üçün Şimali Koreya faktoru Amerika-Cənubi Koreya münasibətlərinə cavab mənasını daşıyır.

Koreya Xalq Demokratik Respublikasının yeganə rəsmi müttəfiqi olan Çin 1997-ci ildən yarımadada gərginliyin azaldılmasına dair dördtərəfli görüşlərdə iştirak edir. Çin Xalq Respublikası 1993-cü ilin mart ayında Pxenyanın nüvə silahını yaymamaq haqqında müqavilədən çıxacağı ilə əlaqədar hədələr səsləndirdiyi zamandan bəri Şimali

Koreya tərəfindən yaradılan bütün böhranların tənzimlənməsində mühüm rol oynamışdır. Çin həmişə öz müttəfiqinə qarşı sanksiyaların tətbiqi əleyhinə çıxış etsə də, beynəlxalq ictimaiyyətin müraciətini bu ölkə rəhbərinə çatdırmaq vəzifəsini də həyata keçirmişdir.

Son dövrlərdə Barak Obama prezident seçildikdən sonra Şimali Koreyanın nüvə probleminə ABŞ-ın marağı azalmışdır. Lakin, ümumiyyətlə Şimali Koreya və onun nüvə problemi ABŞ-ın Şərqi Asiyadakı mövqeləri baxımından mühüm amil olaraq qalır. Nüvə probleminin həlli ABŞ-ın Şərqi Asiya marağına xidmət edir. Öz növbəsində Asiya ölkələri də qitədə təhlükəsizliyin təmin edilməsi üçün məsələnin müsbət həllində maraqlıdırlar.

Son dövrlərdə ABŞ və Şimali Koreya arasında ilkin tarixi razılaşma əldə edilmişdir. Razılaşmaya əsasən Şimali Koreya ölkəsinə ərzaq yardımları müqabilində nüvə proqramından və ballistik raketlərin sınaqlarından imtina edərək, qısa bir zamanda nüvəsizləşdirmə prosesinə başlamağa söz vermişdir. ABŞ isə bunun əvəzində Koreya Xalq Demokratik Respublikasına 240 min ton ərzaq yardımı göndərməyi öhdəsinə götürmüşdur. Bununla belə, yardımın ballistik raketlərə malik olan Şimali Koreya ordusuna getməməsi üçün ərzaq məhsullarının əhaliyə çatdırılması prosesinə nəzarət etmək şərti qoymuşdur. Ağ ev Şimali Koreyanın uzun illərdən sonra dinc yolla nüvə proqramından imtina etmək niyyətini bəyənərək, bunu "ilk müsbət addım" kimi qiymətləndirmişdir. Ağ Evin rəsmiləri yeni istiqamət almış uğurlu danışıqlar haqqında şərhlərini bölüşərkən Şimali Koreya rəhbərliyi ilə bağlanmış razılaşmaların alqışlandığını bildirsələr də, vədlərin

vaxtında reallaşdırılmasının vacib olduğunu vurğulayırlar. Bu isə iki ölkə arasında münasibətlərdə həllini gözləyən problemin hələ də qaldığını bir daha göstərir. Yaranmış şərait həmçinin regionda maraqları olan dövlətlər arasında kəskin rəqabətin olduğunu da özündə əks etdirir. Amerika-Şimali Koreya münasibətlərinin dəyişəcəyi halda Çinin və Yaponiyanın hansı mövqedə dayanacağı da düşündürücü sualdır. Eyni zamanda, Amerika-Şimali Koreya əlaqələrinin yaxınlaşması parçalanmış Koreyaların birləşdirilməsi prosesinin başlanmasına da ümidləri artırır. Bu mənada, Cənubi Koreya Respublikasının rəhbərlərinin 2015-ci il üçün yeni il təbrikində Şimali Koreyanı birləşdirmək üçün danışıqlara dəvət etməsi barədə çağırışları səsləndirməsinin təsadüfi olmayıb, bu region ətrafında gedən proseslərdən qaynaqlandığını ehtimal etməyə əsas verir.

### 3.4. Azərbaycan Respublikasının Koreya Respublikası ilə əlaqələri

Son yarım əsrdə milli gəlirləri 200 dəfə artan, adambaşına milli gəliri isə 20 min dollardan çox olan Koreya Respublikasının iqtisadi-siyasi, mədəni əlaqələrini inkişaf etdirdiyi ölkələrdən biri də Azərbaycan Respublikasıdır. İstər iqtisadiyyat, istərsə də mədəniyyət sahəsində əlaqələrin qurulmasında hər iki tərəf maraqlıdır. Çünki hər iki dövlət qloballaşan dünyanın inkişaf dinamikasına uyğun olaraq bəşər sivilizasiyasından geri qalmamaq üçün müstəqil dövlət strategiyasına malik olan ölkələrdir.

Araşdırmalar göstərir ki, 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından əvvəl Azərbaycan Respublikası ilə

Koreya Respublikası arasında əlaqələr mövcud olmamışdır. Rəsmi səfərlər, siyasi-iqtisadi və mədəni əməkdaşlıq yalnız ölkəmiz müstəqillik qazandıqdan sonra həyata keçirilmişdir. 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələr qurulduqdan sonra Azərbaycan-Koreya Respublikası münasibətləri inkişaf etməyə başlamışdır. 2006-cı və 2007-ci illərdə Koreya Respublikasının keçmiş prezidenti Roh Moo-Hyunun Azərbaycana və müvafiq olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Koreya Respublikasına rəsmi səfərlərindən sonra Azərbaycan və Koreya Respublikası arasında yüksək səviyyəli siyasi münasibətlərin, hərtərəfli əməkdaşlığın təməlləri qoyulmuş, iqtisadi əlaqələr sürətli inkişaf mərhələsinə çatdırılmış, mübadilə sahələri genişlənməyə başlamışdır. Qısa müddətdə ölkələr arasında əksəriyyəti iqtisadi sahəyə aid olan 50-yə yaxın sənəd imzalanmışdır. Bu sənədlər Azərbaycan ilə Koreya Respublikasının çoxşaxəli əməkdaşlığı üçün hüquqi baza yaratmışdır.[1] Bunun nəticəsi kimi 2006-cı ilin mart ayında Azərbaycan Respublikasında Koreya Respublikasının səfirliyinin və 2007-ci ilin mart ayında isə Koreya Respublikasında Azərbaycan Respublikasının səfirliyinin fəaliyyətə başlaması iki ölkə arasında münasibətlərin tarixində əhəmiyyətli hadisələrdir. Səfirliklərin açılmasından az müddət sonra ölkə başçılarının işgüzar səfərləri hər iki dövlət arasında əlaqələrin genişlənməsinə yeni imkanlar yaratmışdır.

Azərbaycan ilə Koreya Respublikası arasında qarşılıqlı layihələri sistemli şəkildə həyata keçirmək üçün işçi qrupları yaradılmış, iqtisadi əməkdaşlıq üzrə komissiya

---

[1] Rövşən Cəmşidov. Azərbaycan-Koreya arasında maraq doğuran layihələr. http://www.gun.az/interview/11754 -2011.

təşkil edilmişdir. "Azərbaycan Respublikası və Koreya Respublikası arasında münasibətlərin və əməkdaşlığın prinsipləri haqqında" 2006-cı il mayın 11-də Bakı şəhərində Birgə Bəyannamə imzalanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Koreya Respublikasının Prezidenti Roh Moo-Hyun qarşılıqlı maraq doğuran məsələlər haqqında geniş müzakirələr apararaq dostluq münasibətlərini gücləndirməyi və ölkələr arasında daha sıx əməkdaşlığı təşviq etməyi zəruri hesab edərək, yeni tarixi epoxada münasibətlərin və əməkdaşlığın prinsipləri haqqında aşağıdakıları bəyan etmişlər:

1. Azərbaycan Respublikası və Koreya Respublikası öz münasibətlərini daha yüksək səviyyəyə qaldırmaq və siyasi, iqtisadi, sosial, mədəni, elmi və texnoloji sahələrdə, həmçinin ümumi maraq doğuran digər bütün sahələrdə qarşılıqlı faydalı və möhkəm əməkdaşlığı inkişaf etdirmək niyyətindədirlər.

2. Hər iki dövlət hakimiyyətin bütün qanadları - icraedici, qanunverici və məhkəmə hakimiyyətləri arasında əlaqələri həvəsləndirəcəkdir. Onlar ümumi maraq doğuran məsələlərin müzakirəsi üçün öz dövlət başçıları, xarici işlər nazirləri və hökumətlərinin digər üzvləri və ya onların nümayəndələri arasında məsləhətləşmələri canlandıracaqlar. Bunununla əlaqədar hər iki tərəf zəruri olduqda, müvafiq dövlət qurumları arasında müxtəlif sahələrdə birgə komissiyalar yaradacaqdır".

Hazırda Azərbaycan və Koreya Respublikası arasında qarşılıqlı maraq doğuran çoxsaylı layihələr işlənib həyata keçirilir. İqtisadi əməkdaşlığın nümunəsi olaraq Bakı şəhərində Koreya Ticarətin və İnvestisiyaların Təşviqi

Agentliyi (KOTRA) və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) nümayəndəliklərindən əlavə, “SK C&C”, “ULTRA Construction”, “Samsung”, “Daewoo”, “KON”, “HEERİM” və “STX” kimi Koreya şirkətlərinin filialları da ölkənizdə fəaliyyət göstərir. Bunun nəticəsidir ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi ildən-ilə artmaqdadır. Müqayisə üçün, 2006-cı ildə ticarət dövriyyəsinin ümumi həcmi 115 milyon dollar təşkil etdiyi halda, sonrakı ildə bu rəqəm 216 milyon dollar səviyyəsinə qalxmışdır. Həmin göstərici 2009-cu ildə 273 milyon, 2010-cu ildə isə 375 milyon dollar olmuşdur. 2008-ci ildə isə Koreya Respublikası və Azərbaycan arasında ticarət dövriyyəsi özünün pik nöqtəsinə çataraq, 859 milyon dollar təşkil etmişdir.[1]

Tikinti və nəqliyyat sahəsində əməkdaşlıq, elektron hökumət layihəsinin işlənməsi, informasiya texnologiyaları mütəxəssislərinin hazırlanması, sürətli internet layihələrini əhatə edən informasiya texnologiyaları istiqaməti, kənd təsərrüfatı sahəsi ölkələr arasındakı iqtisadi münasibətlərin əsasını təşkil edir. “Koreyanın STX şirkəti Azərbaycanda Etanol zavodunun tikintisi barədə “AZMECO” şirkəti ilə 220 milyon ABŞ dolları dəyərində saziş imzalamışdır”. İmzanan sənədlərin reallaşdırılması münasibətlərin maddi təməllərini möhkəmləndirmişdir. Koreya Respublikasının Azərbaycandakı səfirliyi və Koreya Respublikasının Beynəlxalq Əməkdaşlıq Agentliyi Azərbaycanda Koreya layihələrinin miqyasının genişləndirilməsi üçün geniş iş aparır. Eyni zamanda, Azərbaycan Respublikasının Cənubi Koreyadakı səfirliyi də ölkələr arasındakı əlaqələrin

---

[1] Rövşən Cəmşidov. “Azərbaycan-Koreya arasında maraq doğuran layihələr”. 2011; http://www.gun.az/ interview/11754.

inkişaf etdirilməsi üçün ardıcıl olaraq müvafiq tədbirlər həyata keçirir.

Azərbaycan və Cənubi Koreya arasındakı əlaqələrdə təhsil və mədəniyyət sahəsindəki əməkdaşlıq geniş imkanlara malikdir. Hazırda ölkədə təhsil alan tələbələr də daxil olmaqla Koreya Respublikasında 90 nəfərə yaxın Azərbaycan vətəndaşı yaşayır. Azərbaycan dili, mədəniyyəti və tarixinin Koreyada öyrənilməsi, bu ölkədə Azərbaycan üzrə mütəxəssislərin hazırlanması məqsədilə 2008-ci ildən etibarən Koreya Xarici Dillər Universitetində Azərbaycan dilinin tədrisinə nail olunmuşdur. Bunun davamı olaraq 2009-cu ilin aprel ayında Koreyanın ən nüfuzlu tədris ocağı sayılan Seul Milli Universitetinin kitabxanasında Azərbaycan bölməsi yaradılmışdır. Təhsil əməkdaşlığının nəticəsi kimi Azərbaycan Dillər Universiteti və Koreya Xarici Dillər Universiteti, Bakı Dövlət Universiteti və Koreya Politexnik Universiteti, Naxçıvan Dövlət Universiteti ilə Kimçonq və Busan universitetləri, Azərbaycan Texniki Universiteti və Koreya Politexnik Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və Koreya Milli Rəssamlıq Universiteti arasında əməkdaşlıq sazişləri imzalanmışdır. Həmçinin Azərbaycan səfirliyinin təşəbbüsü ilə Koreyada yaşayan azərbaycanlı gənclərin təşkilatlanması, soydaşlarımız arasında milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi məqsədilə 2009-cu il 21 mart tarixində Seulda "Buta" Azərbaycan tələbə təşkilatı yaradılmışdır".[1] «Buta» Azərbaycan-Koreya Tələbə Təşkilatı Koreya Respublikasında Azərbaycanın diaspor fəaliyyətini təmin etmək istiqamətində səmərəli fəaliyyət

[1] Güclü Azərbaycan diasporu dövlətimizin maraqlarının həmin ölkələrdə təminatçısıdır, 2011;http:// old.yap. org.az/view.php?lang=az&menu=20&id=15995

göstərir. Bu ölkədə təhsil alan azərbaycanlı tələbələrin təşkilatlanması, onlar arasında əlaqələrin və həmrəyliyin daha da möhkəmləndirilməsi, Azərbaycan xalqının tarixi, müasir həyatı, sosial-iqtisadi inkişaf səviyyəsi, mədəniyyəti ilə bağlı məlumatların Koreya ictimaiyyətinə çatdırılması təşkilatın əsas fəaliyyət istiqamətləridir.

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin xətti ilə Azərbaycan Texniki Universitetində təhsil sahəsində yüksək texnologiyaların tətbiqi üzrə layihə həyata keçirilmişdir. Eyni zamanda, KOJKO 6 dekabr 2012-ci il tarixində Naxçıvan Dövlət Universiteti ilə tədris prosesinin və idarəetmənin modernləşdirilməsinə dair müqavilə imzalamışdır. Müqavilənin şərtlərinə uyğun olaraq Naxçıvan Dövlət Universitetində Koreya texnologiyası əsasında tədris laboratoriyaları və elektron idarəetmə sistemləri yaradılmışdır. Naxçıvan Dövlət Universitetinin əməkdaşları Koreya ali məktəblərində stajirovka keçmişlər. Bundan başqa, Naxçıvan Dövlət Universitetində 2011-ci ildən Koreya mədəniyyət mərkəzi fəaliyyət göstərir. Universitetdə təşkil edilən təlim kurslarında Koreya dili öyrədilir. Eyni zamanda, Naxçıvan Dövlət Universitetinin ərazisində Koreya Dostluq parkı yaradılmışdır.

Koreya Respublikası ilə Azərbaycan arasında qurulan mədəni əlaqələr çərçivəsində Koreyanın mədəniyyətini, tarixi inkişaf yolunu, milli adət-ənənələrini, təcrübəsini öyrənmək məqsədilə Koreya Beynəlxalq Əməkdaşlıq Təşkilatı (KOICA) Azərbaycan jurnalistlərindən ibarət nümayəndə heyətini "Azərbaycanlı jurnalistlər üçün Koreyanın inkişaf təcrübəsinin öyrənilməsi" adlı proqram əsasında əməkdaşlığa cəlb etmişdir. Ölkənin həyatını və

inkişaf təcrübəsini xarici jurnalistlərlə bölüşmək məqsədilə Cənubi Koreyada seminar və konfranslarda iştirak edən Azərbaycan nümayəndə heyəti səfər müddətində ölkənin tarixi, mədəniyyəti ilə yaxından tanış olmaq üçün muzeylərdə, digər milli, tarixi, mədəni müəssisələrdə olmuşlar. Bu səfər mədəniyyət və informasiya sahələrində mübadiləyə və qarşılıqlı anlaşmaya da xidmət etmişdir.

Sürətlə inkişaf edən Azərbaycan-Koreya Respublikası iqtisadi əməkdaşlığının nəticəsi olaraq Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) Cənubi Koreyanın paytaxtı Seul şəhərində yerləşən və dəyəri 447 milyon ABŞ dolları təşkil edən «Payn Avenyu A qülləsi» ofis kompleksini satın almışdır. Moskva, London, Paris kimi şəhərlərdə investisiya imkanlarını inkişaf etdirən ARDNF Asiyanın ən böyük paytaxt şəhərləri içərisində Seulu seçməsində Koreya Respublikasının daşınmaz əmlak bazarına etimadın göstəricisidir. Qeyd etmək lazımdır ki, Seulda əldə edilmiş daşınmaz əmlak kompleksi Neft Fondu tərəfindən Asiya və Sakit Okean hövzəsində həyata keçirilən bu tipli ilk böyük həcmli investisiyadır. Seul Asiyada uzun müddət ərzində ofis sektorunda davamlı mənfəətliliyi ilə seçilən ən cəlbedici investisiya regionlarından biridir. Bu, ölkənin güclü inkişaf etmiş daxili iqtisadiyyatına və yüksək kapitala malik maliyyə sektorunun mövcudluğuna əsaslanır.»Payn Avenyu A qülləsi» Seulun biznes mərkəzində - aparıcı Koreya və beynəlxalq təşkilatların ofislərinin cəmləşdiyi ərazidə yerləşən ən cəlbedici investisiya aktivlərindən biri kimi səmərəli fəaliyyət göstərir.

Göründüyü kimi, Azərbaycan-Cənubi Koreya münasibətləri siyasət, iqtisadiyyat, yeni texnologiyalardan isti-

fadə, elm, təhsil və mədəniyyət sahəsində ardıcıl olaraq inkişaf edir. Çoxtərəfli əlaqələrin qurulmasında və inkişaf etdirilməsində hər iki ölkənin maraqlarının uyğun gəlməsi münasibətlərin müsbət inkişaf dinamikasını şərtləndirir. Qarşılıqlı maraqlar üstündə qurulan Azərbaycan-Koreya Respublikası münasibətləri dünya siyasətində, xüsusən də ölkəmizin Asiya ölkələri ilə münasibətlərində yeni məzmun daşıyır.

Ümumiyyətlə, Azərbaycan-Koreya Respublikası münasibətləri həm hər iki ölkə, həm də bütövlükdə beynəlxalq münasibətlər baxımından mühüm əhəmiyyətə malikdir. Koreya Respublikasının ayrı-ayrı dövlət münasibətlərinin və özəl qurumlarının Azərbaycan Respublikasında fəaliyyəti üçün də ölkəmizdə dövlət səviyyəsində münasib şərait və geniş imkanlar yaradılmışdır. Koreya Respublikası Azərbaycanın tikinti-inşaat işlərində, körpülərin salınmasında, su kəmərlərinin çəkilməsində, avtomatlaşdırılmış idarəetmə sistemlərinin yaradılmasında yaxından iştirak edir. Koreya Respublikasında istehsal edilən məhsullar, xüsusən də avtomobil və müasir informasiya texnologiyaları Azərbaycan bazarında mühüm yer tutur. Artıq Azərbaycan-Koreya Respublikası birgə müəssisələri də formalaşmaqdadır. Bundan başqa, ölkələrimiz arasında qarşılıqlı əməkdaşlığın təmin edilməsi üçün zəruri olan hüquqi müqavilə bazası da formalaşdırılmışdır. Azərbaycan-Koreya Respublikası əlaqələri geniş perspektiv imkanlara malikdir.

## ƏSAS MƏNBƏLƏR


1. Ağalar Abbasbəyli. Dünya siyasəti. Bakı, “Nurlar”, 2001
2. A.A. Евдакимова. История стран Востока в новое время. Ростов на Дону. «Феникс», 2011
3. Ziyad Səmədzadə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, 2009
4. İsa Həbibbəyli. Azərbaycan-Cənubi Koreya əlaqələrində Naxçıvan. Kimçonq Universiteti. “Elmi əsərlər”. 2012. №12, səh.133-135
5. Məmməd Qaraqoyunlu. Ümumi coğrafiya. Bakı, «Oka/ofset, 2012
6. Краткий политический словарь. Москва. «Политическая литература», 1988
7. Васильев Л.С. История Востока, том 1-II. Москва, «Юрайт», 2011
8. Milli strategiyalar, ideologiyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və müasir praktikalar (məqalələr). Bakı, «Elm», 2012

# 4. DÜNYA SİYASƏTİNDƏ SİNQAPUR

## 4.1. Dünya siyasətində gedən proseslərin işığında

Sovetlər İttifaqı dağılandan sonra Amerika dünya siyasi meydanında təkqütblü ölkə olaraq göründü. Doğrudur, bu vaxta qədər Amerika Birləşmiş Ştatlarının Avropa ölkələri kimi müttəfiqləri var idi. Həmin mərhələdə Amerika-Çin, Amerika-Yaponiya və Koreya Respublikası ilə də normal münasibətlər mövcud idi. Lakin Çin Xalq Respublikası istisna olmaqla həmin ölkələrin siyasi sistemi ilə Amerikanın dövlət sistemi eyni idi. Bu mənada onların arasında kəskin siyasi rəqabət və ya qarşıdurmadan söz açmaq mənasız olardı. O zaman Çin Xalq Respublikası da Amerikanın və Qərb ölkələrinin bazarlarında özünə münasib yer tapa bildiyi üçün bu böyük Asiya ölkələrinin hərbi-siyasi maraqları deyil, iqtisadi iddiaları daha çox diqqəti cəlb edirdi. İkincisi isə yuxarıda adları çəkilən ölkələrdən heç biri Amerika ilə qarşıdurma yaratmaqda keçmiş SSRİ adlanan nəhəng Sovet imperiyası qədər hərbi-iqtisadi qüdrətə malik deyildi. Bütün bunlara görə Amerika Birləşmiş Ştatları Sovetlər İttifaqının dağılmasından sonrakı iki mərhələdə Avropadakı müttəfiqləri ilə yeni qurulmuş müstəqil dövlətləri dəstəkləmək, onların sovet sosialist sistemindən, Rusiyanın cazibə qüvvəsindən tam ayrılmasını təmin etmək istiqamətində geniş miqyaslı iş aparırdı. Bu, həm də gənc müstəqil dövlətləri öz ətrafına çəkmək məqsədi daşıyırdı. Təxminən on il davam edən bu proses həm Rusiya, həm də Asiya ölkələri

üçün çox faydalı oldu. Sovetlər İttifaqının dağılması ilə ondan ayrılıb müstəqil dövlətlərini qurmuş respublikaların timsalında böyük ərazilər itirmiş və zəngin təbii resursları əlindən çıxmış, öz ərazilərində isə dağıntılara məruz qalmış Rusiyanın yenidən özünə gələ bilməsi üçün zaman lazım idi. Amerikanın və Qərb ölkələrinin müstəqillik əldə etmiş yeni ölkələrlə bağlı strategiyasını həyata keçirmək üçün sərf etdiyi illər Rusiyada tədricən sabitliyin bərpa edilməsi, iqtisadiyyatın böhrandan çıxarılması, hərbi sənayenin dirçəldilməsi və ordunun yenidən qurulması üçün kifayət etdi. Qərbin Rusiya və gənc müstəqil dövlətlərlə məşğul olduğu dövrdə Asiya ilə maraqlar arxa plana keçdiyi üçün Uzaq Şərq və Sakit Okean hövzəsi ölkələrində iqtisadi islahatlar daha böyük sürətlə həyata keçirilməyə başladı. İki sistemin sərt qarşıdurması bitdiyi üçün Asiya ölkələri də dövlət büdcəsində hərbi potensialın inkişaf etdirilməsinə yox, iqtisadi islahatların daha da genişləndirilməsinə ayrılan vəsaitin həcmini bir neçə dəfə artırmaq imkanı qazanmışdılar. Beləliklə, Asiya ölkələrində XX əsrin yetmişinci illərindən etibarən başlanmış dirçəliş, yüzilliyin sonuna doğru daha sürətlə irəli gedərək daha böyük inkişaf səviyyəsinə çatdı. Çin Xalq Respublikası, Yaponiya, Koreya Respublikası məhz XX əsrin səksən-doxsanıncı illərində dünyanın ən güclü dövlətləri kimi beynəlxalq münasibətlərdə həlledici rola malik oldular. Bu dövrdə Asiyada "kiçik əjdahalar" adlanan yeni dövlətlər də parlamağa başlamışdır. "Kiçik əjdaha" Asiya dövlətləri qrupuna Koreya Respublikası ilə yanaşı, Malayziya, Sinqapur, Tayvan, İndoneziya və başqa ölkələr də daxil edilir. Bunların sırasında isə Koreya Respublika-

sından sonra ən çox diqqəti cəlb edən Sinqapur və Malayziyadır. Tayvan ətrafında bir qədər mübahisəli məsələlər olduğu üçün ölkədə inkişafla yanaşı, müəyyən siyasi proseslər də yaşanır. Sinqapur və Malayziya isə müstəqil dövlətlər kimi geniş iqtisadi islahatlar aparmış, ölkədə inkişafın ən yüksək səviyyəsini təşkil edə bilmişdir. Hətta indi dünyada inkişafın Sinqapur modeli və ya Malayziya möcüzəsi kimi anlayışlar da meydana çıxmışdır.

### 4.2. Sinqapur Respublikasının daxili və xarici siyasəti

Cənub-Şərqi Asiyanın şəhər-dövləti olan Sinqapur Malayziyanın cənubunda Sinqapur boğazının sahilində yerləşir. Dünyanın sivilizasiya mərkəzlərindən biri, demokratik ölkə olan Sinqapur XIX əsrin əvvəllərinə kimi Malayziyanın bir hissəsi kimi mövcud olmuşdur. Strateji və coğrafi baxımdan Sinqapur dəniz yollarının kəsişdiyi məkanda yerləşdiyi üçün bu ölkə Cənub-Şərqi Asiyanın qapısı hesab edilir. Sinqapur vacib strateji məkan olaraq tarixən nəhəng dövlətlərin diqqətini çəkmişdir. XIX əsrdən etibarən ingilislər bu ərazidə yerləşməyə başlamışlar. 1826-cı ildə ölkə Britaniya işğalına məruz qalmışdır. Birinci Dünya müharibəsi illərində isə Sinqapuru yaponlar işğal ediblər. Müharibədən sonra ingilislər Sinqapur şəhərini Britaniyanın dominionuna çeviriblər. Buna baxmayaraq, 1963-cü ildə Sinqapur Malayziya Federasiyasının tərkibinə daxil olub. Nəhayət, 1965-ci ildə bu ölkə müstəqilliyini elan etməyə nail ola bilmişdir. Ölkənin Malayziyadan ayrılaraq müstəqillik qazanmasında Xalq Hərəkat Partiyasının mühüm rolu vardır. Belə ki, bu partiya Sinqapurun siyasi-dövlətçilik həyatında ən vacib rola malik olan təş-

kilatdır. Parlamentli respublika siyasi sisteminə malik Sinqapur Respublikası 3 iyun 1959-cu ildə qəbul edilmiş konstitusiya əsasında idarə olunur. Qanunların və cəzaların sərtliyi ilə seçilən bu dövlətdə, statistik məlumatlara əsasən, cinayətin aşağı faizi müşahidə olunur və korrupsiya halları demək olar ki, yox dərəcəsindədir.

Ölkənin daxili və xarici siyasətində maliyyə və texniki cəhətdən iqtisadi inkişaf əsas amil kimi götürülür. "Vergilərin sadələşdirilməsi, faizlərin aşağı salınması, ixracatın yüksəlməsi və 2004-cü ildə adambaşına düşən gəlirin 2000-ci ilə nisbətdə 8 faiz artması ölkə iqtisadiyyatı üçün yüksək göstəricidir. Buna görədir ki, Sinqapur iqtisadi inkişaf tempini son illərdə də qoruyub saxlayır. Ümumi Daxili Məhsulun (ÜDM) real artım tempi 2004-2008-ci illərdə 6.8 faiz təşkil etmiş, lakin 2009-cu ildə dünyanı bürüyən iqtisadi böhrana görə həmin göstərici 2.1 faiz azalmışdır. 2009-cu ilin göstəricilərinə əsasən ÜDM alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla 234,5 mlrd. ABŞ dolları həcmində olmuş, real artım nisbəti 2,6 faiz təşkil etmiş, adambaşına ÜDM 50300 ABŞ dolları həddində qeydə alınmışdır. ( http://mfa.gov.az/files/file/ Singapur.pdf)

Sinqapur 1967-ci ildə ASEAN təşkilatına üzv olmuşdur. Çoxtərəfli inkişaf, sülh və sabitlik, təhsilin inkişafı, elm və texnikanın inkişafının vəhdəti kimi məqsədləri olan ASEAN Cənub-Şərqi Asiya ölkələrinin birləşdiyi regional təşkilatdır. XX əsrin 60-cı illərindən region ölkələrinin vahid fəaliyyət prinsiplərinə əsasən qurulmuş təşkilata yarandığı zaman ilk üzv olan dövlətlər içərisində Sinqapur və Malayziya öndə durmuşdur. İndoneziya, Tailand, Filippin də ASEAN təşkilatının ilk üzvləridir. Buna əsasən

Sinqapur həm də ASEAN-ın ilk təsisçilərindən hesab olunur. Regionallıq konsepsiyasının tərəfdaşı olaraq Sinqapur ASEAN və APEC-in ən fəal üzvlərindəndir.

ASEAN-ın tarixində ən mühüm hadisələrdən biri xarici işlər nazirlərinin 1971-ci ildə Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində keçirilən müşavirəsində Cənub-Şərqi Asiyanı "sülh, azadlıq və tərəfsizlik zonası"na çevirmək haqqında konsepsiyanın bəyənilməsi olmuşdur.

Sinqapur BMT-nin, Qoşulmama Hərəkatının və Britaniya Birliyinin üzvüdür. Beynəlxalq birlik qarşısında vəzifələrinə hörmətlə yanaşan Sinqapur BMT-nin Küveyt, Anqola, Namibiya, Kamboca və Şərqi Timorda təşkil etdiyi sülhməramlı missiyalarda iştirak edir. İraqda sülhün və təhlükəsizliyin bərpa olunması məqsədilə 2003-cü ildə yaranan koalisiya qoşunlarının tərkibində olan Sinqapur İran körfəzinə özünün bir hərbi gəmisini və bir hərbi hava nəqliyyat təyyarəsini göndərmişdir ( http://mfa.gov.az/files/file/Singapur.pdf).

Sinqapur dövlətinin inkişafı, dünyaya açılması əsasən iqtisadi-ticarət əlaqələri üzərində qurulmuşdur. Ölkənin xarici siyasətində dünyanın lider ölkələri ilə əlaqələrin qurulmasına mühüm əhəmiyyət verilir. Sinqapur müstəqil bir dövlət olaraq özünün əsas hərbi-siyasi görüşlərini və məsləhətləşmələrini, dövlətlərarası münasibətlərini Amerika Birləşmiş Ştatları ilə birlikdə müzakirə edir. Bu mənada, ölkənin siyasi həyatında Amerika faktoru mühüm yer tutur. Bundan başqa, Sinqapur Asiya qismində daha çox Yaponiya ilə əlaqələrə üstünlük verir. Ölkədə elmi-texniki əməkdaşlıqda və iqtisadi islahatlarda Yaponiya təcrübəsinə yaradıcı şəkildə istinad edilir. Avropanın

da inkişaf etdirilmiş ölkələri ilə Sinqapur geniş əlaqələr yaratmışdır. Məhz dünyanın diqqətində olan, dövlətlərlə çoxtərəfli münasibətlər Sinqapuru dünya siyasətində və iqtisadiyyatında yerini və inkişaf dinamikasını müəyyənləşdirir. Almaniya, Fransa, Britaniya, ümumiyyətlə, Avropa dövlətlərilə qurulan əlaqələr Sinqapurun xarici siyasətinin əsaslarında dayanır. Ölkənin xarici siyasətinin əsasını iqtisadi əlaqələr təşkil edir. Beynəlxalq münasibətlər sistemində Sinqapur iqtisadi faktorlara görə yerini müəyyən edir. Sürətli inkişafa malik olan digər dövlətlər kimi Sinqapur da xarici siyasətində ölkəsinin iqtisadi təminatında maraqlı olduğunu nümayiş etdirir. İqtisadi gəlirlərini əsasən elektronika avadanlıqlarından əldə edən Sinqapur dövlətinin adı texnologiya sektorunda dünya üzrə inkişaf etmiş ölkələrin sırasına daxildir. Ölkədə elektronika sənayesi olduqca yüksək səviyyədə inkişaf etmişdir. Dünyanın əksər aparıcı ölkələrinin elektron mallar istehsal edən bir çox böyük zavodları və filialları Sinqapurda fəaliyyət göstərir. Bu gün Sinqapur Asiyanın ən iri kommersiya, maliyyə və sənaye mərkəzlərindən biridir. Ölkənin xarici ticarət dövriyyəsi 460 milyard dollar təşkil edir ki, bunun da böyük hissəsi elektronika sənayesi hesabına qazanılır.

Malayziyadan ayrılaraq müstəqillik elan edən Sinqapur müstəqil dövlətçiliyin ilk illərində olduqca kasıb ölkə olmuşdur. Lakin aparılmış genişmiqyaslı islahatlar nəticəsində ölkə qısa müddətdə Cənub-Şərqi Asiyanın əsas maliyyə və ticarət mərkəzlərindən birinə çevrilmişdir. Belə ki, Li Kuan Yunun qurduğu hökumət xarici investorları ölkəyə cəlb etməklə Amerikanın transmilli korporasi-

yalarının Sinqapurda yüksək miqyaslı texnologiya sənayesinin təməlini qoymasına nail olmuşdur. Bundan sonra Sinqapur iri addımlarla irəliləməyə başlamışdır.

Sinqapur əhalisinin say etibarilə çox hissəsini çinlilər təşkil edir. 2013-cü ilin statistik məlumatlarına əsasən, əhalinin 74,2 faizi çinlilərdən, 13,4 faizi malaylardan, 9,2 faizi isə hindlilərdən ibarətdir. Azad bazar iqtisadiyyatına malik olan Sinqapurun sürətlə inkişaf edən iqtisadiyyatı ölkəyə gələn miqrantların sayının azaltmasına ciddi təsir göstərmişdir. Son on ildə Sinqapurdakı əcnəbilərin sayı ölkə əhalisinin 40 faizini təşkil edir. Əcnəbilər ölkə iqtisadiyyatında işçi qüvvəsi olaraq çox mühüm rol oynayırlar. Hazırda Sinqapurda istehsal sənayesində çalışanların 80 faizi, xidmət sahələrində çalışanların 50 faizi əcnəbilərdən ibarətdir. Nisbətən ucuz işçi qüvvəsinə malik olması Sinqapurun iqtisadiyyatının inkişafına təsir göstərən əsas faktorlarından biridir.

### 4.3. Müasir beynəlxalq münasibətlər və Sinqapur

Coğrafi məlumatlardan məlumdur ki, Sinqapur Cənub-Şərqi Asiyada 63 kiçik, o cümlədən 1 böyük adada yerləşən müstəqil şəhər-dövlətdir. Dövlət Sakit okean hövzəsindəki boğazlarla İndoneziya və Malayziya ilə həmsərhəd yerləşir. Ölkənin quru sahəsi kiçik olduğu üçün Sinqapur dövləti meliorasiya tədbirləri nəticəsində ərazisini genişləndirmək üzrə daim tədbirlər həyata keçirir. Buna görədir ki, 1960-cı ildə 581 kv. km olan Sinqapurun sahəsi hazırda 710 kv. km-ə çatdırılmışdır. Ekspertlər bildirirlər ki, bu dinamika ilə ölkə ərazisi 2030-cu ildə daha 100 kv.km artırıla bilər (Singapore - Encyclopedia

Britannica»». Webcache.googleusercontent.com. 2013-11-17. Retrieved 2014-07-18.). Bu isə öz növbəsində Sinqapurun iqtisadi inkişafının yeni dalğasını müəyyən edə biləcəkdir.

Maraqlıdır, bu qədər kiçik ərazisi olan Sinqapurda 5 milyondan çox əhali yaşayır ki, bu da Sinqapuru dünyanın ən sıx ikinci ölkəsinə çevirmişdir. Sinqapur əhalisinin əksəriyyətinin, yəni 75 faizi çinlilərdən, yerdə qalan əhalisinin isə malaylardan, hindistanlılardan və digər Asiya xalqlarından ibarət olduğu üçün ölkədə tolerantlığa və multikultural həyat tərzinə ciddi fikir verilir. Bununla belə, artmaqda olan əhalinin böyük əksəriyyəti, daha dəqiq isə 2 milyon nəfəri əsasən ölkə xaricindən gəlmələrdir. Bu mənada, ölkə rəhbərliyi Sinqapuru multikultural dövlət kimi idarə edərək dörd dövlət dilini rəsmi dil olaraq qəbul etmişdir. Ölkədə ingilis, malay, mandarin (çin), tamil dillərindən dövlət dili kimi istifadə olunur.

Çinlilər Sinqapurda çoxluq təşkil etsələr də, XX əsrin yetmişinci illərindən etibarən dövlət başçıları antiirqçi və antimillətçi siyasətə üstünlük verirlər. Ölkədə həmrəylik və birgəyaşayış siyasətinə qarşı atılan hər hansı bir kiçicik addım dövlətin xüsusi qurumları tərəfindən ciddi şəkildə cəzalandırılır. Ekspertlərin fikrincə, məhz bu cür həmrəylik siyasətinin inkişaf etdirilməsi istiqamətində dövlətin atdığı ciddi addımlar Sinqapurun müasir inkişafının əsası hesab olunmalıdır. Yalnız bu yolla ölkədə ictimai-siyasi sabitlik qorunub saxlanılmış və daha da möhkəmləndirilmişdir. Bu isə iqtisadi islahatların ardıcıl olaraq həyata keçirilməsinə münasib şərait yaratmışdır.

Etimoloji baxımdan Sinqapur adı malay dilindən "sinqa"-aslan kimi tərcümə edilir. II Dünya müharibəsi illərində Yaponiya tərəfindən işğal olunan Sinqapur müharibədən sonra 1951-ci ildə Britaniya Krallığının tərkibində muxtar dövlət olaraq fəaliyyət göstərmişdir. Lakin 1963-cü ildə referendum nəticəsində Federativ Malayziyanın tərkibinə qatılan Sinqapur öz siyasi statusu ilə razılaşmayaraq 9 avqust 1965-ci ildə müstəqilliyinə nail ola bilmişdir. Qeyd etmək lazımdır ki, Sinqapurun müstəqilliyi malaylar üçün elə də ağır və təhlükəli hesab edilmir. Belə ki, əslində Malayziyanın tərkibində olarkən sinqapurlulular ölkənin etnik tarazlığını çinlilərin xeyrinə dəyişdirmək təhlükəsi ilə üzləşirdilər. Bununla belə, Sinqapur indiyədək Malayziya ilə münasibətdə ehtiyatlı siyasət yürütməkdədir. Məlumdur ki, Sinqapur təbii resurslar baxımdan ehtiyatlara malik deyildir. Ölkə yarandığı vaxtdan başlayaraq hətta içməli suyu və tikinti materiallarını belə qonşu Malayziyadan idxal edir.[1] Bu kimi asılılıq Sinqapur rəhbərlərini daha geniş beynəlxalq siyasət yürütmək üçün addımlar atmağa, daim yeni yollar axtarmağa sövq etmişdir.

Siyasi baxımdan Sinqapur hələ 1951-ci ildən, ölkə Britaniya imperiyasının tərkibində olduğu vaxtdan 1990-cı ilədək Li Kuan Yu tərəfindən idarə olunurdu. Bir çox ekspertlər düşünür ki, müasir Sinqapurun inkişafında Li Kuan Yunun əvəzolunmaz xidmətləri olmuşdur. Belə ki, Li Kuan Yu iqtisadi cəhətdən geridə qalmış Sinqapurun inkişaf etmiş iqtisadi mərkəzə çevrilməsinədək çətin şəraitdə böyük işlər görə bilmişdir. Bununla belə, Li Kuan Yunun uzun müddət hakimiyyətə rəhbərliyi, parlamentli

[1] *Ли Куан Ю.* Сингапурская история: из третьего мира в первый. М.: 2005

respublika olmasına baxmayaraq Sinqapurun dünya ictimaiyyəti tərəfindən yarıavtoritar dövlət kimi qəbul edilməsinə böyük təsir etmişdir. Lakin bu hal heç vaxt ölkənin iqtisadi inkişafına və dünya ölkələri ilə əlaqələr yaratmasına maneçilik törətməmişdir.

Bu gün Sinqapur dünyanın iqtisadi mərkəzlərindən biri kimi əsasən maliyyə və ticarət sahələrində liderlik edir. Müasir Sinqapur hazırda dünyanın dördüncü maliyyə mərkəzlərindən biri kimi qəbul olunur. Sinqapur limanı isə dünyanın ən böyük beş limanından biri hesab edilir. Sinqapurun qloballaşmış və diferensiallaşmış iqtisadiyyatı əsasən ticarətdən, xüsusən də sənaye mallarının emalından ibarətdir. Eyni zamanda, Sinqapur dünyanın əsas elektronika məhsulları ixrac edən ölkələrindən biri kimi də böyük nüfuz qazanmışdır.

Sinqapur adambaşına düşən gəlirlər baxımından 2005-ci ildə dünyanın ən varlı ölkəsi kimi elan olunmuşdur. Bununla belə, Sinqapur həm də sosial cəhətdən ən qütbləşmiş ölkə hesab edilir. Lakin təhsil, səhiyyə, məşğulluq sahələrində Sinqapurun dünyanın lider ölkələrindən biri olması onun beynəlxalq aləmdə müsbət siyasi obrazının formalaşmasına böyük təsir etməkdədir.

Ərazisi və əhalisi etibarilə kiçik dövlət hesab edilməsinə baxmayaraq, atıq bir-neçə onillikdir ki, Sinqapurun çoxşaxəli beynəlxalq siyasi konsepsiyası mövcuddur. Bu illər ərzində Sinqapurun sürətli iqtisadi inkişafı dünya siyasi arenasında onun mövqeyini xeyli yüksəltmişdir. Sinqapur Cənubi-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ASEAN) yaradıcısı olan beş dövlətdən biri kimi, eyni zamanda, Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Cəmiy-

yətinin (APEC), Şərqi Asiya Ölkələri Sammitinin, Qoşulmama Hərəkatının, Beynəlxalq Dəniz Təşkilatının (İMO), Beynəlxalq Valyuta Fondunun fəal üzvlərindəndir. Bu ölkə 1965-ci ildən isə BMT-nin üzvü olaraq fəaliyyətini davam etdirməkdədir. Sinqapur dünyanın aparıcı dövlətləri ilə, xüsusən də Britaniya və Birləşmiş Ştatlarla yaxşı münasibətlərə malikdir. Sinqapur Malayziya, Avstraliya, Yeni Zelandiya və Birləşmiş Krallıqla bərabər müdafiə paktı imzalamışdır (FPDA). Bu mənada, bu gün ekspertlər Sinqapurun beynəlxalq siyasi mövqeyini müsbət qiymətləndirirlər.

Ümumiyyətlə, Sinqapur müstəqil dövlət kimi geniş xarici əlaqələrə malikdir. Belə ki, bu gün ölkə dünyanın 186 ölkəsi ilə diplomatik münasibətlər yarada bilmişdir. Sinqapurun xarici siyasət konsepsiyasında qeyd edilir ki, ölkənin xarici siyasəti milli maraqların inkişaf etdirilməsi, digər ölkələrlə əlaqələrin genişləndirilməsi, beynəlxalq cəmiyyətin bərabərhüquqlu üzvünə çevrilməsi, sinqapurluların ölkə daxilində və ölkədən xaricdə inkişafına yardımların edilməsi maraqlarından çıxış etməkdən ibarətdir. [1]

Ekspertlər Sinqapurun beynəlxalq siyasətdəki mövqeyini hökumətin "siyasi realizm" kursu ilə eyniləşdirirlər. Belə ki, ölkənin əsas məqsədi regionda güclü dövlətin yaradılmasına nail olmaq və öz təhlükəsizliyini təmin etməkdən ibarətdir. Bu baxımdan həm milli, həm də coğrafi səbəblərdən Sinqapurun Malayziya və İndoneziya ilə münasibətləri daha böyük əhəmiyyət kəsb edir. Baxmayaraq ki, 60-70-ci illərdə Sinqapur həm İndoneziya, həm də Malayziya ilə müəyyən narazılıqlarla rastlaşmış, lakin sonra-

[1] Bax: Singapore Missions Overseas. Ministry of Foreign Affairs. Retrieved 27 January 2014.

lar vəziyyət tarazlaşdırılmış, bu ölkələr arasında normal əlaqələr formalaşmışdır.

Qeyd etdiyimiz kimi, Sinqapur təbii ehtiyatlara malik deyildir. Bütün təbii sərvət ehtiyaclarını ölkə qonşu dövlətlərin, xüsusən də Malayziya və İndoneziyanın hesabına yerinə yetirir. Buna görə də XX əsrin 70-ci illərindən başlayaraq, Sinqapurun hakim dairələri əhalinin sosial rifahını və iqtisadi çiçəklənməni təmin etmək üçün ilk növbədə öz qonşuları ilə münasibətlərini nizamlamağa üstünlük verməyə başlamışlar. Bu mənada, müasir Sinqapurun xarici siyasət konsepsiyası əsasən regionalizmə istiqamətlənmişdir. Bu məqsədlə Sinqapur ASEAN, ATEC kimi təşkilatların fəaliyyətini stimullaşdırmaqla onların fəaliyyətinin daha da genişləndirilməsinə kömək edir. Belə ki, ölkənin mövcud maliyyə imkanları bu kimi mötəbər təşkilatların mərkəzlərini öz ərazisində yerləşdirməyə və maliyyələşdirməyə imkan verir. Bu, həm də Sinqapurun dünyada tanınmasına və ölkədə tranzit əlaqələrinin inkişafında da mühüm rol oynayır.

Bununla belə Sinqapurun regional siyasəti göstərir ki, ölkə təkcə Cənub-Şərqi Asiya ilə əlaqələr qurmaqla kifayətlənmir. Asiya-Avropa Qarşılaşması, Şərqi Asiya və Latın Amerikası ölkələrinin Əməkdaşlıq Forumunun, Asiyanın 21 ən böyük şəhərləri, Şərqi Asiya ölkələri Sammiti kimi təşkilatlarda fəallıq göstərməsi Sinqapurun beynəlxalq münasibətlərini daha geniş məkanın hüdudlarına salmaqdadır.

Beləliklə, müasir dünyanın beynəlxalq sistemində Sinqapurun özünəməxsus yeri formalaşmışdır. Mütəxəssislərin fikrincə, Sinqapur öz beynəlxalq siyasətini bir

vaxtlar baş nazir olmuş Sinnatambi Racaratnamın konsepsiyası əsasında reallaşdırmaqdadır. Sinnatambi Racaratnam dünya siyasətini "beynəlxalq siyasətin cəngəlləyi" adlandıraraq belə hesab edirdi ki, ölkənin mövcudluğunu təmin etmək üçün sülh və regiondakı iqtisadi çiçəklənmə əsas məsələdir. Bunun üçün Sinqapur daxildə qeyri-stabil ölkələrlə, iqtisadi cəhətdən zəif və dünya səviyyəsində inteqrasiyaya girişməyən dövlətlər, eyni zamanda, iri ölkələrlə münaqişələrdə olan ölkələrlə həmişə ehtiyatla davranmışdır. Həmin məqsədin reallaşması üçün Sinqapur ilk növbədə qonşuları olan və həmçinin ASEAN-da təmsil olunan ölkələrlə sıx əməkdaşlıq etmişdir. Bu siyasət ölkədə ictimai-siyasi sabitliyin qorunub saxlanmasına həmişə müsbət təsir göstərmişdir. Bu isə Sinnatambi Racaratnamın siyasi kursu əsasında regionda qüvvələrin tarazlığına nail olmaq və Sinqapuru daha iri ölkələrin asılılığından çıxarmaqda mühüm rol oynamışdır. Bu isə həm də ölkənin suveren siyasi kursunun reallaşması demək idi.

İndoneziyanın üçüncü prezidenti olmuş Buhariddin Yusif Həbibi bir vaxtlar geridə qalmış Sinqapuru "yaşıllıq içərisində qırmızı ləkə" adlandırırdı. Bu mənada, Sinqapur rəhbərləri ölkənin geosiyasi mövqeyini çox gözəl başa düşürdülər. Bir tərəfdən, onu əhatə edən müsəlman ölkələrinin siyasi təzyiqi, digər tərəfdən isə kəskin resurs çatışmamazlığı və iri dövlətlərin regiondakı maraqları Sinqapurun beynəlxalq münasibətlərini daha çox öz dövlətinin təhlükəsizliyini və müstəqil siyasi fəaliyyətini təmin etməyə istiqamətlənmişdir. S.Racaratnam belə düşü-

nürdü ki, iri dövlətlərin Sinqapura olan maraqları onun beynəlxalq arenadakı azadlığına mane olan region ölkələrinin əl-qolunu bağlamağa gətirib çıxaracaqdır.

Məlumdur ki, Sinqapur əhalisinin böyük bir hissəsi çinlilərdən ibarətdir. Hələ 1949-cu ildə Çində aclıqdan və səfalətdən, həmçinin müharibələrdən əziyyət çəkən əhalinin bir hissəsi (xüsusən də Fuczyan, Quandun, Xanyan bölgələrindən) Sinqapura köç etməyə məcbur olmuşdur. Çinlilərin regiona həmin köçü baş verdiyi illərdə Sinqapur hələ müstəqil dövlət deyildi və Malayziyanın bir hissəsi idi. Lakin müstəqillik əldə etdikdən sonra Sinqapurun Çin və Tayvanla münasibətlər yaratmaq arzusu bir tərəfdən onun regional maraqlarına xidmət edirdisə, digər tərəfdən isə etnik çinlilərin bir-biri ilə yaxınlaşmasından ibarət idi. Bununla belə, Sinqapur uzun müddət ÇXR-dən ehtiyatlanmış, siyasi münasibətlərdə müəyyən məsafə saxlamışdır. Bunu Sinqapurun Cənub-Şərqi Asiyada yerləşən ölkələr arasında Çin Xalq Respublikasını sonuncu tanıyan ölkə kimi də tanınması da sübut edir. Ölkələr arasında diplomatik münasibətlər yalnız 1990-cı ildə yaradılmışdır.

Kiçik ərazisi, təbii ehtiyatlar qıtlığı, müsəlman ölkələrinin əhatəsində yerləşməsi bu illər ərzində Sinqapurun güclü hərbi dövlətə çevrilməsi cəhdlərini daha da stimullaşdırmışdır. Ərazi çatışmamazlığına görə 1975-ci ildə Çinin təşəbbüsü ilə Sinqapur hərbi qüvvələrinin təlim meydanı kimi Tayvanın seçilməsinə razılıq olsa da, keçirilməsinə razılaşsa da, ÇXR-in səyləri nəticəsində Sinqapur öz təlimlərini onun ərazisinə – Xanyana keçirməyə üstünlük vermişdir. Bu, Sinqapurun ÇXR-lə siyasi yaxınlığına

müəyyən mənada təsir göstərmişdir. Bütün çətinliklərə baxmayaraq, Sinqapurla Çin arasında geniş iqtisadi və ticarət əlaqələri mövcuddur. 2005-ci ildən etibarən Sinqapur Çinin ticarət dövriyyəsində yer tutan 9-cu iri ölkə hesab olunur, Çin isə Sinqapurun ticarətində üçüncü ölkəyə çevrilir (Bax: Xinhua. Singapore exports benefit from FTA with China. http://www.china.org.cn/+(9 July 2010). Bu gün Sinqapur Çinin sənaye tikintisinə böyük rəqəmlərlə ölçülən investisiyalar qoymaqdadır. Bütün bunlar Sinqapur-Çin münasibətlərini tarazlıqda saxlamağa hesablanmış tədbirlərdir.

Lakin Sinqapurun Tayvanla münasibətlər yaratmaq niyyəti ölkənin Çinlə olan münasibətlərinə xələl gətirir. Hələ Britaniya imperiyasının, sonralar isə Malayziyanın tərkibində ikən daxili muxtariyyətə malik olan Sinqapur bu və ya digər şəkildə Çinlə münasibətlər yarada bilmişdir. Bununla belə, Sinqapurun Tayvanla münasibətlərindən vaz keçmək fikrində olmaması Çinlə Sinqapur arasında müəyyən diplomatik narazılıqlara gətirib çıxarır. Lakin strateji baxımdan Sinqapur-Çin münasibətlərinə böyük əhəmiyyət verən Çin Xalq Respublikası onun Tayvanla qeyri-rəsmi münasibətlərinə müəyyən mənada göz yumur. Sinqapur isə Çini narazı salmamaq üçün Tayvanla diplomatik münasibətlərini qeyri-formal səviyyədə həyata keçirir.

Hazırda Tayvanın Sinqapurda, Sinqapurun isə Tayvanda ticarət nümayəndəliyi mövcuddur. Onlar arasında ticarət münasibətlərindən başqa hərbi əməkdaşlıq çərçivəsində fəaliyyətlər də yaranmaqdadır. Belə ki, 70-ci illərin ortalarına qədər Tayvan öz ərazisində Sinqapur hərbi

təlimlərinin keçirilməsinə razılıq vermişdir. Rəsmi şəkildə Sinqapur "vahid Çin" konsepsiyasına sadiq qaldığını dəfələrlə nümayiş etdirsə də, yeganə dövlətdir ki, ölkə həm də Tayvanda öz hərbi bazalarına malikdir. Beləliklə də Çinin təzyiqlərinə baxmayaraq, Sinqapur Tayvanla münasibətlərində bu iki dövlət arasında ortaq məxrəcin tapılmasına nail ola bilir. Sinqapurun 2005-ci ildə İndoneziya və Malayziya ilə dəniz quldurlarına qarşı birgə əməkdaşlıq müqaviləsinə tezliklə Tayvanın da qoşulması ölkələrarası əlaqələrin inkişafı baxımından düşünülmüş və əhəmiyyətli gediş hesab olunur.

İqtisadi əməkdaşlıq çərçivəsində və regionda sülhün və sabitliyin təmin edilməsi məqsədilə Sinqapur rəhbərləri Avropa ölkələri ilə də münasibətləri gərginlik müstəvisinə keçirmək fikrində olmadığını daim nümayiş etdirirlər.

Sinqapurla ABŞ arasında münasibətlər hərbi, iqtisadi, səhiyyə, təhsil sahələri çərçivəsində sıx əməkdaşlığa əsaslanmışdır. Amerika Birləşmiş Ştatları 2010-cu ildə Sinqapurun Malayziya və Çindən sonra üçüncü ticarət əməkdaşına çevrilmişdir. Bu, region dövlətləri ilə müqayisədə mühüm göstəricidir. Sinqapur hakim dairələri ABŞ-la olan münasibətlərinə Çinlə siyasi balans yaratmaq imkanı kimi baxırlar. 2005-ci ildə ABŞ-la bağladığı strateji əhəmiyyət daşıyan müqaviləyə əsasən, hər iki ölkə bir-birinin regional münasibətlərinə hörmətlə yanaşaraq, terrorla mübarizədə, onun yayılmasına qarşı birgə əməkdaşlıq, həmçinin birgə hərbi təlimlərin keçirilməsi haqqında razılığa gəlmişlər. Bu mənada Sinqapur-Amerika münasibətləri möhkəm əsaslara malikdir. Məsələn, 2001-ci ilin məlum

11 sentyabr hadisələrindən sonra Sinqapur dərhal Amerikanı dəstəkləyərək terrorizmlə mübarizə kampaniyasına qoşulduğunu bildirmişdir.

Əhali sıxlığına görə dünyanda ikinci yerdə dayanan Sinqapurun Cənub-Şərqi Asiyada ən yüksək səviyyədə təchiz olunmuş güclü ordusu formalaşmışdır. Baxmayaraq ki, Sinqapur Qoşulmama Hərəkatının fəal üzvlərindən biri kimi dünyada sülhün və sabitliyin tərəfdarı olduğunu dəfələrlə nümayiş etdirmişdir. Bununla belə, Sinqapur öz ordusuna dövlətin suverenliyinin və müstəqilliyin əsas qarantı kimi baxır. Bu məqsədlə ölkə dövlət gəlirinin 4.9 faizini ordunun saxlanılmasına və inkişaf etdirilməsinə xərcləməyi zəruri hesab edir.

Ümumiyyətlə, Sinqapur azadlığını əldə etdikdən sonra Britaniya qoşunları Sinqapuru tərk edərkən ölkənin silahlı qüvvələri cüzi miqdarda olmuşdur. Bu mənada, Sinqapurun hərbi qüdrətini formalaşdırmaq üçün hələ XX əsrin axırlarından Sinqapur İsraillə hərbi əməkdaşlıq etməyə başlamışdır. Sinqapurun bu addımı əhalisinin böyük hissəsi müsəlmanlardan ibarət olan Malayziya və İndoneziyanın narazılığına səbəb olsa da, hər iki müsəlman ölkəsindən təhlükə hiss edən Sinqapur İsrail hərbi mütəxəssisləri tərəfindən demək olar ki, öz Silahlı Qüvvələrini yenidən formalaşdırmağa nail ola bilmişdir. Beləliklə də İsrailin hərbi modeli əsasında Sinqapur Hərbi Qüvvələri (SAF) formalaşmışdır. Amerika-İsrail münasibətləri də nəzərə alınarsa, bu həm də Sinqapurun okeanın o tayı ilə hərbi əməkdaşlıq baxımından da müttəfiq olduğunu göstərir.

Sinqapurun müdafiə siyasəti bu günədək İsraillə isti siyasi və hərbi əməkdaşlığın davam etdirilməsinə gətirib

çıxarır. Sinqapur hərbçiləri mütəmadi olaraq bu ölkənin hərbi mütəxəssisləri tərəfindən təlimatlandırılır. Sinqapur ordusu İsrailin ən müasir silahları ilə təchiz olunur. Hərbi texnikanın modernləşməsi prosesi də İsrail silahlı qüvvələrinin nümunəsi əsasında gerçəkləşir. Bundan başqa, qeyd etmək lazımdır ki, ölkənin quru ərazisinin azlığı hərbi sahədə onun müxtəlif ölkələrlə sıx əməkdaşlığına gətirib çıxarmışdır. Tez-tez keçirilən hərbi təlimlər, xüsusən də Hərbi Hava Qüvvələrinin təlimləri zamanı Sinqapur rəsmilərinin digər ölkələrə müraciət etməkdən başqa yolu qalmır. Ərazi məhdudluğu Sinqapurun Hərbi Hava Qüvvələri bazalarını dünyanın müxtəlif ölkələrinə, xüsusən də ABŞ-ın müxtəlif ştatlarına, Avstraliya, Fransa kimi uzaq ölkələrə səpələnməsinə səbəb olmuşdur. Bu mənada Sinqapurun beynəlxalq sistemdəki mövqeyini müəyyənləşdirən məsələlərdən biri də dövlətin hərbi siyasətidir. Müdafiə və təhlükəsizlik məsələləri Sinqapurun müxtəlif ölkələrlə hərbi ittifaqına geniş imkanlar açır. Hərbi sahədəki münasibətlər həmin ölkələrlə iqtisadi əlaqələrin genişlənməsinə də öz təsirini göstərir.

Beləliklə, Sinqapurun regional inkişafı, geniş iqtisadi əlaqələri və beynəlxalq siyasi sistemdəki mövqeyi bu ölkənin qlobal əməkdaşlıq çərçivəsində daha da irəli getməsi üçün böyük imkanlar yaradır. Bu mənada Sinqapurla qarşılıqlı şəkildə əməkdaşlıq etmək yalnız inkişaf və sabitliyə xidmət edə bilər. Azərbaycan Respublikasının Sinqapurla əlaqələri və əməkdaşlığı ölkəmizin dövlətçilik maraqlarına tam cavab verir.

### 4.4. Azərbaycan-Sinqapur əlaqələri

Cənub-Şərqi Asiya regionunun həyatında mühüm rol oynayan Sinqapurla Azərbaycan arasında iqtisadi, siyasi, mədəni, humanitar münasibətlərin qurulması Azərbaycan xarici siyasətinin əsas məqsədlərindən biridir. Qlobal siyasi-iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi bir-birindən daha uzaq ölkələrin yaxınlaşmasına kömək edir. Azərbaycan üçün belə ölkələrdən biri də Sinqapurdur.

Azərbaycan Respublikası ilə Sinqapur Respublikası arasında diplomatik münasibətlər 15 avqust 1994-cü ildə qurulmuşdur. Azərbaycan Respublikasının İndoneziya Respublikasındakı fövqəladə və səlahiyyətli səfirliyinin əsasında 13 yanvar 2012-ci ildə eyni zamanda ölkəmizin Sinqapur Respublikasında fövqəladə və səlahiyyətli səfirliyi də açılmışdır.

Azərbaycanın və Sinqapurun bir-biri ilə iqtisadi və siyasi əməkdaşlığının ortaq nöqtələri vardır. Təsadüfi deyil ki, 2012-ci ildə ölkələrimiz arasında diplomatik münasibətlər yaranan kimi Sinqapur Prezidenti Toni Tan Keng Yama ölkəsinin Azərbaycanla çoxtərəfli əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini bəyan etmişdir. Sinqapur eyni zamanda, Azərbaycan Respublikasının Dağlıq Qarabağın qaytarılması uğrunda apardığı mübarizəni ədalətli hesab edir və Ermənistanın təcavüzkarlığı nəticəsində yaranmış bu hərbi-siyasi münaqişənin Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılması yolu ilə həll edilməsinə tərəfdar olduğunu bildirir.

Məlumdur ki, Azərbaycanla Sinqapur arasında yüksək səviyyəli münasibətlər nisbətən gec baş tutmuşdur. 2010-cu ildə Sinqapurun xarici işlər naziri C.Y.Yeonun Azərbaycanda olması 1994-cü ildən bəri ölkələr arasında diplomatik münasibətlərin yaranmasından sonra Sinqapur rəsmilərinin Azərbaycana ilk yüksək səviyyəli səfəri kimi əlaqələrin başlanmasının start nöqtəsi hesab olunur. Səfər zamanı nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilmiş, ikitərəfli əməkdaşlıqla əlaqədar məsələlər müzakirə olunmuşdur.

Azərbaycan Sinqapurla bir çox sahələrdə və müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində fəal şəkildə əməkdaşlıq edir. Beləliklə, 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi prosesində ölkəmizə verdiyi dəstək, həmçinin Qoşulmama Hərəkatına üzv ölkələrin Sammiti zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipləri əsasında həlli ilə bağlı qəbul edilən qətnaməyə səs verməsi Azərbaycan-Sinqapur əlaqələrinin əhəmiyyətli hadisələri sayıla bilər.

Azərbaycan və Sinqapur beynəlxalq münasibətlərin qlobal iqtisadi və siyasi münasibətlər çərçivəsində yaradılması istiqamətində inkişafda maraqlı olduqlarını nümayiş etdirməkdədirlər. Müasir şəraitdə dövlətlərarası əlaqələrin spektri çox genişdir və bu münasibətlərin iştirakçısı olan ölkələr əməkdaşlığın bütün sahələrində tərəqqi əldə etmək üçün geniş qarşılıqlı maraqlar əsasında təmaslar qururlar. Bu, Azərbaycan-Sinqapur münasibətlərinə də aiddir. Bu mənada, Sinqapurla Azərbaycan arasında siyasi münasibətlərin yüksək səviyyədə təzahürü kimi

20-21 noyabr 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sinqapur Respublikasına dövlət səfəri ölkələrarası münasibətlərin daha da inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Səfər çərçivəsində Sinqapurun Prezidenti ilə aparılan işgüzar danışıqlar əsasında bir çox mühüm sahələrdə əməkdaşlığa dair razılaşdırmalar əldə olunmuşdur. Bununla Azərbaycan-Sinqapur əlaqələri yeni mərhələyə qədəm qoymuşdur. Hər iki tərəfin apardığı məqsədyönlü iş nəticəsində qısa müddətdə əlaqələrin inkişafı baxımından mühüm nəticələrə nail olunmuşdur. Belə ki, Azərbaycan və Sinqapur ölkələri arasında 2013-cü il üzrə idxal 42302.6 ABŞ dollar ixrac isə 179.7 ABŞ dolları həcminə çatmışdır (Bax: AR Xarici İşlər Nazirliyi http://www.mfa.gov.az/files/file/Azerbaycan_-_Sinqapur_munasibetleri_13.08. 2014. pdf) .

Azərbaycan və Sinqapur arasında qarşılıqlı sərmayə qoyuluşu istiqamətində də artıq müəyyən fəaliyyət mövcuddur. Azərbaycanın Dövlət Neft Şirkəti Sinqapurda, Sinqapurun bir neçə şirkəti isə Azərbaycanda müəyyən iş qurublar. Sinqapurun «Keppel Offshore and Marine» şirkəti Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan İnvestisiya Şirkəti ilə 52 hektar sahəsi olan yeni gəmiqayırma zavodu və tərsanənin inşasına, idarə olunmasına dair əməkdaşlıq haqqında Saziş imzalayıb. Bununla yanaşı, «Surbana Corporation», «Sembcorp» və «Frankilin Offshore Group» kimi bir sıra Sinqapur şirkətləri də Azərbaycanda müxtəlif layihələrdə yaxından iştirak ediblər.

Azərbaycan hökumətinin Sinqapurlu iş adamlarına etibar etmələrinin təzahürlərindən biri də dövlət başçısının sərəncamına uyğun olaraq 2013-cü ildə Bakı şəhərinin

"Qələbə meydanı" adlanan ərazisində və onunla kəsişən yollarda nəqliyyatın hərəkətinin nizamlanmasını, tıxacların aradan qaldırılmasını və işıqforsuz hərəkət rejiminin təmin edilməsini nəzərdə tutan layihənin işə başlaması oldu. Layihənin podratçısı olan "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC, öz fəaliyyətini Sinqapurun "Surbana International Consultants" şirkətinin təqdim etdiyi layihə əsasında həyata keçirmişdir.

Azərbaycanla Sinqapur arasında beynəlxalq iqtisadi əməkdaşlıq layihələrindən biri də Azərbaycanda gəmiqayırma zavodunun yaradılması olmuşdur. Bu böyük zavodun qurulması Azərbaycanın Sinqapurun "Keppel" şirkəti ilə birgə fəaliyyətinin mühüm iqtisadi nəticəsidir. Burada quraşdırılan müasir tipli avadanlıqlar aparıcı xarici şirkətlərin istehsalıdır və pay bölgüsü də 90 faiz Azərbaycanın, 10 faiz "Keppel" şirkətinin üzərinə düşür. İcraçılıq prosesində bütün operatorluq işi Sinqapurun "Keppel" şirkətinə həvalə edilmişdir. Bu da Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycanla Sinqapur arasında "beynəlxalq əməkdaşlığın gözəl təzahürüdür, yeni formasıdır". Zavodun açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirmişdir ki, bu zavodun layihə kimi reallaşmasında 2012-ci ildə onun Sinqapura rəsmi səfəri zamanı dövlət səviyyəsində müzakirə edilən məsələlərin əhəmiyyəti olmuşdur.

Azərbaycan tərəfi Sinqapurla humanitar, mədəni mübadilə və təhsil sahələrində də əməkdaşlıqla bağlı böyük planlarının olduğunu ifadə edir. Hazırda azərbaycanlı

gənclər Sinqapur universitetlərində təhsil almaqdadırlar.

Azərbaycan–Sinqapur əlaqəlri geniş prespektiv imkanlara malikdir.

## ƏSAS MƏNBƏLƏR


1 Abbasbəyli A. Dünya siyasəti. Bakı, “Nurlar”, 2011
2. Dünya ölkələri (tərtib edəni H.Səmədov). Bakı, «KM», 2013
3. Ли Киан Ю. Сингапурская история: из третьего мира в первый. Москва, 2005
4. Sinqapore Missions Overseas. Petrieved, 2014
5. Страны мира. Энциклопедия. Москва, 2006

# 5. BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ MALAYZİYA

## 5.1. Malayziya dünya siyasətində

Məlum olduğu kimi, Malayziya Cənub-Şərqi Asiyanın, həmçinin Sakit okean hövzəsinin ən böyük müsəlman ölkələrindən biridir. Onun ərazisi Cənubi Çin dənizi tərəfindən bölünərək iki hissədən: Qərbi Malayziyadan və Şərqi Malayziyadan ibarətdir. Malayziyanın ən iri hissəsi Şərqdə yerləşən Sabah və Sarabah adlanan ərazi hesab olunur. Ölkənin paytaxtı Kuala-Lumpur isə Qərbi Malayziyadadır. Ölkə Tailand, İndoneziya, Filippin, Sinqapur kimi ölkələrlə həmsərhəddir.

Malayziya 1957-ci ildə özünün dövlət müstəqilliyini qazanmışdır. Bu vaxta qədər Malay Krallığı Britaniya imperiyasının tərkib hissəsi idi. 1963-cü ildə Malaziyanın ərazisinə Sinqapur, Saravak və Şərqi Borneo də daxil edilir və ölkə federativ dövlətə çevrilir. Lakin 1965-ci ildən Sinqapur Malayziyanın tərkibindən çıxaraq müstəqil dövlət kimi fəaliyyət göstərməyə başlayır.

Malayziya yerləşdiyi regionda ən iri müsəlman ölkələrindən biri olub, siyasi quruluşuna görə konstitusiyalı federativ monarxiyadır və əksər müasir monarxiyalı dövlətlərdə olduğu kimi burada da rəmzi xarakterə malik kral hakimiyyəti mövcuddur. Malayziyada hökuməti baş nazir idarə edir.

Demokratik vəziyyətinə görə maraqlı ölkə olan Malayziyanın sosial, etnik və dini tərkibi müxtəlifdir. Ölkənin konstitusiyasında vicdan azadlığını təmin etməklə ərazisində yaşayan bütün millətlərə və dinlərə hörmətlə yana-

şıldığı bildirilir. Malayziyada dini ənənəsinə görə əhalinin 61 faizi islam dininə, digər hissəsi isə müxtəlif dinlərə, xüsusən də buddizmə, xristianlığa, induizmə, konfuizmə və başqa dinlərə sitayiş edir. Ölkədə tolerantlığa xüsusi diqqət yetirilir, dini zəmində qarşıdurmalara yol verilmir. Bununla belə, ölkənin çoxmillətli və çoxdinli sosial tərkibi Malay liderlərinin islam dinini dövlət dini kimi elan etməsinə mane olmamışdır. Ümumiyyətlə isə ölkə konstitusiyasına görə, hər bir malay doğulduğu andan müsəlman hesab olunur.

Malayziya müstəqilliyini əldə etdikdən sonra Asiyanın ən sürətli inkişafa malik dövlətinə çevrilmişdir. Ekspertlər göstərirlər ki, son 50 il ərzində onun inkişaf dinamikasında enmə halları müşahidə olunmamışdır.

Malayziya təbii sərvətlərlə zəngin ölkə olduğundan, iqtisadiyyat ilk əvvəllər ölkənin təbii sərvətlərinə əsaslanırdı. Son onilliklərdə isə Malayziyada turizm, ticarət, elm və texnika, təhsil, səhiyyə kimi sahələrdə inkişaf daha da sürətlənmişdir. Xüsusi turizmin inkişafı sahəsində ölkədə mühüm nailiyyətlər qazanılmışdır. İqtisadi qüdrətinə görə Malayziya Cənubi Asiyada üçüncü, dünyada isə 29-cu yeri tutur. (Bax: List of countries by GDP (PPP) https://en. wikipedia. org/wiki/ List_ of_ countries_by_GDP_(PPP)). Bu mənada ekspertlər Malayziyanı regionun ən güclü dövlətlərindən biri hesab edirlər. Doğru olaraq qeyd olunduğu kimi, Malayziyanın iqtisadi qüdrəti onun beynəlxalq sistemdəki roluna da təsir edir. Müasir Malayziya Millətlər Birliyi, Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, ASEAN, ATEC və Qoşulmama Hərəkatı da daxil olmaqla müxtəlif beynəlxalq təşkilatların fəal üz-

vüdür. Beynəlxalq təşkilatlarda Malayziya böyük nüfuza malikdir.

Son zamanlar Malayziya regional əməkdaşlığın fəal müdafiəçisi qismində çıxış edir. Təsadüfi deyildir ki, Malayziyanın da beynəlxalq sistemdə mövqeyi regionalizmə əsaslanır. Bu mənada Malayziya Cənub-Şərqi Asiya ölkələrinin Assosiasiyası (ASEAN) və İslam Əməkdaşlıq Təşkilatının təsisçilərindən biri kimi həmin təşkilatların inkişafında və genişlənməsində böyük maraq nümayiş etdirir.

Ekspertlər qeyd edirlər ki, müasir Malayziyanın beynəlxalq münasibətlərinin əsas prinsipləri dövlətlərarası münasibətlərdə çoxqütblü strukturun yaradılmasına, dünya gücləri arasında tarazlığın yaradılması ideyasına, inkişaf etməkdə olan ölkələrin siyasi və iqtisadi maraqlarının müdafiəsinə istiqamətlənmişdir. Bu ölkə dünyada, xüsusən də regionda nüvə silahının və digər kütləvi qırğın silahlarının yayılmasına qarşı çıxış edir, tərksilah tərəfdarı olan dövlət kimi tanınır. Bu məqsədlə Malayziya Nüvə Silahlarının Hərtərəfli Qadağan Olunması üzrə Müqavilənin, Nüvə Silahının Yayılmaması barədə müqavilələrin tərəfdaşı olmaqla yanaşı, kosmik məkanın hərbi məqsədlərlə istifadəsinə qarşı da çıxmaqdadır. Bütün bunlar isə Malayziyanın dünyada sülh və təhlükəsizliyin inkişafına mühüm töhfələr verdiyini göstərir.

Malayziyanın beynəlxalq münasibətlər sistemində istinad etdiyi prinsiplərdən biri də inkişaf etməkdə olan ölkələrin beynəlxalq siyasi münasibətlərə cəlb olunması məsələsidir. Bu məqsədlə Malayziya diplomatları və siyasi xadimləri BMT-nin yenidən təşkili, xüsusən də Təh-

lükəsizlik Şurasının daimi nümayəndəliyinin üzvlərinin inkişaf etməkdə olan ölkələrin timsalında sayının artırılması və Baş Assambleyanın rolunun genişləndirilməsi məsələsində də israrla çıxış edirlər. Malayziya İslam Konfransı Təşkilatının (sonralar İslam Əməkdaşlıq Təşkilatının) və Qoşulmama Hərəkatının da daha nüfuzlu təşkilatlara çevrilməsi üçün hərtərəfli modernləşməsinin həyata keçirilməsi istiqamətində səmərəli fəaliyyət göstərir.

Malayziya islamın qloballaşması prosesinə daha böyük maraq göstərir. Təsadüfi deyil ki, İslam Konfransı Təşkilatının təsisçilərindən biri də Malayziya olmuşdur. 1971-ci ildə Malayziyanın baş naziri, Malayziya "müstəqilliyinin atası" Tunku Əbdül Rəhman İslam Konfransı Təşkilatının ikinci baş katibi vəzifəsinə seçilmişdir (Former Secretaries-General–OIC Organisation of İslamic Cooperation http://www.oic-oci.org/oicv2/page/?p_id=38&p_ref=14&-lan=en).

Malayziya "sivilizasiyalı islam" konsepsiyasının tərəfdarıdır və dünyada yanlış olaraq formalaşmış müsəlman dünyasının obrazını düzəltmək tərəfdarıdır. Bu mənada Malayziya islam terrorizmi, fundamental islamçılıq anlayışlarını qəbul etmir və həmin anlayışların heç də xoş olmayan məqsədlərlə yaradıcılığını iddia edir. Ona görə də Malayziya "sivilizasiyalı islam" obrazını öz dini siyasətinin nümunəsində və beynəlxalq təşkilatlarda dinə münasibətlərində göstərir. Ölkə həm İslam Əməkdaşlıq Təşkilatında, həm də digər təşkilatların humanitar missiyalarında fəal iştirak edir.

Malayziya beynəlxalq terrorizmə qarşı mübarizənin qarşısını kəsən ölkələrdən biridir. Təsadüfi deyildir ki,

2003-cü ildə Malayziyanın paytaxtı Kuala-Lumpur regional antiterror mərkəzi seçilmişdir. Bununla belə, Malayziya son illərdə dünya ictimaiyyətinin təfəkküründə formalaşmış "İslam terrorizmi və fundamentalizmi" anlayışına özünəməxsus yanaşır. Belə ki, "sivilizasiyalı islam" konsepsiyasının tərəfdarları olan bu ölkənin siyasətçiləri bəyan edirlər ki, ümumiyyətlə, terrorizm beynəlxalq təzahür olub, səhvən yalnız islamın adına yazılmışdır. Ölkə siyasətçilərinin fikrincə, digər dinlərə mənsub olan ölkələrdə terrorizm halları az deyildir. Buna görə də terrorla mübarizə birtərəfli qayda və zor, güc yolu ilə deyil, terroru ortaya atan, yaradan səbəblərlə, yəni inkişaf etməkdə olan ölkələrdə yoxsulluq və savadsızlığı, iqtisadi və mədəni geriliyi aradan qaldırmaqla mübarizə aparmaq lazımdır. Buna görə də Malayziya dünya ictimaiyyətini terrorla mübarizəsində vasitələrin seçilməsində daha məqbul yolların axtarılmasına çağırır.

Ümumiyyətlə, Malayziyanın dövlət olaraq beynəlxalq münasibətlərdə regionalizmə əsaslanması da regionun iqtisadi inkişafına, bu regionda yerləşən ölkələrin siyasi və iqtisadi sabitliyinin təminatı kimi yanaşır. Bu mənada, ölkənin xarici siyasəti regionalizmə əsaslanaraq Asiya-Sakit okean hövzəsində çoxtərəfli strukturların rollarının artırılması tendensiyasını daha dinamik şəkildə nümayiş etdirir. Malayziya liderləri dünyanın qütblərindən biri hesab etdiyi ASEAN-ın roluna böyük əhəmiyyət verirlər. Məsələn, bu məqsədlə Malayziyanın təşəbbüsü ilə 2005-ci ildə Kuala-Lumpurda birinci Şərqi Asiya sammiti keçirilməsi ekspertlər tərəfindən Asiya-Sakit okean hövzəsində, həm də ASEAN-ın fəaliyyətində Kuala-Lumpurun qətiy-

yət nümayiş etdirməsi kimi dəyərləndirilirdi. Bu, həm də Malayziyanın regionda sülh və təhlükəsizliyə, habelə sabitlik və əməkdaşlığa nə qədər böyük əhəmiyyət verdiyini göstərmişdir.

Malayziyanın beynəlxalq siyasətinin regionalizmə əsaslanan yeni istiqamətini müəyyənləşdirən Baş nazir Mahathir ibn Məhəmməd uzun müddət ATEC-ə alternativ ola biləcək iqtisadi birliyin yaradılmasına can atmaqla nəhayət, ASEAN kimi regional təşkilatın formalaşdırılmasının və inkişaf etdirilməsinin üzərində dayanır. Hazırda Malayziya ASEAN-ın tərkibini genişləndirmək fikrini irəli sürərək müdafiə edir. Artıq ASEAN-a Çin, Yaponiya, Cənubi Koreya kimi ölkələr də cəlb olunmuşdur. Hazırda isə Laos, Vyetnam, Birma kimi ölkələrin də ASEAN təşkilatına daxil olmaları üçün danışıqlar aparılır. Malayziya yeni yaradılmış G-15 və G-77 kimi birliklərin də üzvüdür. Bu dövlət Asiya İnkişaf Bankının, Antarktika Müqaviləsinin (2011-ci il) üzvü olaraq da beynəlxalq təşkilatlarda səmərəli fəaliyyət göstərir.

Qeyd olunduğu kimi, Malayziyanın qarşıya qoyduğu prioritet strateji məsələlərdən biri regionda tərksilah məsələləridir. Ölkə qəbul olunmuş 1995-ci il Müqaviləsinin şərtlərinə görə, regionda nüvə silahından azad mövcud olan Cənub-Şərqi Asiyanın reallaşmasına çalışır. Bu, Malayziyanı bütün dünyada sülh və əməkdaşlıq tərəfdarı olan bir ölkə kimi tanıdır.

Malayziya müsəlman həmrəyliyinin nümayəndəsi kimi Yaxın Şərqdə baş verən problemlərə də həssas yanaşır. Bu illər ərzində Fələstin xalqının azadlıq mücadiləsini müdafiə edən Malayziya İsraillə rəsmi diplomatik münasibətlər

yaratmamışdır. Bu o deməkdir ki, Malayziya İsraili dövlət kimi rəsmi olaraq tanımır.[1] Bu mənada Malay liderləri Qüds şəhəri paytaxt olmaqla müstəqil Fələstin muxtariyyətinin yaradılması tələbləri ilə çıxış edirlər. Malayziya belə hesab edir ki, məhz bu yolla regionda sülhün bərqərar olmasına nail olmaq mümkündür. Malayziya son zamanlar İsrailin Qəzzadakı hərbi əməliyyatlarını müsbət qarşılamır və həmin prosesləri beynəlxalq hüquqa zidd akt kimi qiymətləndirməkdədir. Ölkə rəsmiləri bu fikirdədirlər ki, İsrail tərəfindən nəinki Fələstində hərbi cinayətlər törədilir və insan hüquqları pozulur, hətta muxtariyyətin ərazi bütövlüyünə qarşı beynəlxalq hüquqa mane olan münasibətlər göstərir. Buna görə Malayziya İsrailin cəzalandırılması üçün Beynəlxalq Cinayət Məhkəməsinə müraciət etmişdir (Bax: Lee Yuk Peng (7 June 2010). «Malaysia wants Israel referred to International Criminal Court (Updated)». The Star. Retrieved 21 May 2011. http://www.thestar.com.my/story/?file=%2f2010%2f6%2f7%2fnation%2f20100607121340&sec=nation).

Ümumiyyətlə, Malayziya Amerika Birləşmiş Ştatlarının və Qərbin "terrorçu dövlət" adı ilə damğaladığı bir sıra müsəlman ölkələrinə münasibətlərinə mənfi münasibət bəsləyir. Ölkə liderləri hesab edirlər ki, dünya ictimaiyyəti müsəlman ölkələrinə qarşı fərqli münasibət nümayiş etdirməlidir. Malayziya belə fikirdədir ki, istənilən münaqişənin həlli onun əhalisinin sosial və iqtisadi problemlərinin həllində öz əksini tapmalıdır. Ona görə də Birləşmiş Millətlər Təşkilatının köməkliyi ilə İraqda da iqtisadi və siyasi sabitliyin yaradılmasına nail olunması

[1] «Malaysia: Anti-Semitism without Jews». Jerusalem Center for Public Affairs. Retrieved 5 September 2010. http://jcpa.org/publication/phas/

Malayziyanın təklifləri sırasında mühüm yer tutur. Bu mənada, Kuala-Lumpur İraqda xarici müdaxilənin dayandırılmasını, başqa sözlə, ölkədən ABŞ qoşunlarının tam olaraq çıxarılmasını və buraya BMT sülhməramlılarının cəlb olunması çağırışlarını irəli sürür.

Malayziyanın illərdən bəri davam edən Əfqanıstan məsələsində xüsusi mövqeyi vardır. Ölkə belə hesab edir ki, Əfqanıstanda təhlükəsizliyin və sabitliyin bərqərar olması üçün orada xarici hərbi qüvvələrin yerləşdirilməsi vacib deyildir. Malayziyanın fikrincə, tədricən ölkədən xarici qüvvələr çıxarılmalı, Əfqanıstanın milli ordusu yenidən qurularaq öz xalqını və ərazilərini qorumalıdır.

Son zamanlar İranın nüvə silahı istehsal etmək məqsədi dünya ictimaiyyətini narahat etməkdədir. Nüvə silahına qarşı çıxış edən Malayziyanın mövqeyi Tehranla MAQATE arasında konstruktiv danışıqların aparılmasına istiqamətlənmişdir. Malayziya belə hesab edir ki, MAQATE real vəziyyəti öyrənib dünya ictimaiyyətini obyektiv şəkildə məlumatlandırmalı və bundan sonra obyektiv qərarlar qəbul edilməlidir.

Ümumiyyətlə, beynəlxalq münasibətlərdə Malayziya sülhməramlı mövqeyi ilə beynəlxalq aləmin diqqətini cəlb etməkdədir. Malayziya hər hansı bir məsələnin həllində zor və güc tətbiq olunmasına, həmçinin iqtisadi sanksiyalara qarşı mövqe nümayiş etdirməkdədir. Məsələn, Malayziya həm İranın, həm də Şimali Koreyanın nüvə proqramına qarşı dövlətlərin iqtisadi sanksiya təkliflərinin əleyhinə çıxış etmiş, dünyada baş verən problemlərin həllində birgə iqtisadi tədbirlərin, maliyyə və ticarət korpo-

rasiyaların yaradılması, dialoqdan istifadə kimi kollektiv tədbirlərin tərəfdarı olduğunu göstərmişdir.

Malayziya Sakit okean hövzəsi regionunda aktiv investor ölkə kimi özünü təqdim edir. Məsələn, Malayziya artıq uzun illərdir ki, Sinqapurda, Kambocada, Tayvanda, Vyetnamda, İslam Əməkdaşlıq Təşkilatına daxil olan bir sıra müsəlman ölkələrində və Millətlər Cəmiyyəti çərçivəsində (xüsusən də Afrikada) reallaşmaqda olan layihələrə investisiyalar qoymaqdadır. Həyata keçirdiyi investisiya proqramları iqtisadi əhəmiyyəti ilə yanaşı, eyni zamanda ölkənin siyasi etimadının da artmasına müsbət təsir göstərir.

Malayziyanın rəsmi xarici siyasəti ilk növbədə ölkənin müstəqilliyinə və suverenliyinin təhlükəsizliyinə, həmçinin siyasi sistemindən asılı olmayaraq dünya ölkələrini planetdə sülhün bərqərar olmasına cəlb etməkdən ibarətdir. Eyni zamanda Cənub-Şərqi Asiya regionunda təhlükəsizliyin və sabitliyin saxlanılmasına nail olmaq, yerləşdiyi regionun sürətli iqtisadi inkişafının təmin edilməsinə kömək etmək də Malayziyanın xarici siyasətinin prioritetlərinə daxildir. Bundan başqa, Malayziya hökuməti tarixən islam dininin ən mütərəqqi ideyaları ilə ilhamlanmış və onun bütün müsəlman ölkələri üçün örnək olduğunu sübut etməyə çalışmışdır. Bu mənada, Malayziya ölkələrinin həm daxili, həm də xarici siyasətinə praqmatik yanaşır. Malayziya dövlətlər arasında ortaya çıxan istənilən problemi güc və zorakı yollarla deyil, beynəlxalq qanunlar çərçivəsində və beynəlxalq məhkəmələrin qərarı əsasında həll etməyə istiqamətlənmişdir. Təsadüfi deyil ki, Malayziyanın tarixində Çin, Bruney və Sinqapurla ya-

ranan ərazi və dəniz sərhədləri münaqişələrinin həllində ölkə liderləri daim konstruktiv mövqe göstərə bilmişlər.

Malayziyanın hərbi qüvvələri də ölkənin beynəlxalq statusunda müəyyən rola malikdir. Ölkə aktiv şəkildə sülhməramlı qüvvələrdə iştirak edir. Livanda və BMT-nin bir sıra sülhməramlı missiyalarında Malayziya ordusu böyük çəkiyə malik olmuşdur. O, Sinqapur, Avstraliya, Yeni Zelandiya, Birləşmiş Krallıq kimi ölkələrlə bağladığı müqavilələr əsasında ölkənin ordu birləşmələri həmin dövlətlərin silahlı qüvvələri ilə bərabər müxtəlif vaxtlarda suda, həm də quruda və havada hərbi təlimlər keçirmişdir.

Lakin əksər dövlətlər kimi Malayziyanın da qonşuları olan ölkələrlə müəyyən münaqişələri vardır. Ümumiyyətlə, Malayziyanın bir neçə qonşu ölkələrlə, xüsusən də İndoneziya, Bruney kimi dövlətlərlə ərazi mübahisələri öz həllini tapmamışdır. 1957-ci ildə Britaniyanın koloniyalarından biri kimi müstəqillik əldə edən Malayziya eyni zamanda, Millətlər Birliyinin üzvü seçilməklə, İngiltərə ilə müştərək müdafiə razılaşması imzalamışdır. Bu müqavilə Britaniyaya Malayziyanın sərhədlərini müdafiə etmək bəhanəsi ilə öz qoşunlarını yeni yaranmış dövlətin ərazisində saxlamaq məqsədini reallaşdırmaq imkanlarını vermişdir (1948-1960). Müqavilə həm də Britaniyanın Malayziya ərazisini digər torpaqların hesabına genişləndirmək imkanı da yaratmışdır. Belə ki, 1962-1966-cı il hadisələrində göründüyü kimi, ölkə ərazisində yerləşən Britaniya qüvvələri İndoneziya ilə ərazi münaqişəsinin Malayziyanın xeyrinə həll olunmasına kömək edir və Sinqapuru, Saravakı və Şimali Borneonu Malayziyanın tərkibinə ke-

çirməkdə fəal iştirak etmişdir. Britaniya ordusu Malayziyanı tərk etdikdən sonra isə ölkə öz silahlı qüvvələri ilə müdafiə olunmağa başlamışdır.

Müsəlman ölkələri olmalarına və yaxın qonşuluq münasibətlərinə baxmayaraq, Malayziya ilə İndoneziya arasında münasibətlərin hamar müstəviyə keçməsi heç də tez asanlıqla baş vermir. İndoneziya Prezidenti Sukarnonun zamanında münasibətlər ən kəskin həddinə çatmışdır. Bu iki ölkə arasında münaqişə Sukarnonun Bruney üsyanını müdafiə etməsi, Malayziyaya kəskin ərazi iddiaları ilə yadda qalmışdır.[1] Lakin Sukarnonun siyasi səhnədən getməsi və Suxartonun hakimiyyətə gəlməsi ilə İndoneziyanın mövqeyində dəyişikliklər baş vermişdir. Bu gün hər iki ölkə ASEAN və ATEC təşkilatlarının üzvü kimi yaxın mövqedə fəaliyyət nümayiş etdirir. Ölkələrin arasında hazırda yalnız Ambalat adası üstündə mübahisələr qalmışdır. Həmin ada isə neftlə zəngin olduğu üçün tərəflər iddialarından əl çəkmək istəmirlər.

Malayziya ilə Sinqapur arasında əsas münaqişə Sinqapuru içməli su ilə təmin edən ölkənin meliorasiya problemləri ilə bağlıdır. Belə ki, Sinqapur tərəfindən həddən artıq içməli suyun istifadəsi Malayziyanın ekoloji durumuna mənfi təsir göstərməkdədir. Malayziya-Sinqapur münaqişələri göstərir ki, dünyada yeni dövrün qarşıdurmalarında su problemi kəskinləşməkdədir.

Lakin sülh və əmin-amanlıq tərəfdarı olan Malayziya dövləti bu mübahisələri dialoq qurmaq və danışıqlar yolu ilə həll etməyə çalışır. Bu cür danışıqlardan sonra 2009-cu ildə Bruney Saravakda yerləşən Limbanqa ərazisinə olan

[1] Капица М. С., Малетин Н. П. Сукарно: политическая биография / М.: Мысль, 1980, с.222

iddialarından əl çəkmiş, bir sıra dəniz sərhədlərinə dair mübahisələri isə danışıqlarla həll etməyə doğru düşünülmüş addımlar atmışdır.

Malayziyanın digər iri müsəlman ölkəsi olan Pakistanla da isti münasibətləri mövcud idi. Lakin 1965-ci ildə İndoneziya ilə Malayziya arasında münaqişəni həll etmək üçün vasitəçi rolunu oynamağa çalışan Pakistan heç bir uğur əldə etmədikdən sonra Malayziya ilə diplomatik əlaqələri pozmalı olmuşdur. Bu zaman Malayziya Hindistana meyillənmiş və onu BMT Təhlükəsizlik Şurasında müdafiə etməyə başlamışdır. Malayziyanın baş naziri isə ölkəsinin addımını belə izah etməyə çalışır ki, Malayziya üçün beynəlxalq əlaqələr dini əlaqələrdən daha üstündür. Bununla belə, hər iki ölkə arasında 2008-ci ildə imzalanmış ticarət müqaviləsi əsasında ölkələrarası əlaqələr müəyyən səviyyədə davam etməkdədir.

Sakit Okean hövzəsi regionunda Malayziyanın Yaponiya ilə münasibətləri daha çox iqtisadi münasibətlərə əsaslanır. İri Yaponiya şirkətlərinin Malayziyada böyük müəssisələri vardır. 2011-ci ilin statistikasına görə, Yaponiyanın Malayziya ərazisində 1400 şirkəti fəaliyyət göstərir. Məhz bu prosesin nəticəsində Malayziyada yeni texniki nailiyyətlərin inkişafı sürətlənmişdir. Bundan başqa, Malayziya Yaponiyada istehsal olunan "Halal" markalı yeyinti məhsullarına da daha çox üstünlük verir. Malayziya-Yaponiya əlaqələri nəticəsində bu ölkədə də müasir informasiya texnologiyalarına əsaslanan yerli sənaye özünəməxsus inkişaf tapmaqdadır.

Beləliklə, bir müsəlman dövləti kimi qloballaşan dünyada Malayziyanın sürətli inkişaf təcrübəsi Azərbay-

can üçün də əhəmiyyətlidir. Həmçinin ASEAN regionu ölkələri ilə əlaqələrin yaradılması baxımından da inkişafda olan Azərbaycan üçün Malayziya cəlbedici və əlverişli ölkə sayıla bilər.

Bütün bunlarla bərabər, Malayziyada xaricə ixrac edilən məhsullarla yanaşı, iqtisadiyyatın inkişafında dövlət sektorlarının böyük yeri vardır. Kənd təsərrüfatının inkişafı və sənaye istehsalına görə Malayziya iki coğrafiyaya bölünür. Qərbi Malayziyanın qərb və cənub hissəsi təsərrüfat və sənaye baxımından aktiv, şimal və şərq rayonları isə bir qədər passiv iqtisadi inkişafa malikdir. Ölkənin kifayət qədər böyük valyuta ehtiyatları olduğu üçün burada iqtisadi inkişafın qarşısına çıxan maneələr, böhranlar güclü təsirə malik ola bilmir. Malayziyanın daxili borcunun az olması da iqtisadi inkişafın sürətinə müsbət təsir göstərən amillərdəndir. İraq müharibəsi zamanı baş vermiş 1997-ci il böhranı ölkə iqtisadiyyatına güclü təsir etməsə də, 2008-ci il dünya böhranı proseslərində ölkənin iqtisadi inkişafında geriləmələr müşahidə olunmuşdur. Lakin Malayziya hökumətinin qəbul etdiyi yeni proqramlar əsasında ölkədə aparılan islahatlar yenidən dirçəlişin təmin olunmasına şərait yaratmışdır.

XX əsrin sonu, XXI əsrin əvvəlləri Cənub-Şərqi Asiya regionunda elmi-texniki və iqtisadi inkişafın sürətlənməsində, bölgənin ixrac potensialının artmasında Malayziyanın böyük payı vardır. Artıq dünyanın hər yerində Cin, İndoneziya, Malayziya, Tailand, Sinqapur, Cənubi Koreya istehsalı olan məhsullar yayılmışdır. Politoloqların fikrincə, “Asiya ölkələrində iqtisadi partlayışla yanaşı, burada daha çox inteqrasiya proseslərinin genişlənməsi

müşahidə olunur. Bu proses Cin, Tayvan, Honq Konq, Aomının daxil olduğu "Böyük Çin" regionunun yaradılmasına gətirib çıxara bilər. İkincisi, böyük masştablı olan Cənub-Şərq inteqrasiyasında Hind-Cin ölkələri, xüsusilə, sürətlə inkişaf edən Tayvan, nəhayət, Asiya-Sakit okean ölkələri: İndoneziya, Malayziya, Sinqapur, Bruney çox fəal iştirak edir".[1] 2009-cu ilin statistik məlumatlarına əsasən, ölkənin ümumi daxili məhsulun real artım nisbəti 1.7 faizdir.

1967-ci ildə ASEAN təşkilatının ilk təsisçilərindən olan Malayziyanın xarici siyasəti, beynəlxalq münasibətləri regional əməkdaşlıq istiqamətində iştirak etməkdədir. Təşkilatın fəaliyyətində ayrı-ayrı illərdə idarəedici funksiyaya malik olan Malayziya ASEAN ölkələrinin 39-cu Daimi Komitəsinin sədri seçilmiş və səmərəli dialoq yarada bilməsi ilə fərqlənmişdir. Həmçinin 2005-ci ilin dekabr ayında ASEAN ölkələri Sammitinə və Cənubi Asiya dövlətləri sammitinə ev sahibliyi etmiş Malayziya regional inkişafa dəstək verdiyini nümayiş etdirmişdir. 2006-cı ilin iyul ayında ASEAN-ın Nazirlər Toplantısının və ASEAN ölkələri Regional Forumunun Malayziyada keçirilməsi də ölkənin regiondakı nüfuzunu göstərən faktlardandır.

Malayziyanın xarici siyasətində islam ölkələri arasında lider olmaq kimi istəyi də vardır. 2003-cü ildə İKT-nin (Islam Konfransı Təşkilatının) və BQH-nın (Bloklara Qoşulmama Hərəkatının) sədri seçilməsi Malayziyanın dünya arenasında maraq obyektinə çevrilməsində mühüm hadisə sayılır. Həmin ildə Malayziya-Rusiya münasibətləri də yeni səviyyəyə çatdırılmışdır. Rusiya Federasiyasının

---

[1] Bax. Ağalar Abbasbəyli. Dünya siyasəti. Bakı, 2011, səh. 435

Prezidenti Vladimir Putinin Malayziyaya səfər etməsi dünyanın diqqətinin Malayziya yönəlməsinə səbəb olmuşdur. Xüsusə, səfər zamanı hərbi əhəmiyyətə malik olan müqavilələrin imzalanması ciddi maraq doğurmuşdur.

1999-2001-ci illərdə Malayziya BMT-nin üzvü kimi bu təşkilatın rəhbərliyi altında Bosniya, Anqola, Küveyt, Qərbi Sahara və Liberiyada keçirilmiş sülhməramlı əməliyyatlarda ölkənin silahlı qüvvələri iştirak etmişdir. Lakin burası da maraqlıdır ki, Malayziya İraqa və Əfqanıstana qoşunlarının göndərilməsinə razılıq verməmişdir.

### 5.2. Azərbaycan-Malayziya ikitərəfli əməkdaşlığı

Keçmiş Sovetlər İttifaqı zamanı Azərbaycanla Malayziya arasında heç bir əlaqə olmamışdır. Ölkəmizin Malayziya ilə münasibətləri dövlət müstəqilliyi illərindən etibarən formalaşmağa başlamışdır. Malayziya 31 dekabr 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini tanımışdır. Lakin ölkələr arasındakı diplomatik əlaqələr 5 aprel 1993-cu ildə yaradılmışdır. Malayziyanın Azərbaycanda rəsmi diplomatik nümayəndəliyi - səfirliyi isə 2014-cü ildə açılmışdır. Azərbaycan Respublikasının Malayziyada səfirliyinin açılması haqqında qərar isə 20 sentyabr 2005-ci ildə verilmiş və 2006-cı ildən həmin ölkədə Azərbaycan səfirliyi fəaliyyətə başlamışdır.

Malayziya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər 13-14 dekabr 1994-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İslam Konfransı Təşkilatının Mərakeş Krallığının Kasablanka şəhərində keçirilmiş 7-ci Zirvə Toplantısında Malayziyanın sabiq Baş naziri Ma-

hatir bin Məhəmmədlə görüşündən sonra inkişaf etməyə başlamışdır. Görüş zamanı iki dövlət arasında ikitərəfli münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılmış, hər iki dövlətin BMT və İKT çərçivəsindəki əməkdaşlığından razılıq ifadə edilmiş və gələcəkdə müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunmuşdur. Bu tarixi görüş gələcək əlaqələrin mühüm siyasi təməlinə çevrilmişdir.

Azərbaycanla Malayziya arasında ikitərəfli münasibətlər cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra əməli fəaliyyətlə davam etmişdir. Bu mənada 2006-cı il Malayziya-Azərbaycan münasibətlərinin tarixində daha səmərəli olmuşdur. Azərbaycan Respublikasının xarici işlər naziri ilə Malayziya xarici işlər nazirinin 16-18 mart 2006-cı il tarixlərində Kuala-Lumpur şəhərində keçirilmiş görüşündə ikitərəfli əlaqələrə dair məsələlər müzakirə olunmuşdur. Azərbaycan tərəfi həmçinin "Malayziyanın İqtisadi İnkişafı" adlı brifinqdə iştirak etmişdir. Ölkələr arasında yaxınlaşma və tanışlıq prosesləri real olaraq başlanmışdır.

19-21 iyun 2006-cı il tarixlərdə isə Malayziyanın xarici işlər naziri S.H.Albar İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin Bakıda keçirilən 33-cu iclasında iştirak etmək üçün Azərbaycan Respublikasında səfərdə olmuşdur. Həmin ilin avqust ayında isə Azərbaycanın Baş naziri A.Rasi-zadə Kuala-Lumpur şəhərində İslam Konfransı Təşkilatının Fövqəladə Zirvə toplantısında iştirak etmişdir. 2006-cı ildə Azərbaycan Malayziya tərəfinin turizm, korrupsiya, miqrasiya məsələlərinə dair təşkil etdiyi bir

neçə rəsmi və qeyri-rəsmi görüşlərdə, seminarlarda, forumlarda təmsil olunmuşdur.

Beləliklə, 2006-cı il Azərbaycan-Malayziya münasibətlərində dönüş ili kimi qiymətləndirilə də bilər. Təsadüfi deyil ki, Azərbaycanın Malayziyada səfirliyi də məhz bu ildə açılmışdır. Bununla belə, bu iki ölkə arasında münasibətlər daha çox beynəlxalq təşkilatlar, xüsusən də İslam Konfransı Təşkilatı çərçivəsində həyata keçirilmişdir.

Azərbaycan tərəfi Malayziya şirkətlərinin ölkəmizin neft sahəsində iştirak etmələrində maraqlı olduğunu ifadə etmişdir. Təsadüfi deyil ki, 2010-cu ildə Azərbaycan Respublikasının fövqəladə hallar nazirinin Malayziyaya səfəri zamanı konkret sahə üzrə əlaqələrdən başqa, ölkələrin neft və qaz şirkətlərinin əlaqələrinə dair məsələlər də müzakirə obyektinə çevrilmişdir.

Azərbaycan və Malayziya arasında parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. 2011-ci ilin may ayında Azərbaycan-Malayziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəsmi nümayəndə heyəti Malayziyaya səfər etmişdir. Malayziya parlamentində də Azərbaycana qarşı böyük maraq və rəğbət vardır.

Bütün bunlara görə Azərbaycanla Malayziya arasında əlaqələr inkişaf etməkdədir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təqdim etdiyi rəsmi statistikaya əsasən, 2011-2012-ci illərdə ölkələr arasında iqtisadi əlaqələr formalaşmış, turizm sektorunda müəyyən canlanma müşahidə olunmuşdur. Bundan sonra hər il ikitərəfli qarşılıqlı əlaqələrdə müsbət dinamika nəzərə çarpmaqda davam etməkdədir.

Azərbaycan Respublikası və Malayziyanın hava nəqliyyatı qurumları arasında 2012-ci ildə Anlaşma Memorandumu, eyni zamanda, Azərbaycanın "Silk Way Airlines" və Malayziyanın "MASkargo" aviaşirkətləri arasında əməkdaşlığa dair Memorandum imzalanmışdır. Bu müqavilələr iki ölkə arasında turizmin inkişafına böyük təkan vermişdir.

Azərbaycanın süni peykinin 2013-cü ildə orbitə buraxılması ilə ölkəmizlə İKT sahəsində əməkdaşlıq təklifləri arasında Malayziya da vardır. Belə ki, Malayziya hökuməti «Azerspace-1»in xidmətindən istifadə üçün Azərbaycanla müvafiq müqavilə bağlamışdır.

Göründüyü kimi, Azərbaycan-Malayziya əlaqələri qısa müddət ərzində böyük məsafə qət edə bilmişdir. Ölkələr arasında əlaqələr özünəməxsus perspektivə malikdir.

## ƏSAS MƏNBƏLƏR:


1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəsmi vebsaytı, Azərbaycan-Malayziya münasibətləri http://mfa.gov.az/files/file/Azerbaycan%20-%20Malaysia%20munasibetleri.pdf.4.07.2013

2. Azərbaycan Malayziyada keçirilən 3-cü İƏT Modeli Sammitində təmsil olunur. http://mod.az/az/society/religion/24469- azerbaycan-malayziyada- kechirilen-3-cu-et-modeli-sammitinde-temsil-olunur-foto.html

3. Dünya ölkələri (tərtib edəni H.Səmədov). Bakı, «KM», 2013

4. Капица М.С., Малетин Н.Р. Сукарно: политическая биография. Москва, «Мысль», 1980

# 6. VYETNAM SOSİALİST RESPUBLİKASI DÜNYA SİYASƏTİNDƏ

## 6.1. Beynəlxalq münasibətlər sistemi və Vyetnam

Məlum olduğu kimi, Cənub-Şərqi Asiya regionu uzun müddət dünyanın gərgin regionlarından biri olmuş və bu qeyri-sabitlik xüsusilə Vyetnamda özünü daha çox göstərmişdir. Ümumiyyətlə, Vyetnamın tarixində sülh dövrləri çox az müddət davam etmişdir. Vyetnam qədim, lakin münaqişələr və müharibələrlə zəngin bir tarixə malikdir. Qanlı münaqişələr və üzücü müharibələr ölkə iqtisadiyyatına ağır zərbə vurmuş, əhalinin sosial-iqtisadi şəraitini ağırlaşdırmışdır.

Ərazi baxımından əlverişli mövqeyə malik olan bu ölkənin cənubundakı Kamran körfəzi Hind okeanı və Sakit okean arasında mühüm strateji mövqedə yerləşir. Buradakı Kamran limanı Asiyanın ilk hərbi limanı olmuşdur. Bu liman hazırda da böyük dövlətlərin diqqət mərkəzindədir. Hərbi-strateji əhəmiyyəti nəzərə alındıqda liman regionda maraqları olan dövlətlərin münasibətlərinə təsir göstərə bilmək imkanlarına malikdir.

Vyetnamın digər dövlətlər üçün cəlbedici olmasının səbəbləri içərisində əlverişli strateji-coğrafi mövqeyindən əlavə, ölkənin təbii ehtiyatlarını və insan resurslarını da qeyd etmək lazımdır. ABŞ-ın Vyetnamdakı səfiri D.Peterson 2000-ci ildə müsahibələrindən birində bu ölkənin Qərb üçün cəlbedici olması haqqında belə demişdi: "Vyetnamın cəlbedici tərəflərindən danışarkən ilk növ-

bədə insan ehtiyatları nəzərdə tutulur. Ölkə əhalisinin 80 faizi gənclərdir... Bundan əlavə, təbii ehtiyatlarını qeyd etmək lazımdır. Vyetnam dünyada ikinci böyük düyü ixracatçısıdır. Bundan əlavə, ölkə regionda mühüm enerji ixracı ilə tanınır. Bu ölkə qəhvə ixracı üzrə də dünyada ikinci yerdədir".[1] Səfir müsahibəsində Vyetnamın ticarət yollarının üzərində yerləşməsini bu ölkənin əlverişli imkanları sırasında ayrıca qeyd etməyi də lazım bilmişdir. Bütün bu xüsusiyyətlərinə görə ölkə ərazisi uğrunda mübarizəyə və müharibələrə səbəb olmuşdur.

Uzun sürən hərbi münaqişələr, xüsusilə Amerika-Vyetnam müharibəsi ölkə iqtisadiyyatına olduqca böyük zərbə vursa da, keçirilən islahatlar sayəsində iqtisadi problemlərin müəyyən bir hissəsi həll olunmuşdur. 1986-cı ildən başlanan "yenilənmə" siyasətinin verdiyi səmərə ölkədə ilkin dirçəlişi yaratmışdır. Ən əsası isə aparılan islahatlar nəticəsində ölkədəki ərzaq problemi qısa müddətdən sonra öz həllini tapmışdır. İqtisadi artım tədricən ölkənin ixracat imkanlarını genişləndirmişdir.

Vyetnam Sosialist Respublikası Çin nümunəsində açıq iqtisadiyyat quraraq, xarici investisiyaların ölkəyə axınını stimullaşdırmışdır. Bəzi ekspertlər belə hesab edirlər ki, mövcud inkişaf sürəti saxlanarsa, Vyetnam da hətta kiçik "Asiya əjdahaları"ndan birinə çevrilə bilər.

Ölkənin qapalılıqdan imtina etməsi burada iqtisadi inkişaf üçün əlverişli şərait yaratmışdır. Vyetnam kommunistləri də Çin kimi dünyaya açılma siyasəti yürüdür. Vyetnam hökuməti tərəfindən 2011-ci ildə qəbul olunmuş "2010-2011-ci illər üçün və 2030-cu il perspektivli xarici

---

[1] Цветов Р.Ю. История Въетнама эпохи обновления - www.ipos-msk.ru/lib/pdf/cvetov.pdf, s.1-18, s.14

siyasət strategiyası" uğurla reallaşdırılır.Qeyd etmək lazımdır ki, əgər ölkənin birləşdirilməsindən öncə Vyetnamın xarici siyasətində böyük dövlətlərə meyil vardısa, hazırda vahid Vyetnam Sosialist Respublikası xarici siyasətdə region dövlətləri ilə, xüsusilə, ASEAN ölkələri, Laos, Kamboca, Çin, Yaponiya və başqaları ilə münasibətlərə xüsusi diqqət ayırır. Bu ölkənin xarici siyasətdə önəm verdiyi ölkələr sırasında sonrakı yeri isə ABŞ, Avropa İttifaqı, Rusiya və Hindistan tutur. Belə siyasət ölkənin xarici siyasəti qarşısında duran yaxın və uzaq məqsədlərin reallaşdırılmasına yönəldilmişdir.

Vyetnam **ASEAN** təşkilatının üzvüdür. Bu ölkə ASEAN-ın digər üzvləri ilə əlaqələrə regional iqtisadi inkişafın geniş imkanı kimi baxır.[1] Lakin son dövrlərdə Vyetnamın xarici siyasətində Qərb dövlətlərinə də meyil artmaqdadır. Bu, həm dünya siyasətində mühüm yerlərdən birini tutmaq, həm də qabaqcıl Qərb texnologiyalarının ölkəyə gətirilməsi istəyi ilə bağlıdır.

ASEAN ölkələri ilə əməkdaşlıq Vyetnamın inkişafı və təhlükəsizliyi üçün mühüm strateji əhəmiyyət kəsb edir. Vyetnamın ABŞ və bir sıra Qərb dövlətləri ilə də münasibətlərinin bərpa olunmasında bu assosiasiyanın rolu böyükdür. Ona görə də Vyetnam hökuməti ASEAN ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatda qarşılıqlı faydalı əməkdaşlığa böyük əhəmiyyət verir. Və bu, ölkənin əlaqələrinin qurulmasına özünün müsbət təsirini göstərir.

Vyetnamın ASEAN ölkələri ilə əsas iqtisadi əməkdaşlıq modeli ticarət əlaqələridir. Ticarət əlaqələrinin miqyası, dinamikası, əmtəə-coğrafi strukturu Vyetnam Sosialist

[1] Коболев К. Въетнам в системе новых политических отношений в Юго-Восточной Азии, Интернет – журнал. Москва, 1993, № 23

Respublikasının sosial-iqtisadi inkişafı və rəqabət qabiliyyətinin səviyyəsi ilə müəyyən olunur. Hazırda ASEAN dövlətləri ilə Vyetnam arasında ticarət-iqtisadi əməkdaşlığın iki səviyyəsi mövcuddur: inteqrasiya birliyinin yeni üzvləri və Bruney ilə əməkdaşlığın aşağı səviyyəsi; Sinqapur, Malayziya, Tailand, İndoneziya və Filippin ilə iqtisadi əlaqələrin nisbətən yüksək səviyyəsi. Vyetnamın Bruney və Myanma ilə iqtisadi əlaqələri, demək olar ki, yoxdur. Başqa sözlə, bu ölkələrin idxal və ixracatında Vyetnamın payı cəmisi 1 faiz təşkil edir.[1]ASEAN üzvü olan dövlətlər də Vyetnama əlverişli satış bazarı kimi baxırlar. Xüsusilə, bu ölkələrin mühafizəkar Avropa və Amerika bazarlarına məhdud çıxışı şəraitində Vyetnam bazarının rolu daha da artmışdır. Məsələn, Sinqapur Vyetnamda ən böyük investisiya sahibi olmaqla hələ ötən əsrin 90-cı illərindən bəri bu ölkədə 49 iqtisadi layihəni reallaşdırmışdır. Bundan əlavə, ASEAN ölkələri ilə Vyetnam arasında iqtisadi və ticarət sahəsində əməkdaşlıq, kreditlər, aviasiya, nəqliyyat sahələrini əhatə edən 40-dan çox saziş imzalanmışdır. Həmin sənədlərdə əməkdaşlığın başlıca istiqamətlərinin reallaşdırılmasının forma və mexanizmləri müəyyənləşdirilmişdir.

ASEAN ölkələri arasında siyasi əlaqələrə gəldikdə isə üzv dövlətlərin siyasi quruluşları arasındakı fərqlərin bu münasibətlərə təsir etmədiyini demək olar. Lakin ASEAN daxilində ölkələr arasında bəzi mübahisəli məsələlər hələ də həll edilməmişdir. Bu problemlər içərisində ən əsası Vyetnam, Bruney, Filippin və Malayziyanın iddia etdik-

---

[1] Воронова Т.А., Ле Анъ Куан. Внешнеэкономическое сотрудничество Вьетнама со странами ASEAN и направления расширения торгово-инвестиционного взаимодействия //Российский внешнеэкономический вестник, №8, 2012, с.46-57

ləri Spratli adalarının mənsubiyyəti məsələsidir. Buna baxmayaraq, ASEAN-a üzvlük Vyetnama bir çox region dövlətləri ilə mübahisələrini tənzimləmək imkanı yaratmışdır. Regiondakı tərəfdaşlarından əlavə, bütövlükdə dünya siyasətində nüfuzunu möhkəmləndirməyə çalışan Vyetnam hətta aralarında ciddi ərazi və digər mübahisələr olan dövlətlərlə belə, münasibətləri gərginləşdirməməyə çalışır. Ölkə rəsmiləri belə hesab edirlər ki, Vyetnamın iqtisadi qüdrətinin artırılması və əhalinin rifah halının yaxşılaşdırılması bir çox problemlərin həllinə müsbət təsir göstərə bilər.

Vyetnam bir çox beynəlxalq təşkilatlarda təmsil olunur. 1977-ci ildən BMT-nin, 1995-ci ildən ASEAN-ın, 2007-ci ildən Ümumdünya Ticarət Təşkilatının və Asiya-Sakit okean İqtisadi Əməkdaşlığı Təşkilatının üzvü olan Vyetnam Sosialist Respublikası hazırda regionun sürətlə inkişaf edən, xarici iqtisadi əlaqələrini genişləndirən ölkələrindən biridir.

Vyetnam xarici siyasətdə Cənub-Şərqi Asiya regionundakı qonşuları ilə münasibətlərə xüsusi əhəmiyyət verir. Lakin ölkənin xarici siyasəti problemsiz də deyildir. Belə ki, Vyetnamın qonşuluğundakı dövlətlərdən olan **Kamboca** ilə münasibətlərində ziddiyyətlər qalır. Çünki Kambocanın Vyetnam və Laosa ərazi iddiaları vardır. Ərazi mübahisələrinin həll edilməməsi ümumi inkişafa mane olan amillərdən biridir.

Kambocada ötən əsrin 70-ci illərində hakimiyyətə qarşı partizan müharibəsi aparan "Qımızı kxmerlər"in siyasəti Vyetnam ilə münasibətlərə mənfi təsir göstərirdi. "Qırmızı kxmerlər" Vyetnamın sərhəd bölgələrinə basqınlar

edir, dinc əhalini qırırdılar. Yalnız Kamboca kommunistləri olan "qırmızı kxmerlər"in müqavimətinin qırılmasından sonra Kamboca hökuməti ilə Vyetnam arasında münasibətlər tənzimləndi və Vyetnam qoşunlarını bu ölkədən çıxardı. Həmin dövrdən etibarən tərəflər münasibətlərdə gərginliyin artmasına yol verməməyə çalışırlar. Münaqişəli şəraitlərin tənzimlənməsində danışıqların aparılmasına üstünlük verirlər. Belə ki, 2014-cü il fevralın 14-də Cenevrədə Vyetnamın BMT, Ümumdünya Ticarət Təşkilatı və digər beynəlxalq təşkilatlardakı daimi nümayəndəliyinin Laos və Kambocanın BMT-dəki missiyaları ilə dostluq görüşü təşkil etməsi həmin məqsədə xidmət edirdi. Görüş zamanı keçirilən müzakirələrdə tərəflər bildirdilər ki, bu görüş üç ölkə arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi üçün əlverişli imkandır.[1] Həqiqətən də həmin görüşdən sonra münasibətlərdə müəyyən istiləşmə hiss olunmağa başladı.

ASEAN ölkələri ilə əlaqələr Vyetnam üçün əhəmiyyətli olsa da, bu ölkələr onun üçün müasir texnologiyalar və investisiya axını mənbəyi deyildir. Həmin səbəbdən Vyetnamın dünyanın inkişaf etmiş ölkələri, artıq qeyd edildiyi kimi Qərb dövlətləri ilə əlaqələri genişləndirməyə ehtiyacı vardır.

Qərb ilə əməkdaşlığın genişləndirilməsi heç şübhəsiz, təkcə müasir texnologiyaların tətbiqi niyyətləri ilə bağlı deyildir. Vyetnamın əvvəllər də yazıldığı kimi, qonşuları ilə ərazi münaqişələri vardır. Məsələn, regionun ən güclü dövləti olan **Çin** ilə Vyetnam arasında tarixi düşmənçiliyə Parasel və Spratli adaları üstündə rəqabət də əlavə olun-

---

[1] Укрепление дружеских отношений между Въетнамом, Ласом и Камбоджей в Женеве, 2014, 16 февраль- http://vovworld.vn/ru, (14.08.2014)

muşdur. Belə ki, tarixdən məlum olduğu kimi, Çin qonşu Laos və Kambocada Vyetnamın təsirinin güclənməsinə daim mane olmuş, bu ziddiyyətlər 1979-cu ildə aralarında hərbi toqquşma ilə nəticələnmişdi. Hətta hər iki ölkədə sosialist sisteminin mövcud olması, kommunist ideologiyasının mövcudluğu münaqişələrin yaranmasının qarşısını ala bilməmişdir.

Vyetnam və Çin arasında digər bir münaqişə də törədilmişdir. Belə ki, Parasel adalarından olan Sişa uğrunda hərbi toqquşma baş vermiş, sonda Çin qalib gələrək adaya nəzarəti ələ keçirmişdir. Vyetnam isə hələ də adaya iddia irəli sürür. Bu isə ik ölkə arasında münasibətlərdəki soyuqluğun səbəblərindən biridir.

Spratli adaları üstündə isə 1988-ci ildə Vyetnam ilə Çin arasında toqquşma olmuş, yenə də Çin qalib gəlmiş, bu zonada öz nəzarət sahəsini bir qədər genişləndirə bilmişdir. Qeyd etmək lazımdır ki, Spratli adalarına Çin və Vyetnamdan başqa Tayvan, Filippin, Malayziya və Bruney də iddia edir. Çünki insan məskunlaşmamış bu adalar çox mühüm strateji əhəmiyyət kəsb edir. Belə ki, bu adalara sahib olmaq Cənubi Çin dənizi su məkanına və buradan keçən dəniz nəqliyyatı yollarına nəzarət etmək deməkdir. Əlverişli coğrafi-strateji mövqeyi səbəbindən adalar sanki «bölüşdürülə bilməyən alma» halına gəlmişdir.

Mövcud olan bütün ziddiyyətlərə baxmayaraq, XX əsrin 90-cı illərindən Vyetnam-Çin münasibətləri sürətlə normallaşmağa başladı. Uzun illər mövcud olan ziddiyyətlərdən sonra 1991-ci ilin noyabr ayında iki ölkənin rəsmi nümayəndələri münasibətlərin normallaşdığını elan etdilər. 1993-cü ilin noyabr ayında isə Vyetnam Sosialist

Respublikasının Prezidenti Le Dık An Çin Xalq Respublikasına səfər etdi. Bu, 1955-ci ildən bəri Vyetnam dövlət başçısının Çinə ilk səfəri idi. Bir il sonra isə Çin Xalq Respublikasının Prezidenti Tszyan Tszeminin Vyetnama səfəri oldu. Danışıqlar zamanı mübahisəli sərhəd problemləri müzakirə olundu. Quru sərhədi və Tonkin körfəzindəki sərhədə dair müzakirələr uğurlu keçdi. Lakin Parasel və Spratli adalarının mənsubiyyəti məsələsinə gəldikdə isə tərəflər status-kvonun saxlanmasında maraqlıdırlar. İki ölkə aralarındakı münasibətləri normallaşdırmaq niyyətindədir. Bunun da başlıca səbəbi tərəflərin öz iqtisadi inkişafları yolunda maneələri aradan qaldırmaq səyləridir. Onların fikrincə, ziddiyyətlər və münaqişə başlıca diqqəti dinc quruculuqdan və inkişafdan yayındırır.

Lakin regionda münaqişələrin davam etməsində maraqlı olan xarici dövlətlər də vardır. Qeyd etmək lazımdır ki, Amerika Birləşmiş Ştatları özünün strateji maraqları naminə Cənubi Çin dənizində təhlükəsizlik məsələlərinə müdaxilə etməyə səy göstərir. Belə ki, ABŞ regiondakı mövqelərini itirməmək üçün müxtəlif vasitələrdən istifadə edir. Belə ki, mütəmadi olaraq keçirilən Şərqi Asiya Sammitlərindən 2010-cu ildə Hanoyda keçirilmiş 5-ci toplantıya ilk dəfə olaraq ABŞ da qatılmış oldu. İndoneziyanın Bali adasında keçirilən və belə demək mümkünsə, "siyasiləşmiş" VI Sammit zamanı ABŞ tərəfi Çinin istəklərinin əksinə olaraq, Cənubi Çin dənizində təhlükəsizlik və sabitlik məsələsinin müzakirəsi təşəbbüsünü irəli sürdü. Pekinin mövqeyi isə ondan ibarət oldu ki, Parasel və Spratli adalarının mənsubiyyəti məsələsi Şərqi Asiya sammitlərində çoxtərəfli formatda deyil, yalnız maraqlı

tərəflərin özləri arasında müzakirə edilməlidir.[1] Məsələyə Vaşinqtonun yanaşması göstərirdi ki, ABŞ öz maraqlarına uyğun olaraq bölgədə gərginliyi artırmağa çalışır. Lakin Çin ilə bərabər, Vyetnam və Spratli adalarına iddiası olan digər dövlətlər də ilk növbədə dinc şəraitdə iqtisadi inkişafa çalışdıqlarından, adalar məsələsinin kəskinləşməsində maraqlı deyildilər. Bu isə onların mövqelərinin ABŞ-dan tamamilə fərqləndiyini sübut edirdi.

Vyetnam Sosialist Respublikasının Prezidenti Çan Dık Lıonqun 2000-ci ildə Pekinə səfəri zamanı iki ölkə arasında XXI əsrdə hərtərəfli əməkdaşlıq haqqında birgə bəyanat imzalanmışdır. Bu əməkdaşlıq sazişi əsasında hazırda Çin Vyetnamda 60-dək layihə həyata keçirir və bu layihələrin bəzisi Vyetnama kreditlər verilməsini nəzərdə tutur. Beləliklə, iki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf etməkdədir. Bu, ABŞ və digər Qərb dövlətlərinin maraqlarına aid olmayıb, Çinin regionda nüfuzu və təsirinin güclənməsi deməkdir. Baxmayaraq ki, Vyetnamın özündə də ABŞ və ümumiyyətlə, Qərblə əməkdaşlığa meyil hiss olunur.

Ümumiyyətlə, hadisə və proseslərin gedişi göstərir ki, son dövrdə ABŞ-ın Asiya-Sakit okean regionunda təhlükəsizlik strategiyasında Hindistan və Vyetnama diqqət artmaqdadır. Lakin bu dövlətlər regionda ABŞ üçün Yaponiyanın əhəmiyyətini əvəz edə bilməz. Yaponiya tərəfi Birləşmiş Ştatların strateji müttəfiqi kimi regionda və o cümlədən Vyetnamda mühüm rol oynamaqda davam edir.

[1] Целишев И.С.Восточная Азия: новая война роста и структурная трансформация, M.:İMGMO RAN, 2012, 118с., с.109

Lakin ABŞ Vyetnama qarşı 1975-ci ildə tətbiq etdiyi ticarət-iqtisadi embarqonu hələ də qaldırmadığından rəsmi Hanoy Avropa İttifaqı və **Yaponiya** ilə əlaqələri möhkəmləndirmək istiqamətində səy göstərir. Avropa və Yaponiyanın bu ölkəyə marağının artmasına səbəb isə ucuz işçi qüvvəsi və regionda siyasi çəkisinin artmasıdır.

Hazırda Yaponiyanın Asiya siyasətinin əsasında keçmiş baş nazir Takeo Fukudanın 1977-ci ildə irəli sürdüyü doktrinası durur. Bu doktrinaya görə, Yaponiyanın Cənub-Şərqi Asiya regionu ölkələri ilə münasibətləri qarşılıqlı etimada əsaslanır. Vyetnam isə bu ölkə üçün həm ASEAN-ın üzvü, həm də ayrıca dövlət olaraq maraqlıdır. Belə ki, Yaponiya ASEAN ilə iqtisadi əməkdaşlıq yaratmaq fikrindədir və bu səbəbdən təşkilatın üzvləri ilə əlaqələrin genişləndirilməsi onun üçün böyük əhəmiyyət kəsb edir. Bundan əlavə, dünyanın böyük iqtisadiyyatlarından biri olaraq, Yaponiya dünyada öz geostrateji rolunun da artmasına, o cümlədən, BMT Təhlükəsizlik Şurasında daimi üzvlüyə nail olmağa çalışır. Vyetnam isə onun bu istəkləri ilə razılaşır. Belə yanaşma hər iki ölkə arasında münasibətlərdə müəyyən bir istilik yaradır.

Vyetnam Sosialist Respublikasının Baş naziri Vo Van Kiyetin hələ 1992-ci ildə Yaponiyaya səfəri zamanı rəsmi Tokio bildirmişdi ki, Hanoyun simasında Hind-Çin yarımadasında sabitlik və təhlükəsizlik təminatçısını görür. Yaponiya o zaman 14 illik fasilədən sonra yenidən Vyetnama yardım proqramının həyata keçirilməsinə, güzəştli borclar verilməsinə başlamışdır.

Yaponiya Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Forumu, Ümumdünya Ticarət Təşkilatı, Asiya-Avropa İqtisadi

Əməkdaşlığı kimi beynəlxalq təşkilatlar vasitəsi ilə Vyetnamın regional və beynəlxalq inteqrasiyaya qoşulmasına yardım edir. Bundan əlavə, Yaponiya hazırda İnkişafa Rəsmi Yardım xətti üzrə Vyetnama ən çox kredit verən ölkə, həmçinin Vyetnamın üçüncü ən böyük ticarət tərəfdaşıdır.

Qonşuları ilə münasibətlərlə yanaşı rəsmi Hanoy geniş beynəlxalq əlaqələr qurmaq üçün də səylər edir. Vyetnam üçün Avropa İttifaqının inkişaf etmiş ölkələri ilə də münasibətlərin yoluna qoyulması xüsusi əhəmiyyət kəsb edir. Avropa bazarının Vyetnam məhsulları üçün açılması bu ölkənin xarici iqtisadi siyasətinin böyük uğurudur. Öz növbəsində Avropa da bu ölkəyə geniş xammal və ucuz işçi qüvvəsi bazarı kimi baxır.

Qərblə əlaqə baxımından Vyetnam Sosialist Respublikasının tarixində ilk dəfə Fransanın Prezidenti F.Mitteranın bu ölkəyə səfəri mühüm yer tutur. Səfər zamanı keçirilən danışıqlar göstərdi ki, Fransa Vyetnama qayıtmaq və onu regionda öz dayaq nöqtəsinə çevirmək haqqında ciddi düşünür. Hanoy isə Fransaya Vyetnamın Avropa İttifaqının assosiativ üzvü olmaq cəhdlərinin reallaşması üçün vasitəçi kimi ehtiyac duyur. Bundan sonra Qərblə əlaqələr bir qədər genişlənmiş və 2012-ci ilin iyun ayında Vyetnam ilə **Avropa İttifaqı** arasında əməkdaşlıq müqaviləsinin imzalanması baş tutmuşdur. Hazırda isə bu sahədə əlaqələrin daha da genişləndirilməsi istiqamətində danışıqlar aparılır. 2014-cü ildən azad ticarət məsələlərinə dair Vyetnam ilə Avropa İttifaqı arasında danışıqlar yenidən aktivləşmişdir.

Avropa İttifaqına üzv olan ölkələr Vyetnam məhsullarının satışı üçün əsas bazardır. Vyetnamın bu ölkələrə məhsul ixracının həcmi 24.4 milyard dollar təşkil edir. Avropa ölkələrindən isə Vyetnama məhsul idxalının həcmi 9,2 milyard dollardır.

Avropa İttifaqının 2014-cü ilin yanvar ayından qüvvəyə minmiş Ümumi İmtiyazlar Sistemi adlı yeni mexanizmə görə, hər hansı bir ölkədən həmin sistemi tətbiq edən Avropa ölkələrinin məhsul idxalının həcmi 17,5 faizi keçirsə, həmin ölkə imtiyazlardan yararlana bilər. Vyetnam Avropaya bəzi məhsulların (kofe, çay, ədviyyat, geyim) ixracı sahəsində yuxarıda qeyd olunan həcm məhdudiyyətini keçməyə cəhd göstərir. Bu isə Vyetnama Avropa İttifaqına üzv olan ölkələr ilə ticarətdə güzəştlər əldə etmək imkanı verəcəkdir. Beləliklə, Vyetnam Avropa İttifaqı bazarında möhkəmlənə biləcəkdir.

2009-cu ildə Avropa İttifaqının üzvü olan ölkələr ASEAN ilə azad ticarət haqqında danışıqlara başlamışlar. Lakin tezliklə bu sahədə danışıqlar dayandırılmış, Avropa İttifaqı regionun ayrı-ayrı dövlətləri ilə ikitərəfli danışıqlara üstünlük vermişdir. Çünki hələlik Avropa İttifaqı ASEAN ilə əməkdaşlığı nisbətən sonrakı mərhələ üçün nəzərdə tutur. Bu, həm də manevr imkanları, daha əlverişli şərtlər əldə etmək üçün şərait qazanmaq deməkdir.

**ABŞ** ilə ikitərəfli əlaqələrə gəldikdə isə, 2000-ci ildə münasibətlərin normallaşmasından sonra Vyetnamla iqtisadi əlaqələr sürətlə inkişaf etməyə başladı. Hazırda VSR-in ABŞ ilə ticarət dövriyyəsində əlavə gəliri 7,5 milyard dollar təşkil edir. Bu göstərici Vyetnamın ixrac etdiyi toxuculuq sənayesi məhsulları həcminin 49 faizini təşkil edir.

Öz növbəsində ABŞ Yaponiya, Tayvan, Cənubi Koreya, Sinqapurdan sonra Vyetnama birbaşa investisiya qoyan ölkələr içərisində mühüm yer tutur.

ABŞ-ın yüksək vəzifəli məmurlarının ASEAN ölkələri paytaxtlarına mütəmadi səfərləri regionun bu ölkənin xarici siyasətində böyük əhəmiyyət daşıdığını göstərir. Ağ Ev Çinin əksinə olaraq Cənubi Çin dənizindəki adaların mənsubiyyəti məsələsində Vyetnamın mövqeyini müdafiə edir.

2013-cü ildə iki ölkənin prezidentləri Barak Obama və Çlonq Tanq Şanqın görüşü zamanı danışıqların əsas mövzularından biri də məhz adalar məsələsi idi. Vyetnam prezidenti görüş zamanı öz amerikalı həmkarına adalar məsələsində Vyetnamın tərəfində olduğu üçün öz minnətdarlığını bildirmişdir.

İnternet materiallarından görünür ki, Vyetnam ABŞ ilə əlaqələrini bir qədər irəli apara bilmişdir. Bu isə regionda ABŞ-Çin rəqabətinin hələ də mövcud olduğunu göstərir.

ABŞ ilə münasibətlərini qaydaya salan Vyetnam Dünya Bankının, Asiya İnkişaf Bankının, daha sonra 1995-ci ildə ASEAN-ın üzvlüyünə qəbul edilmişdir. Getdikcə ASEAN təşkilatının fəaliyyətində yaxından iştirak edən Vyetnam 2010-cu ildə bu quruma sədrlik etmişdir. Bütün bunlarla yanaşı olaraq, ölkə 1998-ci ilin noyabr ayında Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Forumuna (APEC) daxil olmuş və 2006-cı ildə forumun Sammitinə sədrlik etmişdir. 2007-ci ilin yanvar ayında isə Vyetnam ilk dəfə olaraq 2008-2009-cu illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bunlar Vyetnam Sosialist Respublikasının beynəlxalq münasibətlərdə və geniş mənada dünya siyasətində qazandığı uğurlar deməkdir.

Bu addımlar Vyetnamın getdikcə artan beynəlxalq nüfuzunun göstəricilərindəndir. Buna baxmayaraq, ABŞ ilə Vyetnam arasında hələ də öz həllini tapmamış məsələlər mövcuddur. Bunlar insan hüquqları məsələsi və ABŞ-ın Vyetnama silah satışına qoyduğu embarqodur. Lakin Vyetnam bu problemlərin də həlli üçün səy göstərir. Ona görə də ABŞ-la Vyetnam arasında sərt qarşıdurma görünmür.

Vyetnamın xarici siyasət fəaliyyətində xüsusi yerə malik dövlətlərdən biri də **Rusiya Federasiyası**dır. Doğrudur, Sovet İttifaqının dağılmasından sonrakı ilk vaxtlarda Rusiyanın Vyetnama marağı bir qədər zəifləmişdir. XX əsrin sonlarında Moskva Hanoy ilə ticarət-iqtisadi əməkdaşlığı bərpa etmək sahəsində cəhdlər etsə də, hələ Rusiya Federasiyasının Vyetnama münasibətdə aydın, uzunmüddətli strategiyası müəyyənləşdirilməmişdir.[1] Buna baxmayaraq, son zamanlar Rusiya siyasi dairələrinin bəyanatları Cənub-Şərqi Asiya regionu istiqamətində bu dövlətin siyasətinin getdikcə fəallaşdığını göstərir. Belə ki, Rusiya Asiyada Çin və ABŞ-ın fəallaşmasından narahatdır. Bu dövlət regionda mövqelərinin tamamilə itirilməsini istəmir. Rusiyanın ABŞ-a qarşı Çin ilə eyni mövqedə durmasına baxmayaraq, Birləşmiş Ştatların Asiyadakı nüfuzunun artması Rusiyanın maraqlarına uyğun gəlmir. Rusiya ABŞ-ın nüfuzunun genişlənməsinin qarşısının alınması üçün bütün vasitələrdən istifadə edir. Heç əbəs deyildir ki, 2012-ci ildə Rusiya Kamran körfəzindəki hərbi-dəniz bazasından istifadəyə yenidən marağının yarandığını bəyan etmişdir. Çox güman ki, bu maraq Rusiya-Vyetnam

---

1 Коболев К. Въетнам в системе новых политических отношений в Юго-Восточной Азии. Интернет журнал, RAU, №25. 1993, www.observer.materik.ru/observer/N25_93/25_07.HTM

arasında şelfdə birgə enerji layihələrindən irəli gəlir. Lakin həmin hərəkət Çin tərəfindən etirazla qarşılanır. Belə ki, Pekin dəfələrlə Rusiyadan Cənubi Çin dənizində enerji ehtiyatları kəşfiyyatını dayandırmasını tələb etmişdir. Moskva isə Çin ilə münasibətlərini gərginləşdirməmək üçün həmin tələbə kəskin reaksiya vermədən bu sahədə fəaliyyətini davam etdirir. Digər tərəfdən də Rusiya Vyetnama silah satışının həcmini artırmışdır. Bir sözlə, iki ölkə arasında münasibətlər XXI əsrdə strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Qeyd etmək lazımdır ki, ABŞ-ın Vyetnama silah satışına qoyduğu embarqo da Rusiya üçün faydalı olmuşdur. Belə ki, Vyetnamın silah idxalının çox hissəsi Rusiya Federasiyasının payına düşür. Əslində bu, o deməkdir ki, silah bazarından Rusiya ABŞ-ı sıxışdırıb çıxarmışdır.

Aydındır ki, Vyetnamın son zamanlar silah idxalı və hərbi qüvvələrini modernləşdirmək istiqamətində fəallığının səbəbi Çinə qarşı təhlükəsizliyini təmin etmək səyləridir. Cənubi Çin dənizindəki adalar və şelfdə karbohidrogen ehtiyatları kəşfiyyatı sahəsində Çin ilə Vyetnam arasındakı ziddiyyətlər hərbi qarşıdurma səviyyəsinədək çatmışdır. Bu səbəbdən də Çin kimi rəqibə qarşı təhlükəsizliyini, həmçinin adalara qarşı iddialarını təmin etmək üçün Vyetnamın güclü tərəfdaşlara və hərbi qüvvəyə ehtiyacı vardır.

Bundan əlavə, Cənub-Şərqi Asiyanın digər dövlətləri kimi, Vyetnam da region dövləti olmayan Rusiyaya milli maraqları üçün təhlükə kimi baxmır. Baş verən proseslər göstərir ki, Vyetnam Rusiyanın regiondakı iştirakını "strateji tarazlıq" yaratmaq baxımından da faydalı hesab edir.

Regionda marağı olan dövlətlərin Rusiyaya təhlükə kimi baxmadığına daha bir misal Kamran buxtasında Rusiya hərbi bazasının saxlanması haqqında Rusiya ilə Vyetnam arasında razılaşmaya ASEAN və ABŞ-ın da etiraz etməmələridir. Çünki onlar bu hərbi bazanı ciddi təhlükə hesab etmirlər. Qeyd etmək lazımdır ki, həmin baza mübahisəli Spratli adaları yaxınlığında yerləşir.

Vyetnam Sosialist Respublikasının xarici siyasət fəaliyyətində Hindistan Respublikası ilə münasibətlər özünəməxsus yer tutur. Bu münasibətlərin tarixi o qədər də dərin deyildir. Vyetnam ilə **Hindistan** arasında münasibətlər 1972-ci ildə qurulsa da, 2007-ci ildə Vyetnamın baş naziri Nquen Tan Zunqun Hindistana rəsmi səfərindən sonra iki ölkə strateji əməkdaşlıq haqqında birgə bəyanat imzalamışdır. Bu bəyanat Vyetnam-Hindistan ikitərəfli əlaqələrinin inkişafında mühüm əhəmiyyətə malikdir. Bəyanatda ölkələr arasında əməkdaşlığın əsas istiqamətləri və həyata keçirilmə formaları öz əksini tapmışdır.

Hindistan ilə Vyetnam arasında müdafiə və təhlükəsizlik sahəsində əlaqələr baxımından yüksək səviyyəli hərbçilərin görüşləri, hərbi treninqlər və birgə təcrübə mübadiləsi məsələləri genişlənir.[1] Bir sözlə, Vyetnamın Cənubi Asiya regionunda xarici siyasət kursu uğurla həyata keçirilməkdədir. Və Vyetnam Sosialist Respublikası Asiyada inkişaf etmiş ölkələrdən birinə çevrilmişdir.

Bundan başqa, Vyetnam Sosialist Respublikası hələ Sovetlər İttifaqı dövründə yaxşı əlaqələri olmuş Müstəqil Dövlətlər Birliyi ölkələri ilə də əlaqələrini yenidən qurmağa səy göstərir.

---

[1] Sadhavi Chauhan, İndia-Vietnam defence cooperation: slow but steady progress // Orf issui brief, November, 2013, 8 p., s.3.

Beləliklə, ötən əsrdə nail olunan iqtisadi inkişaf və dünya siyasətində mövqeyini möhkəmlətmək məqsədini uğurla reallaşdırması Vyetnam Sosialist Respublikasını istər region, istərsə də dünya səviyyəsində beynəlxalq münasibətlərin fəal subyektinə çevirmiş, ölkənin xarici iqtisadi və siyasi əlaqələrinin genişləndirilməsinə ciddi təkan vermişdir. Artıq Vyetnam Asiyanın dünya bazarlarına sürətlə çıxan, möhkəmlənən və digər ölkələrlə rəqabət aparmaq qabiliyyəti olan dövlətinə çevrilmişdir.

### 6.2. Azərbaycan Respublikası – Vyetnam əlaqələri

Qədim və zəngin tarixə malik, çoxlu müharibə və itkilərlə qarşılaşmış, 22 il parçalanmış vəziyyətdə qalan Vyetnam 1976-ci ildə Kommunist Partiyasının rəhbərliyi altında birləşdikdən sonra daxili və xarici siyasətdə bir sıra uğurlar qazanmışdır. İslahatlar sayəsində məqsədyönlü şəkildə inkişaf etməkdə olan Vyetnam Sosialist Respublikası qonşuları və dünya dövlətləri ilə iqtisadiyyat, siyasət və mədəniyyət sahələrində geniş əlaqələr qurmuşdur. Ümumiyyətlə, Vyetnamın iqtisadi inkişafında başlıca amillərdən birini bu ölkənin xarici iqtisadi əlaqələri təşkil edir. Beynəlxalq və regional təşkilatlarda iştirakı bu ölkənin böyük həcmli iqtisadi yardımlar, kreditlər almasına, eləcə də ayrı-ayrı regionlarda ticarət əlaqələri qurması iqtisadiyyatının inkişafına müsbət təsir göstərmişdir.

Vyetnamın daxil olduğu Cənub-Şərqi Asiya regionu ilə əlaqələr Azərbaycan Respublikasının da xarici siyasətində mühüm yerlərdən birini tutur. Belə ki, son illərdə Azərbaycanın qlobal miqyasda nüfuzunun artmasndan sonra ölkəmizin Cənub-Şərqi Asiya regionu ilə də əlaqələ-

ri genişlənmişdir. Vyetnam ilə Azərbaycan arasında diplomatik münasibətlər müstəqilliyimizin əldə edildiyi ilk dövrlərdən qurulsa da, iki ölkə arasında münasibətlərin XXI əsrdəki inkişafı xüsusilə nəzərə çarpır.

Qeyd etmək lazımdır ki, Azərbaycan-Vyetnam əlaqələrinin əsası hələ Sovetlər İttifaqı dövründə qoyulmuşdur. Bu sahədə əvəzsiz rolu olan Ümummilli lider Heydər Əliyevin xidmətləri xüsusilə qeyd edilməlidir. Belə ki, 1983-cü ilin oktyabrında Sovet-Vyetnam dostluq və əməkdaşlıq müqaviləsinin beş illiyi münasibətilə Vyetnam Sosialist Respublikasında keçirilən təntənəli tədbirlərdə iştirak üçün SSRİ Nazirlər Sovetinin birinci müavini Heydər Əliyevin rəhbərliyi ilə SSRİ nümayəndə heyəti Hanoya səfər etmişdi. Oktyabr ayının 28-də Sovet nümayəndə heyətini Vyetnam partiya və hökumət rəhbərləri qəbul etmişdilər. Heydər Əliyevin o zaman Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin baş katibi Le Zuan və digər Vyetnam liderləri ilə yüksək səviyyəli görüşləri iki ölkə arasında münasibətlərin inkişafında mühüm rol oynamışdır.

Oktyabrın 31-də isə Hanoyda SSRİ ilə Vyetnam Sosialist Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin beş illiyi münasibətilə keçirilən mitinqdə nitq söyləyən Heydər Əliyev beş il əvvəl imzalanan müqavilənin iki ölkənin münasibətlərini keyfiyyətcə yeni mərhələyə çatdırmasından və Sovet-Vyetnam dostluğunun getdikcə möhkəmlənməsindən bəhs etmişdi.[1]

Həmin dövrdə Azərbaycan və Vyetnam arasında sənaye, xüsusilə neft və qaz sektoru, təhsil və digər sahələr-

---

[1] "Mən fəxr edirəm ki, azərbaycanlıyam: Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti" (elektron resurs), Bakı: Regionların İnkişafı İctimai Birliyi, 2008, 57s.-http://filis.preslib.az/projects/toplu/v2/fl_2.pdf

də münasibətlər qurulmuşdur. Azərbaycanın neft və qaz sahəsi üzrə mütəxəssisləri Vyetnamın neft sənayesinin inkişafında əvəzsiz xidmətlər göstərmiş, iki ölkə arasında tələbə mübadiləsi genişlənmişdir. Vyetnam diplomatik missiyalarının rəsmi məlumatlarında da Azərbaycanın hələ SSRİ tərkibində olarkən Vyetnama neft və qaz sahəsində mütəxəssislər hazırlığında yaxından iştirak etdiyi qeyd olunmuşdur. Belə ki, hələ sovet dövründə Azərbaycanın ali məktəblərində, xüsusən də Neft Akademiyasında vyetnamlı gənclər müxtəlif ixtisaslara yiyələnmişlər. Onlar vətənə döndükdən sonra Vyetnamda mühüm dövlət vəzifələrində işləmişlər. Lakin Azərbaycan ilə Vyetnam arasında qardaşlıq və ənənəvi səviyyədə münasibətlərin mövcud olmasına baxmayaraq, müstəqillikdən sonra uzun müddət yüksək səviyyəli görüşlər keçirilməmişdir. Belə ki, Vyetnam Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 27-də tanımış, 1992-ci ilin sentyabrın 23-də isə iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. Lakin müəyyən müddət fasilədən sonra ölkələr arasında yüksək səviyyəli nümayəndə heyəti mübadiləsi 2010-cu ildə Vyetnam Sosialist Respublikası baş nazirinin müavini Honq Çjun Hayın Azərbaycana səfəri ilə bərpa edilmişdir.

Yüksək səviyyəli rəsmi səfərlərin təşkilinə qədər də Vyetnam və Azərbaycan BMT və beynəlxalq forumlarda daim əlaqə saxlamış, birgə fəaliyyət göstərmişlər. Başqa sözlə, Vyetnamı təmsil edən nümayəndə heyətləri beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasının mövqeyi ilə həmrəylik nümayiş etdirmişlər. Bunun səbəbi Azərbaycan ilə Vyetnam arasında münasibətlərin dərin və möhkəm köklərə əsaslanması, eləcə də ölkələrimizin

daim ədalət prinsiplərinə sadiq qalmasıdır. İki ölkə arasında tarixi əlaqələrin əsasının qoyulmasında isə Heydər Əliyevin misilsiz xidmətləri vardır. Bunu iki ölkə arasında keçirilən müxtəlif formatlı görüşlər zamanı Vyetnam nümayəndələri də xüsusi olaraq qeyd edirlər.

2010-cu ildə Vyetnam və Azərbaycan arasında diplomatik pasport sahibləri üçün vizanın aradan qaldırılması barədə razılaşma və iki ölkənin xarici işlər nazirlikləri arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır.

Səfirliyin açılmasına qədər iki ölkə arasındakı əlaqələr iqamətgahı Moskvada olmaqla Vyetnamın Azərbaycandakı səfirliyi vasitəsi ilə həyata keçirilmişdir. 2013-cü ildə isə Azərbaycan Respublikası Vyetnam Sosialist Respublikasında öz səfirliyini açmışdır. Bu hadisə Azərbaycan dövlətinin Asiya siyasətində fəallaşmasının daha bir göstərici idi. Belə ki, dünya siyasətində nüfuzu artan Azərbaycan Respublikası xarici siyasət istiqamətlərini Cənub-Şərqi Asiya regionuna doğru genişləndirir. Bu addım da həmin strateji məqsədə uğurla xidmət etmişdir.

İki ölkə arasında qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi üçün qarşılıqlı səfərlərin təşkili son vaxtlarda daha da artmışdır. 2014-cü ilin may ayında Vyetnam Milli Assambleyasının sədr müavini Uonq Çu Lu və xarici işlər nazirinin müavini Nquyen Puonq Nqa Azərbaycana səfər etmişlər. Bu səfər yeni mərhələdə əlaqələrin qurulmasının başlanğıcına çevrilmişdir. Azərbaycan Respublikasının xarici işlər naziri ilə görüşən Vyetnam xarici işlər nazirinin müavini əməkdaşlıq məsələlərini müzakirə edərək Dövlət Neft Şirkəti ilə “Petro Vietnam” şirkəti arasında yaradılmış əməkdaşlığın daha da inkişafında maraqlı ol-

duqlarını bildirmişdir. Görüş zamanı Nquyen Puonq Nqa Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nümayəndə heyətini Vyetnama rəsmi səfərə dəvət etmişdir.

Azərbaycan və Vyetnam arasında ikitərəfli görüşlərdə müzakirələrin mövzusu göstərmişdir ki, Vyetnam SSRİ zamanı olduğu kimi, müasir dövrdə də neft və qaz sektorunda əlaqələrdə xüsusilə maraqlıdır. Qeyd etmək lazımdır ki, Vyetnam Milli Neft və Qaz Qrupu (Petro Vietnam) ölkəmizdəki həmkarları ilə əməkdaşlıq üçün hələ 2011-ci ildə Azərbaycanda öz ofisini açmışdır.

Digər sahələrdə də iki ölkə arasında əlaqələr uğurla inkişaf etdirilir. Bunlara misal olaraq, 2007-ci ildə Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları nazirinin Vyetnama işgüzar səfərini, 2013-cü il 11-13 aprel tarixlərində isə Vyetnamın xarici işlər naziri müavininin Bakıda keçirilən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Məzunları Forumunda iştirakını və digər ikitərəfli əlaqələri göstərmək olar. Bu forum Azərbaycan-Vyetnam münasibətlərində əhəmiyyətli səhifələrdən biri olmuşdur. Həmin səfərlər sayəsində artıq bir neçə sahə üzrə əməkdaşlıq üçün zəmin hazırlanmışdır.

Müşahidələr göstərir ki, iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlıq genişlənir. Belə ki, ölkələr arasında ikitərəfli ticarət dövriyyəsi 2013-cü ildə 325 milyon dollar təşkil etmişdir. Bu da 2012-ci illə müqayisədə ticarət dövriyyəsinin 10 dəfə artması deməkdir. Məlum olduğu kimi, Vyetnam ölkəmizə əsasən mobil telefonlar, kompüter, elektronika və dəniz məhsulları ixrac edir, Azərbaycandan isə xam neft və benzin alır. Bu proses ildən-ilə genişlənməkdə davam edir.

Beləliklə, iki ölkə arasında uzun müddətdir ki, diplomatik münasibətlərin mövcudluğuna baxmayaraq, yalnız son bir neçə il ərzində ikitərəfli əlaqələrdə nəzərəçarpacaq fəallıq nəzərə çarpır. Bunun da bir sıra səbəbləri vardır. Məlum olduğu kimi, aralarındakı əlaqələr müəyyən tarixə malik olsa da, Azərbaycan - Vyetnam münasibətləri əsasən tələbə və neft sahəsində təcrübə mübadiləsindən ibarət olmuşdur. Digər sahələrdə geniş miqyaslı birgə fəaliyyət nəzərə çarpmır. Fikrimizcə, bu hal təbiidir. Çünki regionlarımız arasındakı məsafə maraqların uzlaşdığı əməkdaşlıq üçün təbii çətinliklər yaratmışdır. Bu mənada yalnız neft və qaz sektoru istisnadır. Lakin son dövrlərdə Cənub-Şərqi Asiya regionundakı proseslər və iqtisadi inteqrasiya, sürətli artım tempi, eləcə də geniş bazar və ucuz işçi qüvvəsi bütün dünya sərmayəçilərini bu regiona cəlb etmişdir. Bir çox siyasi şərhçilər son illərdə Azərbaycanın Vyetnama artan marağını məhz ölkələrin Cənub-Şərqi Asiya regionu bazarına çıxmaq niyyəti ilə izah edirlər.

Hələ SSRİ dövründə Azərbaycan-Vyetnam iqtisadi əlaqələrinə dair vaxtilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Milli Məclisin 1993-cü il 29 sentyabrda keçirilən iclasında çıxışı zamanı dediyi aşağıdakı sözlər mühüm əhəmiyyətə malikdir: "Mən Moskvada işlədiyim dövrdə Afrikanın cənubunda, Cənubi Asiyada - Laosda, Vyetnamda, Şimali Koreyada olarkən orada Bakı kondisionerlərini görəndə sevinirdim ki, Azərbaycan Respublikasının, Azərbaycan xalqının da istehsal etdiyi məhsullar dünya miqyasına çıxıb".[1] Bu fakt ölkələrimiz

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr). Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612 s, s.126

arasında, SSRİ-nin vahid xarici siyasi kursu çərçivəsində olsa da, hələ o zamandan əlaqələrin mövcud olduğunu göstərir.

Son illərdə Azərbaycan-Vyetnam münasibətlərində irəliləyiş müşahidə olunur. Belə ki, Prezident İlham Əliyevin 2014-cü ilin 18 may tarixində başlanan və həmin ayın 20-dək davam edən Şərqi və Cənub-Şərqi Asiya regionuna səfəri Azərbaycan Respublikasının bu regiona marağının artdığını bir daha göstərir. Qeyd etmək lazımdır ki, Azərbaycan Prezidentinin Cənub-Şərqi Asiya regionuna bu səfəri Vyetnamdan başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Sosialist Respublikasına ölkənin prezidenti Truonq Tan Sanqın dəvəti ilə səfər etmişdir. Səfər zamanı Prezident İlham Əliyevlə Truonq Tan Sanq arasında əvvəl təkbətək, sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilmiş, beynəlxalq təşkilatlarda əməkdaşlığın genişləndirilməsi, enerji, elm, təhsil, turizm, investisiya qoyuluşları və s. sahələrdə əməkdaşlıq məsələləri geniş müzakirə olunmuşdur.

Bundan başqa, Azərbaycan Respublikasının Prezidenti Vyetnam Sosialist Respublikası Milli Assambleyasının sədri Nquyen Sinh Hanq və ölkənin baş naziri Nquyen Tan Zunq ilə də görüşmüşdür. Danışıqlar zamanı ikitərəfli siyasi, iqtisadi, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq məsələləri müzakirə obyektinə çevrilmişdir.

Ölkəmizin Prezidenti İlham Əliyevin Vyetnam səfəri zamanı daha bir görüş Azərbaycan ali məktəblərinin məzunu olmuş vyetnamlılarla təşkil olunmuşdur. Məlum olduğu kimi, Sovet dövründə Sovet İttifaqı-Vyetnam dostluğunun tərkib hissəsi kimi bu ölkəyə hərtərəfli yardım

proqramı əsasında çox sayda vyetnamlı tələbə SSRİ-də, o cümlədən Azərbaycan SSR-də təhsil almışdır. Vyetnamın neft və qaza tələbatının olması ilə əlaqədar həmin sektorda mütəxəssislərə ehtiyac duyulduğundan Azərbaycana gələn tələbələrin əksəriyyəti bu sahə üzrə təhsil alırdılar. İlham Əliyevin bir zamanlar Azərbaycanda təhsil almış həmin Vyetnam vətəndaşları ilə görüşü zamanı da onların hazırda iki ölkə arasında münasibətlərdə mühüm rol oynadıqları qeyd olunmuşdur.

Səfərin gedişində mayın 19-da keçirilən Azərbaycan-Vyetnam biznes forumunda iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin prioritetləri və bu sahədə təkliflər müzakirə olunmuşdur. Forumda Azərbaycanı 50-dən artıq iş adamı təmsil etmiş və onlar vyetnamlı sahibkarlarla fikir mübadiləsi aparmışlar. İki ölkə arasında kənd təsərrüfatı, qida sənayesi, xüsusilə də neft-qaz sənayesi, kimya, maşınqayırma, yüngül sənaye və digər sahələrdə əməkdaşlığı genişləndirmək qərara alınmışdır.[1]

Azərbaycan Respublikası Prezidentinin Vyetnama dövlət səfərinin sonunda Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanq və xanımı Mai Thi Han tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə dövlət ziyafəti verilmişdir. Bu mərasimdə çıxış edən Vyetnam Prezidenti Vyetnam xalqının müstəqillik uğrunda mübarizəsinin və yeni dövlət quruculuğunun çətin illərində Azərbaycan xalqının göstərdiyi köməyi heç vaxt unutmayacaqlarını vurğulamış və sabiq prezident Ho Şi Minin 1959-cu ildə Bakıya səfərdən sonra dediyi sözləri diqqətə çatdırmışdır: "Vyetnam müha-

[1]İsmayılqızı X. İlham Əliyev: Mən əminəm ki, Azərbaycan Vyetnam üçün regionda strateji tərəfdaş olacaq. "İki sahil" qəz., 2014, 22 may, s.6

ribəsində qalib gələndən sonra bütün SSRİ, o cümlədən Azərbaycan neft və qaz hasilatı və emalında, Bakıdakı kimi güclü neft sənayesi zonaları yaradılmasında Vyetnama kömək etmişdir”. Bundan əlavə, Vyetnam prezidenti sovet dövründə Heydər Əliyevin Vyetnama səfərindən bəhs edərək ölkədəki quruculuq işlərində onun Vyetnam xalqını dəstəklədiyini də qeyd etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də öz növbəsində iki ölkə arasında münasibətlərin inkişaf etdiriləcəyi və müxtəlif sahələrdə əməkdaşlıqla bağlı konkret tapşırıqlar verildiyi haqqında danışmışdır (“Vyetnam Prezidenti Truonq Tan Sanq tərəfindən İlham Əliyevin şərəfinə dövlət ziyafəti verilmişdir”, 19 may, 2014- president.az/articles/11770).

Azərbaycan Respublikası Prezidentinin Vyetnama bu səfəri məhsuldar və konstruktiv səfər hesab edilə bilər. Əslində bu səfər Azərbaycanın son illərdə aktivləşən Vyetnam siyasətində zirvə nöqtəsidir. Belə ki, İlham Əliyevin bu səfəri iki ölkə arasında münasibətlərdə dövlət başçısının ilk səfəri idi. Səfər çərçivəsində ölkələrimiz arasındakı münasibətlərdə, demək olar, bütün sahələr müzakirə edilmiş və bir sıra mühüm əhəmiyyətli sənədlər imzalanmışdır. İmzalanan sənədlər dövlətlər arasında münasibətlərin inkişafını daha da möhkəmləndirmişdir. Belə ki, Azərbaycan Prezidentinin Vyetnama səfəri çərçivəsində “Azərbaycan Respublikası hökuməti və Vyetnam Sosialist Respublikası hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki əməkdaşlıq haqqında saziş” və “Azərbaycan Respublikası hökuməti və Vyetnam Sosialist Respublikası hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergi tutmanın aradan qaldırılması

və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya" imzalanmışdır. Bir sözlə, səfər gedişində aparılan danışıqlar və əldə edilən razılaşmalar sayəsində Azərbaycan və Vyetnam arasında əlaqələrə dair bütün məsələlər əhatə olunmuş, gələcək genişmiqyaslı inkişafın əsası qoyulmuşdur. Bununla belə, qeyd etmək lazımdır ki, karbohidrat ixracı iki ölkə arasında münasibətlərdə xüsusi yer tutur. 2014-cü ilin may ayının 18-də ARDNŞ ilə Vyetnamın "Vyetnam Oyl and Qaz Qrup" şirkəti ("Petrovyetnam") arasında Azərbaycanın quru ərazilərində "Muradxanlı", "Cəfərli" və "Zərdab" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı və hasilatın pay bölgüsü haqqında saziş bağlanmışdır. Bu müqavilənin imzalanması ölkələrimiz arasında iqtisadi əlaqələrə yeni təkan vermişdir. Artıq həmin istiqamətdə işlərin başlanması əlaqələrimizin inkişafında mühüm addımdır.

Siyasi və ticarət-iqtisadi əlaqələrlə yanaşı, Azərbaycan ilə Vyetnam arasında mədəniyyət, idman, təhsil sahəsində də əlaqələr genişlənməkdədir. İki ölkə arasında humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində addımlardan biri də Heydər Əliyev Fondunun prezidenti, İSESKO və YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Hanoy Ədəbiyyat Muzeyi ilə tanışlığı olmuşdur. Bu zaman Azərbaycanın birinci xanımına məlumat verilmişdir ki, Ədəbiyyat məbədinin əsası 1070-ci ildə İmperator Li Than Tonq tərəfindən qoyulmuş və məbəd Çin alimi Konfutsiyə həsr edilmişdir. 1076-cı ildə Ədəbiyyat məbədinin ərazisində Kral, dövlət qulluqçuları, zadəgan və digər elit təbəqəyə məxsus ailələrin övladlarının təhsil alması məqsədilə universitet - İmperial Akademiya yaradılmışdır. Bu təhsil ocağı Vyetnamın ilk

milli universiteti hesab olunur. Orta əsrlərdə dövlət imtahanlarında yüksək nəticələr əldə etmiş şəxslərin adları bu məbədin həyətindəki xüsusi daş lövhələrin üzərində qeyd olunmuşdur.[1]

Qeyd etmək lazımdır ki, yeni tarixi epoxada keçirilmiş bu tədbirlər ötən əsrdə iki ölkə arasında əməkdaşlığın yenidən bərpası və Azərbaycan-Vyetnam münasibətlərinin tarixinin müasir davamıdır. Ümumilikdə isə bu görüşlər və danışıqlar Azərbaycan dövlətinin Asiya siyasətinin istiqamətlərindən birini təşkil edir.

Ümumilikdə isə bu görüşlər, danışıqlar imzalanan sənədlər Azərbaycan dövlətinin Asiya siyasətinin istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, müstəqil münasibətlər qurulduqdan sonra ötən müddət ərzində iki ölkə arasında artıq qarşılıqlı əməkdaşlığın normativ-hüquq bazası yaradılmış, əlaqələrin istiqamətləri və formaları müəyyənləşdirilmiş, ilkin addımlar atılmışdır. Bütün bunlar Azərbaycan-Vyetnam əlaqələrinin gələcək inkişafına nikbin baxmağa böyük əsas verir.

## ƏSAS MƏNBƏLƏR


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnamda dövlət səfərindədir. “Bakinskiy raboçiy” qəzeti, 19 may 2014-cü il
2. Abbasbəyli A. Rusiya Federasiyasının xarici siyasəti XX əsrdə (rus dilində). Bakı, 2005
3. Baxşəliyev R. Azərbaycan-Vyetnam əlaqələri yük-


[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnamda dövlət səfərindədir. “Bakinskiy raboçiy” qəz., 19 may, 2014

sələn xətlə inkişaf edir. "Azərbaycan" qəz., Bakı, 2014, 22 may
4. Ağalar Abbasbəyli. Dünya siyasəti. Bakı, "Nurlar", 2011
5. İsmayılqızı X. İlham Əliyev: Mən əminəm ki, Azərbaycan Vyetnam üçün regionda strateji tərəfdaş olacaq. "İki sahil" qəz., 2014, 22 may
6. Коболев К. Въетнам в системе новых политических отношений в Юго-Восточной Азии. Интернет журнал, RAU, №25
7. "Mən fəxr edirəm ki, azərbaycanlıyam: Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti" (elektron resurs), Bakı: Regionların İnkişafı İctimai Birliyi, 2008, 57s.-http://filis.preslib.az/projects/toplu/v2/fl_2.pdf
8. Мартин Гастингс. Въетнам. Москва, «БАНР», 2008
9. Укрепление дружеских отношений между Въетнамом. Лаосом и Камбодже Женеве, 2014, 16 феврал – http://vovworld.vn/ru. (14.08.2014)/
10. Уветов Р. История Въетнама епохи обновления – www.iposmsk.ru/lib/pdf/cvetov.pdf,s.1-18.
11. Василенко И.А. Геополитика современного мира. М.: Гардарики, 2006, 317 с.
12. Воронова Т.А., Ле Анъ Куан. Внешнеэкономическое сотрудничество Въетнама со странами ASEAN и направления расширения торгово-инвестиционного взаимодействия //Российский внешнеэкономический вестник, №8, 2012, с.46-57
13. Володин Д. США, Китай и новое военно-стратегическое уравнение в ATR //MG и MO, 2006, №2, с.74-81

# NƏTİCƏ

Göründüyü kimi, XX əsrin ikinci yarısından etibarən dünyanın siyasi mənzərəsi dəyişmiş və yeniləşmişdir. Əgər keçən yüzilliyin birinci yarısında beynəlxalq aləmdə münasibətlər sistemi Amerika Birləşmiş Ştatları və Sovetlər İttifaqı qütbləri ilə müəyyən edilirdisə, İkinci Dünya Müharibəsindən, xüsusən də SSRİ-nin «Xruşov mərhələsi»ndən sonra dünyanın siyasi xəritəsində böyük dəyişikliklər baş vermiş, yeni qüvvələr formalaşmışdır. Çin Xalq Respublikasının yer kürəsinin mühüm güc mərkəzlərindən birinə çevrilməsi ilə dünyada siyasi qütbləşmənin yeni epoxası başlanmışdır. Xüsusən, SSRİ ilə Çin Xalq Respublikasının münasibətlərinin yaxınlığı, hətta bu dövlətlərin bir çox məqamlarda eyni mövqedən çıxış etmələri beynəlxalq geosiyasi vəziyyətdə fərqli mənzərəni meydana qoymuşdur. Beləliklə, sözün həqiqi mənasında Asiyanın yeni oyanışı epoxası başlanmış və inkişaf etmişdir. Yaponiyanın dünyanın iqtisadi cəhətdən güclü ölkələri sırasına çıxması ilə Asiya təkcə qitə olaraq deyil, həm də siyasi qütbləşmədə əhəmiyyətli tərəf səviyyəsinə çıxmaq imkanı qazanmışdır. Artıq XX əsrin yetmişinci illərindən etibarən beynəlxalq aləm Çin möcüzəsi, inkişafın Yaponiya modeli anlayışlarını qəbul etməli olmuşdur. Artıq dünya bazarında Çin və Yaponiya istənilən Avropa dövləti ilə rəqabətdə böyük üstünlük əldə edə bilmişdir. Daha sonra Koreya Respublikasının böyük iyirmilik dövlətləri sırasında əhəmiyyətli yer tutması ilə Asiya qitəara-

sı mənzərədə daha ağır çəkiyə çevrilmişdir. Son dövrlərdə Malaziyanın və Sinqapurun sürətlə inkişaf edərək bir iqtisadi səviyyə nümayiş etdirməsi ilə bütövlükdə Asiya ön mövqeyə çıxmışdır. Hindistanın müstəqillik əldə etməsi, Pakistan İslam Respublikasının yaranması, Vyetnamın azadlıq qazanması və birləşməsi nəticəsində Asiya dünyada yeni siyasi tarazlığın əsas cazibə qüvvəsi statusu almışdır. Bütün bunlar dünyada həmin iqtisadi proseslərə, həm də siyasi gedişata ciddi surətdə təsir etmək imkanlarına malik olan yeni Asiyanı meydana çıxarmışdır. Artıq siyasi təfəkkürdə də, iqtisadi anlayışlarda da fərqli bir Asiya obrazı yaranmışdır. Beynəlalq münasibətlərin tənzimlənməsində və inkişaf etdirilməsində Asiya çox fəal və yaxından, həm də əsas söz sahiblərindən biri kimi iştirak edir. Dünyada hərb və sülh, inkişaf və müasirləşmə məsələlərində Asiya nəinki «məşvərətçi» statusundan bərabərhüquqlu tərəf hüququ qazanmaq səviyyəsinə çatmış, hətta bir sıra məsələlərdə həlledici faktora çevrilə bilmişdir. Həm də müstəmləkəçilikdən, siyasi əsarətdən xilas olmuş Asiya ölkələri əsasən iqtisadi cəhətdən, texnologiya baxımından inkişaf etməyə üstünlük verdiyi üçün sülhsevərlik nümayiş etdirməklə də böyük nüfuz qazanmağa nail olmaq yollarında möhkəm addımlar atırlar. Dünya əhalisinin yarıdan çoxunun beş qitədən birində – Asiyada cəmləşməsi də bu qitənin cazibə qüvvəsini artırmışdır. Artıq Asiya ölkələri beynəlxalq münasibətlərin ön sırasında çıxış edən ciddi, əhəmiyyətli dövlətlərdirlər. Bütün bunlara görə Asiya qitəsini, Asiya ölkələrini öyrənmək müasir dünya siyasətini, beynəlxalq münasibətlə-

rin yeni mənzərəsini dolğun, əhatəli və obyektli şəkildə təsəvvür etməkdə mühüm əhəmiyyətə malikdir.

Məlum olduğu kimi, dünyanın beş qitəsindən biri olan Asiyada yerləşən ölkələr və xalqlar qədim tarixi ənənələrə malikdir. Asiya xalqlarının tarixində və taleyində həmin xalqların əsrlər boyu formalaşmış özünəməxsus ənənələri mühüm yer tutur. Asiya xalqları milli-mənəvi dəyərlərini qoruyub saxlamaları və yaşadıb daha da möhkəmləndirmələri ilə səciyyələnirlər. Asiyada dünya sivilizasiyasının bir çox böyük hadisələrinin baş verməsində də bu qitənin xalqlarının digər mədəniyyətlərlə dialoqu xüsusi önəm daşımışdır.

Böyük İpək yolunu Asiyanın qutaracağı hesab edənlər mədəniyyətin, sivilizasiyaların Qərbdən ixrac olunması nəzəriyyəsinin tərəfdarlarıdırlar. Bu nəzəriyyə uzun müddət dünyada sivilizasiyalara baxışda Qərb doktirinası kimi birmənalı olaraq qəbul edilmişdir. Lakin XX əsrin axırlarından etibarən Asiyanı Böyük İpək Yolunun iki başlanğıcından biri hesab olunması mülahizələri daha geniş dairədə yayılmaqdadır. Bütün hallarda artıq Asiyanın bir çox böyük sivilizasiyaların əsas mərkəzlərindən olması mübahisə doğurmur. Indi Çin sivilizasiyası dedikdə bu nəhəng ölkənin XX əsrin ikinci yarısından sonrakı dövrdəki sürətli inkişafı deyil, qədim dövr və orta əsrlərdən etibarən həmin ölkədə baş vermiş möhtəşəm siyasi-iqtisadi və etnik-mədəni intibahı da diqqət mərkəzinə çəkilir. Yaxud da inkişaf etmiş Yaponiyanın yalnız XX əsrin hadisəsi kimi yox, çoxəsrlik ənənələrə malik olan samuray mədəniyyətinin müasir ideyalarla qovuşması, zənginləşməsi əsasında meydana çıxması elmi surətdə isbat olunur.

Bütün bunlarla bərabər, XX əsrin dünya miqyasında ən böyük hadisəsi Asiyanın oyanması hesab olunur. Oyanmış Asiya son yüzillikdə dünyanın yenidən qurulmasında və inkişafında mühüm rol oynamışdır. XXI əsrdə Asiya öz inkişafının miqyasına görə planetin ən mühüm hadisəsinə çevrilmişdir. İndi Çin Xalq Republikası, Yaponiya, Cənubi Koreya, Malaziya, Sinqapur yer kürəsində müasir inkişafın yeni modellərini dünyaya təqdim edir. Artıq dünya siyasətini, beynəlxalq münasibətləri Asiya faktorunu nəzərə almadan təsəvvür etmək qeyri-mümkündür. Birləşmiş Millətlər Təşkilatında Asiya ölkələrinin xüsusi yeri və mövqeyi vardır. Bundan başqa, Asiya dövlətlərinin, xüsusən də Cənubi-Şərqi Asiya ölkələrinin özlərinin də fəaliyyətlərinin əlaqələndirən və inteqrasiyasını tənzimləyən ASEAN kimi böyük regional təşkilatları mövcuddur.

Hazırda dünyada qlobal böhrandan və onun təsirlərindən beynəlxalq aləmdə geniş bəhs edildiyi dövrdə Asiyanın iqtisadi dirçəlişinə xüsusi diqqət yetirilir. İqtisadi inkişafda Çin möcüzəsi dünyanı heyrətə salmışdır. XX əsrin əvvəllərində geridə qalmış ölkələrin sıralarında adı çəkilən Çin artıq yarım əsrdən çoxdur ki, iqtisadi fırtınalar ölkəsi olaraq qəbul edilir. İkinci dünya müharibəsində əhalisinin böyük bir hissəsi darmadağın edilmiş Yaponiya, hazırda yer üzündə müasir inkişafa nümunə kimi təqdim olunur. İnformasiya texnologiyalarının inkişafına görə Asiyanın kiçik dövlətləri: Cənubi Koreya, Malaziya, Tailand, Sinqapur, İndoneziya Qərbin böyük dövlətləri ilə rəqabət apara bilirlər. İndi dünya da daha geridə qalmış Asiya təsəvvürü yox, böyük intibahın Asiya modeli

haqqındakı qənaətlər geniş yayılmışdır. Asiyadaki iqtisadi inkişaf öz növbəsində elm, təhsil və mədəniyyət sahəsindəki sıçrayışı formalaşdırmışdır. Beləliklə, böyük iqtisadi-mədəni potensial Asiyanın beynəlxalq münasibətlərdəki üstün mövqeyini də meydana çıxarmışdır. XX əsrin ikinci yarısından etibarən inteqrasiyaya xüsusi diqqət yetirmiş Asiya bu gün beynəlxalq əlaqələr baxımından dünya ölkələrinin marağında əsas yer tutur.

Asiya-beynəlxalq münasibətlərin tənzimlənməsinə böyük töhfə verən qüvvədir.

Asiya -dünya siyasətinin əsas mərkəzlərindən biridir.

Asiya -böyük iqtisadi fırtınalar məkanıdır.

Elm , təhsil, texnologiya müasir Asiyanın əsas sərvətləri sırasında böyük yer tutur.

Bir sözlə, Asiya özünün tarixi inkişafının yeni epoxasını yaşamaqda davam edir.

# ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr). I kitab. Bakı, «Azərnəşr», 1997
2. Алиев И. Каспийская нефть Азербайджана. Москва, 2003
3. Аббасбяйли А. Внешняя политика Российской Федерации в XXI веке. Баку, 2005
4. Abbasbəyli A. Dünya siyasəti. Bakı, "Nurlar", 2011
5. Abbasov C.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolları. Bakı, «Elm», 2014
6. Abdullazadə A. Od nə çəkdi. Bakı, «Azərnəşr», 1960
7. Арыстанбекова А. Глобализация. Объективная логика и новые вызовы. // «Международная жизнь», 2004, №4-5, с.54-65
8. Арин О. Азиатско-Тихоокеанский регион: мифы, иллюзия и реальность. Москва, 1997
9. Azərbaycan-Çin: Dostluq sərhədləri aşır. Bakı, 2000
10. Barzilai Amnon. АДарк Secret Love Affair. University of Visconcin. Retrieved 19 febraury 2011
11. Бжезинский З. Выбор: мировое государство и глобальное лидерство, Москва, 2005
12. Бжезинский З. Великая шахматная доска
13. Budaqov B. Nəbi Xəzri kəhkəşanı. Bakı, «Lider», 2004
14. Dünya ölkələri (tərtib edəni H.Səmədov). Bakı, «KM», 2013

15. Desker V.M., Ocman S. Rajaratnam on Sinqapore: form ideas to reality. Sinqapur, 2006
16. Джеймс Л. Мак Клейн. Япония. От Сегуната до Токуявы – в XXI век. Москва, АСТ, 2007
17. Ekrem E. Çinin Orta Asiya politikaları. Ankara, Hoca Ahmed Yesevi Uluslararası Türk-Kazak Universiteti, 2011
18. Евдакимова А.А. История стран Востока в новое время. Россия. Ростов на Дону. «Феникс», 2001
19. Əli Kərim. Seçilmiş əsərləri. Bakı, «Lider», 2004
20. Fidan C. Çin-Arap dünyası ilişkileri. Eski köyə yeni adət. Türkiyə
21. Fikrət Qoca. Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb», 2004
22. Фортинатов В. История мировых цивилизаций. Москва-Санкт-Петербург, «Питер», 2011
23. Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана. Баку, «Şərq-Qərb», 2007
24. Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Bakı, «Gənclik» 1996
25. Qasımlı M. Azərbaycanın xarici siyasəti. Bakı, «Mütərcim», 1997
26. Qaraqoyunlu M. Ümumi coğrafiya. Bakı, «Oka/ofset», 2012
27. Qlobal siyasət: təhdidlər, çağırışlar, ümidlər. Newtimes.az analitik informasiya portalının məqalələr toplusu. Bakı, 2013
28. Henry Kisincer. Diplomaty. Simon Schuster, 1995
29. Həbibbəyli İ. Azərbaycan-Cənubi Koreya əlaqələrin-

də Naxçıvan. Kimçonq Universiteti. «Elmi əsərlər», 2012, №12
30. Hillari Klinton. Hard choises. Pengnim, 2014
31. 3Yılmaz S. Yüksələn güc. Çinin güvenlik politika və stratejileri. Strateji Araşdırma dərgisi. Türkiyə, Ankara, 2008. №1-2
32. Япония от Айкудо до Акимоти. Москва, «Восток-Запад», 2007
33. Капица М.С., Малетин Н.Р. Сукарно: политическая биография. Москва, «Мысль», 1980
34. Kaori Shoji. Tokio görüntüləri (ingilis dilində). Yaponiya, Tokio, 2007
35. Коболев К. Въетнам в системе новых политических отношений в Юго-Восточной Азии. Интернет журнал. РАУ, 2010, №25
36. Краткий политический словарь. Москва, «Политическая литература», 1988
37. Ли Киан Ю. Сингапурская история: из третьего мира в первый. Москва, 2005
38. Manafova M. Azərbaycanın Şərqi Asiya ilə mədəni əlaqələri. Bakı, 2008
39. Мартин Гастингс. Въетнам. Москва, «БАНР», 2008
40. Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, 2013
41. Məmmədov N. Geosiyasətə giriş. Bakı, «Azərnəşr», 2001
42. Məmmədova X. Yapon ədəbiyyatının inkişaf yolu. Naxçıvan, «Əcəmi», 2014
43. Mehriban Sultan. Yaponiya səfəri maraqlı görüşlərlə zəngin olub. «Azərbaycan müəllimi» qəzeti, 18 may 2012-ci il

44. Müasir Azərbaycan ədəbiyyatı, 2 clddə, I cild (müəllimlər kollektivi). Bakı Universiteti nəşriyyatı, 2007
45. Milli strategiyalar, ideologiyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və müasir praktikalar (məqalələr). Bakı, «Elm», 2012
46. Musabəyov R. Uzaq Şərq yaxın olur. «Region plyus» jurnalı, 2014, №6
47. Nəbi Xəzri. Son illərin sətirləri. Bakı, «Gənclik», 1975
48. Образ Японии. Токио, 2000
49. Пахмутова М.А. Политика Китая в странах арабского Востока. Москва, 2013
50. Rəsul Rza. Seçilmiş əsərləri. 5 cilddə, I cild. Bakı, «Azərnəşr», 2002
51. R.İsmayıl, N.Axundova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. Bakı, «Çaşıoğlu», 2001
52. Səmədzadə Z. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, 2009
53. Seyidov E. Azərbaycan-Çin münasibətləri. Bakı, 2007
54. Создание зоны свободной торговли Китай-АСЕАН. Интернет, 2010
55. Страны мира. Энциклопедия. Москва, 2006
56. Şahin Fazil. Azərbaycan haykuları. Bakı, «Təknur», 2007
57. Şahin Fazil. Yaponiya səyahətnaməsi. Bakı, «Elm və təhsil», 2011
58. Шюулин Гао. Глобализация. Взгляд из Китае. «Азия и Африка сегодня», №11, 2004, №9
59. Тахир Салахов (альбом). Москва, «Советский художник», 1986

60. Талыбов Рза. Японо-Азербайджанское сотрудничество на современном этапе. Баку, 2005
61. Talıbov R. Əpono-azerbaydjanskoe sotrudniçestvo na sovremennom gtape. Baku, «Çaşıoğlu», 2005
62. Talıbov R. Azerbaycan-Yapon əməkdaşlığı. Bakı, «Elm və təhsil», 2009
63. Тураев Б.А. Глобальные вызовы человечества. Москва, 2002
64. Уткин А. Единственная сверхдержава. Москва, «Алгоритм», 2003
65. Уткин А. Подъем и падение Запада. Москва, «АСТ», 2008
66. Василенко Н.А. Геополитика современного мира. Москва, 2006
67. Володин Д. США, Китай и новое военно-стратегическое управление АТР, Москва, 2006
68. Воронова Т.А. Ле Ань Куан. Внешнеэкономическое сотрудничество Въетнама со странами АСЕАН. «Российский внешнеэкономический вестник», Москва, 2012, №8
69. Васильев Л.С. История Востока, том I-II. Москва, «Юрайт», 2011

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir Məmmədli**

**Dizayn:**
Zahid Məmmədov

**Texniki redaktor:**
Günay Əmirova

Çapa imzalanmış 06.06.2015
Şərti çap vərəqi 19.5. Sifariş № 03
Kağız formatı 70x100 1/16. Tiraj 500

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya
müəssisəsində çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

## Qeyd üçün

## Qeyd üçün